Şahin Fazil Fərzəlibəyli

AZƏRBAYCAN VƏ OSMANLI İMPERİYASI (XV – XVI ƏSRLƏR)

AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI

BAKI - 1995

Elmi redaktoru tarix elmləri doktoru, professor **Oqtay Əfəndiyev**

Redaktor **Etibar Fərəcov**

Rəssamı **Sima Ağayev**

Müəllif və nəşriyyat kitabın çapına öz vəsaiti ilə kömək etmiş Azərbaycan xeyriyyəçisi Mirzəli Musayevə təşəkkürlərini bildirirlər.

© Azərnəşr, 1994.

Giriş

Orta əsrlərin müxtəlif dövrlərinində, həmçinin XV-XVI yüzilliklərdə mövcud olmuş Azərbaycan - Türkiyə ictimai, iqtisadi, siyasi, mədəni və diplomatik münasibətlərin obyektiv şəkildə tədqiqi bugünkü Azərbaycan-Türkiyə münasibətlərinin hansı zəmin üzərində yarandığını üzə çıxarar, bu ölkələrin arasında vaxtilə mövcud olmuş müxtəlif əlaqələrin qarşılıqlı maraq və mənafe baxımından inkişaf etdirilməsinə imkan verərdi. Bundan başqa qarşıya qoyduğumuz mövzunun tədqiqi Azərbaycan mənbəşünaslıq və tarixşünaslığının daha da inkişaf etdirilməsi baxımından faydalı ola bilər.

"Azərbaycan və Osmanlı imperiyası" adlanan bu kitabın üzərində işləyərkən, hər şeydən əvvəl, diqqətimizi Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətinin təməlinin məhz türk xalqları tərəfindən qoyulduğu fikri cəlb etdi və həmin feodal dövlətlərinin qonşu Osmanlı imperiyası ilə münasibətlərinin tədqiqi əhəmiyyətli bir problem kimi ortaya çıxdı.

XII əsrin ortalarından Kiçik Asiya ərazisində yaranmağa başlayan, illər ötdükcə siyasi qüdrət və coğrafi ərazi cəhətcə qüvvətlənən və genişlənən, Xv əsrin II yarısından XVII əsrin II yarısına qədər isə Asiya və Avropanın mühüm strateji əhəmiyyətli bir çox yerlərini ələ keçirən Osmanlı dövləti əzəmətli bir imperiya kimi mövcud olmuşdur. Göstərilən yüzilliklərdə, xüsusilə XV – XVI əsrlərdə azərbaycan dəfələrlə müxtəlif hücumlara hədəf olmuş, İranla Türkiyə arasında davam edən gərgin siyasi toqquşmaların qanlı meydanına çevrilmişdir. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycanın Türkiyə ilə qarşılıqlı münasibətləri həmin əsrlərin müxtəlif dövrlərində ölkəmizin ərazisində mövcud olmuş Qaraqoyunlu, Ağqoyunlu, Şirvan və Səfəvi dövlətlərinin Osmanlı imperiyası ilə siyasi münasibətlərindən asılı olaraq müxtəlif xarakter daşımışdır. Belə ki, Osmanlıların Qaraqoyunlu və Şirvanşahlarla olan əlaqələri hadisələrin siyahısı axarı baxımından bu imperiyanın Ağqoyunlu və Səfəvi hökmdarları ilə olan əlaqələrindən fərqli olmuşdur. Bu kitabı yazmaqda məqsədimiz məhz həmin münasibətlərin məzmun və mahiyyətini aydınlaşdırmaq, bu dövlətlər arasındakı diplomatik əlaqələrin inkişafını göstərməkdir. Biz həmçinin, yeri gəldikcə, Azərbayvan və Türkiyə feodal dövlətlərinin hərbi siyasi, ictimai, iqtisadi və mədəni məsələlərinə də toxunmuş, ara-sıra ticarət əlaqələrindən də bəhs etməyə çalışmışıq.

Əsərdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin XV əsrdə yaranması, inkişafı və süqutu həmin dövlətlərin məhz Osmanlılara münasibətləri fonunda izlənilmiş, xüsusi tədqiqat obyekti olmuşdur. XVI əsr isə Azərbaycan-Türkiyə münasibətlərinin kəskinləşdiyi bir mərhələ kimi Səfəvi-Osmanlı əlaqələrinin olduqca gərgin dövrünə çevrilmişdir.

Bu dövrün səciyyəvi xüsusiyyətləri və Səfəvi-Osmanlı qarşılıqlı münasibətlərinin öyrənilməsində prof. O.Ə.Əfəndiyevin yazdığı bir sıra elmi kitab və məqalələrin əhəmiyyəti diqqəti xüsusilə cəlb edir.

Kitabı yazarkən biz XV-XVI əsr Azərbaycan dövlətlərinin qonşu Osmanlı imperiyası ilə münasibətlərinin diplomatik yazışmalar fonunda izlənməsini qarşıya məqsəd qoymuşuq. Məhz buna görə də, tarixçilər tərəfindən az işlənmiş "Münşəati-səlatin" (Firidun bəy) və "Münşəat" (Heydər Evoğlu) adlı məktublar toplularının materiallarından geniş istifadə etmişik.

Kitabda əks etdirilən bir sıra məsələlər haqqında V.V.Bartold, V.A.Bünyadov, O.Ə.Əfəndiyev, Y.M.Mahmudov, S.B.Aşurbəyli, Ş.K.Məmmədova və başqalarının dəyərli fikir və mülahizələri vardırsa da, bu mövzu ilk dəfədir ki, ayrıca olaraq tədqiqata cəlb edilmiş və bizim tərəfimizdən işlənilmişdir.

Mövzunun araşdırılması zamanı Azərbaycan-Türkiyə münasibətlərinin şərh edilməsi ilə yanaşı, yeri gəldikcə, Orta Asiya, Çin, Hindistan və İran körfəzi ilə Qara dəniz və Aralıq dənizini, həmçinin Yaxın və Orta Şərq dövlətləri ilə Rusiyanı birləşdirən beynəlxalq ticarət yollarının Azərbaycandan keçməsi ilə əlaqədar ticarət yollarının Azərbaycandan keçməsi ilə əlaqədar olaraq Azərbaycan – Orta Asiya, Azərbaycan – Misir, Azərbaycan – Suriya münasibətlərindən də bəhs edilmişdir. Azərbaycan – Venesiya qarşılıqlı diplomatik əlaqələri ə oxucuların diqqətinə yönəldilən məsələlərdən biri olmuşdur. Əsərdə Azərbaycanla Avropa dövlətləri, xüsusilə Venesiya respublikası arasında diplomatik əlaqələr yaratmağa çalışan elçi-səfirlərin öz məqsədlərini həyata keçirmələri uğrunda cidd-cəhdləri nəzərə çardırılmışdır. Göstərilmişdir ki, öz dövlətlərini Osmanlı hücumundan qorumaq naminə Venesiya elçiləri Uzun Həsən Ağqoyunluya öz respublikaları adından böyük vədlər vermiş, çox halda həmin vədlər boşa çıxmışdır. Nəticədə isə Sultan Türkiyəsi ilə Ağqoyunlu, sonralar Səfəvi Azərbaycanı dəfələrlə bir-biriləri ilə döyüşmüş, böyük itkilərə məruz qalmışlar. Bu baxımdam Venesiya böyük Qərb siyasətini davam etdirmiş, Şərqin bir sıra dövlətlərini, o cümlədən Azərbaycanı onların öz əlləri ilə zəiflətməyə və məhv etməyə çalışmışdır. Osmanlı imperiyasının diqqətini qərbdən uzaqlaşdırıb Şərqə doğru yönəldən Avropa dövlətləri, beləliklə, İrana körfəzində özlərinin qalıb möhkəmlənməsi üçün şərait yaratmaq məqsədi güdürdülər ki, bütün bunların imkan daxilində aydınlaşdırılması müəllifin qarşısında duran məsələlərdən biri olmuşdur.

Oxuculara təqdim edilən kitab fars, türk, italyan, rus, ingilis, alman, fransız dillərində mövcud olan bir sıra ilkin mənbə və tədqiqat əsərlərinin imkan daxilində öyrənilməsi və müqayisəsi əsasında yazılmışdır.

Qaraqoyunlu dövləti və Osmanlı imperiyası

XIV yüzilliyin ortalarında Türkiyənin şərq hissələrində siyasi səhnəyə çıxan Qaraqoyunluların Azərbaycan və İranda hakimiyyəti (1410-1467) qısa olmuşdursa da, bu dövlətin Azərbaycanın türkləşməsində müstəsna rolu inkar edilməzdir. Hələ monqol Arqun xanın hakimiyyəti zamanı (1284-1291) Türküstandan bu ərazilərə gəlməyə başlayan Qaraqoyunlu və Ağqoyunlu tayfa ittifaqları sonradan Kiçik Asiyada məskunlaşmış, qaraqoyunlular Ərzincan və Sivasda, ağqoyunlular isə Diyarbəkirdə məkan tutmuşlar.[1] Professor Faruq Sumerin yazdığına görə "Bəzi məlumatlardan onların (qaraqoyunlu və ağqoyunluların-Ş.F.) Azərbaycana və Şərqi Anadoluya hələ islamiyyətdən əvvəl Oğuz xanın fəthləri nəticəsində gəldikləri xatırlanır".[2]

"Tarixi-Türkmənivyə" əsərində isə qaraqoyunluların Çingiz xanın hücumu ilə əlaqədar Turə bəy adlı bir qaraqoyunlu rəisinin başçılığı altında Türkmənistandan Mavəra ən-nəhrə, oradan da İran yolu ilə Şərqi Anadoluya gəldikləri barədə məlumat vardır.[3] Səfər İbrahimovun bu haqda verdiyi məlumatda isə yazılır: "Mənbələrə görə, sonralar Qaraqoyunlu və Ağqoyunlu tayfa birləşmələrinin əsasını təşkil edən tayfalar XII-XIII əsrlərdə Orta Asiyadan qərbə doğru hərəkət etmiş və Mesopotamiyanın şimal hissəsində, İranda, Ermənistanda, Azərbaycanın qərb hissələrində, Kürdüstanda məhsuldar sahələri tutaraq, köçəri həyat tərzi keçirirdilər. Hər iki tayfa birliyinin mənşəyi Orta Asiyanın oğuz-türkman qəbilələrinə mənsubdur. XIV əsrin ortalarına yaxın Qaraqoyunlu tayfaları sürətlə inkişaf etməyə başladı. Bu tayfaların içində Baharlı oymağı xüsusi olaraq fərqlənirdi. Heç də təsadüfi deyildir ki, bütün Qaraqoyunlu rəhbərləri həmin oymaqdan çıxmışdılar".[4]

XIV əsrin sonlarında Qaraqoyunlular Azərbaycanın cənub hissəsində hakimiyyətdə olan Cəlairilər dövləti ilə ittifaqa girdilərsə də, əzəmətli Teymuri imperiyası qarşısında zəif olan bu ittifaqın başçıları Sultan Əhməd (1382-1410) və Qara Yusif (1410-1420) çox keçmədən Teymurun qüvvələri tərəfindən 1392 və 1394-cü illərdə ağır məğlubiyyətə uğradılar və hər iki müttəfiq Misirə qaçmaq məcburiyyətində qaldı.[5]

XIV əsrin sonu - XV əsrin əvvəllərində Azərbaycanın vahid bir hakimiyyət altında birləşməsi üçün əlverişli şərait yaranmışdı. Böyük Teymuri imperiyası tədricən zəifləməkdə idi. Belə bir şəraitdə rəsmi yazışmalarda Osmanlı sultanları tərəfindən "Bağdad və Azərbaycan hakimi" adlandırılan Sultan Əhməd Cəlairi özünə daha güclü bir müttəfiq cəlb etmək niyyətilə Kiçik Asiyada yerləşən əzəmətli Osmanlı imperiyası və həmçinin başqa dövlətlərlə öz münasibətlərini yaxşılaşdırmaq haqqında düşünürdü. Özünü türk sultanının "müxlisi-qədim"i ("qədim dostu")[6] adlandıran Sultan Əhməd Osmanlı sultanları Murad və Bayazidlə yaxşı münasibət yarada bilmişdi. Tarixçi Firidun bəyin "Münşəat"ında "əcəm şahı"

titulu ilə xatırladılan Qara Yusif də Sultan Əhməd kimi, Osmanlı sultanları ilə müttəfiq olmaq və yeri gələrsə onların köməyindən istifadə etmək niyyətində idi.*

Sultan İldırım Bayazid də öz növbəsində Cəlairi və Qaraqoyunlu qoşunlarının Teymurun "özbəkiyyə" ordusuna qarşı müqavimətə hazır olduqlarını təqdir edir, özünün də "cahad" elan etdiyi "firənglərə" qarşı deyil, tezliklə Teymura qarşı hücuma keçəcəyini bildirirdi.

Elə Osmanlı qoşununun qüvvətini dərk edən Teymur da Sultan Bayazidlə münasibətini birdən-birə pisləşdirmək istəmir, əksinə onu öz tərəfinə çəkməyə çalışırdı. Onun Osmanlı sultanına yazdığı birinci məktubda – "Allahın yardımı ilə dünyanın dörd bir tərəfi bizim əlimizlə zəbt olunmuşdur. Cahan padşahları bizim hökmümüz qarşısında baş əyirlər. Öz həddini bil və ayağını öz kilimindən kənara çıxarma! Ağlını başına yığıb fitnə və bəla qapısını üzünə açma"[8] kimi acıqlı cümlələr vardısa da, ikinci məktubda bir qədər yumşaq sözlərlə nəsihətlər verilir: "Qürur yaxşı sifət deyil və məktublarda pis sözlər yazmaq ağıllı adamlara yaraşmaz. Amma bütün bunlara baxmayaraq bildirirəm ki, o, (yəni Sultan Bayazid -Ş. F.) məmləkətin viran olmasının səbəbkarı olmasın, sülh yoluna düşsün, [bizə] üzrxahlıq məktubu göndərsin. Biz də öz tərəfimizdən söz veririk ki, aramızdakı dostluq pozulmayacaq".[9]

Lakin Osmanlı sultanı öz fikrindən dönmək istəmir, Teymurla mübahisəyə girişir, ona qarşı hətta qıpçaq qoşunları ilə də ittifaqa girdiyini açıq-aşkar bildirir: "Qıpçaqlar sizdən inciyərək bizimlə müttəfiq olmuşlar. Əgər siz bizə tərəf döyüş qədəmi atsanız, biz də "Allaha təvəkkül" deyib, döyüşə hazırıq, vəssalam".[10]

XV əsrdə Osmanlı Türkiyəsi şərqdən iki böyük hücuma məruz qalmışdı. Həmin hücumların birincisi Teymurləngin yaxın-uzaq ölkələrə etdiyi uğurlu yürüşlərin davamı kimi baş vermişdi və nəticədə Osmanlı dövləti az qala dağılacaqdı. Türkiyəyə şərqdən olan ikinci hücum isə bu hadisədən 70 il sonra Ağqoyunlu hökmdarı Uzun Həsən tərəfindən edilmişdi ki, bu haqda bir qədər sonra ətraflı məlumat veriləcəkdir.

Qeyd etmək lazımdır ki, Osmanlı-Teymuri münasibətlərinin kəskinləşməsinin əsas səbəbi Sultan Əhməd Cəlairi və Qara Yusif Qaraqoyunlunun Teymurun qorxusundan Türkiyəyə qaçaraq Sultan Bayazidə sığınmaları və sultanın onların hər ikisinin cəzalandırılması, yaxud tutulub çağatay hökmdarının hüzuruna göndərilməsi xahişinə əməl etməməsi olmuşdur. Teymur Osmanlı sultanına

* Sultan Əhmədlə Qara Yusif arasında yaxın qohumluq əlaqəsi də vardı. Osmanlı tarixçisi Qara Çələbizadə özünün "Rövzətül-əbrar" əsərində yazır ki, Qara Yusifin atası Qara Məhəmməd sultan Əhməd Cəlairinin adlı-sanlı əmirlərindən idi. O, öz qızını sultan Əhmədə verib, "sərdariye-uluse-Qaraqoyunlu" ("Qaraqoyunlu ulusunun başçısı") olmağa nail oldu, sonra isə bu vəzifəni Qara Yusif yerinə yetirməyə başladı (Bax: Qara Çələbizadə, Rövzətül-əbrar, S. M. Saltıkov-Şedrin adına Sankt-Peterburq Dövlət Kütləvi kitabxanasının Şərq əlyazmaları kabineti, şifrə №7, (XIII, № 2, səh. 296).

yazdığı üçüncü məktubunda Qara Yusifi "yolkəsən quldur" adlandırır və "dostluq qayda-qanunu" əsasında onun Teymurilərə təslim edilməsi, yaxud da Rum vilayətindən çıxarılması təklifi irəli sürülürdü: "Əzəmətli noyon Bayazid xan bahadır!.. Qoy bizim aramızda elçi və kəlməçiyan (kəlməçilər - Ş. F.) get-gəli başlasın Sultan Əhməd Cəlairi ilə Qara Yusifin arası yaxşıdır hərçənd ki, Sultan Əhməd tərəfdən üç-dörd nəfər o ölkələrdə (yəni Azərbaycan və İraqi-Ərəbdə - Ş.F.) hakimiyyət etmişlər, amma Qara Yusif yolkəsən quldurdur. Bizim dostluğumuzun və sülhün davamı üçün: gərək o cənab (Sultan Bayazid - Ş. F.) onu (Qara Yusifi - Ş.F.) öz yanında saxlamayıb, ya bizim tərəfə yollasın, ya da vilayətdən çıxarsın".[12]

Bununla əlaqədar Sultan Bayazidin Əmir Teymura verdiyi ehtiyatlı cavab olduqca maraqlıdır. Əhməd Cəlairi və Qara Yusifin artıq uzun müddət onunla dostluq etdiklərini və heç bir ixtilafa yol vermədiklərini nəzərə çatdıran Rum sultanı onların artıq Rum məmləkətini tərk etdiklərini xəbər verir: "Yazdığınız [məktubdan məlum oldu ki, Əhməd Cəlairini tutub, Qara Yusif Türkmanla birgə göndərim. Bu məsələ bəhanədən başqa bir şey deyildir. Onlar hal-hazırda bizim məmləkətdən çıxmışlar. Əgər geri qayıtsalar belə, onları incitmək Osmanlı qayda-qanunundan xaric bir iş olar. Biz o iki fələkzədəni özümüzdən incitməyəcəyik".[13]

Bu məktubu oxuyan Əmir Teymur başa düşür ki, Sultan Bayaziddən Cəlairi və Qaraqoyunlu hakimlərini təhdid yolu ilə geri almaq ona müyəssər olmayacaqdır. Buna görə də nəzakətli tərzdə yazılmış dördüncü məktubunu Osmanlı sultanına göndərir: "Bayazid xan! Biz istəyirdik ki, bizimlə o tərəf (Rum - Ş.F.) arasında dostluq hökm sürsün. Elə buna görə də [sizə] bir neçə məktub azdıq, [sizdən] sülh və dostluq istədik. İndi siz Əhməd Cəlairini özünüzdən uzaqlaşdırın, [elə] Qara Yusiflə də o cür hərəkət edin".[14]

Cavab məktubunda Sultan Bayazid Teymurun "qovğa yaratmaq üçün" bəhanə gəzdiyini bildirirsə də,[15] Teymur təzədən onu "müsəlmanların əmin-amanlığı naminə" sülhə dəvət edir.[16]

Əmir Teymurun məktubuna yazdığı cavabda Sultan Bayazidin Cəlairi hökmdarı və Qaraqoyunlu əmirini himayə etməkdən çəkinməyəcəyi və onunla döyüşə hazır olduğu bildirilir.[17]

Bu məktublaşma zamanı Sultan Əhməd və Qara Yusif Osmanlı sultanının heç bir təzyiqi olmadan Rumdan çıxaraq Ərzincana tərəf hərəkət edirlər. Bundan dərhal xəbər tutan Əmir Teymur onları dəf etmək üçün öz əmir və qoşunlarını həmin səmtə yollayır.[18]

Teymur kimi əzəmətli bir hökmdarın sözündən çıxıb Sultan Əhmədi və Qara Yusifi cidd-cəhdlə müdafiə edən Sultan Bayazid bundan nə kimi məqsəd güdürdü? Bu sualın bir cavabını da Osmanlı tarixçisi Nişançı Mahmud paşanın tarix kitabından tapırıq. Onun məlumatına görə, Misir sultanının zindanından qurtulub Bayazid xanın yanına gələn Cəlairi hökmdarı və Qaraqoyunlu əmiri Rum

sultanını ərəb torpaqlarına mənsub bəzi yerləri fəth etməyə təhrik etdilər və nəticədə Sultan Bayazid tezliklə ərəblərdə olan bir neçə qalanı öz əlinə keçirdi.[19] Əlbəttə, göstərilən ərəb qalalarının türklərin əlinə keçməsində Sultan Əhməd və Qara Yusifin Rum sultanını bu işə tərğib etmək baxımından rolu ola bilərdi, çünki onlar Sultan Bayazidin xidməti müqabilində onun xeyirxahı ola bilməzdilər, lakin heç şübhəsiz ki, Bayazid öz yaxın qonşularını müdafiə etməklə özünə onların şəxsində müttəfiq qazanmaq, yeri gələndə onların hərbi köməyindən istifadə etmək, Teymurun Ruma olan biləcək hücumunun qarşısını almaq məqsədi güdmüşdür. Amma Sultan Bayazidin Teymurun qoşununa qarşı durmasına baxmayaraq, 1402-ci ildə baş verən Osmanlı-Teymuri döyüşündə Tüymuru əmirə qalib gəlmiş, Sulatn Bayazid əsir alınmışdır.[20]

Rum sultanı ilə öz haqqı-hesabını çürüdən Əmir Teymur çox keçmədən (1403-cü ilin yazında) Cəlairi və Qaraqoyunlu qüvvələrini də əzmiş, həticədə onların hər iki məşhur başçısı Suriyaya qaçmaq məcburiyyətində qalmışdı.

Mənbələrin məlumatına görə, onlar Suriyada əvvəlcə həbs olunmuş, 1404-cü ilin fevral əvvəlcə həbsdən azad edilərək, yenidən öz torpaqlarına geri dönmüşdülər. 1405-ci ilin qış fəslini Mosulda keçirən Qara Yusif rəqabətdə olduğu Ağqoyunlu əmiri Qara Yuluq* Osmanla barışaraq, yenidən özünün Şərqi Anadoludakı hakimiyyəti bərpa etməyə başlamışdı.[21]

Teymurun vəfatından sonra (1405) vaxtı ilə Teymuri işğalı nəticəsində ələ keçirilən və geniş bir ərazidə təşkil edilən böyük bir imperiya dağılmağa və həmin imperiyanı təşkil edən müxtəlif ölkələr bir-birindən ayrılaraq müstəqil olmağa başladılar. Lakin Teymuri şahzadələri yenə də Azərbaycandan əl çəkmək fikrində deyildilər. Təbriz şəhəri əvvəlcə Mirzə Ömərin, sonbradan isə Mirzə Əbu Bəkrin və Miranşahın, bir qədər sonra isə, az müddətdə də olsa, Şirvanşah I İbrahimin əlinə keçmişdi.[22]

Sultan Bayazidin vəfatından sonra Osmanlı taxtına onun varisi I Sultan Məhəmməd çıxdı. Onunla da öz münasibətini yaxşı saxlayan Qara Yusif məktub yollayaraq, "kafirlərin qatili" olan yeni Rum sultanına öz vəziyyətindən vali edirdi. Məsələn, onun yazdığına görə, Xorasan hakimi Şahrux ona məktub yollayaraq "Azərbaycan kürəsini mənim vəkillərimə təslim et" deyə əmr etmiş, sonra Qəzvinə qoşun çəkmiş, Qaraqoyunlu ordusu da döyüşə hazır vəziyyətdə onun qarşısına çıxmışdı. Qara Yusif Osmanlı sultanına xəbər verirdi ki, öz tatar (cağatay – Ş.F.) qoşunu ilə əvvəlcə Qəstəntəniyyəyə (Konstantinopol, İstanbul) gələn Şahrux, sonra istiqamətini dəyişmiş, Kəfəyə (Feodosiyaya), oradan da Şirvan Babül-Əbvabına (Dərbəndə) getmiş, hal-hazırda isə Azərbaycana çatmaqdadır. Məktubun sonunda (amma haqq bunu ona rəva bilməz) yazan Qara Yusif Azərbaycanın yenidən Teymurilərin əlinə verilə bilməyəcəyi barədə Rum sultanına məlumat vermişdi.

* Qara Yuluq (Yülük) –m qara zəli deməkdir. Bax: Ə.Nəvai. Teymur və Şah İsmayıla qədər., səh. 177.

“Biz öz ləşgərimizi (Qəzvində) bir dağ ətəyinə yığıb gözləyirik. Əgər qəddar ruzigar ona kömək edərsə, o öz qoşunu ilə Qəstəntəniyyə sahilində çətir quracaq, Qara Boqdan və Rus(iya)dan keçib Azərbaycana yetəcəkdir. Sizə deyiləsi xəbərlər çoxdur. Bu barədə (məlumat vermək üçün) Xacə Bəhram Naxçivanini sizin tərəfə göndəririk. Nə fərman etsəniz ona əməl edəcəyik”.[23]

Sultan Məhəmməd cavan olmasına baxmayaraq, atası Bayazid kimi Teymurilərə qarşı çılğınlıq etmir, sülh və mübarizə məsələlərini diplomatik yolla həll etmək istəyirdi. O, Qara Yusifə də bunu məsləhət görür, “səy edin ki, fitnə atəşi şülələnməsin” deyirdi.[24]

Qeyd etmək lazımdır ki, Qara Yusifin böyük oğlu Qara İsgəndər də öz növbəsində I Sultan Məhəmmədə məktub yazaraq “Şahrux Mirzə həmişə Azərbaycanı ələ keçirmək fikrində olmuşdur” cümləsini əlavə etmişdir ki, bununla da Rum sultanını Azərbaycana tərəf yönəlməkdə olan yeni Teymuri təhlükəsindən xəbərdar etmək məqsədi güdmüşdür.[25] Doğrudan da, Əmir Teymurun dördüncü oğlu olan Xorasan hökmdarı Şahrux (779-850), Qara Yusifin I Sultan Məhəmmədə xəbər verdiyi kimi, Xorasanla kifayətlənməyərək Azərbaycanı da ələ keçirmək niyyətində olmuşdur. O, qardaşı Miranşaha yazdığı məktubunda bildirir ki, Miranşahın “Azərbaycan məmləkətinə heç bir dəxaləti olmamalı və o, Arran, Muğan, Əramənə[*] (ermənilər diyarı – Ş.F.) və Gürcüstan vilayəti ilə kifayətlənməlidir.”[26]

Bu biri tərəfdən Azərbaycanı ələ keçirmək barədə Ağqoyunlu əmirləri də götür-qoy edir, özlərinə bu işdə güclü arxa axtarırdılar. Qara Yuluq Osman bu məqsədini həyata keçirmək üçün Şahruxdan kömək umur, onu nəinki Azərbaycanın, hətta Şam və Rum dövlətlərini də zəbt etməyə çağırırdılar. Onun məmulatına görə, Hələb və Şam əmirləri, Əmir Məhəmməd Qaramani, İsfəndiyar Qəstəmuni, Həmideli diyarının hakimi Hüseyn bəy, Əmir Həmzə bəy İzmiri, Zülqədər hakimi Süleyman bəy, Qəstəntəniyyə kralı, Trabzon kralı, Gürcüstan məlikləri, Şirvan və Gilan hakimləri, Kürdüstan və Laristan valiləri də guya Şahruxun hücumunu gözləyir və ona kömək edəcəklər.[27] Qara Osman bu məktubunda Şühruxu şirnikləndirərək əlavə edir: “Biz özümüzün miqdarca az olan qoşunumuz Azərbaycan və Rum hakimlərindən qorxub-çəkinmirik, sizin gəlişinizi gözləyirik. Qara Yusif Türkmanın qüdrət və taqəti onun Sizin qulamlarınızdan birinə qarşı (yəni Qara Osmana qarşı – Ş.F.) çıxması üçün kifayət deyildir. (Gəlsəniz,) yalnız Qara Yusif deyil, həmiçinin Rum və Şam (da) sizin bir həmlənizlə basılar”.[28]

Məsələ bundadır ki, Qara Osmanın Şahruxa yazdığı bu məktubu aparan qasid yolda Qara Yusifin döyüşçüləri tərəfindən axtarılmış və həmin məktub ələ keçirilərək, Qara İsgəndər vasitəsilə başqa ünvana – Bursa şəhərinə iqamət edərək

[*] Bəhs olunan dövrdə “Ermənistan” adlı bir dövlət olmadığına görə, təbiidir ki, ilkin mənbələrdə “Ermənistan” deyil, məhz “ermənilər” /”əramənе”/ ifadəsi işlənmişdir.

Sultan Məhəmmədə göndərilmişdir.[29] Sultan Məhəmmədin Qara İsgəndərə yazmış olduğu cavab məktubunda Rum sultanı Qara İsgəndərin atasını (Qara Yusifi) "padşah" adlandırır ki, bu da Qara Yusifin Azərbaycanın hələ rəsmi padşahı elan edilmədiyinə baxmayaraq padşah kimi tanındığına bir işarədir.*

Şahruxa yazdığı məktubun Qara Yusif tərəfindən ələ keçirilib Rum sultanına göndərilməsi xəbərini eşidən Qara Osman bərk təşvişə düşmüş, dərhal Sultan Məhəmmədə bəraət məktubu göndərmişdi. Onun yazdığına görə Sultan Məhəmmədə çatan məktub heç də onun Şahruxa yazdığı məktub deyildir. Belə ki, guya Qara Osmanın Xorasan hökmdarına yazmış olduğu başqa məzmunlu məktub yolda Cahanşah İbn Qara Yusif tərəfindən ələ keçirilmiş, qasid öldürülmüş, məktub yandırılmış, əvəzində isə yeni məzmunlu məktub yazılmış, Təbrizdə Qara Osmanın saxta möhürü düzəldilmiş və həmin məktub yeni möhürlə möhürlənərək, Osmanlılarla Ağqoyunluların arasını vurmaq məqsədilə Rum sultanına göndərilmişdi. "Mənim sizə sədaqətdən başqa heç bir təqsirim yoxdur" yazan Qara Osman onu "düşmənlərin sözünə inamamağa" çağırır. Onun yazdığına görə, Osmanlı hökmdarı gərək Qara Yusif Osmanlı sultanına yolladığı bu zəraətnamədə (üzrxahlıq məktubunda – Ş.F.) 1402-ci ildə Əmir Teymur və Rum sultanı arasında döyüşün baş vermə səbəbini Yusiflə əlaqələndirib, "onlar (yəni Qaraqoyunlular – Ş.F.) elə əvvəllər də [sizə qarşı] fitnəkar olublar" yazaraq, Osmanlı – Teymuri ziddiyətinə Qara Yusifin səbəb olduğunu xəbər verir.[31] sultan Məhəmməd öz növbəsində onun da məktubunu cavabsız qoymur. O, ilk növbədə Qara Yusifi həmişə himayə etməklə yanaşı (bəə ki, onu "Təbriz şəhriyarı" adlandırır) Aqğqoyunlu əmrinə də qədimdə olduğu kimi öz dostluğunu təklif edir.[32] Beləliklə, məlum olur ki, Rum sultanı Ağqoyunlu və Qraqoyunlu əmirləri arasında gedən münaqişədən öz xeyrinə istifadə etmək fikrində olmuş, onların heç birini özündən incitmək istəməmişdir.

Rum sultanının Ağqoyunlularla ixtilafa girməməsi Osmanlı-Qaraqoyunlu münasibətlərinə heç bir mənfi təsir göstərmir. Belə ki, hər iki hökmdar yenə də bir-birinə məktublar yazır, biri digərini öz ölkələri və qonşu dövlətlərdə baş verən hadisələrlə tanış edirdi.[33]

---

* Qeyd: Doğrudan da Qaraqoyunlu dövlətinin rəsmi hökmdarı Qara Yusif deyil, Pirbudaq elan edilmişdi, çünki həmin dövlətə o zaman yalnız "Çingiz soyundan" olanların "sultan", ya "xan" titulu ilə hökmdarlıq etmək hüququ vardı və Pirbudaq həmin soyun əsl nümayəndəsi olan Sultan Əhməd Cəlairi tərəfindən "mənəvi övladlığa" qəbul edilmiş və hökmdarlıq statusu qazanmışdı. Bunu nəzərə alan Qara Yusif h. 814 (m. 1411)-cü ildə bütün Azərbaycan başçıları və türkman bəylərinin Təbrizə çağırıb, onların hamısının iştirak etdiyi bir məclisdə Pirbudağı rəsmən "sultan" elan etdi. Padşahlıq mərasimindən sonra bütün fərman və hökmlərin başına monqol üsulu ilə "Sultan Pirbudaq xan yarlığından! Əbunəsr Yusif bahadır sözümüz!" cümləsi yazılırdı. Qara Yusif hətta dövlətin müxtəlif yerlərində üzərində oğlu və özünün adları həkk edilən mis və gümüş sikkələr kəsdirmişdi ki, bunların ən əskiləri 814 (1411)-cü ildə buraxılmışdır (Ahmed Teuhid. Meskukat-i Kadime-i İslamiyye Kataloqu, c. IV, İstanbul, h. 1321, s. 450-455. Bax: Faruq Sumer. Qaraqoyunlular, səh. 87-88).

Elə Ağqoyunlularla da Qara Yusifin münasibətləri həmişə ixtilaf xarakteri daşımamışdır. Bu Qaraqoyunlu hökmdarı öz hakimiyyətini daha da möhkəmləndirmək və güclü rəqib həmləsinə məruz qalmamaq üçün sülh sazişlərinə də meyl edirdi. O Qara Yuluq Osmanla sülh bağladıqdan sonra özünün Şərqi Anadoludakı hakimiyyətini bərpa etmiş, nüfuz dairəsini xeyli genişləndirmişdi. Azərbaycanın cənubu, habelə Naxçıvan, Mosul, Sincar, Muş və Ərzuruma qədər ərazi olan tərəfindən idarə olunurdu.[34]

Rum dövləti ilə normal münasibətdə olan Qaraqoyunlu dövlətinin Teymuri Şahruxun hökmranlıq etdiyi Xorasanla siyasi münasibətləri sabit deyildi. Həsən bəy Rumlunun bildirdiyinə görə, Şahrux Qara Yusifə etibar etmir, Qara Yusifdə onun səmimiliyinə inanmırdı. Şahrux 817 (1414/15)-ci ildə Azərbaycana yürüş etmək məqsədi ilə Heratdan çıxmış, lakin öz dövləti daxilində üzə çıxan bəzi ixtilaflara görə onun Azərbaycana etmək istədiyi bu birinci hərbi yürüş baş tutmamışdı. 822 (1419/20)-ci ildə isə Şahrux Xorasandan çıxaraq, "köç-köç Təbrizə tərəf yollandı".[35]

Xorasan qoşununun Amudəryanı keçib Azərbaycana hücumu barədə Rum sultanına xəbər verən Qara Yusif yazır: "Əziz oğlum Cahanşahı Sultaniyyəni mühafizə etmək üçün yolladım, sədaqətli oğlum Əmir ŞahMəhəmməd bahadırı İsgəndər bahadırlarla birgə bir mənzil məsafəlik qarovuliyə (kəşfiyyata – Ş.F.) göndərdim. Özüm isə 50 minə qədər süvari ilə Təbriz yaxınlığında cəm olub, Ucan yaylağına tərəf getməkdəyəm, Dilavəar oğlum Qara İsgəndər 20 min süvari ilə arxa tərəfdən pusquda dayanmışdır. Başqa məsələlər barədə [bu məktubu gətirən] qasid [sənə] məlumat verər".[36]

Öz cavab məktubunda Qaraqoyunlu hökmdarını "sultani-səlatin ət-türk ("türk sultanlarını sultanı"). "Qara Yusif bahadır" adlandıran Rum sultanı ona ürək-dirək verirsə də, ona öz köməyini vəd etmir və beləliklə də, Şahruxla hərbi münaqişəyə girməyəcəyini anladaraq, Bursadan "Allah-təala sənə xeyir versin. Qalan məsələləri bu məktubu gətirən Həsən bəy şifahi şəkildə sənə bildirər" yaan Sultan Məhəmməd, beləliklə, ona öz hüsn-rəğbətini bildirir.[37]

Göstərmək lazımdır ki, Xorasan şahının Azərbaycana bu yürüşünün səbəbi Qara Yusifin siyasi cəhətcə getdikcə qüvvətlənməsi, hətta onun Şahruxun hökmü altındakı bir sıra şəhərləri də öz əlinə keçirmək istəyi olmuşdur. Həsən bəy Rumlu yazır: "Qara Yusifin yanına Təbrizə göndərilən elçi qayıdaraq [Şahruxa] bildirmişdi ki, Qara Yusif orada özsünü müstəqil şah sayır, ətraf yerlərin bütün hakim və sərdarları ona tabedir. Padşahın (yəni Şahruxun – Ş.F.) şövkəti və qoşununun qələbələrindən qorxmayan Qara Yusifin çoxlu döyüşçü dəstələri vardır".[38]

Doğrudan da, Qara Yusifin səyi və rəhbərlyi nəticəsində Azərbaycanda böyük ordu yaradılmışdır. Təsadüfi deyildir ki, Şahruxun əmrləri və saray adamları "Azərbaycan qoşununun tuğyanına yalnız bahadırların həmləsi yatıra bilər"

demişdilər.[39] Məhz buna görə də, Şahruxun əmri ilə Azərbaycana hərbi yürüş üçün az vaxtda böyük bir ordu toplandı.[40]

Xorasan qoşunu ilə döyüş ərəfəsində Qara Yusif tərəfindən orduda hərbi islahat keçirilmişdi. Teymuri Şahruxun güclü ordusuna həlledici zərbə endirməyə böyek cidd-cəhdlə hazırlaşan Qara Yusif ona qarşı miqdarca daha çox əsgəri hərbi qüvvə çıxarmaq məqsədi ilə piyada qoşun toplanması üçün də əmr vermiş, beləliklə, Təbriz vilayətinə tarixdə ilk dəfə piyada qoşun dəstələri hazırlanmışdır.[41]

Qaraqoyunlu-Teymuri münasibətlərinə müdaxilə etmək istəməyən Osmanlı hökmdarı Sultan Məhəmmədin məqsədi öz qonşuluğunda özündən qüvvətli rəqib görməmək olmuşdur. Belə ki, baş verəcək müharibədə, nə qədər olmasa da, hər iki ordu müəyyən dərəcədə qüvvədən düşəcək, regionda Rum dövlətinin əzəməti toxunulmaz qalacaqdır. Bizim fikrimizcə, Osmanlı sultanı məhz bu mülahizə ilə müharibənin qarşısının alınmasına heç bir cidd-cəhd etməmiş, fəqət Qara Yusifə ürək-dirək verməklə kifayətlənmişdi.

Hücum 822 (1420)-ci ilin şəban ayının 4-də (avqustun 27-də) baş verdi. Mənbələrin bəzisində Şahrux ordusunun 200 min, Qara Yusifin isə 120 min döyüşçüsünün bu müharibəyə gətirildiyi barədə məlmat vardır.[42] Lakin həmin müharibə baş tutmadı. Buna səbəb Qara Yusifin qəfil vəfatı oldu. Qaraqoyunlu hökmdarının ölümünü eşidən Şahrux həmin ilin zilhiccə ayının 9-da (dekabrın 28-də) Qarabağa gedərək orada qışlamış, oğlu Baysunqur isə Təbrizi döyüşsüz ələ keçirmişdi.[43]

Yuxarıda göstərildiyi kimi, Qara Yusifin oğlu Pirbudaq Qaraqoyunlu taxt-tacının rəsmi hökmdarı elan edilmişdi. Lakin o, atasından bir qədər əvvəl vəfat etmiş, Qara Yusif isə hələ onun əvəzinə vəliəhd təyin etməyə macal tapmamışdı.[44]

Qara Yusif öləndə şahzadələrdən heç biri onun yanında yox idi: ŞahMəhəmməd Bağdadda, İsgəndər Kərkükdə, İspənd (İsfahan Mirzə) Adilcəvazda, Cahanşah Sultaniyyədə, Əbu Səid Ərzincanda idilər. Vəziyyəti belə görən Şahrux Azərbaycanı və Şərqi Anadolunu istilaya başladı.[*]

Şahrux 823 (1420)-cü ilin rəbiul-əvvəl ayının 19-da (aprelin 5-də) Təbrizə gəldikdə Naxçıvan və Salması da idarə edən Qaraqoyunlu şahzadələri Əbu Səid və İspənd Mirzə də gələrək, ona tabe olduqlarını bildirmişdilər.[45] Lakin Qara Yusifin başqa oğlanları, xüsusilə İsgəndər Şahruxa tabe olmaq istəmirdi, amma Xorasan hökmdarı tezliklə onu da məğlub edərək, Təbriz hökumətini Qaraqoyunlulara düşmən olan Qara Osmanın oğlu Əlibəyə verdi. Paytaxtın ona verilməsi

[*] Firidun bəyin "Münşəati-səlatin" əsərində dərc olunmuş Şahruxun Sultan Məhəmmədə yazdığı "Fəthnamə"də Qara Yusif vəfat edən vaxt baş verən qarmaqarışıqlıq belə göstərilir: Qardaşı Əmir Misirin oğlu Qazan bəy dərhal Qara Yusifin xəzinəsini və var-dövlətini qarət edib Ovnik qalasına, başqa qardaşı oğlu Zeynal bəy isə başqa səmtə yollandı. Əmir Qara və Qədəm paşa Əlincə qalasına qaçdılar. Qara Yusifin oğlanları Əmir Şahməhəmməd və Əmir İsgəndər Əhməd Qaramaninin oğlu ilə birlikdə Gəncə və Bərdəyə getdilər. Cahanşah atasının meyitini Ərcişə apardı. Qara İsgəndər Qara Yuluq Osmanla döyüşə yollandı (səh. 161).

Qaraqoyunlular və Ağqoyunlular arasında olan vəziyyəti daha da gərginləşdirdi. İspənd Mirzənin Təbrizə onun üstünə hücum xəbərini eşidən Əlibəy Bayandur Diyarbəkirə qaçdı, lakin məlumata görə, qardaşı İsgəndərin Təbrizə hücumunu bilən İspənd şəhəri tərk etməyə məcbur olmuş və İsgəndər Azərbaycan taxtına əyləşmişdi.[46] Deməli, Təbriz bir neçə ayda bir neçə nəfərin əlinə keçmişdi. Dövlətşah Səmərqəndi bildirir ki, Şahrux Azərbaycanı öz övlad və əmirlərinə vermək istəyirdisə də, onlar İsgəndərin qorxusundan Azərbaycanda hakim olmaq istəmirdilər.[47]

Nəhayət Şahrux İsgəndəri məğlub edərək, Azərbaycanı Cahanşaha verdi və beləliklə də, Azərbaycanda yenidən Qaraqoyunlu hakimiyyəti bərpa olundu.[48]

Göstərmək lazımdır ki, Osmanlı sultanı I Murad (1360-1389) il Qaraqoyunlu əmirləri arasında yaxşı münasibət olmuşdur. Sonrakı Rum sultanları da (I Sultan Məhəmməd və II Sultan Murad) Qaraqoyunlularla pis rəftara yol vermirdilər. Elə yuxarıda göründüyü kimi, Qaraqoyunlu tayfa ittifaqının böyük əmirləri və şahzadələri də arada olan hörmət-izzəti gözləyirdilər. Lakin İsgəndər öz "qürur və nadanlığı üzündən... Rum vilayətini dağıtmaq və camaata əzab-əziyyət verməklə məşğul idi.[49] Məhz buna görə Qaraqoyunlu-Osmanlı münasibətləri ərginləşməyə başladı.

Teymuri Şahrux sultan və hakim – yəni II Sultan Murad və İsgəndər arasındakı nifaqdan öz xeyrinə istifadə etməyə çalışırdı. O, Qara Yusifin böyük miqdar qoşununun ona məğlub olması münasibətilə Rum sultanına göndərdiyi "Fəthnamə"də yazırdı: "Qara Yusifin mənimlə düşmənçilik edirdi. Çarəsiz qalıb, özümüzü qorumaq məqsədi ilə 823-cü ilin şəban ayının 15-də (1420-ci ilin avqustun 26-sı – Ş.F.) Səmərqənd darüs-səltənəsində çıxıb Azərbaycana yollandıq".[50]

Şahruxun II Sultan Murada zilhiccə ayında Qarabağqan yazdığı bu məktubdan məlum olur ki, o "təsərrüfündə" (hakimiyyəti altında) olan Məvaraənnəhr, Xorasan, Zabul, Kabul, Sistan, Kirman, Mazandan, Təbəristan, Fars, Xuzistan, İraqi-Əcəm və başqa ölkələrdən 200 mindən çox əsgəri olan bir ordu ilə Qara Yusif üzərinə hücuma keçmişdi. "Mazandaran vilayətində olan bir neçə fili də Humayun orduya gətirdilər. Təvaçilər bir neçə gün qoşunları saydılar, iki yüz min zirehli əsgər qələmə alındı, əksəriyyətini saya bilmədik. Təxminən 10 dəfə yüz min əsgər toplanmışdı".[51]

Osmanlı sultanına verdiyi bu "hesabat"dan məlum olur ki, onun Azərbaycana gətirdiyi qoşunlarındakı əsgərlərin sayı bir milyon nəfər ("10 dəfə yüz min") olmuşdur.[52] Şahrux belə şişirdilmiş məlumatı Osmanlı hökmdarına bildirməklə, eyni zamanda, onun qarşısında əzəmət və qüvvətini nümayiş etdirirdi.

"Zilqədə ayının axırında Qara Yusifin ölüm xəbəri gəldi. Böyük oğlum Mirzə Baysunqur Təbrizi tutmağa yollandı. Zilhiccənin ortalarında Əmir Xəlilullah İbn Şeyx İbrahim – Şirvanşah qiymətli peşkeşlərlə Humayın görüşə gəldi. Beş gün

sonra sizin elçiniz Bəhram bəy də gəlib məktub gətirdi. Cahanşah da bizim dünyaya pənah verən sarayımıza gəldi və Azərbaycan əyalətini ona verdi. Qara İsgəndər Ərzincanın Çubuqcivarına çıxmışdır. O, Qara Yuluq Osmanla döyüşməkdədir. Mən hal-hazırda Allahın köməyi ilə onu dəf etməklə məşğulam. Əgər o, sizin tərəflərə pənah gətirərsə, onu ələ keçirib mənim sarayıma göndərin. Qara Yusifin aradan çıxması fərəh və sevincimizə səbəb olmuşdur".[53]

II Sultan Murad bu fəthnaməni alan kimi Şahruxa dərhal məktub yolladı. Məktubun yazı təhrində duyulur ki, Şahrujxun əzəməti Osmanlı sultanı tərəfindən gələcək də nəzərə alınmayan və o, atasının səhvini təkrar etməməli, ağır Teymurun qoşununa qarşı diqqətsiz olmamalıdır. Məktubda "Şahrux bahadur" ifadəsi işlədilənə qədər 6 sətir bu adın epiteti (tərifli ibarələri) işlədilmiş, ad çəkiləndən sonra yenə 3 sətir həmin adın bəzəyən təşbehlər verilmişdir. "Sizin Humayın əhvalınızdan və Azərbaycanın zəbtindən... Şirvanşah Fərrux Yasarın[*] ("Xəlilullah" adı düşmüşdür – Ş.F.) görüşünüzə gəlməyindən və o diyarın başqa əhvalından xəbərdar olduq və [bu məsələlər] bizim keyfimizi çoxaltdı. Qara İsgəndərin Ruma tərəf qaçmağından fikrə düşdük və fərman verdik ki, əgər ondan bir xəbər-ətər tuta bilsələr dərhal ona hücum etsinlər".[54]

Təxminən elə o vaxtdan Şahruxun və II Sultan Muradın gözlədiklərinin əksi baş verdi. Rum sultanı Qaraqoyunlu şahzadəsindən onun Qara Yuluq Osmanı məğlub etməsi xüsusunda məktub aldı. Qara İsgəndər bəy məktubunda Şahruxun Azərbaycana hücumu, atasının təbii ölümlə dünyanı tərk etməsi, qardaşları İspənd bəyin və Şah Məhəmmədin Naxçıvan dağları və Qafan dağlarına pənah apardıqları, Cahanşahın Ərcikdə yaşamağı, özününsə Mirzə Baysunqurun hücumundan qurtararaq, Çubuqcivara üz tutmağı və bir neçə dəfə özbək ləşkəri ilə döyüşü barədə Rum sultanına ətraflı məlumat verir. Məktubda məlum olur ki, "məktublar aparan bir özbək casusu təsadüfən onun əlinə keçmişdir". Məktubları oxuyan Qara İsgəndər özbəklərlə ittifaqa girən Qara Yuluq Osmanın onun üstünə hücum niyyətilə gəlişindən xəbərdar olur. Nəticədə 10 min döyüşçü ilə qəfildən ona basqın edən Qara İsgəndər Ağqoyunluların 20 min əsgərini qıraraq, başçıları Qara Osmanı məğlub etməyə müvəffəq olur.[55]

Qara İsgəndərin Osmanlı sultanına yolladığı bu məktubun sonunda maraqlı bir məlumat da vardır: "[Qara Osmanın] iyirmi mindən çox adamı qırıldı, sağ qalanlar isə pərən-pərən düşdülər. Kəsilən başları üç doqquz ayıraraq,[*] dostlara yolladım. Onun təvacisi Əhməd bəyin başını isə şadmanlıq əlaməti kimi Cəmşid ağa Əfşarla [sizə] göndərdim ki, qədim dostluğumuzu və səmimi məhəbbətimizi unutmayasınız".[56] Demək, Qara İsgəndər Osmanlılarla Qaraqoyunlular arasındakı "qədim dostluq və səmimi məhəbbəti" xatırlamaqla yendən sultanın mərhəmət və

[*] Fərrux Yasar – Xəlilullahın ləqəbi olmuşdur. Onun oğlanlarından birinin adı belə idi.

[*] 9 rəqəmi türklərdə və monqollarda müqəddəs sayılırdı. Onlar bütün hədiyyələri doqquz-doqquz yollayır, hakimin xidmətinə gəldikdə isə doqquz dəfə təzim edirdilər (Ə.Nəvainin qeydi).

nəvazişinə nail olmaq istəmiş, eyni zamanda Qara Osmanı məğlub edə bilməsi ilə öz hərbi gücünü də sultan qarşısında nümayiş etdirmişdir.

II Sultan Murad da, öz növbəsində, sanki Şahruxa yazdığı "Qara İsgəndərin Ruma tərəf qaçmağından fikrə düşdük və fərman verdik ki, əgər ondan bir xəbər-ətər bilsələr dərhal ona hücum etsinlər" sözlərini unutmuş, özünə xas olan diplomatik xüsusiyyətlə bu Qaraqoyunlu şahzadəsinə "kama çatmış adlı-sanlı Qara İsgəndər" deyə müraciət edərək, onu bu "şad müjdə" münasibəti ilə təbrik etmiş, atası Qara Yusifin qəfil vəfatından kədərləndiyini bildirmişdir.[57]

Qeyd etmək lazımdır ki, Osmanlılarla Qaraqoyunlular arasında XIV əsrin sonu – XV əsrin əvvəllərində olan dostcasına münasibət Sultan Bayazidin vəfatından sonra da davam etmişdir. Heç də təsadüfi deyil ki, I Sultan Məhəmmədin vəfatından sonra, Cavanşah taxtına cülus edən II Sultan Muradı təbrik edərək, ona bu iki sülalə arasında qədimdən bəri dostluq və qarşılıqlı anlaşma münasibətləri olduğunu bir daha xatırlatmışdır: "Bu şad xəbər gəlib çatan kimi canımızda elə həzz və sevinc yarandı ki, (onun şərhi) yazıya belə sığışmır".[58] II Sultan Muradda cavab məktubunda bu fikri təsdiq edərək, "əzəmətli padşah əbülmüzəffər Mirzə Cahanşah"a belə yazır: "Aydındır ki, bizim aramızda olan qədim məhəbbət heç bir bəyana sığmır. Bu qoy belə davam etsin və heç bir dəyişiklik baş verməsin".[59]

II Murad Amasya valisi Yürgüc paşaya İsgəndərə onun layiq olduğu hörmətin olunmasını tapşırmış, özü isə ona on min altun pul və paltarlar, silahlar, atlar, kölə və cariyələr yollamışdır (Məğrizi, İbn-Həcər). Lakin baharda Qaraqoyunluların həmin əraziyə qarətə başlamaları II Murada bəlli olan kimi, o, Anadolu bəylərbəyisi Teymurtaş paşanın oğlu Umur bəyi İsgəndərin üzərinə yollamış, İsgəndər Osmanlı ölkəsini tərk etmişdi.[60]

Qara İsgəndərin məğlubiyyəti uğratdığı Qara Yuluq Osman da II Sultan Murada məktub göndərib, öz məhəbbətini ona bildirir: "Qəlbimizdəki məhəbbətin çoxluğundan Tərxan ağanı sizin yanınıza göndərdik ki, özümüzü sizin yadınıza salaq. Yazışma qapılarının həmişə üzümüzə açın ki, ürəyimiz təsəlli tapsın".[61]

Qara Osman həmin məktubda fürsətdən istifadə edərək Osmanlı sultanına "Qara Yusifin övladları"ndan şikayət etməyi də unutmur: "Qara Yusifin övladları tamamilə məğlub olmuşlar. Rəcəb ayının 1-də Şərqin və Qərbin padşahı əmirzadə Şahrux bizə cürbəcür hörmət və izzət göstərdi, soyurqal,* qılınc, kəmər, çoxlu qızıl və gümüş verdi". O, hədsiz inayət, şəvqət və lütfkarlıq etdi ki, heç bir şərhə sığmır. [İndi] vacibdir ki, baş verən bu hadisələr dost və yaxın adamlara çatdırılsın ki, dostlar şad, düşmənlər pərt olsunlar".[62]

Şahrux yalnız cəhd edirdi ki, bu ölkələrdə Qara Yusif yaratmış olduğu Qaraqoyunlu dövləti kimi güclü dövlətlər yaranmasın və buna görə də, Azərbaycan

* Soyurqal - torpaq, malvə pul şəklində əsasən hərbçilərə bəxş edilən ənam.

feodal hakimləri tərəfindən özünün siyasi üstünlüyünün qəbul edilməsi ilə kifayətlənirdi.[63] Heç bir mənbə, yaxud elmi ədəbiyyatda Azərbaycanın Şahrux tərəfindən, yuxarıdakı məktubda göstərildiyi kimi, Qara Yuluq Osmana verilməsi faktı yoxdur. Belə ki, bu Teymuri hökmdarı Azərbaycan taxt-tacını Qara Yusifin ölümündən sonra əvvəlcə Əbu Səid Qaraqoyunluya, sonra isə Cahanşaha vermişdi.[64]

Qara Yuruq Osmana cavab yazan II Sultan Murad, görünür ki, Azərbaycandaq və müvafiq qonşu ölkələrdə hakimiyyətin bu Ağqoyunlu əmirinə verildiyinə inanmadığı üçün onun məktubuna nisbətən soyuq tərzdə cavab verir: "Şahruxun fütühatı haqqında yazdığınız [sözlər] şadlığa səbəb oldu. Xaqanın sizə iltifatı yetdiyi üçün gərək hər iki tərəfin din və dayiq hərəkət edəsiniz. Əgər bizim yazışmamışda bir qədər ləngimə olsa, bunun səbəbinin bizim bərk məşğul olmağımızda görün.[65]

Cahanşah Qaraqoyunlu ilə II Sultan Murad arasında müntəzəm olaraq yazışma davam etmiş, Osmanlı sultanı Macarıstanın yenidən Osmanlılar tərəfindən fəth olunduğunu böyük sevinclə Cahanşaha xəbər vermişdi.[66] Cahanşahda onu ürəkdən təbrik edərək, özünün siyasi əqidəsini belə ifadə etmişdi: "Mən həmişə öz sələflərim kimi, islam dininə müxalif olanlarla müxalif edəcəyəm və onların rəfiqlərinə qarşı belim cahad və müharibə kəməri bağlayacağam".[67] Cahanşah hələ gənc yaşlarından uzaqgörən bir hökmdar olmuşdur. O, özünü Şərq regionunda müvəffəq görmək üçün Osmanlıları ən yaxın arxa bilmiş, onlarla xoş keçinməyi münasib hesab etmişdi. "O, Sultan Məhəmməd Fatehə elçi göndərərək Sivasa qonşu olan Qaraqoyunlu torpaqlarına hücum etməyəcəyi təqdirdə ona 4 min kental (? - Ş.F.) təryağı (kərə yağı – Ş.F.) və min baş dəvə verəcəyini bildirmiş və Osmanlı hökmdarı da bu təklifi qəbul etmişdi".[68]

Osmanlı sultanı özünün "məhəbbətnamə" adlandırdığını həmin məktubunda Qaraqoyunlu hökmdarına yazırdı: "Bursadan sizin diyarınıza öz kəsbkarlığını etmək üçün Əhməd Musa adlı bir tacir getmişdi. Onun əlindən bütün bütün nəğd pullar və cins mallar sizin dərgahınızın ümənası (əmin-amanlığı qoruyanlar – Ş.F.) tərəfindən alınmışdır. Onun fərzəndi olan Şeyx Məhəmməd Bursəvi onun varisi kimi oraya gəlir. O, çatan kimi, [gərək] valilərə və nəvvabe-südura (cənab sədrlərə - Ş.F.) işarə olunsun ki, şəri qohumluq hökmünə riayət edərək, alınmış şeyləri Məhəmmədə qaytarsınlar".[69]

Məlum olduğu kimi, II Sultan Məhəmmədin "məhəbbətnamə"sində irəli sürülən xahiş tezliklə Cahanşahın fərmanı ilə yerinə yetirilmiş, həmin məktubun cavabı kimi sultana Qaraqoyunlu hökmdarlarının yeni bir fəthnaməsi yola salınmışdı. Orada deyilirdi: "Maleke-məmalike-Rum və Yunan[ıstan] Sultan Məhəmməd! Biz fərman verdik ki, Şeyx Məhəmməd Bursəvidən (Əhməd Bursəvi olmalıdır – Ş.F.) alınan şeyləri Təbriz darüs-səltənəsinin zabitləri (zəbt edən məmurları – Ş.F.) Əhməd ibn Musa Bursəviyə (Məhəmməd ibn Əhməd Musa

Bursəvi olmalıdır – Ş.F.) qaytarsınlar sizin məktubunuz gələn vaxtlarda bu həvaxah (yəni Cahanşah – Ş.F.) Fars və İraqi-Əcəmin qala və şəhərlərini tutmaqla məşğul idi. Bu işi bir neçə gündə bitirib, tərs xasiyyətli çağatay tayfasının toxumunu o diyardan kənar etdik və geri qayıtdıq. Əmir Tacəddin İbrahim Mehtəri bu şad xəbəri xəbəri sizə çatdırmaq üçün xeyli gümüş, firuzə və yaqutla tezliklə dərgahınıza göndərirəm".[70]

Cahanşahın məktubunu alan II Sultan Məhəmməd ona cavabında Qaraqoyunlu elçisi əmir Tacəddin Mehtərin artıq onun yanına çatdığını xəbər verir, "birgə həmlə ilə İraqi-Əcəm qalalarını xilas edən və fars məmləkətlərini tutan" Qaraqoyunlu hökmdarını təbrik edir, bundan bərk sevindiyini bildirir.[71]

Osmanlı sarayına bundan sonra gedən məktubda Cahanşah oraya tezliklə yeni bir qasid yollayacağını, hələlik isə Qəvaməddin Qara bəyi göndərdiyini sultana xəbər verir.[72]

Türklər tərəfindən İstanbul şəhərinin[*] fəthi Türkiyə tarixində ən əlamətdar hadisələrdən biri olmuşdur. Məhz bu fəth münasibətilə II Sultan Məhəmməd "Fateh" ləqəbinə layiq görülmüş, özünün növbəti fəthləri münasibətilə sonradan da başqa qonşu dövlətlərə, o cümlədən Azərbaycana "fəthnamələr" yollamış, öz siyasi qüdrətini nümayiş etdirmişdir. Osmanlı hökmdarının fikrinə görə Türkiyə tərəfindən edilən fəthlər elə Azərbaycan tərəfindən edilən fəthlər kimi qiymətləndirilməlidir ("Bizim tərəfin fəthi sizin tərəfin fəthi deməkdir və ya əksinə").[73]

Sultan Məhəmməd Fatehin həmin "fəthnamə"sindən sonbra Cahanşah Qaraqoyunlu özünün Bağdad "fəthnamə"sini yollayır, yeni qələbəsini çox böyük şadlıqla xəbər verir. Bir qədər əvvəlki məktubunda Cahanşahı ata adlandıran II Sultan Məhəmməd ona bu dəfə də "əziz atam Cahanşah" ifadəsi ilə müraciət edir, özünün də İstanbuldan sonra "Murə[*] kafirləri" ilə döyüşərək, oranı ələ keçirildiyini bildirir. Məktubun sonrakı cümlələləri Sultan Məhəmməd Fatehin o vaxtlarda baş verən başqa fəthlərindən (Səməndəriyyə[**] şəhəri, Sinab qalası) bəhs edir və nəhayət sultanın Ağqoyunlu tarixi ilə sıx surətdə bağlı olan Trabzona yürüşü və oranın da tezliklə alınacağı xəbəri ilə bitir: "Ümidvarıq ki, oranın kafirlərdən xilası [bizə] asanlıqla müyəssər olacağıq. Əgər bu hücumla əlaqqədar bizim

[*] İstanbul şəhərinin adı əvvəlcə Bizans, conra Kanstantinopol olmuşdur. Sonralar Türklər yunanca "İstan polis" ("şəhərə gedirəm") sözünü tez-tez eşitdiklərinə görə həmin şəhəri İstanbul adlandırmışlar. Şəhər müsəlmanların əlinə keçəndən sonra oranın adının "İslambol" olduğunu fərz edənlər də vardır ki, bu tamamilə yanlışdır (Ə.Nəvai, Tarixi məktublar və sənədlər... səh. 512.).

[*] Yunanıstanın cənubunda yerləşən "Moree" yaxud "Pelopon ese" adlanan Murə adası əvvəlcə 1458-ci ildə (qismən), sonra isə 1460-cı ildə (tamamilə) Osmanlılar tərəfindən alınmışdır (Ə.Nəvai, Tarixi məktublar və sənədlər..., səh.534).

[**] Səməndəriyyə - Serbiyada yerləşən bu şəhər (Smederevu) 1459-cu ildə baş vəzir Mahmud paşa tərəfindən zəbt olunmuşdur (Bax: Ə.Nəvai. Tarixi məktublar və sənədlər..., səh. 539).

məktublaşmağımız bir qədər təxirə düşərsə, başqa şey haqda düşünməyib, məktublaşma qapılarını bağlayın".[74]

Göstərmək lazımdır ki, Sultan Məhəmməd Fateh dövründə Ağqoyunluların Osmanlılarla olan münasibəti Qaraqoyunlu – Osmanlı münasibətindən bir qədər fərqlənirdi və dostcasına əlaqələr baxımından heç də qənaət bəxş deyildi. Bu münasibət Osmanlı sultanının 1461-ci ildə, onun öz sözü ilə desək, "Həsən bəy ağqoyunlunun məmləkətinə yaxın olan və onunla qohumlaşan Trabzona zəfərli yürüşündən sonra xeyli pisləşdi. Ağqoyunlu-Osmanlı münasibətinin pisləşməsi Cahanşahın ürəyindən idi, çünki Uzun Həsən özünün irsi mülkü sayılan Diyarbəkirlə kifayətlənməyərək, XV əsrin 50-ci illərində Qaraqoyunluların əlində olan Ermənistanın və Kürdüstanın böyük bir ərazisini öz dövlətinə birləşdirməyi nail olmuşdu.[75] Ağqoyunluların get-gedə qüvvətləndiyini görən Cahanşah təcili olaraq Sultan Məhəmməd Fatehə belə bir məktub göndərdi: "Qədim vaxtlardan bəri bizim tərəfin sizin şərafətli xanədanınıza həqiqi məhəbbəti zahirdə [bizə qarşı] özünün razılıq və məhəbbətini göstərirdisə də, əslinə başqa cür hərəkət edirdi. Onun zahiri və batini bir olmadığı üçün [aramızda] günbəgün nifaq yaranmaqda idi. Bu yaxınlarda onun xəsislik əlaməti tam şəkildə aşkar oldu, əhd-peymanı sındırdığını üzə çıxdı. O, bizə hücum etdisə də, onun dəf edilməsi asanlıqla müyəssər oldu. Himməti uca olan həzrət (yəni Osmanlı sultanı – Ş.F.) onun cəzalanması üçün qoy cəhd etsin. Sizdən sədaqətlə rica olunur ki, həqiqi dostların məqsəd və istəkləri həyata keçsin".[76]

Bu xahişə baxmayaraq, Cahanşah Qaraqoyunlu Osmanlı Türkiyəsini bilavasitə ağqoyunlu dövlətinə qarşı müharibəyə təhrik edə bilmədi. Amma 1467-ci ildə Cahanşah Qaraqoyunlu II Sultan Məhəmmədin təhriki ilə Ağqoyunlulara qarşı şirnikləndirilərək, öz silahlı qüvvələri ilə Diyarbəkirə tərəf yollandı. Osmanlı sultanını hökmü ilə, hələ o zaman Amasya valisi olan şahzadə Bayazid Qaraqoyunlu hökmdarına hərbi yardım göstərməli idi.[77] Osmanlılara arxalanan Cahanşah Qaraqoyunlunun əksinə olaraq Uzun Həsən Ağqoyunlu "Türkiyənin Osmanlı sultanları ilə mübarizə etmək naminə Avropa dövlətləri ilə möhkəm ittifaq yaratmağa cəhd edirdi".[78]

Nəhayət, 1467-ci ilin noyabr ayının 10-da Qaraqoyunlu dövlətinin ən nüfuzlu hökmdarı olan 70 yaşlı Cahanşah ona qəfildən hücum edən Sultan Məhəmməd Fateh bu Qaraqoyunlu-Ağqoyunlu münaqişəsinə müdaxilə edə bilmədi. Cahanşahın kəsik başı Uzun Həsən tərəfindən Xorasanın Teymuri hökmdarı Sultan Əbu Səidə şahzadə Məhəmmədi Qaraqoyunlunun başı isə Sultan Məhəmməd Fatehə göndərildi.[79]

Uzun Həsən azacıq sonra Həsənəli Qaraqoyunlunu da asanlıqla məğlub edib, Kür çayının cənub hissəsindəki bütün Azərbaycan torpaqlarını ələ keçirdi. O, təkcə Qaraqoyunlularla dostluq və qohumluq əlaqələrində olan Ərdəbilin

müstəqilliyinə toxunmadı. Beləliklə, Osmanlı imperiyasının Ağqoyunlular əleyhinə müttəfiqi olan Qaraqoyunlular dövləti süquta uğradı.[80]

Ağqoyunlu dövləti və Osmanlı imperiyası

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, dövrün ümumtarix hadisələrini əks etdirən müxtəlifdilli mənbələrin bolluğuna baxmayaraq, onların heç birində sırf Ağqoyunlu-Osmanlı münasibətləri əks etdirilməmiş və həmin regionda mövcud olan ölkələrin ictimai-iqtisadi və hərbi-siyasi məsələlərində bəhs olunan zaman ötəri olaraq bu münasibətlərə toxunulmuşdur. Buna görə də, bu sahədə müstəsna əhəmiyyətə malik epistoylar qaynaqlara müraciət etmək tədqiqatçılar üçün müstəsna əhəmiyyətə malikdir.

XIV əsrin sonu – XV əsrin əvvəllərində hələ Ağqoyunlu tayfa ittifaqının başçısı olmamışdan əvvəl Qara Yuluq Osman qonşuluqdakı müxtəllif feodal bəylikləri ilə yaxşı münasibətdə olmağa çalışmış, bu mümkün olmadıqda isə onlarla ölüm-dirim mübarizəsinə başlamışdı. O, bir müddət (11 il) Sivasda məşhur dövlət xadimi və şair Qazi Bürhanəddinin yanında xidmət etmiş, sonradan onların arasında ixtilaf düşmüş, az sonra bu Ağqoyunlu əmiri Qazi Bürhanəddini öldürməyə nail olmuşdur. Ümumiyyətlə, Qara Osman qonşu Qaraqoyunlu əmiri Qara Yusifdən fərqli olaraq həmişə Teymur və onun övladlarının himayəsində olmuşdur. İsmayıl Həqiqi Uzunçarşılıların məlumatına görə "Qara Osman bəyliyi Qara Yusifin şiddətli zərbələri altında genişlənə bilmirdi".[1] Lakin buna baxmayaraq iki türkmən* bəyliyinin heç biri digərinə qalib gələ bilmir, bir-birləri ilə ixtilaf şəraitində yaşayırdılar. Ağqoyunlu tayfa ittifaqının başçısı olduqdan sonra isə Qara Yuluq Osman nüfuzlu cağatay hökmdarı Şahrux ibn Teymurla Osmanlılar və Qaraqoyunlular əleyhinə dostcasına münasibət yaratdı ki, bunun nəticəsində Ağqoyunlu – Qaraqoyunlu münasibətləri bir qədər də pisləşdi. "Düşmənin dostu mənim düşmənimdir" prinsipinə riayət edən Qara Yusif Ağqoyunlu – Teymuri münasibətinin yaxşılaşmasından Ağqoyunlu – Osmanlı münasibətinin pisləşməsi üçün istifadə etmək qərarına gəldi. Tezliklə onun əlinə belə bir fürsət düşdü. Yuxarıda qeyd etdiyimiz kimi h. 820 (m. 1417) – ci ildə Qara Osmanın Xorasan hökmdarı Şahruxa yazmış olduğu məktub elçi Xacə Mənsur Amidi adlı bir tacir vasitəsilə göndərildiyi ünvana aparılarkən, Sultaniyyə şəhərində təsadüfən Qaraqoyunlu əsgərlərinin əlinə keçmiş, nəticədə məktubun çatacağı məkan – Şahruxun istiqamətgahı olan Herat, Osmanlı I Sultan Məhəmmədin dövlət paytaxtı Bursa şəhəri ilə əvəz edilmişdir. Qara Yusif belə hərəkət etməklə, heç şübhəsiz, özünün Osmanlı hökmdarına olan dostluğunu nümayiş etdirmək, Ağqoyunlu – Osmanlı və Teymuri – Osmanlı qarşılıqlı

* Səlcuqların tərkibində Azərbaycana gəlmiş tayfa – Ş.F.).

münasibətlərinə xələl vurmaq istəməmişdi. Həmin məktubu dərhal Qara İsgəndər Bursaya gətirib, Osmanlı hökmdarına təqdim etmiş, təbiidir ki, məktubda Şahruxun "xaqani-cahaniyan" (dünyada yaşayanlar xaqanı), "qaani-məmalik" (məmləkətlər qaanı) və başqa epitetlərlə adlandırılması Osmanlı hökmdarının qəzəbinə səbəb olmuşdu.

Şahruxun həmçinin Rum və Şam (Suriya – Ş.F.) torpaqlarını da "bir həmlə ilə" tuta biləcəyi barədə ona ürək-dirək verirdi. O, Şahruxa ləngimədən hücuma keçməyi məsləhət görüb yazırdı: "Buna görə də, cağatay mirzələri arasında baş verən kiçik qovğaları nəzərə almaq və ləngimək rəva deyildir:

Olsun o Səmərqənd həmin mirzələrin,
Təbriz ilə Rumu Şam bəsindir, ey şah.

Başqa məsələləri [elçim] tacir Xacə Mənsur Amididən soruşun".[2] Bununla, Qara Osman necə olursa-olsun Şahruxu böyük döyüşlərə şirnikləndirmək, ətraf ölkələrdə hakimlik edən güclü rəqiblərinə, o cümlədən Qara Yusifi və I Sultan Məhəmmədi heç olmazsa bir qədər zəiflətmək məqsədi güdürdü.

I Sultan Məhəmməd "Qara Yuluq Osmanın fitnə üslublu" məktubunu oxutduqdan sonra dərhal məhərrəm ayının əvvəllərində Bursadan Qaraqoyunlu şahzadəsi Qara İsgəndərə cavab məktubu yazmış, ona öz təşəkkürünü bildirmişdi: "Qara Osmanın xainliyi məlum oldu. Biz onun cəzasını allaha tapşırdıq. Bizi məsələdən agah etdiyinə görə xoşbəxt olun. Əgər [hər hansı bir] təşviş və hücum olarsa, xəbər verin ki, onu dəf edə bilək".[3]

Qaraqoyunlu-Ağqoyunlu münasibətlərindən bəhs edərkən yaddan çıxarmaq lazım deyildir ki, dövrün yazılmamış qanunlarına müvafiq şəkildə hərəkət edən kiçik feodal bəyliklərin başçıları heç də bir-birləri ilə sadəcə inadkarlıq naminə müxalifətə girmirdilər. Fikrimizin sübutu üçün aşağıda gətirəcəyimiz misal Qaraqoyunlu-Ağqoyunlu münasibətlərinin dəyişkənliyini izləmək baxımdan olduqca maraqlıdır.

Hələ Azərbaycan Qaraqoyunlu dövlətinin təsisindən bir neçə il əvvəl Qara Yusif tərəfindən Qara Yuluq Osmana göndərilən bir məktubda Ağqoyunlu bəyinə bu hər iki türkman tayfa birliyi arasında olan nifaqın dayandırılması təklif olunurdu: "Bizim hər ikimiz türkmanıq. Gəl bundan sonra bir-birimizə hücum etməyək və bir daha qırılmayaq. Qoy bizim hər birimiz Rumdan və Cağataydan olan düşmənlərimizlə mübarizə edək".[4] milli mənsubiyyət baxımından hər ikisi müxtəlif köçəri türkman tayfasının nümayəndələri olduğu üçün, görünür ki, Qara Yusif təəssübkeşlik edərək, Ağqoyunlu bəyini öz tərəfinə çəkmək istəmiş, aralarında sülh münasibəti yaranmasını məqbul saymışdı. Lakin feodal hərc-mərcliyinin, mənəm-mənəmliyin, dərəbəyliyin hökm sürdüyü bir şəraitdə

Qaraqoyunlu əmirinin təklifi həyata keçmiş, hər iki tayfa başçıları uzun sürən mübarizələrə əl atmışdılar.

Yuxarıda qeyd etdiyimiz "məktub məsələsi"nə bir daha qayıtmaq olduqca maraqlı olardı. Belə ki, Teymuri Şahruxa yazılan məktubun göndərilən ünvana deyil, Osmanlı sultanına gedib çatdığını öyrənən Qara Osman bərk qorxuya düşür və dərhal sultana "zəraətnamə" ("yalvarış məktubu") yollayır: "Biz bu günlərdə Xacə Mənsur Amidini Şahrux bahadırın sarayına yollamışdıq. Qara Yusifin oğlu Cahanşah onunla bizim aramızda olan ədavətə görə onu tutmuş və bu sadiq bəndənin məktubunu ələ keçirmiş, qasidi qətlə yetirmiş, məktubu yandırmışdı. Təbrizdə bizim möhürümüzü həkkaklar vasitəsilə tökdürmüş, məktubu başqa məzmunla yazaraq sizə yollamışdır. Vallah-billah ki, əhvalat belə olmuşdur. Mənim sədaqətdən və aramızda olan dostluqdan başqa bir fikrim yoxdur".[5] Həmin məktubda Qara Yusif və onun övladları "düşmən" adlandırılmış və sultandan təvəqqə edilmişdir ki, onların "qərəzli sözlərinə" inanmasın.[6]

Belə ki, I Sultan Məhəmmədin Qara Osmana göndərdiyi məktubda deyilir ki, "biz sizlərdən bu son vaxtlarda dostluq və xeyirxahlıqdan başqa bir şey görməmişik, buna görə də, özünüzə təsəlli verin, özünüzü bizim dostumuz salın".[7]

Ağqoyunlu tayfa ittifaqının başçısı Qara Osmanın vəfatından sonra (1435) hakimiyyət onun böyük oğlu Əlibəyin əlinə keçdi. O da, öz atasının siyasətini davam etdirir, Osmanlı sarayına vaxtaşırı məktublar yollayırdı. Yeni Osmanlı hökmdarı II Sultan Murad da onu cavabsız qoymur, öz məsləhətlərini çatdırırdı. Osmanlı sultanı Ağqoyunlu Əlibəyin "ixlasla" (məhəbbətlə) yazdığı bir məktubdan ("özümüzü o həsrətin mülazimi etmək istərdik") razı qaldığını bildirmiş, gələcəkdə onun hər hansı niyyəti, məqsədi olarsa, Osmanlı dövləti tərəfindən yerinə yetiriləcəyini xüsusi qeyd etmişdi.[8] Hətta sultan ona yazmışdı ki, "öz qasidi vasitəsilə göndərdiyi layiqli xalatı can sağlığı ilə geyinsin, sədaqət qapılarını açsın ki, həmişə şahanə layiq görülmüşdür.[9]

Qara Osmanın başqa övladları da (Həmzə bəy, Cahangir) II Sultan Muradla yazışırdılar. Həmzə bəy hətta Osmanlı sultanına bir qoşun başçısı kimi də bəzi xidmətlər göstərir, sultanın mənafeyini dəfi üçün Ağqoyunlu qoşununun yollanmasını və beləliklə də qələbə əldə edilməsini təfsilatı ilə xəbər verir. "İndi siz əmr edin, mən qalanı kimə məsləhət bilsəniz ona da verim",[11] yazan Həmzə bəyə cavab məktubunda Sultan Murad Ərzincandakı qələbənin onu sevindirdiyini bildirib qeyd edir ki, o yerlərdə bundan sonra əmin-amanlıq olacaq, tacirlər və karvanlar rahat gediş-gəliş edəcəklər.[12]

Atası Əlibəydən sonra Ağqoyunlu tayfa ittifaqının başçısı olan Cahangir Ağqoyunlu da II Sultan Muradla əlaqə saxlayırdı. Atası kimi o da özünün türk sultanının "mülazimi" olduğunu bildirir, "bizim məmləkətimizdə elə sizindir və bu da ev ilə o ev birdir"[13] kimi cümlələr yazmaqla ona öz səmimi münasibətini bildirirdi. Çox keçmədən onunla qardaşı Uzun Həsən arasında nifaq yarandı,

nəticədə Diyarbəkir qalası və Mardin Cahangirin əlindən çıxdı. Məlumata görə "siyasi cəhətcə təcrübəli qadın olan" Saray xatunun işə qarışması sayəsində qardaşlar arasında barışıq yarandı. Cahangir sonralar sanki Osmanlı dərgahına yolladığı məktubların məzmununu unudub, Uzun Həsənin türklərlə etdiyi döyüşlərdə qardaşına kömək etməkdə idi.[14]

1453-cü ildə İstanbulun Sultan Məhəmməd tərəfindən fəthindən sonra "Fateh" təxəllüsü daşıyan Osmanlı sultanı olduqca təkəbbürlü olmuş, get-gedə fəthlərinin sayını artırmağa başlamışdı. O, İstanbul fəthindən sonra özünü Roma imperiyasının yeganə qanuni varisi saymışdı. Hətta, Yunanıstanın feodal (1396-1485) Fatehə belə yazmışdı: "Kimsə şübhə etməz ki, sən romalıların imperatorusan, çünki imperiyanın mərkəzini rəsmən əlində saxlayan bir şəxs imperatordur və Roma imperiyasının mərkəzi də İstanbuldur".[15]

Trabzon dövlətinin az sonra Osmanlı imperiyası tərəfindən süquta uğradılması bu imperiyanın Ağqoyunlular əleyhinə atdığı ilk böyük düşmənçilik addımı idi, çünki Trabzon Avropa ilə Şərq ölkələri arasında ticarət əlaqələrinin yaranmasında mühüm əhəmiyyətə malik idi. Kiçik Asiyanın şimalında və Qara dənizə yaxın mövqedə yerləşən Trabzon vasitəsilə bir çox dövlətlər Azərbaycan, İran, Orta Asiya, Hindistan və Çinlə fəal ticarət etməkdə idilər. Trabzon-Tərbiz yolu ilə hərəkət edən avropalı tacirlər Asiyanın bütün nöqtələri ilə ticarət edə bilirdilər. Trabzon Ağqoyunlu dövlətinin Qara dənizə çıxması üçün mövcud olan yeganə vasitə idi. Trabzon həmçinin Ağqoyunluların Osmanlılara qarşı müttəfiqi idi.[16]

Uzun Həsən təkcə Osmanlılarla deyil, həmçinin Qaraqoyunlularla da nifaqda idi. Cahanşah Uzun Həsənin əleyhinə gedən Cahangirin tərəfini tutur, Uzun Həsən isə Cahanşaha qarşı çıxan Qaraqoyunlu şahzadələrinin tərəfini saxlayırdı.[17] Lakin Qaraqoyunlu-Ağqoyunlu ziddiyyəti getdikcə dərinləşməkdə olan Ağqoyunlu-Osmanlı ziddiyyətinin önündə hələ bir o qədər də təhlükəli görünmürdü. Osmanlı hökmdarı II Sultan Məhəmmədin Ağqoyunlu dövlətinin mənafeyinə bilavasitə bərk ziyan vuran hərbi-siyasi fəaliyyəti tezliklə Ağqoyunlu-Osmanlı ziddiyyətini olduqca kəskinləşdirdi. Nəticədə Osmanlı sultanının kiçik feodal dövləti olan Trabzona 1461-ci ildə həyat keçən hərbi yürüşü ərəfəsində Usun Həsənlə II Sultan Məhəmmədin ilk döyüşü baş verdi. Bu döyüşün şərhinə başlamazdan əvvəl Trabzon-Ağqoyunlu münasibətlərindən də bir qədər danışmaq lazımdır. Məlum olduğu kimi, Turəli bəy (Əlaəddin) Ağqoyunlunun oğlu Qutlu bəy və Bayanduriyyə sülaləsinin ən əzəmətli bəylərindən olan Qara Yuluq Osman Trabzon imperatorlarının qızları ilə evlənmişdilər.[18] Sonradan Uzun Həsən də IV İoannın qızı Teodora (Feodora) ilə izdivac etdi. Bütün bunlardan başqa Trabzon Ağqoyunlu dövləti üçün təkcə xarici ticarətdə yox, onun hərbi-siyasi həyatında da böyük qol oynayır, Ağqoyunlu bəyləri məhz Trabzon imperatorları vasitəsilə Qərb dövlətləri ilə diplomatik əlaqələr yaradırdılar. Trabzonu Osmanlı təcavüzündən

xilas etmək məqsədilə Uzun Həsən 1459-cu ildə İstanbula Murad bəy Ağqoyunlunun başçılığı ilə bir elçi heyəti göndərmişdi, amma bunun işlərin sonrakı gedişinə elə bir müsbət təsiri olmadı.[19] Sultan Məhəmməd ordusu Kiçik Asiyada hərbi əməliyyatlara başladı.

Fateh o vaxtlar Ağqoyunlu hökmdarının məğrurluğundan və onun irəli sürdüyü bəzi tələblərdən çox narazı idi. Uzun Həsən Osmanlılara qarşı Gürcüstan və Trabzonla saziş bağladıqdan sonra, yuxarıda deyildiyi kimi İstanbula elçi Murad bəyin başçılığı ilə bir heyət göndərmiş, Osmanlılara cizyə verməyi qəbul edən Trabzon imperatorluğunun 1453-cü ildən bəri ödənilməsinə boyun olduğu və miqdarı 1458-ci ildə iki min dükatdan üç min dükata qaldırılan illik verginin aradan götürülməsini və vaxtilə İldırım Bayazidin Osmanlı torpaqlarına basqın etməməsi müqabilində Qara Yuluq Osman bəyə vəd etdiyi və Teymurun ölümündən sonra göndərilməyən hədiyyələrin dərhal verilməsini, xanımı Despinaya (Teodoraya) atası tərəfindən cehiz verilən kappadokiya, yəni Qeysəri şəhəri və ətrafındakı torpaqları özünə verməsini tələb etmişdi. Sultan Məhəmmədin Ağqoyunlu hökmdarının bu tələbləri müqabilində kinayə ilə "mən gələn il gəlib, əfəndinizin məndən istədiyi şeyləri özümlə gətirəcək və sizə olan borcumu ödəyəcəyəm" cavabını vermişdi.[20] Bəkir Sidqi Baykala görə də, Uzun Həsən 1459-cu ildə II Sultan Məhəmməddən onun ilbəil Trabzondan aldığı xəracdan vaz keçməsin, eyni zamanda Teymurləngin ölümündən (1405) keçə 54 il ərzində Ağqoyunlu sarayına göndərilməyən hədiyyələri* "topdan yollamasını" tələb etmişdi.[21]

Bildiyimiz kimi, Uzun Həsən XV əsrin yarısından etibarən əvvəllər o qədər də böyük ərazini əhatə etməyən (əsasən mərkəzi şəhəri Amid olan Diyarbəkir) "Ağqoyunlu bəyliyi"nin nüfuz dairəsini xeyli genişləndirdi. Belə ki, 1460-1470-ci illərdə Ermənistan – Azərbaycanın cənub vilayətləri, Qərbi İran, Kürdüstan, İraqi-Əcəm İraqi-Ərəb, Diyarbəkir, Luristan, Fars və Kirman onun birbaşa hakimiyyəti altına keçmişdi.[22] Artıq 1467 (h. 872)-ci ildə "böyük əzəmətə malik olan Uzun Həsən"[23] Ağqoyunlu tayfa ittifaqının hər iki tərəfində - həm qərbində, həm də şərqində (qərbdə Osmanlı türkləri, şərqdə Qaraqoyunlu qəbilələri) mübarizə aparmış,[24] Osmanlılara bata bilməmiş, Qaraqoyunluları isə iflasa uğratmışdı.

Uzun Həsənin nisbətən az vaxt içində əldə etdiyi qələbələri barədə dövrün tarixçisi Fəzlullah ibn Ruzbehan Xunci belə yazır: "O, Amidlə və Hisn Kəhflə kifayətlənməyərək, öz hakimiyyətini şərqə və qərbə genişləndirmək istədi. O, Qaraqoyunlu hakimiyyətindən heç nə qoymadı. Cahanşahın oğlu Həsənəliyə ölüm şərbəti silahlanmış döyüşçü ilə gələn Teymuri Sultan Əbu Səidin yasəmən bağını qara bağa verirdi. Beləliklə, bir neçə ildə öz hakimiyyətini Fəratdan Amudəryaya və Rum sərhədindən Oman adalarına qədər genişləndirdi".[25]

* Qonşu dövlət başçıları tərəfindən bir-birilərinə hədiyyə yollaması dövlətlərarası münasibətlərin daha da nizamlanmasında zəruri bir ənənə idi.

Tarixçi Xoca Sədəddin Əfəndi özünün çoxcildli "Tacüt-təvarix" əsərində Uzun Həsənin sultana qarşı olan saymazyana hərəkətlərini onun II Məhəmmədin qüvvəsini yanlış dəyərləndirməsi ilə izah etmişdir.[26]

Trabzon imperatoru Kalo İoannes Komninlə - "bu ədəbsiz kafirlə əqraba olmuş və yaxınlıq qurmuş"[27] Uzun Həsənə öz gücünü daha bariz şəkildə göstərmək istəyən II Məhəmməd Rum bəylərbəyisi şərabdar Həmzə bəyi "Rum sipahiləri və dilavərləriylə Qoyluhisarı almağa" göndərdi. Həmzə bəy əmrə itaət edib, qalanı günlərlə mühasirə etmişdisə də qələbə hasil olmamışdı.[28] Buna baxmayaraq, Rum əsgərləri bir sıra qonşu kəndlərə hücum etmiş, Uzun Həsənin təbəələrinə xəsarət yetirmişdilər. "Onların azğın əməllərindən pərişan olan zavallılara Uzun Həsənin yanına gəlib, başlarına gələnləri anladaraq ağlamışdılar".[29]

Vəziyyəti belə görən Uzun Həsən tezliklə əsgərləri toplamış, "padşahın ədalət qanadları altında rahatlıq içində yaşayan xalqın canına qorxu salmışdır". Lakin o, ehtiyatla hərəkət edərək, sultanın Qoyluhisara tərəf hətəkət etdiyini eşidib, Ərzincanın kənarında olan Kəmax dağlarına çəkilmiş, "ölkələr fəth edən sultan ilə qarşılaşmaq istəməmişdi".[30] Amma Ağqoyunlu əmiri Xurşid bəyin başçılığı altında olan bir dəstə Ağqoyunlu döyüşçüsü Məndiz dağının yanında sultanın qoşunu ilə vuruşmuş, lakin məğlub edilmişdi.[31]

Uzun Həsən yaxşı bilirdi ki, II Məhəmməd tezliklə Ağqoyunlu dövlətinin Qara dənizə mühüm çıxış yolu olan Trabzona hücuma keçəcəkdir.[32] Ümumiyyətlə isə, Ağqoyunlu – Trabzon qarşılıqlı münasibətlərinin yaranması hər iki dövlətin mənafeyinə uyğun idi.

Vəziyyətin təhlükəli məqama çatdığını görən Uzun Həsən müvəqqəti də olsa, II Məhəmmədlə sülh şəraiti yaratmaq və onun Trabzona hücumunu bir qədər heyəti ilə birlikdə Osmanlı sultanının yanına göndərmək məcburiyyətində qaldı.[33]

Sədəddin Əfəndi yazır ki, Bulqar dağının ətəyində Sara Xatun yanındakı elçi heyəti ilə gələrək dövləti qapını döymüş və gətirdiyi ərmağanlara Uzun Həsənin salamlarını sultana yetirmişdi. Lakin sultanın Sara xatunu yaxşı qarşılaşmasına baxmayaraq, Osmanlı hökmdarı öz qəti qərarından dönməmiş, tezliklə Trabzon imperatorluğu ilə haqq-hesabı çürütmək məqsədi ilə səfərə çıxmışdı.

Bu məktubu alan Uzun Həsən yuxarıda göstərildiyi kimi, dərhal Sara xatunu Fatehin, Fateh isə oğlu Qutluşahı Uzun Həsənin sarayına yollamış, arada sülh bərpa olunmuşdu. Lakin sonradan göründüyü kimi, bu müvəqqəti barışıq uzun sürmədi, Fateh Trabzonu fəth etmək üçün Sara xatunu da özü ilə götürüb yürüşə çıxdı.[*] Sədəddin Əfəndi bildirir ki, Osmanlı ordusunda olan döyüşçülərin sayı o

[*] Bu barədə Səlahəddin Tansel belə yazır: "padşah quzeyə dönərək, Trabzona doğru yürüdü. O, Sara xatunun da daxil olduğu Uzun Həsənin elçilərini bu səfərində özü ilə aparırdı, çünki Uzun Həsənə etibarı yox idi. Padşah Uzun Həsənə məktub yazıb, onun anası ilə elçilərinin yalnız Trabzon fəth edildikdən sonra geri qaytarılacağını bildirmişdi (Gös, əsər, səh. 266-267).

qədər çox idi ki, cahanı işıqlandıran günəş atların göyə qaldırdığı tozdan qapqara qaralmışdı. "Sara xatun bu qədər əsgəri görərkən dedi: "Padşahım, bu zəhmət, bu yorğunluq sadəcə Trabzonun fəthi üçünsə, vücudunuza, ürəyinizə bu qədər əziyyət etməyə dəyərmi? Cahan hakimi bir qalanı almaq üçün belə məşəqqətə, belə zəhmətə baş əyərmi?" Sultan ona cavabında belə dedi: "Əlimizdə tutduğumuz qılınc islamın qılıncıdır".[34]

Mənbənin məlumatına görə, Trabzona olan yürüş zamanı Osmanlıların hərbi donanması da "Sinopdan çıxmış və özü çoxlu top, tüfəng və cəbbəxana çəkib gətirmişdi".[35]

Tarixçi Kamal Paşazadə əsaslanan Səlahəddin Tansel yürüş zamanı Osmanlıların Trabzon yaxınlığında olan bir dağı çox çətin keçdiklərini bildirdikdən sonra yazır: "Sara xatun bu əziyyəti bəhanə edib, padşahı bu səfərdən saxlamağı qənimət bildi və dedi: "Trabzon nədir ki, ondan örtü şahsüvari-meydani-səltənət piyada deyildir. Bu yerlər onları müsəlmanlara vətən yapmaq üçündür. Bu işdən ötrü çəkdiyimiz sıxıntılardan daha çoxunu da çəkmək yenə azdır" – dedi.[36] Beləliklə, 1461-ci ilin oktyabr ayının 26-da Trabzon dövləti süqut etdi. "İmperator başlara tac olan sultanın ətəyinə üz sürtdü, padşah da ona qarşı mərhəmətlə davrandı, könlünü aldı, çoluq-cocuğu ilə birlikdə səltənət dirəyi olan İstanbula göndərilməsini buyurdu... Trabzon xəzinəsində olan mal və əşyanın ən dəyərliləri, ən gözəlləri seçilərək Sara xatuna ərmağan edildi, öz yurdlarına dönmələrinə izin verildi".[37]

Nəticədə, "biçarə Komninin dövləti dağıldı".[38] Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, Uzun Həsənin imperiya yaratmaq cəhdi və Trabzon – Ağqoyunlu münasibətlərinin getdikcə daha da yaxşılasması Sultan Məhəmməd Fatehi qəti hərəkətə vadar etməyə bilməzdi. Çünki Uzun Həsənin Şərqdə qüvvətlənməsi, onun Venesiya, Trabzon, Roma papalığı və başqa dövlətlərlə artmaqda olan əlaqələri, onun həmin dövlətlərin mərkli siyasəti nəticəsində Osmanlı dövlətinə qarşı qızışdırılması Osmanlıların Ağqoyunludakı geniş fəaliyyətinə bir maneə idi. Fateh Trabzonu süquta uğratdıqdan sonra, Uzun Həsənlə öz arasındakı incikliyi aradan qaldırmaq üçün Trabzon imperatoru ilə yaxın qohum olan Ağqoyunlu hökmdarının ürəyini almaq məqsədi işə Trabzon xəzinəsində olan var-dövlətin bir hissəsini ona vermişdi.[39]

Trabzon Osmanlılar tərəfindən fəthindən sonra Qara dənizə çıxmaq imkanından məhrum olan Azərbaycan tacirləri öz mallarını, xüsusilə ipəyi Avropa ölkələrinə aparmaq üçün Suriya və Qaramana üz tutdular. Ağqoyunlularla ittifaqda, Osmanlılarla nifaqda olan Qaraman bəyliyi Uzun Həsənin Avropadan silah gətirə bilməsi üçün Aralıq dənizinə çıxan mühüm məntəqə idi. Qaraman bəyliyinin, həmçinin Osmanlı dövləti üçün də hərbi-strateji əhəmiyyəti vardı və elə buna görə də II Sultan Məhəmməd Türkiyə əleyhinə Avropa və Asiya hərbi blokunun yaradıla biləcəyi Qaramanı da ələ keçirmək barədə düşünürdü.[40]

Uzun Həsən Trabzonda itirdiklərinin əvəzinə Qaraman bəyliyini öz tərəfinə çəkməklə çıxmaq fikrinə düşmüşdü. O, bu niyyətlə, Osmanlı sarayı ilə nifaqda olan Qaraoğluları müdafiyə başladı. Elə Venesiya dövləti və Qaramanla əlaqə yarada bilmiş, hətta 1453-cü ildə onlar arasında bir sıra ticarət sazişləri və əhdnamə də imzalanmışdır. 1463-cü ildə isə İbrahim bəy "Ağqoyunlu və Venesiya ittifaqı"na qoşularaq onlarla birlikdə sənəd imzaladı.[41] 1464-cü ildə avqust ayının 4-də Qaraman əmiri İbrahim bəyin vəfatı ilə əlaqədar Qaraman böhranı daha da kəskinləşdi və Uzun Həsən öz rəqibi II Sultan Məhəmmədi qabaqlamaq məqsədi ilə Qaramana yürüş edərək, İbrahim bəyin oğlu İshaqi taxta əyləşdiri. Lakin onun hakimiyyəti uzun sürmədi. 1468-ci ildə Türkiyə Qaramana hücum edərək, bu bəyliyin də mövcudluğuna son qoydu.[42] Qaramanın Türkiyəyə birləşdirilməsi nəticəsində Ağqoyunlu hökmdarı özünün bir mütəffiqindən və Aralıq dənizinə çıxmaqdan məhrum oldu.[43]

Qara Yusifin və Qara Osmanın vəfatından sonra Qaraqoyunlu-Ağqoyunlu münasibətləri bir neçə il nisbətən qansız-qadasız davam etmişdirsə də, məlum olduğu kimi, Cahanşahın Qaraqoyunlu taxtına çıxması ilə (1435) həmin münasibətlər kəskin şəkildə pisləşir. II Murad II Məhəmmədə yazdığı son məktubunda Osmanlı sultanının Uzun Həsənə hücum etməyə çağırır.[44] 1467-ci ilin mayında Cahanşah Osmanlı sultanı tərəfindən şirnikləndirilərək öz silahlı qüvvələri ilə Diyarbəkirə tərəf yollandı. Sultan Məhəmmədin hökmü ilə onun Amasya valisi olan oğlu Bayazid öz döyüşçülərini gərək Cahanşaha köməyə göndərəydi. Lakin Qaraqoyunlu qüvvələri Ağqoyunluların müdafiə xəttini yarıb keçə bilmədiklərini üçün geri çəkilməyə məcbur oldular, nəticədə isə onları təqib edən Uzun Həsən Ərzincana doğru irəliləyərək, Qaraqoyunluları təqibə başladı. Hadisələrin sonrakı gedişi göstərir ki, Osmanlıların Qaraqoyunluları himayə etməsinə baxmayaraq, Uzun Həsənin qəfil hücumu nəticəsində Cahanşahın qoşunu məğlub olmuş, özü isə qətlə yetirilmişdi.[45] Beləliklə, Qaraqoyunlu dövləti süqut etdi. Bu hadisədən sonra Ağqoyunlu dövləti ilə Türkiyə arasında əlaqələr bir qədər gücləndi və zahiri "dostluq" xarakterində davam etməyə başladı.

Uzun Həsən Cahanşaha qalib gələn kimi II Sultan Məhəmmədə məktub yollayıb, onu bu hadisədən xəbərdar etdi. Onun məlumatına görə Cahanşah öz qoşun və ğvladlarını bir yerə toplayıb rəbiüs-sani (oktyabr) ayında "Ağqoyunlu üzərinə" hücuma keçmiş, Muş səhrasını adladıqdan sonra Uzun Həsənə məxsus olan Çubuqcivarda dayanmış, "o bəndə" isə (yəni Uzun Həsənə - Ş.F.) yeddi gün yol getdikdən sonra ona yetişmişdi. Məktubdan bəlli olur ki, Uzun Həsən böyük oğlu Sultan Xəlili 3 min süvarisi ilə birlikdə qaravul sifətilə irəli göndərmiş, müqabil tərəfdənsə həmin vəzifəni Cahanşahın əmir əl-ümərası Mir Qasım Pərvanəçi özünün 30 məşhur əmiri və 5 min süvarisi ilə icra etmişdir. Guya Cahanşahın məqsədi Ərzincan, Kəmax, Qarahisar və yuxarı tərəflərə gedib həmin yerləri viran etmək olmuşdur. Uzun Həsənin məlumatına görə, Qaraqoyunlu

əmirlərinin heç biri sağ qalmamış, 5000 süvarisi öldürülmüş, şahzadə Yusif Mirzə həbs edilmişdi. Qətlə yetirilənlərin kəsilmiş başları Ağqoyunluların qələbə rəmzi kimi başqa məmləkətlərə göndərildi. Belə ki, Cahanşahın başı Sultan Əbu Səid Gürgana, Məhəmmədi Mirzə, Rüstəm Təvaçi və divan hakimi Pirsalın başları isə "o həzrətin sarayına" yollanıldı. Məktubun sonunda Uzun Həsən Osmanlı sultanından xahiş edir ki, onu sadiq sansın ki, o da übudiyyət kəmərini belinə bağlayıb "əbədi dövlətin" duaçısı olsun.[46]

Göstərmək lazımdır ki, bu qələbədən çox keçmədən Uzun Həsən Cahanşahın oğlu Həsənli Mirzəni də edam etdirmiş və bu münasibətlə də II Sultan Məhəmmədə məktub yazmışdır. Onun yazdığına görə, Həsənli vilayətin ətrak və əkradını (türk və kürdlərin), təxminən 10 minə yaxın adamı öz tərəfinə çəkib, ölkədə "fisqufəsada, tuğyan və inada və təxribi-bilada" başlamış, lakin Azərbaycan yağınlığında qala bilməyərək, "təvəkkülət-Əliyullah" deyərək, Həmədana tərəf getmişdi. O, orada çoxlu məbəd və məcsid dağıtmış, qədəm qoyduğu hər yeri viran etmişdi. "Onun qəbahətli işlərini eşidib onu dəf etmək üçün [qoşuna] bir yerə toplanmaq əmrini verdim". Qoşunun tərkibindən çoxlu əsgərləri ilə şahzadə Uğurlu Məhəmməd bəy də vardı ki, qoşun onun sərkərdəliyi ilə Həsənəli üzərinə hücum etdi. Həmədan yaxınlığında baş verən döyüşdə Qaraqoyunluların son qüvvəsi məğlub olmuş, Həsənəli və yaxın adamları qətlə yetirilmişdilər. "İndi bütün Azərbaycan, İraq, Fars və Kirman məmləkətləri bizim hökmümüz altında asudə həyat sürür", - yazan Uzun Həsən bildirir ki, oğlum Həmədan fəthindən sonra Şiraz darül-mülkünə getdi, Bağdad hakimi Əmir Məhəmməd Tavaci öldüyünə görə Həsənəlidən sonra oğlum Zeynal bəy onun əvəzinə Bağdada hakim oldu. İraqe-ərəb də bizim hökmümüz altındadır. Aramızdakı məhəbbət və sədaqət ali dərəcədə olduğu üçün müjdənin sizə bildirilməsi vacib görüldü".[47]

Uzun Həsən özünün növbəti məktubunda Osmanlı sultanının elçisi Əmir bəyin gələrək məktub gətirdiyini bildirir.[48] Həmin məktubda duyulur ki, Uzun Həsən artıq tam hökmlü bir padşah olmuş, qonşu dövlətlərlə diplomatik əlaqələrə başlamışdı. "Herat hakimi Hüseyn Baykaranı təbrik etmək üçün elçilər və ləyaqətli hədiyyələr göndərdim". Sonrakı cümlədə məlum olur ki, Uzun Həsən Xorasan şahı Sultan Hüseyn Baykaradan o qədər də razı qalmamış, "Şahrux və Teymuri xanədanının üzvlərindən biri olan Yadigar Məhəmməd Mirzəni öz sarayına qəbul edib, onu gələcək Xorasan hökmdarı olmaq üçün "tərbiyə və təqviyə" etməyə başlamış, nəhayət ona böyük qoşun qoşaraq oğlu Sultan Xəlilin və adlı-sanlı əmirləri olan Yusif bəy, Şah Mənsur bəy və Əlican bəyin müşayiəti ilə Xorasana yollamışdılar. Nəticədə, həmin məmləkət alınmış, "Herat şəhəri Amu çayı və Hindistan sərhədinə qədər" Yadigar Məhəmmədə verilmişdir.[49]

Sonra Uzun Həsən Osmanlı sultanına bildirir ki, Mazandaran, Təbəristan, Sari, Əstərabad, Qumes, Damğan, Bəstam, Səmnan, Firuzguh və Ələrcanı oğlum Məhəmməd bahadıra verdim və sərhəddə "30 min kişi"ni mühafizə üçün saxladım.

Oğlum Zeynal bəyə isə Kirman və Sərcanı – Ümman bəhrinin sahillərinə qədər olan ərazini, Sultaniyyəni və başqa yerləri verdim.[50]

Məktubda yazıldığına görə, Zeynal bəy Xorasana yaxınlaşıb oranı zəbt etmiş, Uzun Həsən isə "20 min kişini" həmin ölkə sərhədini qorumaq üçün oranı saxlamış, Sultan Əbu Səid Mirzənin "basqınından" qaçıb Qarabağda Ağqoyunlu sarayına gələn Sistanın şahı Nimruz ölkəsinə göndərilərək, orada vali və hakim olmuş, böyük əmir Ömər bəy və bir neçə tümən və qoşun əmirləri Fars məmləkətini zəbt etmək üçün Şiraza göndərilmişdi. Uzun Həsən sultana bildiri ki, Şahrux və Cahanşah Luristanı ələ keçirmək məqsədilə bir neçə dəfə mühasirə tədbirinə əl atmışdılarsa da, bu onlara müyəssər olmamışdı. "Amma biz oranı fəth etdik Allaha şükür ki, ətraf yerlərdən bizə heç bir təhlükə və nigaranlıq qalmamışdır. Qışda Azərbaycanda qışlayırıq, baharda isə həmin ölkələrə gedirik".[51] Ümumiyyətlə, Uzun Həsənin bu məktubu doğrudan da olduqca qürurlu tərzdə yazılmış və onun son vaxtlarda əldə etdiyi qələbələr böyük təntənə ilə nəzərə çatdırılmışdır. Adətən, başqa məktublarında Osmanlı sultanının adından əvvəl 5-10 sətir təşbehli ifadələr işlədən Uzun Həsən bu naməsində cəmi bircə sətir təşbeh işlədərək II Sultan Məhəmmədə xəbər verir: "Salamdan sonra məlum olsun ki, bizə hər dəm təzə-təzə qələbələr və hər ləhzə əndazəyə sığmayan fürsətlər üz verməkdədir. Allah-taalanın inayəti sayəsində heç bir cəhətdən nigarançılığımız qalmadı. Qoy dövlət[imizin] dostları şad, xilafət[imizin] düşmənləri qəhr olsun. Vəzifənizdir ki, bu müjdələri eşidib dövlətxahlıq və yaxşı münasibətlərə cəhl edəsiniz".[52]

Uzun Həsən güman etmirdi ki, Osmanlı sultanına özünün neçə-neçə fəthini xəbər verməklə onu özünə qarşı qaldıra bilər. O, sonrakı məktublarında özünün fəthlərini nəinki bildirməməyə çalışmış, əksinə, sultana daha yeni qələbələri haqqında növbəti məlumatlarını vermişdir. Uzun Həsən sultana böyük qürur hissi ilə yazırdı: "Azərbaycan və İraq məmləkətlərini ələ keçirdikdən sonra yürüş yüyənini Fars istiqamətinə yönəltdim. Orada olan düşmənlərin və müxaliflərin surətinə ümidsizlik tozu çökdü. Pərən-pərən oldular. Fərzəndlərimiz və böyük əmirlərimiz onların arxasınca hücum etdilər. Ümid edirik ki, onlar tezliklə qalib gələcəklər. Hal-hazırda bütün Xuzistan və Fars məmləkətləri xənnaslara (şeytanlara - Ş. F.) tabe olmaqdan bezmişlər. Şiraz darül-mülkü səltənətin paytaxtı oldu. Böyük padşah Sultan Hüseyn Baykara tərəfindən bizə elçi [heyəti] gəldi. Onlar layiqli töhfələr gətirərək, sikkə və xütbəni bizim hümayun adımızla bəzədilər və bizə öz itaət və sədaqətlərini ərz etdilər".[53]

Uzun Həsənin son məktubunda əks olunmuş fəth xəbərləri II Sultan Məhəmməd Fatehin böyük qəzəbinə səbəb oldu. O, dərhal cavab məktubu hazırlayaraq onu Ağqoyunlu sarayına göndərdi. Qeyd olunmalıdır ki, bu iki hökmdar arasında gedən yazışma adətən fars dilində gedirdi. II Məhəmməd Ağqoyunlu padşahının bu məktubunu aldıqdan sonra nəinki ona yazdığı məktubun

tonunu, hətta dilini də dəyişərək, cavabını Osmanlı dilində verir ki, bu fakt da, artıq onların arasında ixtilafın başlandığını göstərir. Məktubun əvvəlində yazılırdı: "Mən hökmdarlar şahı Sultan Məhəmməd ibn Murad ibn Məhəmməd ibn Bayazid xanam".[54]

Osmanlı sultanı elə özünün ilk cümləsi ilə Uzun Həsənə öz əsil-nəcabətin xatırladır, əzəmətini nümayiş etdirirdi. Məktubun sonrakı cümlələri daha kəskin və eyhamlı ifadələrdir:

"Sən ki, sərdare-əcəm, xane-əzəm, Keyxosrove-yeganə, Firidune-zəmanə Həsən xansan Agah olasan ki, hər kəs [əgər] dövləti ilə qürurlanıb, həddindən artıq təcavüzə qurşanarsa, insafsız əməllər edərsə, [belə hərəkətlər] dövlətin əldən çıxmasına və məmləkətin zavala uğramasına səbəb ola bilər, sən gərək ağılla hərəkət edəsən, çünki bizim məmləkətimiz darül-islamdır. Ata-babadan bizim dövlətimizin çırağı kafir ellərindəki ürəklərin qanı ilə yanmaqdadır. Əgər sən nə sənə tabe olub kömək edənlər islam əhlinə qorxunc qəsd edirsinizsə dövlət və şəriət düşmənlərindən birisiniz. Bizim atımız...yəhərlənmiş, qılınclarımız qurşanmışdır. [sonradan] "bilmədim və ya qafil oldum" deməyəsən... Mübarək şəvval ayında sən Qarahasar qalasına hücum etdin. Mən gərək həmin qəsdə cavab olaraq sənin zülmünü məzlumların üzərindən götürüm və ad-sanından əsər qoymayım. Xülasə, sözü uzatmaq lazım deyildir. Mənim məktubuma cavab göndər. Vəssalam".[55]

II Sultan Məhəmməd dərhal oğlu sultan Mustafaya da namə göndərərək Uzun Həsənin Osmanlı sarayına kinayəli və ədəbsiz ("biədəbanə") məktublar yazmış olduğu, Qaramanlıların təhriki ilə onun "diyari-islama" qəsd etdiyini bildirir. "Onun dəf olunması üçün səni sərəsgər təyin edirəm. Anadolu və Rumeli bəylərbəyisi ilə* lazım gələn vaxtda onun üzərinə hücum edib, allahın köməyi ilə müdafiə qapılarında [dayanaraq] bir dəqiqəni belə fövt etməyəsən".[56]

Bu məktubda bizim diqqətimizi cəlb edən bir məsələ də nəzərə çatdırılmalıdır. Bu məktubundan başqa II Sultan Məhəmməd Fateh özünün heç bir naməsində Ağqoyunlu hökmdarının adını "Uzun" ləqəbi ilə qələmə almamış, onu "Həsən padşah", "Həsən şah", "Həsən sultan" şəklində qeyd etmişdir. Burada isə ilk dəfə olaraq Osmanlı sultanının məktubunda "Həsən"dən əvvəl "Uzun" sifəti işlənir: "Cahanşah padşahın və şəhid Sultan Əbu Səidin başlarına gələn hadisələrdən sonra taxta əyləşən Uzun Həsən".[57] Beləliklə, bu məktubundan

* XV əsrin ikinci yarısında Osmanlı imperiyası iki böyük canişinliyə bölünmüşdü: Anadolu və Rumeli bəylərbəyiliyi. Anadolu bəylərbəyiliyi Kiçik Asiyanı, Rumeli bəylərbəyiliyi isə Avropa torpaqlarını əhatə edirdi. hər bəylərbəyiliyin başında ən böyük feodal (bəylərbəyi) dururdu ki, bütün hərbi və inzibati hakimiyyət onun əlində cəmlənmişdi. Hər bəylərbəyilik sancaqbəyiliyə və sancaqlara bölünmüşdü. II Sultan Məhəmmədin hakimiyyəti vaxtı Kiçik Asiyada 20 sansaqbəyilik, Avropada isə 28 sancaqbəyilik vardı (Bax; A. D. Noviçev, Göst. əsər, səh. 65

başlayaraq, Osmanlı sultanının Ağqoyunlu şahına olan nifrəti özünü əyani şəkildə büruzə verir.

Atasından həmin məktubu alan Sultan Mustafa dərhal ona cavab yazır. Onun məktubundan məlum olur ki, Fatehin ona göndərdiyi məktub hələ yolda ikən, rəbiül-əvvəl ayının 14-də, Konya vilayəti yaxınlığında artıq Sultan Mustafanın, həmçinin Anadolu və Rum bəylərbəyilərinin ixtiyarında olan Osmanlı qoşunu ilə Uzun Həsənin qoşunu üzləşmiş, nəticədə Ağqoyunlular məğlubiyyətə düçar olmuşdular. "Başbuğları (başçıları - Ş. F.) olan Uzun Həsən də öldürüləcək və cəsədi ilan və qarışqaya yem olacaq, inşallah!" -yazan Sultan Mustafa bu müjdə xəbərli məktubunu Çaşnigirbaşı Mahmud vasitəsilə atasına göndərir.[58]

Sənədlərdən məlum olur ki, Sultan Məhəmməd Fateh Uzun Həsənlə döyüşdən qabaq ölkəsinin qazilərinə də məktub yazmış, ramazan ayından sonra "valiye-Şərq Uzun Həsən qəhrullaha" hücum edəcəyini bildirmiş, onların döyüş yerinə yollanmaları haqqında əmr vermişdi.[59]

Məlum olduğu kimi, XV əsrin II yarısındakı Türkiyə - Azərbaycan münasibətlərində əsas hadisələrdək biri Otluqbeli (yaxud Üçağızlı) vuruşması olmuşdur. Həmin döyüşün ətraflı təsvirinə başlamazdan əvvəl bu dövrdə Azərbaycanın və Türkiyənin siyasi mənzərəsinə bir qədər nəzər yetirmək faydalı olardı. "Təbriz və İranın ən qüdrətli padşahı"[60] olan Uzun Həsənin hakimiyyətinin son on ilində Ağqoyunlu dövlətinin tərkibinə aşağıdakı torpaqlar daxil edilmişdi: Cənubi Azərbaycan (Ərdəbil əyaləti istisna olunmaq şərti ilə) Qarabağ (şimalda Kür çayına qədər olan ərazi), Ermənistan, Kürdüstan, Diyarbəkir, İraqi-Əcəm, İraqi-Ərəb Luristan, Fars və Kirman. Ağqoyunlu dövlətinin mərkəzi vilayəti isə Cənubi Azərbaycan idi.[61]

Uzun Həsən ona qarşı çıxan böyük və kiçik dövlətlərin bir çoxu ilə uğurla mübarizə etmiş, onlara qalib gəlmiş, öz müstəqil dövlətini yarada bilmişdi. Əgər onun hakimiyyətinin başlanğıcında "Ağqoyunlu bəyliyi"ni mərkəz Diyarbəkirdə (Amid) olmaqla şərqdə indiki Türkiyə - Suriya sərhəddindən başlayaraq Mardinin şərqindən Urfanın qərbinə qədər, şimalda isə Ərzurum, ilə Sivasın şimalından başlayaraq Xərputa qədər uzanır və əsasən Ərzurum, Ərzincan, Xərput, Diyarbəkir, Mardin və Ruha kimi şəhərləri əhatə edirdisə, 1469-cu ilə qədər artıq Trabzon imperatorluğu, Qaraqoyunlu Cahanşah və Teymuri Əbu Səidin hakim olduqları yerlər də ələ keçirilərək, İran və İraq da daxil olmaqla böyük bir imperiya yaradılmışdı.[63] Lakin onun dövlət sərhədinin qərbində yerləşən Osmanlı imperiyası daim narahatçılığa səbəb olurdu. II Sultan Məhəmməd Qəstəntəniyyənin (Konstantinopolun) fəthindən sonra (1453), XV əsrin ən görkəmli Osmanlı tarixçilərindən Tursun bəyin "Tarixi-Əbülfəth" əsərindəki məlumata görə "iyirmidən çox məmləkət estenza edib (ələ keçirib - Ş. F.), onları öz mülki-mövrusuna zəmm etdi, name-sahibqirani (sahibqiran adını - Ş. F.) qazandı".[64] Şübhəsiz ki, belə vəziyyət Ağqoyunlu hökmdarını da təşvişə salmaya bilməzdi.

Doğrudan da XV əsrin II yarısında Kiçik Asiya və Orta Şərq hüdudunda Osmanlı II Sultan Məhəmməd və Ağqoyunlu Uzun Həsəndən qüdrətli hökmdar yox idi. Təəssüf ki, onlar iqtisadi və hərbi-siyasi mənafe baxımından bir-birlərinə qarşı durmuşdular. Mənbənin məlumatına görə, Uzun Həsən özünün bəzi üməra (əmirlər) və püdəması (nədimləri) ilə söhbət əsnasında belə demişdi: "Sultan Məhəmməd yaman ğərimdir (rəqibdir - Ş. F-), yaxşı padşahdır, onunla bulaşməğə (əlaqə saxlamağa - Ş- F.) niyyətim vardır".[65] Doğrudan da əgər belə əlaqə baş tutsaydı, bəlkə də, nahaq qanlar tökülməz, hadisələrin axını hər iki dövlət başçısının, eləcə də osmanlı və ağqoyunlu tayfalarının uğuru ilə nəticələnərdi. Ancaq belə olmadı.

1469-cu ilə qədərki əsasən uğurlu, qismənsə uğursuz siyasi fəaliyyətindən sonra Uzun Həsənin bircə rəqibi qalmışdı ki, o da II Sultan Məhəmməd idi. Qaramanda da öz nüfuzunu bərqərar edib, oğlu Sultan Mustafanı Qaraman oğlular Pirəhməd və Qasım bəyin əvəzinə orada yerləşdirən Fatehin özünün də Uzun Həsənin şəxsində böyük bir düşməni qalmaqdaydı.

1472-1473-cü ilin qışında hər iki tərəf yaxın vaxtlarda baş verə biləcək müharibəyə ciddi hazırlaşmağa başladı. Uzun Həsənin ordusu əsasən ənənəvi Şərq silahları ilə silahlanmış olduğundan, təbiidir ki, Osmanlıların odlu silahları müqabilində zəif idi və Uzun Həsənin özü də bunu bilirdi. Məhz buna görə də, Uzun Həsən necə olursa-olsun yenidən Aralıq dənizi sahillərinə çıxmaq və Qərbdən odlu silah ala bilmək imkanını qazanmaq ümidində idi. O, həmin məqsədlə Fərat çayının sağ sahilində olan məmlük torpaqlarını tutmağa cəhd etdi.[66] Uzun Həsən eyni zamanda öz nümayəndələrini Avropa ölkələrinə də yollayaraq, ona vəd olunan odlu silahın tezliklə göndərilməsini tələb etdi. Ağqoyunlu diplomatları həkim İshaq və Hacı Məhəmməd bu tələbi onlara çatdırmaq üçün Avropaya yollandılar. Tezliklə Venesiya dövləti öz səfiri İosafat (Sozafa) Barbaronu 10 nəfərdən ibarət bir diplomatik heyətlə Ağqoyunlu sarayına yola saldı.[67]

1471-1473-cü illərdə Ağqoyunlu dövlətində səfir olan venesiyalı Katerino Zeno Osmanlı hökmdarı II Sultan Məhəmməd və Ağqoyunlu şahı Uzun Həsən arasındakı münasibətlərdən bəhs edərkən, onların hər birinin böyüklüyünü qeyd etmiş, birinin digəri üçün təhlükəli rəqib olduğunu nəzərə çatdırmışdır. Katerino Zenonun Osmanlı hökmdarı haqqında belə bir qeydi vardır: "İran tarixçilərinin yazdıqlarına görə, türk sultanı II Məhəmməd qorxurdu ki, əgər Uzun Həsən [belə] həşəmətlə yüksələ bilsə, günlərin bir günü ona ziyan vura bilər". Həmin müəllif Ağqoyunlu hökmdarı haqqında isə yazır: "Osmanlı ordusunun əzəməti Asiya və Avropa xalqlarını mat etmişdi. Uzun Həsən böyük şahlara xas olan bir iş gördü. O, ale-Osmanın (Osmanlı sülaləsinin - Ş. F.) əzəmətli qüdrətinin İran şahlığını dağıda biləcəyi ehtimalını edərək, Trabzon imperatoru Kalo İoanneslə (Kalo İoanni) birlik haqqında peyman bağladı və qohumluq yaratdı".[68]

Roma papası III Kalikstusun (Salixtus) elçisi Uzun Həsənin yanına gəlib, Osmanlılara qarşı ittifaq təşkil etmək zərurətini ona bildirdikdə o, bu təklifi müsbət qarşılamış, öz elçisini də papanın yanına göndərmişdi. Ağqoyunlu elçisi alman imperatoru III Fridrixə (Friedrich) də demişdi ki, Uzun Həsən Osmanlılar üzərinə yürüş etmək üçün 50 minlik bir qoşun hazırlayır, gərək yürüş yalnız şərqdən deyil, həmçinin sizin vasitənizlə qərbdən də başlasın".[69] Beləliklə, məlum olur ki, Ağqoyunlu hökmdarı Osmanlı hökmdarına qarşıdakı ölüm-dirim mübarizəsində qalib gəlmək üçün özünə Avropanın başqa-başqa dövlət başçılarının şəxsində də müttəfiq tapmağa cəhd etmişdir. Venesiya səfiri Sozafa Barbaro bu haqda belə yazır: "Osmanlı sultanı və alicənab Siqnora (Signorla) arasında 1471 (h. 876)-cı ildə baş verən döyüşlər zamanı məni İran padşahı Həsən bəyin səfiri ilə birlikdə oraya (İrana - Ş. F.) yolladılar. Həsən bəyin səfiri ona görə Venesiyaya gəlmişdi ki, bu respublikanı Osmanlı sultanı ilə müharibənin davamı üçün təhrik etsin".[70] C. Barbaro "Səyahətnamə"də Uzun Həsənin Burqundiya və Rusiya ilə də saziş bağlamaq istəyini və bu məqsədlə həmin ölkələrə səfir yollamaq meylini qeyd etmişdir. Onun məlumatına görə, o özü Ağqoyunlu sarayında olduğu zaman həmin ölkələrə gedəcək Ağqoyunlu elçiləri ilə görüşmüşdü.[71]

Digər tərəfdən elə Avropanın bir sıra dövlətləri də Uzun Həsənlə ittifaqa girərək, məhz onun əli ilə Osmanlı imperiyasını məğlub etmək niyyətində idilər. Katerino Zenonun "Səfərnamə"sini çap üçün hazırlayan Ramozio bu xüsusda yazır: "Öhdəmə götürmüşəm ki, cənab Katerino Zenonun - o nəcibzadənin İran səfərinin şərhini bəyan edim. Bu səfər elə bir vaxtda baş verdi ki, bizim respublika (yəni Venesiya – Ş.F.) türklərlə də yüşürdü və biz istəyirdik ki, onları şərq səmtindən Uzun Həsənin qoşunu vasitəsilə məğlub edək."[72] Ramozio sonradan nəzərə çatdırır ki, əgər Uzun Həsən Fərat çayı kənarında Osmanlılarla etdiyi birinci döyüşdə və Sultan Məhəmmədlə etdiyi ikinci döyüşdə (məşhur Otluqbeli döyüşü - Ş. F.) qalib gəlsəydi, heç şübhəsiz həmin qələbə ilə özünü Asiya və Misirin sərvəri etmiş olardı".[73]

Ümumiyyətlə XV əsrin II yarısından başlayaraq bir çox Asiya və Avropa dövlətlərinin hər biri həmin regionda öz siyasi qüdrətini artırmaq barədə düşünür və bu sahədə fəaliyyət göstərirdi. Məsələn, Venesiya respublikası bir sıra kiçik İtaliya dövlətləri ilə, Polşa Macarıstanla, Türkiyə Yunanıstanla rəqabət aparırdı. Biz yuxarıda qeyd etdik ki, Ağqoyunlu və Venesiya dövlətləri arasında qarşılıqlı mənafe baxımından bir neçə saziş bağlanmış və onlar Osmanlı hücumuna qarşı bir-birlərinin köməyinə bel bağlamağa boyun olmuşdular. Belə bir şəraitdə Osmanlı dövləti də öz növbəsində Venesiya ilə sazişə cəhd göstərdi. Katerino Zenonun yazdığına görə, "Osmanlı sultanı bizim respublikamızla dostluğun əhəmiyyətini dərk etdiyi üçün barışıq yolu axtarırdı. Ağsaqqallar məclisinin üzvləri isə görürdülər ki, başqa ölkələr türklərin əli ilə artıq məğlub edilmiş olduğundan onların özü də asanlıqla fatehlərin qurduqları topa düşə bilərlər.[74]

Venesiya səfirlərinin "Səyahətnamə"lərini mütaliə etdikcə bir çox diplomatik danışıqların şahidi oluruq. Katerino Zeno bildirir ki, eyni vaxda həm Osmanlı həm də Ağqoyunlu dövlətinin səfirləri gələrək onlara ittifaq təklif etdilər, nəticədə isə "Venesiyalılar Şərqin ən böyük padşahının bu döyüşdə (Osmanlılarla olacaq döyüşdə - Ş.F.) onlarla əlbir olmaq istəyini görüb sevindilər və məhz onun təklifini qəbul etdilər".[75]

Uzun Həsən yuxarıda deyildiyi kimi Osmanlılara qarşı müharibə hazıtlığı üçün yalnız Venesiya respublikası ilə deyil, başqa dövlətlərlə də sazişə girmək istəyir, bu işdə fəaliyyətini genişləndirirdi. Belə ki, 1470-ci ildə də onun tərəfindən Roma papası və Neopol kralının yanına elçi heyəti göndərilmi. Və onlara Osmanlılara qarşı ittifaq yaratmaq təklif olunmuşdu.[76] Katerino Zenoya görə elə təklif "Gürcü padşahı" Kvarkvareyə də edildi.[77]

Bəkir Sidqi Baykalın yazdığına görə, Uzun Həsən o vaxtlar hərbi qüvvə cəhətincə heç də Fatehdən geri qalmırdı. Türk tədqiqatçısı Rəhməti Aratın çap etdirdiyi "Fateh Sultan Məhəmmədin yarlığı" adlı sənəd öz fikrinin sübutu üçün B. S. Baykalın əlində əsas olmuşdur. O, yazır: "Fatehin yanından qaçan. Yaxud onun düşməni olan bir çox bəy onun (Uzun Həsənin – Ş.F.) yanında qalmaqda idi".[78]

Doğrudan da, həmin yarlığı mütaliə etdikcə görmək olur ki, "vələdi xudavəndigar Qaramanoğlular Pirəhməd və Qasım bəy, İsfəndiyar oğlu Qızıl Əhməd bəy, Gərmiyanoğlu (?), Qazanlı oğulları, ölkənin halından, xəzinədən və ordunun vəziyyətindən xəbərdar olan dəftərdar Məhəmməd Çələbi" də gəlib Ağqoyunlu qoşununa qoşulmuşdular.[79]

Qeyd etmək lazımdır ki, yuxarıda adı çəkilən yarlıq 1473-cü ilin avqust ayının 30-da Qarahasarda yazılmışdır. "Yarlıq Osmanlı tarixinin bu səhifəsini aydınlaşdıracaq bir çox yeni məlumat və xüsusilə bu müharibədə iştirak etmiş olan hət iki dövlətin əsgəri təşkilatı, qüvvələri, texnikası və komandanları haqqında mühüm təfsilat ehtiva etməkdədir".[80]

Yarlığın başlanğıcında belə bir cümlə var: "Uzun Həsən bəy Toqat şəhərini yaxdığı üçün, əsgəri şövq edib, onunla savaşmaq niyyətilə gəlmişdik".[81]

İbn Kamalın "Təvarixe-ale-Osman" əsərinin əhatə etdiyi dövrdə baş verən hadisələr haqqında yalnız məlumat baxımından deyil, eyni zamanda hadisələrin izahı, səbəb və nəticələri və bir çox orijinal qeydləri baxımından da başqa müasir Osmanlı tarixlərindən üstün bir qaynaq olduğu qənaətində bulunurdu".[82] İbn Kamal həlledici döyüş hadisəsinin izahından bir qədər əvvəl hər iki hökmdara olan münasibətini şeirlə belə ifadə etmişdir:

"Qeysəri-Rum ilə Kəsrayi-əcəm,
Ol Sikəndərxil, bu Darahəşəm,
Ol Məhəmməd xan şəhe-keşvərguşa,
Bu Həsən xan Xosrove-fərmanrəva,

Nə səbəbdən cəngə ahəng etdilər?
Noldu bais kim bular cəng etdilər?
Hüsne-təqrir ilə tərif edəlim,
Əhsəne-vəch ilə təsvir edəlim".[83]

İbn Kamal Uzun Həsənin 1470-ci ilə qədərki siyasi uğurları bir-bir sadaladıqdan sonra yazır: "Cahangirlik havası ol tağinin dimaqinə doldu, sevdayi-Rum dəryasına təlib, ol buma talib oldu. Qaramanoğlu İbrahim bəyin oğulları Pirəhməd bəy və Qasım bəy qaçıb yanına vardılar, yalvardılar. Sonra o bədgirdar 30 min mərde-nəbərdi və süvarini diyare-Ruma göndərdi. Öz sipəhsaları Əmir bəyi və qardaşı oğlu Yusif şahı ona yoldaş etdi. Qəfildən Ərzincana gəlib, oradan hücum edərək bume-Ruma girdilər. Diyare-Rumun sipəhsaları Şərabdar Həmzə bəy Toqatda eyşü-işrət edib otururdu. Əmir bəy sərhədde-Sivasdan keçərək gecə hücum edib kişvəre-Ruma girdi. Toqat bəldəsinə (ölkəsinə, vilayətinə - Ş. F.) neçə müddətdi yağı ayağı dəyməmişdi, dəydi. Neçə nazənin bədənləri soyundurub üryan elədilər. Bu xəbər sultana çatdı. Ərkane-eyvane-divana buyuruldu, səfərezəfərəsərin yarağın və yasağın qayırıb gördülər (hazırladılar - Ş. F). Amma təcrübəli vəzirlər və əmirlər dedilər: "Biz buradan ora gedənəcən bir ay çəkəcək. Əyyame-şita (qış fəsli - Ş. F.) yaxındır, uzağa səfər həngamı deyil. Yaz gələnə qədər təxir edək". Sultanı inandırdılar. Elə ki, türkman qoşunu Toqatı yaxıb dağıtdı,* Əmir bəy döndü Mirzə Yusif şah Qaraman tərəfə getdi. Ağsaraya çatdılar Ağşəhər diyarına getdilər. Şahzadə sultan Mustafa o vaxt diyare-Qaramanın şəhriyarıydı, hiylə işlətdi, yol verdi. Əflatun binarı deyilən yerin yaxınlığında Ağqoyunlu çərisini qoyun sürüsü kimi tarü-mar qıldılar. İki yüz sərdar əsir alındı. Sərxeyle-türkman olan Yusif şah da əsir alındı, əsgərləri qırıldı. Həsən xan etdiyi işə peşiman olub qayıtdı. Fərat çayı kənarına varınca, Ərzincan və Kəmaxda olan kaxları xak ilə yeksan etdi. Sultan şəhriyare-İranzəmin Həsən xan diyarına əvvələbaharda səfər əzəmətini müqərrər etdi".[84]

"Fateh Sultan Məhəmmədin yarlığı" 1473-cü ildə olduqca kəskinləşən Ağqoyunlu-Osmanlı münasibətlərinin isə cərəyan etdiyini bəyan edən ən mühüm sənəddir. Yarlığın əvvəlində Otluqbeli döyüşünün başlanma səbəbi - "Osmanlı hökmdarının Uzun Həsən bəyin Toqat şəhərini yaxdığı üçün, əsgər toplayıb onunla savaşmaq niyyəti ilə" gəldiyi göstərilir. Fateh Məhəmməd Uzun Həsəni Ərzincan vilayətində gözləmiş, lakin Ağqoyunlu hökmdarı hələlik Osmanlı qoşunu ilə

* Toqat şəhərinin Uzun Həsən tərəfindən dağıdılmasının səbəbini izah edən Xəlil İnalcık yazır: "İpək gətirilərkən Osmanlılar iki yerdə gömrük haqqı alırdılar: Toqatda və Bursada. İranlılar Toqatda gömrük haqqı alınmasından çox şikayətlənmişdilər. Uzun Həsən bunu Fatehin çıxardığı haqsız bir bidət sayır. Həmin işi pisləyirdi. 1472-ci ildə Ağqoyunlular Toqatı alıb təxrib etdilər"(Bax: Halil İnalcik, Bursa. XV asir sanayi ticaret tarihine dair vesikalar, Türk Tarih Kurumu, Belleten, cilt XXIV, sayl93, Ankara, Ocak, 1960, s. 52.

qarşılaşmağı məsləhət bilməmişdi.[85] Yarlığın şəhadətinə görə Uzun Həsən divanbəyi Məhəmməd bəy və əmir Cəmşid bəyin komandanlığı altında 5 min nəfərlik qarovulu[**] Ərzincanda Osmanlılara qarşı göndərdi. Müqabil tərəf də Türəxan bəyin oğlu Ömər bəyin başçılığı ilə bir o qədər əsgərlə onlara qarşı çıxdı. Həmin döyüşdə Ağqoyunlu qoşunu basılmış, 50-yə qədər adamı əsir düşmüşdü.[86]

Yarlıqdan məlum olur ki, Uzun Həsənlə həlledici döyüş məqsədi ilə Fateh Məhəmməd Ərzincan gədiyini aşmış, rəbiül-əvvəl ayının 9-da (avqustun 2-də) Uzun Həsən ona qarşı gəlmişdi. İlk qarşıdurma Ağqoyunlu və Osmanlı qarovul dəstələri arasında olmuş. Ağqoyunlular "bir qaç kişini əsir almışdılar".[87] Vəziyyəti belə görən Osmanlılar hərbi manevr işlətdilər. "Ondan sonra biz oradan çıxıb, Bayburt tərəfə yürüdük. O (Uzun Həsən - Ş.F.) bizim geri dönərək Ruma getdiyimizi zənn etdi".[88]

Döyüş rəbiül-əvvəl ayının 16-da (11 avqust 1473) çərşənbə günü Başkənd yaxınlığında, Otluqbeli adlanan yerdə baş verdi. Yarlığa görə, Ağqoyunlu qoşununun hərbi tərtibatı aşağıdakı kimi idi:

pişdarda (münqəlay) yaxud öndə-Uzun Həsən, Təvaçi Bayandur bəy, Əli Mirzə, Şahəli bəy Pornak, İbrahim şah bəy, Kavur İshaq;

cəvanğar (sağ qol) alayında-Uzun Həsənin oğlu Zeynal Mirzə, Qaramanlı Pirəhməd, Məhəmməd bəy, Süleyman bəy, Möhrdar Şeyx Əli, Əli paşa;

bəranğar (sol qol) alayında-Uğurlu Məhəmməd, sahibəran Teymur bəyin övladlarından: Məhəmməd Bəkir Mirzə, Zeynal Mirzə və Müzəffər Mirzə, Hacı bəy, Rüstəm bəy və ŞahMəhəmməd bəy.

Osmanlı qoşunu isə aşağıdakı şəkildə tərtib olunmuşdu:

Pişdarda - Davud bəy və Mahmud paşa, yeniçəri dəstəsinin önündə Sultan Məhəmməd Fateh;

bəranğarda - şahzadə Bayazid Sultan, Mahaloğlu Əli bəy, Məhəmməd paşa və Mənsur bəy;

cəvanğarda - şahzadə Mustafa Sultan və İsgəndər bəy;

qərargahda - Əlvan bəyin oğlu Sənan bəy, Əliyyə bəyin oğlu Xosrov bəy, Həmideli bəyi Məsih bəy və Yanya (?) sancaq bəyi Sənan bəy.[89]

Osmanlı müəllifləri bir qayda olaraq Otluqbeli döyüşünün gedişini Osmanlı qoşununun mütləq qələbəsi ilə izah edirlər. Katerino Zenonun "səfərnamə"sinə müqəddimə yazan ingilis mütərcimi Çarlz Qreyin məlumatına görə, döyüş nəticəsində güclü müqavimətə rast gələn "Böyük türk" ("Grand-Tirk" – "Torke bozarg"), yəni Sultan Məhəmməd Fateh geri dönmək məcburiyyətində qaldı. Uzun Həsən onu təqib edərək, yenidən döyüşə girdi və məğlub oldu.[90] Qeyd etmək

[**] Qarovul - düşməni qarşılamaq üçün müəyyən bir yerdə yerləşdirilən ön qüvvə. Olduqca mühüm olan bu əsgər qrupun vəzifəsi düşmənlə ola biləcək ilk çarpışmaya girmək və onun hərbi qüdrətini müəyyənləşdirmək idi (Bax: D-r Rəhməti Arat. Göstərilən əsər, 308-309).

lazımdır ki, həmin döyüşə çıxarılan Osmanlı əsgərlərinin sayı Ağqoyunlu döyüşçülərinin sayına nisbətən çox olmuşdur. Katerino Zenonun yazdığına görə, Uzun Həsən Osmanlı qoşununun böyüklüyünü görərkən demişdi: "Hay qəhbəsən. Nə dəryadır!".[91] Həmin heyrət Ancolellonun "səfərnamə"sində dəy təxminən yuxarıdakı kimi səslənmişdir: "Bay qəhbəsən, nə dəryadır!"[92]

Osmanlı ordusu həmin döyüş zamanı yalnız türk döyüşçülərindən deyil, təsir altına saldığı başqa dövlətlərin də hərbi qüvvəsindən istifadə etmişdir. Rumıniyalı (rumani) bəylərbəyi Murad Pelyologiusun su yolu ilə sultanın köməyinə gəlməsi barədə məlumat vardır. Katerino Zeno bildirir ki, türklərin birinci döyüşdə məğlubiyyətindən sonra vuruşma yenidən başlanmış, Ağqoyunlu qoşunu məğlub edilmişdi. Nəticədə 10 min iranlı, 14 min osmanlı öldürülmüşdü.[93] "Yarlığ"ın məlumatına əsasən deyə bilərik ki, döyüş olduqca qızğın keçmişdir. Sultan Məhəmməd Fateh yazır: "Bu arada Həsən bəy gəlincə, bizim öndəki qarovul bəyləri, Davud bəy Anadolu xalqı ilə və Mahmud paşa komandalarında bulunanlar yürüyüb, onun (Uzun Həsənin - Ş. F.) irəli qarovul bəylərinə yetişdilər. İki üç dəfə Həsən bəyin irəli qarovul bəyləri bunları bəri sürdü və bunlar da onun irəli qarovul bəylərini geri sürərək, sancaqlarının bulunduqları yerə qədər püskürtdülər.

Bu orada biz allah-taalanın inayətiylə və ərənlər himmətiylə əsgərləri tərtib edərək dərədən çıxdıq. Həsən bəy bizim böyük qol alayını görər-görməz müharibəyə girmədən buraxıb qaçdı. Yanındakı bəylərindən Pərvanəçi Qazioğlu Əli bəy, Qazi Mahmud Şureyhi, Pirqara bəy, Dara oğlu Ümmət bəy, Qızıl Əhməd, Tirək Sinanoğlu Aləm bəy, Əmir bəyin qardaşı Gurəli bəy, Kəmax bəyi Süvar bəy, Həsən bəyin silahşurları, süfrəçiləri və nədimlərindən, xassə Ağqoyunlu bəyləri və igidlərindən minə yaxın adam yaxaladılar, sancaqları, təbilxanələri, borazançı (?), zurnaçı və nəfirçilərinin hamısını aldılar. O gün axşama qədər ovada (obada - Ş.F) ölənlərdən başqa 4 min baş kəsib və 3 min 700 kişi də diri olaraq yaxalayıb gəldilər. Biz də bu qələbəliyi təhqiq etdik. Ağqoyunlu və Qaraman xalqından əsir düşən adamlardan kim varsa qılıncdan keçirərək cəzasını verdik. Qaraqoyunlu cağatay xalqına (Qaraqoyunlu ordusunun tərkibində döyüşən özbəklərə - Ş.F.) şəfqət edib öldürmədik. Bunları əsir edib, [özümüzlə] birlikdə götürməkdəyik. Ovada ölənlər hesab edilərsə pək çox adam öldü".[94]

"Yarlığ"ın məlumatı Xoca Sədəddin Əfəndi tərəfindən də təkrarlanır. Sədəddinə görə döyüşdən sonra "adlı gözəl padşah" (Məhəmməd Fateh - Ş.F.) üç gün savaş yerində dincəldi. Alim və sənətkarları əfv edib, İstanbula göndərdi. Onların arasında İraqi-Əcəmdən olan Qazi Mahmud Şüreyhi və Nişançı Seyid Məhəmməd Münşi də var idi. Sultan həmin üç gün ərzində əsir tutulanları gözdən keçirib üç hissəyə ayırmış, Ağqoyunlu tayfa başçılarını qətl, Qaraqoyunlu əmirlərini əfv, bəzi hökmdarların, məsələn Teymurləngin nəslindən olan şahzadələri isə (Mirzə Məhəmmədi Bəkir, Mirzə Müzəffər) həbs etdirmişdi.[95]

Sultan Məhəmməd Fateh yazır: "Ondan sonra Bayburt hasarına yürüdük. Allah-taalanın inayəti ilə onu da aldıq. Bütün qəsəbələrini və hasarını yıxdıq. Fəqət müsəlmanların qadınlarını və cocuqlarını incitmədik. İndi tanrı inayətiylə qışlamaq üçün İstanbula gəlməkdəyik. Tarix səkkiz yüz yetmiş səkkiz ilin ili, rəbiül-axir ayının beşində, Qarahisarda ikən yazıldı".[96]

"Yarlıq"da Məhəmməd Fatehlə Uzun Həsən arasında müharibənin səbəbi kimi Ağqoyunluların Toqat şəhərinə hücum edib oranı ələ keçirmələri göstərilir. Bu əməliyyat Osmanlı qoşununun hücumu üçün bəlkə də bir bəhanə olmuşdur. Səbəb daha dərindədir. Anadolunun böyük bir hissəsini öz hakimiyyəti altında birləşdirməyə nail olan Osmanlılar qarşılarındakı Bizans imperiyasının son mühüm nöqtəsi olan İstanbulu fəth etdikdən sonra Anadolunun başqa yerlərini də yavaş-yavaş ələ keçirməyə başlamışdılar. O dövrdə Ağqoyunlu dövlətində baş verən hadisələr Osmanlıların bu hərbi siyasətinə maneçilik törətməyə başladı. Uzun Həsən Qaraqoyunluları məğlub etdikdən sonra, yerli müstəqil bəylikləri öz ətrafına birləşdirməyə çalışır, bir sıra Anadolu bəylərini Osmanlı dövlətinə qarşı çıxmaq üçün rəğbətləndirirdi. Sultan Məhəmməd Fateh elə buna görə də ona rəqib olan Ağqoyunlu dövlətini aradan götürmək, heç olmasa onu Anadolu məsələlərinə qarışmamağa məcbur etmək istəyirdi.[97]

Məlum olduğu kimi, Otluqbeli döyüşü Ağqoyunluların məğlubiyyəti ilə nəticələndi. Həmin məğlubiyyətin əsas səbəblərindən biri prof. Yaqub Mahmudov tərəfindən göstərilmişdir. Belə ki, Uzun Həsənin öz Qərb müttəfiqləri ilə bağladığı müqaviləyə əməl olunmaması və onların "Ağqoyunlu ordusuna hərbi mütəxəssislər və odlu silahlar göndərməkdə tələsməmələri" Otluqbeli məğlubiyyətinin səbəblərindən biri və başlıcasıdır. İkiüzlü siyasət yeridən Venesiya respublikası Ağqoyunluların hərbi uğurlarından istifadə etməklə Osmanlı Türkiyəsini boğmağa ümid etdi. Nəticədə, Ağqoyunluların son vaxtlarda əldə etdikləri bütün yerlər yenidən Osmanlıların nüfuzu altına düşdü.[98]

Qələbə əldə edilən kimi Sultan Məhəmməd ətraf yerlərə, qəbul olunmuş qayda üzrə, fəthnamələr göndərərək bu xəbəri tezliklə hər yana car etdi. Onun öz oğlu Sultan Cəmə göndərdiyi məktubda həmin döyüşün başlanmasında səbəb kimi Uzun Həsənin "müsəlmanların mal və mənalını, ətfal və əyalını qarət" etməsi və onun dəf edilməsinin "darül-islamdan şərən və əqlən vacib olduğu" göstərilir.[*] Sultan Məhəmməd sonradan Xorasan şahı Sultan Hüseyn Baykaraya da bu fəth münasibətilə məktub yollamış, orada "onun (Uzun Həsənin - Ş.F.) bütün ölkəsini

[*] Uzun Həsənin qətl və qarəti haqqında, şübhəsiz ki, mülahizələr müxtəlifdir. Osmanlı müəllifərindən fərqli olaraq İran müəllifləri, əksinə, qətl və qarət işində Osmanlı sultanını töhmətləndirirlər. Məs: Fəzlullah ibn Ruzbehan Xuncinin məlumatına görə Uzun Həsən sərhədləri və yolları mühafizə edir və hətta 400 zaviyə, rabat və xanəgah tikdirmişdir. (Bax: Fəzlullah Xunci. Göstərilən əsər, səh. 41).

ələ keçirə bilərdim, amma o, bir əziz danışmədi sülh üçün yanıma göndərdi" yazaraq Ağqoyunlu hökmdarının qüsurunu əfv etdiyini bildirir.[99]

Bu xüsusda d-r Səlahəddin Tansel də məlumat vermişdir: "Şərqdə getdikcə böyüyən və Osmanlı dövlətini təhdid edən Ağqoyunlulara qarşı Fateh həqiqətən bir qədər çəkingən hərəkət etdi. Bu məsələdə, heç şübhəsiz ki, Uzun Həsənin böyük hərbi qüvvəsinin mövcudluğu amil olmuşdur. Ehtimal ki, Fateh Uzun Həsənlə qarşılaşmaqda, Teymur-Bayazid faciəsini göz önünə gətirərək, tərəddüd edirdi. Bəlkə də, iki müsəlman hökmdarın vuruşması padşaha xoş deyildi. Buna Otluqbeli savaşının baş verməsi ən gözəl misaldır. Məğlub olan Uzun Həsənin təqib olunması məsələsi ortaya çıxan vaxt divanda bu təklif lüzumsuz yerə rədd edilir. Halbuki məğlub olan bir ordunu təqib edərək tamamilə yox etmək hərbin dəyişməz qaydalarındandır. Bu qaydanın elə o zaman da mövcud olmasına görə həmin təqib zəruri idi. Lakin belə olmadı, çünki padşaha (Fatehə - Ş.F.) görə, müsəlman bir hökmdarı taxtından uzaqlaşdırmaq düzgün əməl sayılmamışdır. Sonralar iki hökmdar arasında elçi get-gəli də olmuşdur".[100] Amma Sultan Məhəmməd Fatehin Sultan Hüseyn Baykaraya yazdığı məktubdan məlum olur ki, Uzun Həsən Otluqbeli məğlubiyyətindən sonra yenə də Osmanlı sultanına qarşı xoşagəlməz hərəkətlər etmişdir, onun başqa əmir və qoşun başçılarına Osmanlı sultanı əleyhinə yazdıqı məktublar ələ keçirilmişdi. Buna görə də Sultan Məhəmməd Sultan Hüseyn, Baykaradan xahiş edib yazırdı: "İndi onun (Uzun Həsənin – Ş.F.) dəfi və məni vacibdir. İndi siz də namusa riayət edib, ondan intiqam almaq üçün hücum edin. Biz də bu tərəfdən bütün əsgərimizlə hücuma keçəcəyik".[101]

Otluqbeli döyüşündə Uzun Həsənin qoşununda vuruşub, əsir düşən üç Teymuri şahzadəsinin xilası üçün edilən bir cəhd olduqca maraqlıdır. Çünki bu məsələ ilə əlaqədar məktubları nəzərdən keçirdikdə bir sıra maraqlı məsələlər üzə çıxır. Belə ki, Miranşahın artıq qocalmış gəlini Ruqiyyə xatun üç şahzadənin əsirlikdən azad edilməsi barədə Osmanlı vəziri Gədük Əhməd paşaya ərizə göndərərək bu xüsusda ondan kömək istəmişdir. Ərizə dərhal vəzir vasitəsilə hümayun dərgaha (saraya - Ş.F.) çatdırılmış və Sultan Məhəmməd Ağqoyunlu şahzadələrinin əsirlikdən azad edilməsi müqabilində böyük məbləğdə qan bahası (xunbəha) tələb etmişdir.[102] Həmin xunbəhanın məbləği sənəddə belə göstərilir: Şahzadələrin hər birinin xilası üçün 20 dəfə 100 min Təbriz ağçası, hər üçünün azad edilməsi üçünsə, müvafiq olaraq, 60 dəfə 100 min Təbriz ağçası. Məktubda bildirilir ki, Ruqiyyə xatun gərək tezliklə həmin məbləği "xəzaneyi-amirəyə göndərsin".[103] Göstərmək lazımdır ki, Ruqiyyə xatun elə öz ilk məktubu ilə birlikdə sultana çoxlu peşkəş və töhfə yollamışdı. Sultan ona yazırdı: "Sizin peşkəş və töhfə adı ilə göndərdiyiniz şeylər hesablandı, 450 min ağçaye-Təbrizi oldu. Buna görə də, sizin bir oğlunuz Əmirzadə Zeynal Mirzəni azad etdik ki, tez gedib həmin məbləğin qalan hissəsini, yəni 55 dəfə 100 min ağçaye-Təbrizini xəzaneyi-

amirəyə çatdırsın ki, başqa şahzadələr də mürəxxəs ola bilsinlər. Əgər [göstərilən məbləği] tez göndərməsə, qardaşlarına zərər dəyəcək".[104]

Osmanlı sultanının sonrakı cümləsindən məlum olur ki, Ruqiyyə xatunun Osmanlı sarayına göndərdiyi töhfələr içərisində kitablar da olmuşdur. Lakin, onlar sultanı təmin etməmiş ("həmin kitablardan burada da çoxdur. Az tapılanlardan göndərin"), o, əsirlikdə qalan Yusif bəy və Ömər bəy üçün göndəriləcək xunbəha pulunun miqdarını bir daha xatırlatmışdır: "Yusif bəy üçün 200 tümənə-Təbrizi və Ömər bəy üçün 150 tümənə-Təbrizi müqərrərdir".[105]

Çox keçəndən Ruqiyyə xatun sultanın ikinci məktubunu da alır. Bu məktubdan aydın olur ki, yuxarıda adları çəkilən üç şahzadədən başqa, Osmanlı sultanından daha iki əmirzadə (Məhəmməd Bağır və Müzəffər bəy) xüsusunda xahiş edilibmiş. Sultan Ruqiyyə xatuna Məhəmməd Bağırın vəfat etdiyini bildirdikdən sonra yazır: "Zeynal bəy və Müzəffər bəy üçün müqərrər olan məbləğə göndərsin. Yollandığınız töhfə və hədiyyələrin dəyəri hesablanacaq. Əgər həmin məbləği göndərə bilməsəniz əmirzadə Zeynalı geri qaytarın, yoxsa əlimizdə olan qardaş(lar)ına zərər dəyəcək".[106]

Sultan Məhəmməd Fateh və Ruqiyyə xatun arasında baş verən və imperiyanın maddi marağının xeyrinə yönələn bu yazışmadan Osmanlı sarayında əsir alınan şahzadələr üçün təyin olnumuş xunbəha və onun miqdarı məlum olur.

Uzun Həsən Otluqbel məğlubiyyətindən sonra Ağqoyunlu döyüşçülərini ətraf yerlərə hücumları azalmış, onlar əsasən qonşu xırda dövlətlər üzərinə yürüş etməklə kifayətlənmişdilər. Uzun Həsənin son yürüşü Gürcüstana 1476-cı ildə (h. 881) etdiyi qəzavat* olmuşdur.

Uzun Həsən, mənbələrin məlumatına görə, rəiyyətin qayğısına qalan bir padşah olmuşdur. O, "Qanunnamə" adlı bir sənəd hazırlamış, rəiyyətdən vergi yığılarkən feodal və dövlət məmurları tərəfindən sui-istifadə hallarının qarşısını ala bilməmiş.[107] Uzun Həsənin qanunları Şərqi Anadoluda "Həsən padşah qanunu" adı ilə məşhur olmuş, oranı ələ keçirən Osmanlılar çox-çox sonralar da həmin qanunları oralarda tətbiq etmişlər. Bu fakt həmin vilayətlərə aid ola təhrir dəftərlərinə edilən qeydlərə aid "müfəssəl təhrir və ovqaf dəftərləri"ndə "səbt olunan" qanunlar məhz Uzun Həsənin "Qanunnamə"sinə əsasən yazılmışdır. Fəxrəddin Kırzıoğlunun Türkiyə Baş Vəlakət Arxivi sənədlərinə əsasən nəzərə çatdırılan qeydində məlum olur ki, Xv əsrin II yarısında Diyarbəkir vilayətində də yerli xalqın çoxdan bəri alışdığı "bacü-tamğa" vergiləri Uzun Həsəndən qalma, "Həsən padşah yasaları"na əsasən toplanırdı. İlk Osmanlı təhrir dəftərinə (h. 924-m. 1518) yazılmışdır. "Məhsulati-qürra bər movcibe-qanune-osmani və bacü-tamğa bər mövcibi Həsən padşah".** Uzun Həsən hakimiyyətə çıxmağa hazır olan beş

* Müqəddəs yürüş, müharibə.

** "Şəhər və kəndlərdən yığılan vergilər Osmanlı qanunları bac və tamğa isə Həsən padşah qanunları əsasında (yığılırdı)".

oğlu vardı. Böyük oğlu Sultan Xəlil şahlığa ilk namizəd, ikincisi – Maqsud, üçüncü və bir sıra tarixçilərin yazdığına görə ən layiqlisi Yaqub idi. Dördüncü və beşinci şahzadələrin adları Yusif və Məsih idi. Fəzlullah ibn Ruzbehan Xuncinin məlumatına görə, ölüm yatağında olan Uzun Həsən, bu xəbəri eşidib Şirazdan gələn böyük oğlu Xəlilə taxta əyləşməyi məsləhət bilməmiş, bu yüksək vəzifəni Yaquba vəsiyyət etmişdir.[108] Amma Uzun Həsən vəfat edən kimi Təbriz taxtına məhz Sultan Xəlil əyləşmiş, Uzun Həsənin ölümün və özünün Ağqoyunlu taxtına əyləşmə xəbərini rəsmən bildirmək üçün Qazi Əlaəddin Beyhəqini İstanbula – II Qazi Məhəmməd Ruminin (Sultan Məhəmməd Fatehin – Ş.F.) yanına yollamışdı.[109]

Amma hadisələr Yaqubun xeyrinə cərəyan etməkdi idi. Çünki şahzadələrin bəziləri (Yusif, Murad ibn Cahangir, İbrahim ibn Cahangir) və ən əsası isə əlində böyük imkan və qüdrəti olan məlikül-üməra Süleyman bəy ibn Bicən Sultan Xəlilə qarşı idilər.[110] Fəzlullah ibn Ruzbehan Xuncinin məlumatına görə, Uzun Həsənin vəfatından sonra (5 yanvar 1478) şahzadə və əmirlər hakimiyyətin Sultan Yaquba veriləcəyini gözləyir və Xəlilə etimad etmirdilər.[111] lakin bu belə deyildi.

Uzun Həsən vəfatı ilə əlaqədar dövlət daxilində bir-birinə əks olan qüvvələrin qruplaşması başlandı, amma özünə tərəfdar olan əmirlərin və dövlət başçılarının fəal köməyi sayəsində, məlum olduğu kimi, səltənət taxtına böyük şahzadə Sultan Xəlil əyləşdi.[112] O, Diyarbəkiri qardaşı Yaquba verib, həbsdə olan digər qardaşı Maqsud bəyi qətlə yetirdikdən sonra, Türkiyə ilə münasibətləri yaxınlaşdırmaq məqsədi ilə oraya elçi heyəti göndərmişdi.[113]

15 iyul 1478-ci ildə (14 rəbius-sani 883) Mərənd yaxınlığında iki şahzadə arasında həlledici döyüş başladı. Xəlil məğlub edildi və Ağqoyunlu taxtına Sultan Yaqub əyləşdi.[114]

Yeni Ağqoyunlu hökmdarının 12 illik hakimiyyəti dövründə Osmanlılarla açıq-aşkar düşmənçilik etmək, onlara pis münasibəti nümayiş etdirmək meyli aradan çıxmış, Sultan Yaqub və Fateh arasında yazışmalar və elçi get-gəli normal vəziyyətə düşmüşdü. Lakin bir sıra başqa ölkələrin dövlət başçıları Ağqoyunlu-Osmanlı münasibətlərində uzun illərdən bəri yaranmış soyuqluğu istifadə etməyə cəhd göstərirdilər. Öz məlum əsərində 1486 (h. 891)-ci il hadisələrini şərh edən Fəzlullah ibn Ruzbehan Xuncinin məlumatına görə həmin il sultan Yaqub rəcəb ayının ortalarında (iyul) Təbriz yaxınlığında, Səhənd dağında istirahət edərkən, onun yanına Misir Sultanı Qayıtbəyin elçisi Qanum Şərbətdar gəlmiş və ona bir "dostluq məktubu" gətirmişdi. Həmin məktubda rumlular üzərinə çalınan "xoş Misir xəbəri"ndən söhbət gedir. Sultan Yaqub məktubda verilən xəbərdən çox sevinmiş, məhşur vəziri Qazi Səfiəddin İsa Savəci vasitəsilə Qayıtbəyə dərhal cavab məktubu yazdırmışdı. Sultan Yaqub Misir sultanına vəd etmişdi ki, gələn il öz səfirini Misirə yollayacaq.[115]

Yeni Rum sultanı II Bayazid ilə Sultan Yaqub arasında bir neçə il yazışma davam etmiş, onlar bir-birlərinə əldə etdikləri qələbələr barədə vaxtaşırı məlumat vermişlər. Məsələn, rumluların 1484-cü ildə Ağkirman* üzərində qələbəsi məktubunu sultandan alan Yaqub dərhal cavab yazaraq sevindiyini bildirmiş,[116] Ağqoyunluların Şeyx Heydər Səfəvini qətlə yetirməsi barədə isə Yaqubun göndərdiyi məktuba cavab olaraq Sultan Bayazid öz təbrikini yollayaraq yazmışdı: "Ümid edirəm ki, hər iki tərəf arasında belə [xoş] xəbərlərin təbliği üçün yazışma(lar) davam edəcəkdir".[117]

Müəyyən vaxtlarda Ağqoyunlu və Osmanlı hökmdarları bir-birilərini fəth xəbərləri ilə sevindirməklə kifayətlənmir, öz şəxsi xahişləri barədə də məktublaşırdılar. Sultan Bayazidin Ağqoyunlu hökmdarından şahin (alıcı quş) xahiş etməsilə əlaqədar Sulatn Yaqub ona bildirmişdi ki, sizə bu günlərdə üç şahin göndərmişdim, lakin onların ikisi yolda uçmuşdur. "Qış yaxınlaşdığı üçün quşları qışlamağa göndərmişəm. İndi isə sizə iki şahin yollayıram. Qışlaqlarımdan yenə də layiqli şahinləri tutub "həmin quşxanaya" göndərəcəyəm".[118]

Firidun bəyin "Münşəat"ında Yaqub Ağqoyunlu və Sultan Bayazid arasında əlaqə yaradan başqa məktublar da dərc edilmişdir. Lakin bu məktublarda ümumi sözlər və bir tərəfin başqa bir tərəfə yazdığı tərifli kəlamlardan başqa heç nə yoxdur. Görünür, məktubları aparıb-gətirən elçilər öz hökmdarlarının sözlərini şifahi olaraq çatdırmış, məktubların başqa ələ düşə bilmək ehtimalını nəzərdə tutmuşlar. Məsələn, bir yazımşada Yaqub olduqca yığcam və rəsmi şəkildə öz elçisi Tacəddin İbrahimi Rum məmləkətinə göndərdiyini yazmış, Rum sultanı Bayazid isə artıq həmin elçisinin gəlib çatdığını bildirmişdir.[119]

1485-ci ildə Ağqoyunlu əmiri Bayandur xan sultan Yaquba qarşı üsyan etdi. Ağqoyunlu hökmdarı tərəfindən onun "bəzi mülki və dini işlərinə nəzarət etmək üçün İraq ölkələrinə" göndərilməsi xüsusunda əmr alan Bayandur xan[120] tezliklə Həmədana gəlmiş, orada Ağqoyunlulara qarşı "müxalifət taxtına" əyləşmiş, tezliklə İsfahan darüğəsi Hacı bəy Əlpavut və Qum darüğəsi Mənsur bəy Zöhrab da ona qoşulmuşdular. Tezliklə Savə yaxınlığında baş verən döyüşdə üsyançılar məğlub edilmiş, Bayandur xan öldürülmüşdür. Sultan Yaqub bu hadisə barədə Rum sultanına belə məlumat verir: "Bu xanədanın yetişdirdiyi və bu dumanın bəzi mülk və din işlərinə nəzarət etmək üçün bir sıra İraq ölkələrinə göndərdim. O, özündə qüdrət və ixtiyar görüb itaət yolundan çıxdı, hakimlik etmək xəyalına düşdü. Azərbaycan diyarının da bəzi idbar qüruhunu özünə rəfiq edən Bayandur müsəlmanların mallarını qaərət başladı. Bayandur bir dağa tərəf qaçdı. Hər iki tərəf döyüşı başladı. O, qaçan vaxt öldürüldü. Xəlil bəy Sufi onun başını dərhal kəsib bizə gətirdi. Biz bu fəthnaməni sizə göndərdik ki, qoy sizin sevincinizə səbəb olsun".[121]

* Ağkirmanın əsl adı "Beldorod-Dnestrovski" idi ki, Osmanlılar oranı "Ağakirman" adlandırırdılar. (Bax: Ə. Nəvai, Teymur və şah İsmayıla qədər, səh. 594).

Az sonra Gürcüstan vilayətinin özü tərəfindən fəth edilməsi xəbərini də Rum sultanına bildirən Sultan Yaqub, onun sevincini bir qədər də "artırdı". O, bu hücumu "cahad" adlandırıdb, gürcülərin ona qarşı müxalifətdə olduqlarını xüsusilə qeyd edir.[122] Osmanlı sultanları kimi, o da apardığı işğalçılır siyasətinə cahad adı ilə bir növ bəraət qazandırırdı. Sultan Bayazid dərhal ona cavab məktubu göndərərək (h. 991-ci il səfər ayının əvvəlləri" bu fəth münasibətilə onu təbrik edir.[123]

Sultan Yaqub yalnız II Bayazidlə deyil, onun oğlanlarından ən döyüşkən Səlimlə də əlaqə saxlayır, onunla məktublaşır. Belə ki, bir müddət Trabzon hakimi olan şahzadə Səlim özünün təşəbbüsü və təkidi ilə Kəfədə hakim olduqdan dərhal sonra Sultan Yaqubdan məktub aldı. Məktubda şahzadə Səlimin yeni iş yeri (təyinatı) ilə əlaqədar yazılmışdır: "Sultan Səlim şah (halbuki o, hələ şah deyildi – Ş.F.). Səlim alicənab bizim diyarın yaxınlığında yerləşən əyalətə namizəd təyin edilmişdir. Yəqin ki, sülh şəraitində yaşayacayıq".[124] Məktubu aparan Ağqoyunlu elçisi Xızır bəyin artıq onun yanına gəlib çatdığını bildirən Səlim Ağqoyunlu hökmdarını arxayın edir:

"Əbunəsr Sultan Yaqub! Bu tərəf sizə qarşı heç bir naqisliyə yol verməyəcəkdir. Qoy yazışma qapıları həmişə üzümüzə açıq olsun".[125] Doğrudan da hər iki tərəf yazışmanı davam etdirmiş, Sultan Yaqubla Səlim məktubların birində göstərildiyi kimi öz "həqiqi məhəbbətlərini" bir-birinə izhar etmişdilər.[126]

1490-cı ilin dekabr ayının 24-də (11 səfər 896-cı il) 12 il ağqoyunlu dövlətinə başçılıq edən Sultan Yaqub gözlənilmədən öldü. Onun vəfatının təfərrüatı ilə təsvir edən Fəzlullah Xunci bu gözlənilməz ölümün səbəbini qızdırma xəstəliyində görür.[127] Lakin ondan sonrakı tarixçilər (Həsən bəy Rumlu, Təbrizli Arakel və başqaları) Sultan Yaqubun sui-qəsd nəticəsində zəhərlənərək ölmüş olduğunu yazmışlar.[128] Doğrudan da, Həsən bəy Rumlu həmin ölümün səbəbini aşağıdakı kimi təsvir edir: Yaqubun anası Səlcuqşah bəyim ögey oğlu Məsih Mirzəni zəhərləmək istəmiş, təsadüfən zəhrə Yaqubun və qardaşı Yusif bəyin nəsibi olmuş, vəziyyəti belə görən ananın özü də intihar etmişdir.[129]

Yaqubun vəfatı və onun yerinə azyaşlı Baysunqur Mirzənin şah olması Ağqoyunlu – Osmanlı münasibətlərinin davam etməsinə heç bir mənfi təsir göstərmədi. Yaqub şahın təziyəsi və Baysunqur culusu münasibətilə Rum sultanı Bayazid dərhal elçi Şeyx Hüseyn ağa vasitəsilə Ağqoyunlu sarayəna məktub yollayaraq, yeni hökmdarı "səadətqübab, məmalekpənah, fələkdəstgah, səltənətşüar, nəticeyi-səlatine-namdar, calese-məsnəde-padşahi...Sultan Baysunqur" kimi ibarəli ifadələrlə salamlamış, onun culusunu təbrik etmişdi. Onun həmin məktubunda gələcəkdə də iki dövlət arasında gediş-gəlişin davam etməsinin zərurəti xüsusilə qeyd olunurdu.[130] "İndi Həzrət fərzənd gərək bizim atalıq şəvqətimizin olduqca güclü olduğunu təsəvvür etsin. Vəziyyəti barədə və zəruri məsələlər haqda yazışma qapılarını açıq saxlasın".[131] Tezliklə Sultan Bayazidin

məktubuna cavab yazıldı. Təbiidir ki, cavab məktubu azyaşlı hökmdar tərəfindən deyil, onun nənəsi tərəfindən Rum diyarına göndərilmişdir. Məhəbbət tələb edir ki, hər iki ölkə arasında yazışma və elçi get-gəli davam etsin. Hər iki məmləkətin fağır və zəif adamları rahatlıq və arxayınlıq beşiyində yatsınlar, adamlar birgə olub, əkinçilik və quruculuğa ("emarət") başlasınlar. "Dövranın pərişanlığı və pərişanlığın dövranı bizim yerlərin sakinlərindən uzaq olsun. Bizimlə o sultan (II Sultan Bayazid – Ş.F.) arasında olan məhəbbət hələ qədimdən mövcud olmuş və indi də davam edir".[*]

Sultan Bayazid həmin məktubu cavabsız qoymamış, Ağqoyunlu xanımına cavab yazmış, Ağqoyunlu dövlətinə onun tərəfindən gələcəkdə də diqqətin çoxalacağını və arada olan rabitənin əbədi, möhkəm və qırılmaz olacağını bildirmişdi.[132]

Qeyd etmək lazımdır ki, Ağqoyunlu dövlətində doğrudan da Uzun Həsənin vəfatından sonra başlanan saray çəkilmələri Sultan Yaqubun ölümündən sonra da davam etmişdir. Hakimiyyətin qanuni varisi, şübhəsiz ki, Sultan Yaqubun oğlu Baysunqur idi. Lakin onun yaşının azlığından istifadə edən yaxın qohumları Ağqoyunlu taxtına sahiblənməyi arzu edir və bu niyyət uğrunda canlarından belə keçməyə hazır idilər. Baysunqurun ən güclü rəqibi yuxarıda göstərildiyi kimi Uzun Həsənin nəvəsi Rüstəm bəy (Maqsud bəyin oğlu) idi. Qeyd etmək lazımdır ki, Rüstəm və Baysunqur arasında iki dəfə qanlı döyüş baş vermişdir. Birinci döyüş Kür çayı sahilində, ikinci isə Təbrizin lap yaxınlığında (Əhər və Meşkində) olmuşdur. Ikinci döyüş ərəfəsində Baysunqur II Sultan Bayazidə məktub yazaraq ondan "hərbi köməkʺ istəmişdisə də, buna nail ola bilməmişdi.[133] Nəticədə, 1490-1492-ci illərdə Ağqoyunlu padşahı olmuş Baysunqur devrilmiş, hakimiyyət beşinci Ağqoyunlu hökmdarı Rüstəmin (hakimiyyət illəri 14925-1497) əlinə keçmişdi.[134] Doğrudur, Baysunqur az sonra qayınatası Şirvanşah Fərrux Yasarın köməyi ilə ona hücum etmişdisə də, məğlub edilmiş və həmin ilin iyun ayının 5-də öldürülmüşdür.[135]

Yeni Ağqoyunlu hökmdarı Rüstəmin hakimiyyəti dövründə Ağqoyunlu – Osmanlı münasibətləri nisbətən yaxşı olmuş, hökmdarlar arasında yazışma davam etmişdir. Sultan Bayazid nədənsə Rüstəmə o qədər də etimad göstərməmiş, onu bir qədər özündən asılı vəziyyətə salmaq istəmişdi. Belə ki, məktubların birində Ağqoyunlu sarayına elçi sifəti ilə göndərilən Nurəddin Sənanla birlikdə Rüstəmin "yaxın adamlarından birinin" də təcili padşah öz cavab məktubunda Rum sultanının naməsini alaraq şərəfləndiyini bildirmiş, Nurəddin Sənanla Müşərrəfi

[*] Qeyd: həmin Ağqoyunlu xanımı Firidun bəy tərəfindəm səhvi Baysunqurun anası kimi göstərilmişdir. Lakin məktubun məzmunu sübut edir ki, Baysunqurun deyil, Yaqubun anası olmuşdur. Çünki iki cümlədə Baysunqurun "yadigare-fərzəndə-kamkar" ("kama yetən oğlumun yadigarı") olduğu açıqca qeyd olunmuşdur. Bax: Münşəati-səlatin, səh. 328, 329.

Rum sarayına yollandığını bildirmiş, "üsbəbusi"dən sonra həmin Ağqoyunlu elçisini geri qaytarmağı sultandan rica etmişdi.[137]

Rüstəm şah hərbçi qüvvələri öz tərəfinə çəkmək məqsədi ilə əmirlərə səxavətlə soyurqal paylayırdısa da, bu niyyəti baş tutmadı. Ağqoyunluların bir neçə nüfuzlu əmiri ondan narazı olduğu üçün II Bazazidə məktub yazaraq, ondan istanbulda yaşayan Uzun Həsənin nəvəsi əhməd bəyin təcili olaraq Təbriz taxtını tutmaq üçün Azərbaycana göndərilməsini xahiş etmişdi. Qonşu ölkənin siyasi işlərinə nüfuz etmək istəyən Osmanlı hökmdarı tezcə Əhməd bəyə və əmir Həsənli Tərxana qoşun verib, onları Təbriz istiqamətində yola saldı. Qoşun Azərbaycana yaxınlaşan kimi, Rüstəmin adlı-sanlı əmirlərindən olan Hüseyn bəy Əlixani dərhal Rüstəm bəydən dönərək, Əhməd bəyin adına xütbə oxutmuş, onun hakimiyyətini qəbul etdiyini elan etmişdi. Qəribə budur ki, Təbrizə qələbə ilə girən əhməd bəyin ilk işi əmirlərin nüfuzunu qırmaq məqsədilə Hüseyn bəy Əlixaninin qətlinə fərman vermək olmuşdur.[138]

Rüstəm şahın 5 illik hakimiyyəti zamanı Ağqoyunlu hərbi qüvvəsinin olduqca zəiflədiyini bildirən Həsən bəy Rumlu[139] Uzun Həsənin oğlu Uğurlu Məhəmməd və Rum sultanı Fateh Məhəmmədin qızı Kövhər sultandan doğulan Əhməd bəyin (tarixdə Əhməd kimi məşhurdur – Ş.F.) h. 902 (m. 1497)-ci ildə Türkiyədən Azərbaycana etdiyi yürüşün məhz həmin zəifliklə əlaqədar olduğunu bildirir.[140] Firidun bəyin "Münşəatı-səlatin"-dəki bəzi məktublar həmin məsələni öyrənmək baxımından olduqca faydalıdır. Həmin məktublar məlum olur ki, Rüstəmdən narazı olan bir neçə nüfuzlu Ağqoyunlu bəyi Sultan Bayazidə məktub yazaraq, Əhməd bəyin Azərbaycana göndərilməsini və hakimiyyəti ələ almasını təkidlə xahiş etmişlər. "Bu məmləkətin halı olduqca kədərli, rəiyyəti pərişandır. Hər kafir istədiyi kimi hərəkət edir. Bütün bunlar hakimsizliyin nəticəsidir. İndi siz alicənab şahzadə Əhməd bəyə kömək edib (onu) bu tərəfə yollayın. Əgər o şahzadə gəlməsə, bu məmləkətin dincliyi olmayacaqdır. Diyarbəkir əmirləri və başqa böyük-kiçik həmin şahzadəni istəyirdilər. Bu sözdə bir türk qədər də yalan yoxdur. Əgər şahzadəyə kömək etsəniz, bu məmləkətlə sizin vilayətinizin birliyi hasil olar, məhəbbət və ədalətdən başqa heç nə baş verməz". Ağqoyunlu əmirləri adından məktubu yazan əmir Nurəli bəy sözünə davam edib, xəbər verir: "bu bəndeyi-dərgah həmin şahzadə üçün (Əhmən bəy –Ş.F.) xəzaneyi-amirədə səksən min tümən pul və üç yüz min ədəd qızıl xəncər, kəmər və başqa mallar hazırlamışdılar".[141]

Bu məktubun ardınca Ağqoyunlu bəyləri Əhməd bəyin özünə də həmin məzmunda məktub yollayıb, "böyük fürsət" yarandığını bildirirlər: "Bu sədaqətdən bəndə sizin tərəfdarlarınızdandır ki, o həzrətdən (Əhməddən – Ş.F.) başqa heç bir pənahı yoxdur. Tezliklə bu tərəfə gəlməyinizi xahiş edirik, çünki intizar gözümüz yoldadır. Həmiçinin böyük fürsət ələ düşmüşdür ki, çünki Diyarbəkirin əmirləri və başqaları – hamısı belələeinə itaət kəməri bağlayaraq birləşmişlər və o həzrətin

təşrif gətirməsini gözləyirlər. Yubanmadan bu tərəfə gəlsinlər. Çox böyük fürsət ələ keçmişdir. Vallah, billah və tillah ki, bu işə başımızın bircə tükü belə xilaf deyildir".[142]

Belə bir şəraiti sevinc hissi ilə qarşılayan Sultan Bayazid dərhal İstanbuldan Nurəli bəyə cavab yazaraq, ona bütün adlı-sanlı Bayanduriyyə əmirlərinə, hakimlərə, iqtidarları İran vəzirlərinə, o diyarın böyük adamlarına və əhalisinə, alim və qazilərinə, rəiyyətin, varlı və kasıblara öz təşəkkürünü bildirmiş, izzəti fərzəndi olan Sultan Əhməd Bayandurinin də onlardan təzərrönamə (xahiş məktubu) aldığını söyləmişlər. Sultan Bayazid Ağqoyunlu əmirlərinə onların xahişinin qəbul olunduğunu və Əhməd bəyin yola salındığını bildirərək, onun cansağlığının qeydinə qalır: "O, bizim tərbiyəmiz altında böyümüşdür və həmin diyarın adil sultanlarının çoxundan ədalətli və ağıllıdır".[143]

Həsən bəy Rumlunun məlumatına görə, Əhmən bəyin hücumunu eşidən Rüstəm şah araz çayı sahilində onunla döyüşmüş, lakin tezliklə əsir alınıb, öldürülmüşdür.[144]

Əhməd bəy Ağqoyunlu özünün ilk qələbəsini birinci növbədə babasına bildirir. Onun həmin məktubu o zaman onunla birlikdə Azərbaycana gələn məşhur tarixçi Bidlisi tərəfindən yazılmışdı. Əhməd bəy bu məktubda babasına "dövlət və din düşmənlərinin məğlub edildiklərini bildirərək, özünün artıq Təbrizdə taxta əyləşdiyini belə xəbər verir" "Bütün əcəm məmləkətləri və İran ölkəsi ədalətli və dinpərvər əsgərlərimizin əlinə keçdi. Mən babam Sultan Həsənin (Uzun Həsənin Ş.F.) Təbrizdə olan məkanında taxta əyləşdim. Əcəm məmləkətlərinin hər tərəfindən məliklər, hakimlər, əmirlər və qoşunlar ütbəbüsi üçün yanıma gəldilər".[145]

Əhməd bəy Ağqoyunlunun Azərbaycan taxt-tacına sahiblənməyi Türkiyədə böyük sevincə səbəb olmuş, xüsusi əmrlə toplardan yaylım atəşləri açılmış, şənliklər təşkil edilmişdir.[146]

Osmanlı Sultanı I Bayazid (1481-1512) özünün qaynı olan və Azərbaycan taxt-tacını ələ keçirən Əhməd bəyin "fəth və zəfər" müjdəsini təbrik edir, ona uğurlar diləyirsə də, bu yeni Ağqoyunlu hökmdarının fəaliyyəti uğursuz olur və o, özünün mərkəzi dövlət hakimiyyətini möhkənləndirmək, vergi islahatı keçirmək və hərbçi əyanların mərkəzdənqaçma siyasəti prinsipini pozmaq niyyətindən sonra, 1497-ci ilin dekabrının 13-də öldürülür.[147] Dövlət hakimiyyətinin o cür mərkəzləşmə siyasətilə həyata keçirilmişdir. Əhəmd Ağqoyunlunun belə hərəkəti hərbçi əmirlərin bərk narazılığına səbəb oldu və onlar Osmanlı sarayından birbaşa gəlib Azərbaycan taxt-tacında əyləşən Əhmədi "Osmanlı sülaləsinin qayda-qanunu əsasında hərəkət etdiyinə görə" təqsirkar bildilər.[148]

Əhməd bəyin qətlindən sonra hakimiyyətə məşhur əmir Eybə Sultanın köməyi ilə əvvəlcə Sultan Yaqubun oğlu Murad, sonra isə Uzun Həsənin digər oğlu Yusif Mirzənin oğlu Əlvənd gətirilmişdir. Əlvənd 1498-ci ildə Təbriz taxtına

sahib oldu. O, hələ hakimiyyətə çıxmazdan əvvəl onun yanına gələn Osmanlı elçisi Pərvanə ağanı qəbul etmiş və onu hörmətlə geri göndərmişdi.[149] Qeyd etmək lazımdır ki, həmin elçini Əlvəndin yanına Sultan Bayazid deyil, şahzadə Səlim göndərmişdi.

Şahzadə Səlimə cavab yazan Əlvənd bəy həmçinin Sultan Bayazidə də namə göndərməyi unutmur, çünki onun yazısından məlum olur ki, sultanın yanından gələn Mahmud ağa Çavuşbaşı onunla görüşmüş və hökmdarının "Bayanduri şahzadələrin ittifaq etmələri zərurətini və bir neçə məsləhətini ona çatdırmışdır: "Əgər əmim həzrət Qasım bəy və Mir Murad məlun qızılbaşların dəfinə ittifaq etsələr həmin güruhu məğlub edə bilərlər. O həzrətdən (Sultan Bayaziddən – Ş.F.) bizim təvəqqimiz ilə yer üzü o camaatın zillətindən xilas olsun və Bayanduriyyə (Ağqoyunlular –Ş.F.) xilafəti ələ alsın".[150]

Tezliklə Sultan Bayazid də Əlvəndə məktub yazdı. Onun bu məktubu yazmağının səbəbi genişlənməkdə olan qızılbaş hərəkatının önünü Ağqoyunlu şahzadə və əmirlərinin köməyi ilə almaq ümidi olmuşdur. Bu məqsədi həyata keçirmək naminə o, necə olur-olsun, bir-biriləri ilə ölüm-dirim mübarizəsinə başlayan Ağqoyunlu mirzələri arasında ittifaq yaratmaq, onların və "allahın yardımı ilə" bu işə hərəkatını genişlənmədən məhv etmək qərarına gəlmişdi: "Məktubun çatdı. Böyük əmin Qasım bəy və Həzrət Murad bəy arasında ittifaqın olmaması barədə yazdığınızı oxuduq. Qızılbaşların ortaya çıxmaları zülməti artırır, nuru azaldır, lakin günəşin önündə çıraq işığının əhəmiyyəti yoxdur. O tayfanın darmadağın edilməsinə çalışaq".[151] Məktubun sonrakı cümlələri daha qəzəblidir. Hiss olunur ki, Osmanlı sultanı qızılbaş hərəkatını yatırmaqdan ötrü heç nədən müzayiqə etməyəcək, Ağqoyunlulara ciddi kömək göstərməyəcəkdir: "Gərək fitnə qabaq alovlanmazdan əvvəl onu söndürsünlər və allahın köməyi ilə onları qara torpaqla yeksan etsinlər, o ləinlərin adlarını yer üzündən silsinlər və dünya xalqlarını öz fəth və qələbələri ilə şad və xürrəm etsinlər. Qoy bizim köməyimizi də nəzərə alsınlar. Qoy seyidlər, üləmalar, şeyxlər bütün məhrusə məmləkətlərin rəiyyəti hər iki tərəfin dövlətinə (Ağqoyunluların və Osmanlıların – Ş.F) dua oxusunlar. Əgər lazım olsa kiçik bir işarə etsəniz biz yubanmadan sizə kömək edəcəyik".[152]

ŞİRVANŞAHLAR DÖVLƏTİ VƏ OSMANLI İMPERİYASI

XV əsrin əvvəllərində Yaxın və Orta Şərq ölkələrinin bir çoxu, o cümlədən də Şirvan diyarı özlərinin nominal müstəqilliklərini saxladıqlarına baxmayaraq, əsasən iki böyük imperiyanın – Teymurilərin və Osmanlıların nüfuzundan kənara çıxa bilmir, əslində buna heç cəhd də etmirdilər, çünki "dəryada böyük balıqlar kiçik balıqları udmalıdır" prinsipi ilə hərəkət edən Teymurləng və Bayazidin zəhmi bu ölkələri vassal asılılığı vəziyyətinə salmışdı. Buna görə də, göstərilən region iki

nüfuz dairəsinə bölünmüş, bu və ya dögər hökmdarlar öz el-obasının taleyini o iki şəxsə tapşırmış, onların itaətində durmuşdular.

Azərbaycanın şimalında yerləşən Şirvanşahlar dövləti üzərində də ciddi təhlükə görünməyə başladı. Belə bir şəraitdə, dövrünün görkəmli dövlət xadimi olan I İbrahim qüvvələr nisbətini düzgün qiymətləndirdi və Sultan Əhmədin əksinə olaraq Osmanlıların deyil, Teymyurilərin tərəfini tutdu.[1] Sultan Əhməd isə "zülm və sitəmlə məşğul olan" və "tez mənim dərgahıma gəl"[2] deyib ona hökm edən Teymura rədd cavabı verərək itaətsizlik göstərmişdi.[3] Tarixçi nizaməddin Şaminin nməlumatına görə, XIV əsrin sonunda Əmir Teymur yola düşmüş və gürcü knyazı Baqrata islam dinini qəbul etdirmiş, sonra "o ətrafda şan-şöhrəti əmirlər arasında müstəsna mövqeyi olan Şirvanat məliki Şeyx İbrahimi" də öz yanına çağırmış, "Şabran və Şamaxı vilayəti" Teymurilərin itaəti altına girmişdi.[4]

Şərəfəddin Əli Yəzdi özünün "Zərəfnamə" əsərində "valiye-Şirvanat", "hakime-Şirvanat" adlandırdığı I İbrahimin ağıl və rəftar cəhətcə "zəmanə məliklərinin hamısından üstün" olduğunu xüsusi nəzərə çatdırır.[5] məhz bu xüsusiyyətinə görə də, Dərbəndin "yaxşı mühafizə olunması" qüdrətli özbək hökmdarı tərəfindən Şirvanşaha tapşırılmışdı.[6]

Əmir Teymuri fərmanı ilə hərbi yürüşlər vaxtı Şirvan qoşunu cağatay ordusunun tərkibində olmalı, müharibədə iştirak etməli idi. Doğrudan da, Şeyx İbrahim Teymurun bir çox hərbi yürüşlərində onu müşayiət etmiş, Şirvan qoşunu cağatay ordusunun tərkibində hərəkət etmişdi.[7] I İbrahimin havadarlığı sayəsində Əmir Teymurla münasibətini yaxşılaşdırıb, yenidən atası Seydi Əli Orlatın irsi olan Şəki taxt-tacına yiyələnən Seydi Əhməd də öz qoşunu ilə Teymurun xidmətində durmuş, onun Türkiyə hücumunda iştirak etmişdi.[8]

I İbrahim Teymuru müşayiət edərək Osmanlıların da daim maraq dairəsi altında olan Hələbə də getmiş (803;1400), az sonra öz ölkəsinə qayıdaraq, məhz Teymuri himayəsinə bel bağladığı üçün oranı arxayınca idarə etməyə başlamışdı.[9]

Şirvanşah İbrahimin Teymurla bir ittifaqla əvvəlcə Toxtamışın, sonra isə İldırım Bayazidin qoşunlarının məğlubiyyətində iştirakı sonrakı hadisələrdə böyük rol oynadı. Əvvəla, Qızıl Ordanın keçmiş əzəməti sarsıldı və onun Şirvana olan viranedici yürşülərinə son qoyuldu. İkincisi, Zaqafqasiya ərazisində mövcud olan bütün böyük və kiçik dövlətləri öz təsiri altına almaq istəyən Osmanlı imperiyası qarşısında Teymuri himayəsinə arxalanan Şirvanşahlar dövlətinin timsalında müəyyən sədd yarandı.[10]

Məlum olduğu kimi, Teymurla nifaqda olan Sultan Əhməd yalnız Rum Sultanı İldırım Bayazidə deyil, həmçinin əzəmətli Qaraqoyunlu əmiri Qara Yusifin hərbi gücünə də arxalanırdı. Teymurun onların üzərinə hücumu ilə əlaqədar olaraq Qara Yusif və İldırım Bayazid arasında elçi gediş-gəlişi və rəsmi yazışma olmuşdur. Özbək hökmdarının hücumundan qorunmaq məqsədilə Rum sultanından kömək istəyən Qara Yusifə göndərdiyi cavab məktubunda İldırım Bayazid özbək

yürüşənə qarşı öz tədbirlərindən xəbər verərək ("Rum mirmiranına və bu diyarın başqa sərdarlarına fərman edib buyurdum ki, Teymur yaxınlaşarsa, bizim müzəffər əsgərlər ona çatsınlar, aləmi onun zülmündən təmizlənsinlər"),[11] eyni zamanda Qara Yusifdən xahiş edir ki, "gərək o cənab da (yəni Qara Yusif – Ş.F.) Şirvan. Gilan, Kürdüstan və Luristan hakimləri ilə birləşib, qəflət etmədən onlarla (Teymurilərlə - Ş.F.) müharibəyə başlayalar".[12]

Firidun bəyin "münşəati-səlatin" əsərindəki məktubdan götürdüyümüz həmin məlumatdan, yəni Qara Yusifin həmçinin Şirvan hakimindən də kömək istəyərək Teymurilərə qarşı müharibəyə başlaması üçün Sultan Bayazidin etdiyi xahişdən elə çıxmamalıdır ki, bu Osmanlı sultanı Teymurla Şirvanşahın münasibətindən bixəbərdir. Şübhəsiz ki, hər iki hökmdar bir-birilərinin dost və düşmənlərini yaxşı tanıyırdılar. Lakin çox güman ki, Sultan Bayazid yuxarıda etdiyi xahişlə Şirvan hakimi I İbrahimi öz tərəfinə çəkmək niyyəti güdmüşdür. Buna baxmayaraq, sonradan məlum olduğu kimi, Şirvanşah Türkiyəyə qarşı yürüşdə Sultan Bayazidin və onun müttəfiqləri Sultan Əhməd və Qara Yusif deyil, əmir Teymurun tərəfini tutmuşdur. Lakin Teymurilər və Osmanlılar yenə də özlərinə yeni müttəfiqlər cəlb etmək istəyində qalmaqda idilər. Belə ki, Sultan Bayazidə ikinci məktubda Teymur və Osmanlı sultanının Təbrizə girib özbək ordusu ilə döyüşmək niyyətini rişxəndlə qarşılayaraq, bunu xülya adlandırır.[13] Sultan Bayazid isə ona cavabında bildirir: "yazmısınız ki, bizim Təbrizə gedib, orada sizinlə döyüşməyimiz qəribə bir işdir. Əgər biz Kəfədən* və Şirvandan oraya (yəni Təbrizə - Ş.F.) hücuma keçsək, bizə kim mane ola bilər, bir halda ki, qıpçaqlar sizdən inciyərək bizimlə müttəfiq olmuşlar".

Əmir Teymurun vəfatında sonra (1405) Azərbaycanda hakim olan Qara Yusiflə Şirvanşah I İbrahimin münasibəti ilk vaxtlarda yuxarıda göstərildiyi kimi o qədər də yaxşı olmamışdır, lakin sonralar onların arasında ikitərəfli razılaşma yaranmış, Şirvanşah Şirvanı yenə də müstəqil idarə etmişdisə də, Qaraqoyunlu hökmdarından asılı vəziyyətdə olmuşdur. Amma Teymurdan sonra Xorasan taxt-tacına sahiblənən Şahrux bütün Azərbaycanı öz əlinə almaq istəyir və bu məqsədini həyata keçirməyə hazırlaşırdı. Bu təhlükədən xəbər tutan Qara Yusif Xacə Bəhram Naxçıvani ilə yeni Osmanlı hökmdarı I Sultan Məhəmmədə göndərdiyi məktubda Şahruxun niyyətini və onun "Rusiyadan və qıpçaq çölündən keçib, Şirvanın Babül-Əbvabına (Dərbəndə - Ş.F.) gələcəyini və oradan da Azərbaycana yollanacağını"[14] sultana bildirməklə Türkiyə ilə dinc münasibətdə olan Şirvanın da təhlükə altında qalacağını xəbər verirdi.

H. 820 (m.1417)-ci ildə vəfat edən Şirvanşahın I İbrahimdən sonra Şirvanşahlar taxtına əyləşən Əmir Xəlilullah (Sultan Xəlil) da, öz atası kimi,

* Heydər Evoğlunun münşəatında: Gəncədən (Bax: Əbdülhüseyn Nəvai. Əsnad, səh. 102.).

Teymurilərin dostluq münasibətini qoruyub saxlayırdı. O, 824 (1421/1422)-ci ildə[*] hətta Şahruxla qohum da oldu.[**] Əbdürrəzzaq məlumatına görə, I Xəlilullah Teymuri Şahrux tərəfindən öz nəslinin ikinci şirvanşahı kimi təsdiq edildi.[15] Osmanlı hökmdarı I Sultan Məhəmmədi əlaqədar hadisələrdən hali edirdi. Belə ki, onun 823 (1427/28)-cü ildə Osmanlı sarayına göndərdiyi bir məktubda bizim fikrimizi təsdiqləyən cümlələr vardır. Orada oxuyuruq: "Əbunəsr Sultan Məhəmməd! Həvaxahınız olna bu sadiq bəndə öz qüsur və acizliyi üzündən müdam heyrət və fikirdədir ki, özünün sizə xidmət etmək ehtiyacını necə şərh etsin. Bu günlərdə əlahəzrət Şahrux Gürganidən bir yarlıq (əmr, məktub bildirmiş – Ş.F.) gəldi. Məzmunu belədir: "823-cü ilin şəban ayının 15-də (26 avqust 1420) pəncşənbə günü Qara Yusif Türkmanın dəfi üçün Səmərqənd darül-mülkündən çıxıb küreyi-Azərbaycana yollanıram və Qarabağda qışlayacam. Gərək siz bütün Şirvan ləşkəri və əmirləri ilə İlxanilərin qurultayına (Qarabağa) gəlməyə tələsəsiniz". Şahrux öz naməsini Dəşti-Qıpçaq və Qərbənd yolu ilə bizə yollayıb, özü isə o diyara (Azərbaycan – Ş.F.) yollanmışdır ki, tezliklə oraya çatacaqdır. Vəziyyəti belə görüb, qədim ittifaqımıza mütabiğ olaraq, Sizi məsələdən hali etmək məqsədi ilə Xacə Məhəmməd Bakuyini göndərdim".[16]

Şirvanşah I Xəlilullah Osmanlı sultanı I Məhəmmədə bu məktubu göndərməklə bir növ özünü Osmanlı Qaraqoyunlu qəzəbindən mühafizə edir, Teymurilərlə olduğu kimi Osmanlılarla da dostluq münasibətini saxlayırdı. Osmanlı sultanı isə, Şirvanşah I İbrahimin Teymuri qoşunun tərkibində Osmanlılara qarşı vuruşduğunu sanki unudub, I Xəlilullahla müntəzəm məktublaşır, ona öz tövsiyələrini verirdi. Yuxarıdakı məktuba cavab olaraq "Məlike-əzəm Sultan Xəlil"-ə verdiyi məlumatda I Məhəmməd "Əlahəzrət xaqan Şahrux Gürgani"nin də Azərbaycan istiqamətində Qara Yusif üzərinə yürüşü barədə Osmanlı sarayına xəbər verdiyini bildirir, hər bir hakimin "özününh və qonşularının zərər və faydasını başqalarından yaxşı bildiyini" söyləyirdi. Buna misal olaraq Şirvanşahın özünü nümunə göstərən I Məhəmməd onun "Şəki məliklərini, Qumuq[*] və Qaytaq əmirlərini həmçinin gürcü Ləvəndi başqa valilərdən" daha yaxşı tanıdığını nəzərə çatdırıb, öz elçisinin də Qarabağda

[*] "Mətləüs-sədeyn" əsərində istifadə edib həmin hadisələrin şərhini verən Ə.Nəvai bu tarixi səhvən 823-cü il kimi göstərir. (Əsnad, səh. 186).

[**] Şirvanşah I Xəlilullah Əmir Teymurun oğlu Əbu Bəkr Mirzənin qızını almışdı. "Mətləüs-sədeyn" in məlumatına görə, həmin Teymuri şahzadəsi Qara Yusiflə olan döyüşdə öldürüldükdən sonra onun xanədanında bir neçə kəniz, o cümlədən kiçik qızı əsir düşmüşdü. Həmin qızı böyüdüb özünə alan Qara Yusifin vəfatından sonra Qarabağa gəlib (Ə.Nəvaidə: Təbriz) orada qışlayan Şahrux, Şirvanşah I Xəlilullahın xahişi ilə həmin dul qadını ona verdi. Bu izdivac 1421-ci ilin aprel ayının 4-də Qaraqumək adlı bir yerdə baş verdi, böyük toy mərasimi təşkil edildi. (Bax: "Mətləüs-sədeyn". Daşkənd nəşri, səh. 285-286). Qeyd: Sara Aşurbəyli həmin yerin adının Qaraköşk olduğunu və onun hal-hazırkı Füzuli rayonu ərazisində yerləşdiyini bildirir. (Gös. əsər, səh. 246).

[*] Ə.Nəvai yanlış olaraq "Qumuq" sözünün ola bilsin ki, səhvən yazıldığını ehtimal edir və bu sözünh bəlkə də "Qıpıq" (?) "Qəpəq" (?) olduğunu bildirir (Bax: əsnad, səh. 191).

çağrılacaq qurultaya gedəcəyini bildirərək, Şahruxun Qara Yusiflə döyüşünə imkan verməyəcəyini yazır. Məktubda Xəlilullahın "ağıllı, kamil, Osmanlılara qarşı məhəbbətli və sadiq" olduğu xüsusi qeyd olunur və Şirvanşaha "həmişə ittihad yolunu" tutmağı, yəni heç bir hökmdarla ixtilafa girməməyi məsləhət görür.[17]

Hadisələrin sonrakı inkişafı onu göstərir ki, I Xəlilullah Osmanlı sultanının deyil, Şahruxun məsləhətinə əməl etmişdir. Bu Teymuri hökmdarının məğlubiyyəti barədə I Sultan Məhəmmədə yazmış olduğu fəthnamədə "Əmir Xəlilullah ibn Əmir Şeyx İbrahime-Şirvanşahe-Fərrux Yəsarın zilhiccə ayının ortalarında qiymətli töhfələrlə hümayun görüşə" (yəni Şahruxun dərgahına) gəldiyi bildirilir.[18] Şahruxun məktubuna cavab yazan Osmanlı sultanı "Azərbaycanın (Şahrux tərəfindən) zəbtindən" xəbərdar olduğunu, Şirvanşah Fərrux Yəsarın (I Xəlilullahın – Ş.F.) xaqanla görüşə getməyindən sevindiyini və bütün bu hadisələrdən onun "kefinin artdığını"[19] nəzərə çatdırıb, Şahruxla olduqca diplomatik tərzdə davranır.

I Xəlilullah da, özünün xarici siyasətində atası I Şeyx İbrahim kimi Teymurilərə arxalanır, onların Qaraqoyunlu hökmdarları ilə etdiyi mübarizələrində fəal iştirak edirdi. O, belə etməklə, həmçinin də Osmanlı sultanının lütfkarlığına nail olmaqla, Şirvanın Qaraqoyunlulardan olan nominal asılılığından qurtulmaq istəyir, özünün meylini hər iki əzəmətli hökmdara açıqca bildirirdi.[20]

Şərəfxan Bitlisinin "Şərəfnamə" əsərində I Xəlilullahın Teymurilərə meyl etməsini xarakterizə edən belə bir qeyd vardır: "Xanədanının böyüklüyü (bizim tərəfimizdən) dəfələrlə bəyan olan və dudmanının qədimliyinin heç bir şərhə ehtiyacı olmayan Əmir Xəlilullah h 886 (m 1481/82)-cı ildə, atası Mirzə İsgəndər ibn Qara Yusifdən inciyib Şirvanşahın yanına qaçan əmirzadə Yarəlini bir gəmiyə oturdub dərya ilə Herata yolladı".[21] Demək, bir daha sübut olunur ki, Şirvanşah Qaraqoyunlu hakimlərindən çox, Teymuri və Osmanlı hökmdarlarına arxalanır, onların kömək və yardımından istifadə etməyə çalışırdı. Lakin etiraf etmək lazımdır ki, nə I İbrahim, nə də I Xəlilullah Şirvanı, S.B.Aşurbəylinin dediyini əksinə olaraq, tam müstəqil dövlətə çevirə bilməmiş,[22] onlar həm Qaraqoyunlulardan, həm Temurilərdən, həm də Osmanlılardan müəyyən asılılıqda olmuşlar. Bu asılılığa baxmayaraq hər iki şirvanşahın müdrik siyasəti sayəsində Şirvan məhz Şirvanşahlar tərəfindən idarə olunmuş, onlar müvafiq hökmdarlara müəyyən miqdar bac və xərac verməklə ölkənin sahibi kimi tanınmışdılar.

XV əsr Azərbaycan şairi Bədr Şirvaninin məlumatına görə Şirvanşah I Xəlilullahın beş oğlu olmuş, onlardan dördü hələ ataları sağ ikən ölmüş, 24 yaşlı Fərrux Yəsar isə atasının vəfatından sonra (1462) Şirvan taxt-tacının sahibi olmuşdur.[23] Osmanlı dövlətində də də dəyişiklik baş vermiş, I Məhəmmədi II Murad, onu isə II Məhəmməd əvəz etmişdi. I Xəlilullah ilə II Murad, onu isə II Məhəmməd əvəz etmişdi. I Xəlilullah ilə II Murad arasında şübhəsiz ki, elçi gediş-gəlişi və rəsmi yazışma baş vermişdir, lakin təəssüf ki, bizim istifadəmizdə olan "Münşəat"larda bu barədə məlumat yoxdur.

Fərrux Yəsarın hakimiyyəti dövründə də Şirvan - Türkiyə münasibətləri normal davam etmiş, hər iki dövlətin hökmdarlarına müntəzəm olaraq yazışmış, ölkələr arasında elçi gediş-gəlişi olmuşdur. II Məhəmmədin (Fatehin) "cahad" adı altında xristian ölkələri üzərinə etdiyi hərbi yürüşləri alqışlayan Şirvanşah, ona yolladığı məktubların birində yazırdı: "Salamlarınız çatdı. Mən islam qeyrətinin tələbinə müvafiq olaraq islamiyyənin igid əsgərlərini toplayıb hər hansı yürüşə getsəniz sizinlə birlikdə olcağam. Hal-hazırda isə əmirlər və böyüklər xələfi Siyaəddin Yusif bəyi sizin yanınıza göndərdim ki, söhbətiniz barədə məlumat öyrənib bizi şad etsin".[24] S.B.Aşurbəylinin göstərdiyinə görə, Şirvaşahın Osmanlı sultanı ilə olan diplomatik münasibətləri, ola bilsin ki, Şirvanın Uzun Həsən tərəfindən işğal oluna biləcəyi ehtimalı ilə əlaqədardır.[25] Məktubun sonrakı cümlələrindən məlum olur ki, türk ustalarının hazırlıqları iki ədəd bərgüstvan (zirehli geyim – Ş.F.) Fərrux Yəsarın tacirlərindən Xacə Yarəhməd Şirvani tərəfindən satın alınmış, Şirvanşaha təqdim olunmuş, onun "böyük həzzinə" səbəb olmuşdur. Fərrux Yəsar özünə məxsus olan zirehli paltarlarını sayını daha da artırmaq üçün elçi Ziyaəddin Yusif bəylə Türkiyəyə 7400 dirhəm xalis gümüş pul (23 kq, 680 qr.) yollamışdı.[26] fikrimizin sübutu kimi Fərrux Yəsarın bu məktubuna II Məhəmmədin cavabındakı "sizin zireh hazırlmaq barədə etdiyiniz sifariş (bizim tərəfimizdən) qəbul edildi, cümləsini[27] misal gətirmək olar. XV əsr Şərq dövlətlərində hökmdarlar, adətən, özlərinin siyasi fəaliyyətləri barədə bir-birilərinə məlumat verir, bir növ hesabat təqdim edirdilər. Onlar belə hərəkət etməklə müqabil tərəfi müəyyən qədər öz hərbi qüdrətlərindən hyali etmək (bəlkə də xəbərdar etmək, qorxutmaq) məqsədi daşıyır, bəzən də işlədikləri günahı müəyyən mənada pərdələmək və özlərinə bəraət qazanmaq məqsədi güdürdülər. Məsələn, məşhur Səfəvi şeyxi Heydər Səfəvinin öldürülməsi barədə Yaqub Ağqoyunlunun Osmanlı sultanı II Bayazidə məktubunda həmin qətlin başvermə səbəbi olduğunu", Gürcüstana hücumdan sonra onun "alicənab səltənətməab Şirvanşahlara qarşı qəlbində olan qədim ədavətə görə" qəfildən Şirvana hücum etməsini "alicənab Şirvanşahın (Fərrux Yəsarın – Ş.F.) onun tərəfindən Şirvan qalalarının birində mühasirəyə alınmasını", Şeyx Heydərin "öz zülm əlini müsəlmanların qarət olunması üçün uzatdığını", Şirvanşahın Ağqoyunlulardan kömək istəmiş olduğunu sərkərdə Süyelman bəy Bicənin, "həmin fitnə-fəsadın dəfi üçün" Şirvana göndərildiyini və nəhayət Şeyx Heydərin Dərbənd yaxınlığında qətlə yetirildiyini Osmanlı sultanına bildirir.[28] Sultan Yaqub Osmanlı hökmdarı ilə Şirvanşahın münasibətlərinin dostcasına olduğunu bildiyi üçün, məhz Səfəvi şeyxinin öldürülməsinin bu dostluğun qorunması üçün həyata keçirildiyini söyləyir. Görünür ki, məktubun bu tərzdə yazılışı Fatehi qane etmiş və o, cavab naməsində Sultan Yaqubu qətiyyən məzəmmət etməmiş, ona gələcək fəaliyyətində uğur diləmişdir.[29]

Beləliklə, qeyd etmək olar ki, bütün XV əsr boyu Osmanlı sultanları və Şirvanşahlar arasında müntəzəm qarşılıqlı münasibətlər mövcud olmuş, tərəflər bir-birilərinə elçi göndərmiş, diplomatik təmaslar daim davam etmişdir. Təxminən 400 səhifədən ibarət olan "Xunkarnamə" yaxud "Xundgarnamə" əsərinin müəllifi Seyid Mir Əli ibn Müzəffər Müəlla (Müali) h. 877-878 (m 1472/73-1474)-ci illər arasında yazdığı həmin əsərində Türkiyə-Şirvan münasibətlərinə də toxunmuş özününü hətta Otluqbeli savaşından sonra Şirvanda bir gecə Sultan Xəlilullahın qonağı olduğunu qeyd etmişdir.[30]

XVI əsrdə isə "dünyanın böyük kişiləri döyüş və siyasət meydanında zahir oldular və qarşı-qarşıya dayandılar. Onlara misal olaraq Fransada I Fransuanı, İngiltərədə VIII Henrixi, Rusiyada IV İvanı, İran və Azərbaycanda I Şah İsmayıl və I Şah Təhmasibi, Türkiyədə Sultan Səlimi və Sultan Süleymanı göstərmək olar".[31] Məşhur Çaldıran döyüşündəki qələbədən sonra, Misir və Suriyada da böyük qələbə əldə edən Sultan Səlim Şirvanşah Şeyx İbrahimə (II İbrahim, yaxud Şeyxşaha) göndərdiyi məktubunda özünün Orta Şərqin bu iki dövlətində əldə etmiş qələbəsini xəbər verməklə, qarşıdakı yeni yürüşü barədə də məlumat verir. Onun məlumatına görə o, tezliklə Şah İsmayıl üzərinə yeni hücuma keçmək niyyətindədir. Bu xəbəri bildirən Sultan Səlim Şirvana çatacağı tədqirdə Şirvanşahdan Osmanlı qoşunu üçün azuqə və ülufə hazırlanmasını xahiş edir.[32] Divan katibi Heydər Çələbi tərəfindən qələmə alınan həmin məktubda Hələb, Şam, Qəzzə, Qüds, Məkkə və başqa yerlərin – Oman sahillərindən Bağdada qədər yerlərin artıq Sultan Səlim tərəfindən zəbtindən bəhs edilir. "O yerlərin itaət edən bütün əzəmətli əmirləri bizim inayət və mərhəmətimizə nail oldular, amma üsyan və tüğyan yoluna qədəm basanların hamısı gülləyə tuş, qılınca yem oldular",[33] yazan Sultan Səlim indi təxir etmədən "Şərq diyarının zəndıq və mülhidləri" üzərinə (yəni qızılbaçlar üzərinə) yollandığını bildirir. İnşallah, biz orada görünən zaman o ədalətli cənab (yəni Şirvanşah – Ş.F.) cürbəcür şahənə inayətlərimizlə bəhrələnəcdir".[34] Osmanlı hökmdarı: "qızılbaşlar üzərinə hücum kafirlər üzərinə cahaddan daha zəruridir" yazmaqla[35] yenidən şiə-sünni məsələsini ortaya atır, Şirvanşahla həömməzhəb olduğunu nəzərə çatdırırdı. Şirvanı öz nüfuz dairəsinə almaqla, demək olar ki, bütün Şirvanşahlar dövlətinin ərazisində - Dərbənd və Xəzərlə Kür çayı arasındakı torpaqlarla özünün nüfuzunu genişləndirməyə çalışan Sultan Səlim həmin məktubunda özünün əzəmətini də nümayiş etdirir, az vaxtda bir neçə ölkəni – Azərbaycanı, Diyarbəkiri, bütün Kürdüstan məmləkətlərini (Cəmşgəzəkdən Bağdada qədər) tutduğunu bildirirdi.[36] Sonra Şirvanşah yazır ki, "mənə gəlib çatan xəbərə görə, məlum olur ki, (Şah İsmayıl) sizə elçi göndərmək və özünün sədaqətini və tabeliyini bildirmək niyyətindədir. Əgər onun təzimə gələcək qasidi pis qarşılanarsa və onların (qızılbaşların – Ş.F.) üzrxahlığı qəbul edilməzsə, məlumdur ki, o təzədən bu bəndəni vasitəçi edəcəkdir. Əgər sultan bizim vasitəçiliyimizlə razılaşmazsa, bu iş böyük qovğaya səbəb olacaqdır. Biz

Beytullahül-hərama (Məkkəyə - Ş.F.) ziyarətə gedən Xacə Mahmud Bakuyiyə şifahi olaraq sizin olaraq sizin dərgahınıza çatdırmaq üçün bir neçə kəlmə söz ərz etmişik. Nəyə işarə etsəniz, ona da əməl edəcəyik".[37]

Tezliklə Şirvanşaha Sultan Səlimdən yeni bir məktub gəldi. Osmanlı Sultanı Xacə Mahmud Bakuyinin onun hüzuruna gəldiyini, Şirvanşahın ona yazdığı kimi qızılbaş elçilərinin də dalbadal Türkiyəyə təşrif gətirmiş elçilərinin olduqlarını bildirir, yenə də, özünübn "qızılbaşe-ovbaşın bədkirdar vücudlarını" iti qılınclarla yer üzündən silmək və "aləmi Şah İsmayılın şər və şurundan təmizləmək" niyyətini bildirir.[38] bu məktubu alan Şeyxşah Osmanlı sultanını Azərbaycan üzərinə növbəti hücumundan çəkindirmək məqsədi ilə dərhal ona cavab məktubu göndərmiş, onu bu əməldən əl çəkməyə çağıraraq, "ey islamın pənahı, bu işi etməyin" yazmışdır.[39] Lakin Şirvanşahla Osmanlı sultanı arasında bu məsələ xüsusunda məktublaşma yenə də davam edir. Sultan Səlim ona öz fikrinin qəti olduğunu, "daim fitnə-fəsadın aradan götürülməsi barədə düşündüyünü" yazır.[40]

Şeyxşah belə bir şəraitdə, məlumdur ki, öz ehtiyatını əldən verə bilməz, Osmanlı sultanına arxalanan da heç vəchlə özünün Şah İsmayılla münasibətini korlamaq istəməzdi. Məlumata görə, Şeyxşahın h. 927 (m.1520)-ci ildə Səhənddə Şah İsmayılın yanında olmasından sonra Şirvan yenidən onun idarəsinə tapşırılmışdır,[41] hətta, azacıq sonra Şah İsmayıl öz qızı Pərixan xanımı sarayda girov saxlanan Şirvan şahzadəsi Sultan Xəlilə ərə vermişdi.[42]

Çaldıran vuruşmasından əvvəl və sonra Şirvanşahların Osmanlılara qarşı olan münasibətini "Şirvanın Türkiyəyə tabe olması" kimi qələmə verən Fəxrəddin Kırzıoğlu əsassız yerə Şirvan ölkəsini "Yavuz çağında Osmanlılara itaət edən, sonradan Şah Təhmasibin istilası ilə əlaqədar İrana tabe olan Şirvan" adlandırır[43] ki, bu fikir tamamilə əsassızdır. Çünki Şirvan, yuxarıda göstərildiyi kimi, ilbəil Səfəvilərə xərac verirdiki, bu fakt Şirvanşahların Osmanlılara deyil, Səfəvilərə itaət etdiyini göstərir. Bu biri tərəfdən, II İbrahim, təbiidir ki, Şah İsmayılla da təmasda olur, münasibətin daha yaxşı və etibarlı vəziyyətə düşməsinə çalışırdı. Həmin arxivin sənədlərinin birində hətta məlumat verilmişdir ki, Şirvanşah Şeyxşah h. 923 (m. 1517)-cü ildə qızını Şah İsmayılın oğlunja vermiş, onunla yaxın qohumluq əlaqəsi yaratmışdı.[44]

Sultan Səlimin Çaldıran qələbəsindən və özünün uğursuzluğundan sonra Şah İsmayıl, çox ehtimal ki, gələcək də Türkiyə tərəfdən ola biləcək yürüşlərdə Şeyxşahın köməyindən istifadə etmək niyyətilə, Şirvanşahla daha yaxşı davranmağa başladı, onun qızını oğluna almaqla kifayətlənməyərək, hətta h. 929 (m.1523)-cu ildə onun azyaşlı qızıyla evləndi.[45]

Qeyd etmək lazımdır ki, istər Sultan Səlim, istərsə də onun yerinə taxta çıxan Sultan Süleyman qızılbaşların əzəmətli hökmdarı Şah İsmayıla qarşı özlərinə daim yeni mütəffiqlər cəlb etməyə çalışır, qonşu dövlət başçıları ilə öz diplomatik əlaqələrini kəsmirdilər. Sultan Səlim Şirvanşaha yazdığı bir məktubunda ona

özünün Misir və Suriyada əldə etdiyi qələbələrdən xəbər verərək, İrana yenidən hücum etmək niyyətini də göstərir.[46] Sultan Süleymanın hakimiyyəti başlayanda, məktubda göstərildiyinə görə, Hüseyn bəy dərhal həbsdən azad edilir, amma onun hərbçi yürüşlərində iştirak etmək arzusunu nəzərə alan Osmanlı hökmdarı onu da özü ilə həmin yürüşlərə aparmış, qələbədən sonra Hüseyn bəyin Şirvana qayıtmağına icazə vermişdi. H. 930 (m. 1524)- cu ildə yazılan bu məktubdan məlum olur ki, Belqradın h. 927 (m. 1521) və Rodosun h. 928 (m.1522)-ci ildə baş verən fəthlərindən bir neçə il keçməsinə baxmayaraq, Şirvan Hüseyn bəy hələ Osmanlı dövlətində qalmış, Şirvanşahın nümayəndəsi kimi hörmət və nüfuz sahibi olmuşdur.[47]

Şirvanşah I İbrahim Şeyxşah Sultan Səlimin vəfatı və Sultan Süleymanın taxta çıxması münasibətilə h. 930 (m.1524)-cu ildə əl-Hac Hüseynlə Osmanl sarayına rəsmi məktub göndərmiş, "səltənət, cahandarlıq, xilafət və şəhriyarlıq" taxt-tacının öz varisinə çatmasını təbrik etmişdi. Sultan Süleyman isə öz növbəsində ona göndərdiyi cavabında "aramızdakı vəfadarlıq əbədi olsun" yazaraq Şirvanşaha münasibətini bildirmişdir.[48]

Göstərmək lazımdır ki II İbrahim Şeyxşahın h.930 (m. 1524)-cu ildə vəfatından sonrakı bir neçə il ərazində Şirvan dövləti növbə ilə II Xəlilullahın və II Fərrux Yəsarın hakimiyyəti altında olmuş, 1538-ci ildə isə Səfəvilərə tabe edilmişdir. Bu müddətdə Şirvanda sabit hökmdarlıq bərqərar olmadığı üçün yeni Şirvanşahlara Türkiyə hökmdarı Sultan Süleyman arasında elə bir nəzərə çarpan münasibət yaranmamış, tərəflərin birinin digərinə elçi get-gəli və məktub mübadiləsi olmamışdır. Lakin II Xəlilullahın oğlu Bürhanəddinin h. 951 (m.1544)-ci ildə, Dağıstanda yaşayan qaytaqlı qohumlarının yanından çıxaraq Şirvan valisi Əlqas Mirzə ilə döyüş üçün Şirvana gəlib məğlub edilməsi və Türkiyəyə getməsindən sonra Şirvan-Osmanlı münasibətləri yenidən təzələnmişdi. Bürhan belə hərəkət etməklə, şübhəsiz ki, Bürhanın köməyi ilə Şirvanı ələ keçirməyin mümkünlüyünü düşünmüş, qızılbaşlar əleyhinə ondan istifadə etməyi qərara almışdı. Osmanlı hökmdarının onun ixtiyarına verdiyi qoşunla Şirvana tərəf hərəkət edən Bürhan qızılbaş əsgərlərinin çoxluğunu görüb qorxuya düşmüş, türk qoşununu Türkiyəyə geri göndərərək, əlverişli fürsət və vaxt gözləmək niyyəti ilə yenidən Dağıstana getmişdi. H. 955 (m. 1548)-ci ildə Azərbaycana növbəti yürüş edən Sultan Süleymana birləşmək məqsədi ilə Dağıstandan hərəkət edən Bürhan tezliklə Osmanlı hökmdarı ilə görüşmüş və Şirvanı ələ keçirmək üçün qızılbaşlarla savaşa girişmişdi.[49]

Dövrün bir sıra mənbələrində Bürhanəli Sultanın əsasən Dağıstanda yaşaması və İstanbulda bir dəfə olması barədə məlumat vardır. Lakin əsasən Osmanlı müəlliflərinin əsərlərinə əsaslanan F.Kırzıoğlu Bürhanəlinin İstanbula üz tutduğunu nəzərə çatdırıb yazır: "Sultan Bürhanəli qaçıb, Qaytaq türklərinin yanında yaşayırdı. Osmanlılardan yardım alıb Şirvana vardı, Əlqasın ordusunu çox

saylı görüb, geri çəkildi. Ona Salyanə (illik vergi – Ş.F.) və arpalıqlar (ülufə - Ş.F.) təyin olundu. Beləliklə, Şah Təhmasibin oğlu ilə qız nəvəsi Qanunidən (Sultan Süleyman) Şah Təhmasib əleyhinə yardım diləyib, öz yurdlarının İstanbulun himayəsində olmasını məsləhət bildilər. Yeni şərq səfərinə başlamağı qərara alan Qanuni də, Şirvan və Dağıstan bəyləri və onların xalqlarına yazılan "nameyi-humayunlar"ını Sultan Bürhanəliyə verib onu Gürcüstan yolu ilə Şirvan üzərinə hücuma göndərdi. O, öz ata-baba yurduna gəlib, oradakı sünni şirvanlılarla birlikdə hücum edərək İsmayıl Mirzəni qovdu, ölkəsinə sahib oldu.[50]

Məlum olduğu kimi, Əlqas Mirzənin öz qardaşı Şah Təhmasibə qarşı üsyan edərək, Şirvandan Türkiyəyə qaçmasından sonra Qızılbaş hökmdarı şahzadə İsmayıl Mirzəni Şirvana bəylərbəyi təyin etmiş və Şirvanşahlar məskəni Səfəvi dövlətinin bir vilayəti kimi idarə olunmağa başlamışdı. Bürhan Şirvana yaxınlaşan vaxt qızılbaş qoşunu Dərbənd yaxınlığında ona hücum etmiş, ağır məğlubiyyətə uğrayan Bürhan qaçmağa məcbur olmuşdu. Mənbənin məlumatına görə, "əlində türk sultanını məktubu olan" Bürhan Şirvanda iki il vali sifətilə qalmış,[51] Sultan Süleymanın Azərbaycandan geri çəkilməsi, Əlqas Mirzənin öldürülməsi və Şirvanın Şah Təhmasib tərəfindən rəsmən Abdulla xan Ustaclıya verilməsindən bərk təşvişə düşmüşdü. Abdulla xan Kür çayını keçərək Şirvana yaxınlaşarkən, Şərəfxan Bidlisinin məlumatına görə, "Bürhan onda olan xəstəlik üzündən qəfildən" vəfat etmişdi.[52]

F.Kırzıoğlu Bürhanı "Sünni və üləma məskəni olan Şirvanın məşru (qanuni – Ş.F.) hökmdarı" və "igid Şirvanşah" adlandıraraq yazır: "Beləliklə və h. 951 (m. 1544)-ci ildə ortaya çıxıb, Şirvanı Əlqas Mirzənin əlindən və sonra da İsmayıl Mirzədən qurtarmağa çalışan bu igid yardımı ilə 1548-ci ildə, baharın başlanğıcında yetişmişkən, 1550-ci ilin ilk günlərində qəflətən ölməsi və Səfəvilərin güclü bir ordu ilə gəlib savaşması üzündən Şirvan yenidən düşmənləri qızılbaşların əlinə düşmüş oldu".[53]

Bürhandan sonra Şirvan taxt-tacına sahib olmaq üçün Şirvanşahlar nəslindən olan Mehrab Mirzə və Qurbanəlinin göstəridiyi cəhdlər baş tutmamış və ölkə Abdulla xan Ustaclı tərəfindən idarə olunmaqda idi. Lakin Osmanlı dövləti zəngin Şirvanı ələ keçirmək ümidindən hələ əl çəkməmişdi. H. 961 (m. 1544)-ci ildə Sultan Süleymanın Azərbaycana dördüncü yürüşü zamanı Osmanlı sultanının özü Naxçıvan istiqamətində hərəkət etmişdisə də, Şirvanşahlar nəslindən olan və İstanbulda sığınan Qasım Mirzəni Kəfə - Şimali Qafqaz – Dağıstan yolu ilə Şirvanı tutmağa yollamışdı.[54]

Qasım Mirzə Dərbəndi keçdikdən sonra onun Şirvan istiqamətində hərəkətindən xəbərdar olan şirvanlıların Abdulla xan Ustaclıdan üz döndərərək, Mirzə ilə gələn yeniçərilərə, Qumuq və Qaytaq döyüşçü dəstələrinə birləşməyə başladılar. Hadisələrin sonrakı gedişi göstərdi ki, bir neçə min türk və şirvanlı əsgəri ilə Buğurt qalasında müharibəyə hazırlaşan Qasım Mirzənin göstərdiyi cidd-

cəhd boşa çıxmış, Gürcüstan qalası ətrafında baş verən döyüşdə Abdulla xan Ustaclı qələbə çalmışdı. Həmin qələbə ilə əlaqədar olaraq bu qızılbaş əmirinin Şirvandakı hakimiyyəti daha da möhkəmləndi.[55] Osmanlı tarixçisi İbrahim Peçəvinin məlumatına görə Sultan Süleyman 962-ci ilin cəmadüs-sani ayının 9-da (1 may 1555) yenidən İrana hücum etməyi qərarlaşdırmışdı, lakin Şah Təhmasib "ölümcül dərdə yalnız sülh yolu ilə dəva oluna biləcəyini anlayaraq" Türkiyəyə çoxlu hədiyyələrlə bir elçi heyəti yollamış, bu yeni yürüşün qarşısını almışdı.[56]

1555-ci ildə Səfəvilər və Osmanlılar arasında imzalanan Amasya sülh müqaviləsinin şərtlərinə görə, Şirvan tamamilə qızılbaşların əlinə keçmiş, Türkiyə bir müddət (23 il) Şirvanı ələ keçirmək niyyətindən əl çəkməli olmuşdu. Çünki Türkiyə, Səfəvilərlə imzaladığı 1555-ci il sülh müqaviləsinə əməl etməyi üstün tutmuş, qızılbaşlarla barışığın tərəfdarı olmuşdur. Heç də təsadüfi deyil ki, Abdulla xan Ustaclı tərəfindən məğlubiyyətə uğrayan Qasım Mirzənin sultandan kömək ricasına əməl olunmamış, ona "indiki halda mabeyndə (arada – Ş.F.) olan sülhə müxalif bir vəziyyət yaratmağın münasib olamdığı" bildirilmişdi.[57] Lakin sultan "Şirvan xanı büsbütün ümidsiz Mirzəyə hərbi kömək üçün öz qohum-əqrabası olan Krım Şamxala müraciət etməsini məsləhət bilmişdi.[58]

1578-ci ildə III Sultan Muradın hakimiyyətinin (1574-1595) dördüncü ilində 150 minlik türk ordusu Lələ Mustafa paşanın sərkərdəliyi ilə Çirvana hücum edərək, tez bir zamanda Ərəş, Qəbələ, Şamaxı, Bakı, Şabran, Mahmudabad, Salyan və başqa şəhərləri ələ keçirdi.[59] Türk sultanı Bağçasarayda yaşamaqda olan Əbu Bəkr Mirzəyə himayəçilik göstərmiş və o, Lələ Mustafa paşanın Şirvana yürüşünə qədər (h. 986; m. 1578) Krımda qalmışdı.[60] Ağır vergi siyasətindən əziyyət çəkən rəiyyət və kəndlilərdən pis güzəranı, qızılbaş əmirləri arasında olan düşmənçilik, Azərbaycan ərazisində davam edən ara müharibələri - bütün bunlar Şirvan əhalisini qızılbaşlar əleyhinə qaldırmışdı. Şirvanın bu vəziyyətindən xəbər tutan Əbu Bəkr Mirzə tezliklə Krım və Osmanlı döyüşçüləri ilə yürüşə çıxdı. Tərkibində Şirvanşahlar nəslindən olan bir şahzadənin qoşunla Şirvan üzərinə yollanması türk ordusunun sonrakı hərəkəti üçün əlverişli şərait yaratmışdı.[61]

Tədqiqatçı Fəxrəddin Kırzıoğlunun yazdığına görə, şirvanlıların guya qızılbaşlar tərəfindən "ağır bir sünni vergisi verməyə" məcbur edilmişdilər və bundan xeyli narazı idilər.[62] Biz heç bir mənbədə belə bir məlumata təsadüf etmədik. Bac vergisini "sünni vergisi" adlandırmaqla Fəxrəddin Kırzıoğlu sünni osmanlıların yalnız təşəbbüskeşlik edərək sünni şirvanlıları "qızılbaş məzalimindən" (qızılbaş zülmündən) xilas etmək üçün hücuma keçdiklərini bildirir.

Şirvanı qızılbaşlardan alan Lələ Mustafa paşa oranın idarəsini və mühafizə olunmasını "igid vəzir" Osman paşa Özdəmiroğluya tapşırmışdı. Osman paşa təhlükəsizlik baxımından Şamaxını deyil, Dərbəndi özünə iqamətgah seçmiş, vəzir və sərdar rütbəsi ilə Şirvan sünniləri Dəmirqapıya (Dərbəndə) getməzdən əvvəl, Şirvan sünniləri sərdarın Şirvanı Osmanlı torpaqlarından birləşdirdiyini bilib tez

Dəmirqapı qalasının kutvalı olan qızılbaş Çıraq Xəlifəni həbs edərək, onun adamlarından 300 nəfərinin başlarını kəsdilər. "Sonra, iki minə yaxın sünni igidlər başlarına göy və qara papaqlar geyərək (qızılbaş papaqlarının əksinə olaraq – Ş.F.) Osmanlıların hərbi düşərgəsinə getdilər, Osmanlı başçılarına qiymətli hədiyyələr verərək Çıraq Xəlifəni və onun başqa adamlarını qətlə yetirdilər".[63]

Osmanlılar Şirvan vilayətinin maliyyə məsələləri ilə məşğul olmağa başladılar. Bu işin icrası Gümüşzadə Mustafa Çələbiyə tapşırılırdı.[64] Onun xüsusi hazırladığı təhrir dəftərlərinə vilayətdən yığılan 247 yük yarım aldığı ağca pul[*] səbt olundu. Şirvan vilayətində olan bütün torpaqların qeydiyyatı isə Zal Məhəmməd Çələbiyə tapşırıldı. 700 min ağca gəliri olan bütün xass (xassə) torpaqları[*] Şamaxı bəylərbəyisinə verildi. Ondan başqa 14 sancaqbəyiyə də "xass" torpaq sahələri təhkim edildi.[65]

Nəzərdə tutmaq lazımdır ki, Osmanlı sərdar, vəzir və döyüşmülərinin Şirvanın mərkəzi hissələrində daimi qalması heç də xətərsiz deyildi. Ara-sıra hücumlara məruz qalan "Şirvan bəylərbəyisi Osman Özdəmiroğlu bu qərara gəldi ki, islam döyüşçülərinin Dəmirqapıda qalmaları məsləhətdir".[66]

Osman paşa Özdəmiroğlu Dərbənddə qalmaqda, heç də başqa Şirvan şəhərlərindən əl çəkmək niyyətində deyildi. O, tezliklə Şamaxıya 15 min noqay döyüşçüsü yolladı. Peçəvinin məlumatına görə, təxminən 15 min Dağıstan döyüşçüsü də Şamxal bəyin başçılığı altında oraya göndərildi.[67]

Qeyd etmək lazımdır ki, III Murad özünün əsas qüvvələrini qızılbaşların öz əllərində saxladıqları başqa zəngin və münbit Azərbaycan və İran ərazilərinə yönəltmək məqsədi ilə Şirvanı, əsasən, tatarların gücü ilə saxlamaq niyyətində idi. Krım xanı bu qədər var-dövlət əldə etdikdən sonra daha Şirvanda qalmayıb, öz ölkəsinə qayıtmaq qərarına gəldi. Özü qayıdaraq, oğlu Qazi Gərayı Şirvanda saxladı. Sultan onun bu əməlindən incidi, xan isə öz mülkündən və başından məhrum oldu".[68] Amma məlumdur ki, bundan sonra da Krım xanları Osmanlı sultanlarına onların sədaqətli vassalları kimi öz xidmətlərini göstərməkdə idilər.[**]

---

[*] Ağca və yaxud axça –vəzni 0,33 qramdan 1,2 qrama qədər olan gümüş pul. Göstərilən dövrdə 120 ağca – 1 quruş, 270-360 ağca isə bir altuna bərabər idi. 1687-ci ildən başlayaraq ağca rəsmən quruşla əvəz edildi (Bax: İbrahim Peçəvi. Göstərilən əsər, Z.M.Bünyadovun "Şərhlər"i, səh. 97.).

[*] Şah və şah ailəsinə məxsus olan torpaqlara "xass", yaxud "xassı" torpaqlar deyilirdi. K.Röhrborna görə isə, əksinə, şah torpaqları "xalisə", dövlət torpaqları "xassə" adlanırdı (Bax: Ə.Ə.Rəhmani. Göstərilən əsər, səh. 125,228.).

[**] Qeyd: Krım tatarları h. 880 (m. 1475)-ci ildən Sultan Məhəmməd Fatehin vəziri Gədük Əhməd paşanın zindanda dustaq olan Krım xanı Mengli Gərayı azad edib hakimiyyətə gətirdiyi ildən başlayaraq həmişə (rusların 1783-cü ildə bu sülaləni məhv etmələri qədər) Osmanlı sultanlarına onların Avropa xristianları və Səfəvi hökmdarlarına qarşı apardıqları döyüşlərə həmkarlıq etmişlər. H. 1188 (m. 1774)-ci ildə Osmanlıların Rusiya tərəfindən müstəqillik əldə etdi. Lakin bu hal uzun sürmədi. Rus çariçası II Yekaterinanın qoşunları Krımı zəbt etib, son Krım xanı Şahin Gəray xanın hakimiyyətinə son qoydular. Yuxarıda adı çəkilən Məhəmməd Gəray xan isə II Məhəmməd Gəray xandır ki, o h. 985-992 (1577-1584)-ci illərdə hakimiyyət sürmüşdür. Ondan sonra qardaşı II İslam Gəray xan (h. 986: m. 1578-

İndi Sərdar Sənan paşa düşmənə tərəf göndərilmişdir. O, sizin torpağınızdan keçib gedəcəkdir, məsləhət bildiyiniz yerdə onunla görüşün, əcəm məmləkətini ayinləri pislik olan pafezilərdən (qızılbaşlardan – Ş.F.) təmizləyin, sünni əhalisini onların itaətindən çıxarın".[69]

Bu məktubun misal gətirdiyimiz sön cümləsi Osmanlıların Qızılbaşlara qarşı mübarizəsi dini-ideoloji prinsiplər əsasında hərəkət etdiyini bir daha nəzərə çatdırır. Elə III Muradın İrana həmlə zamanı Özdəmiroğlu Osman paşanın əsgərlərinə fərmanında da əsas fikir bu cəhətə cerilir. Fərmanda oxuyuruq: "Müzəffər əsgərlərim qələbə əldə etmək üçün mənim bu nəsihətlərimə əməl etsinlər. Biz din yolunda həmişə döyüşmüş və qalib gəlmişik. Neçə vaxtdır ki, islam qılıncı öz qınında qalmaqdan paslanmış və din düşmənlərimiz islam ölkələrinə vacibdir. Kəbə tərəflərdə çox döyüşmüş olan əzəmətli vəzir Hacı Sənan paşa ilə hücuma keçib, din düşmənlərini qırın".[70]

III Sultan Muradın Dağıstan hakiminə yazdığı bir məktubda da sultanın "əcdad, sərdar və sərkərlərinin" vaxtı ilə Şirvana yürüş etmələri və oranın pak etiqadlı sünnilərini rafezilərdən təmizləmələri xatırlanır, bu yolda dağıstanlıların da din düşmənlərini əzməyə başlayıb, böyük xidmətlər göstərdikləri yad edilir. III Sultan Muradın yazdığına görə, Dağıstan "hövzəsi üləma mənbədi, zühədə mədənidir və əhali sünni əqilədir".[71] Məlum olduğu kimi, II Şah İsmayılın hakimiyyəti illərində (1576-1577) Osmanlı-Qızılbaş hakimiyyəti bir həlimlik müşahidə olunmağa başlamışdı. Bunun səbəbi, zənnimizcə, bu Səfəvi hökmdarının aşağıda göstərəcəyimiz kimi sünniliyə meyl və böyük rəğbət etməsi olmuşdur. Amma ondan sonrakı Qızılbaş hökmdarları Şah Məhəmməd Xudabəndə və Şah Abbas şiəliyi özlərinin əsas dövlət dini elan edərək, var qüvvələri il sünniliyə qarşı çıxışlar etmiş, bu yolda dəfələrlə və inadkarlıqla mübarizə aparmışlar.*

İ.P.Petruşevski və S.B.Aşurbəylinin düzgün olaraq göstərdikləri kimi, İran-Türkiyə müharibələrinin ideoloji əsasının dini motivlər olduğuna baxmayaraq, əslində Osmanlı Türkiyəsinin Zaqafqaqziyanı zəngin ölkələrini və ticarət-karvan tranzit yollarını ələ keçirməkdə böyük marağı vardı. "Bundan başqa, Bakı limanını tutmaqla Türkiyə Xəzər dənizinə çıxmaq imkanı əldə edirdi. Şirvanın zənginliyi, onun nefti, duzu, ipəyi, pambığı və s. məhsulları da türk sultanlarını Azərbaycana hücuma şirnikləndirən amillərdən idi".[72]

Göstərmək lazımdır ki, 1578-1590-cı illər arasında Osmanlılar ümumiyyətlə, Azərbaycan, Gürcüstan və Şirvan torpaqları üzərində öz hakimiyyətini saxlamışdılarsa da, qızılbaşlar heç bir vəchlə bunula razılaşmır, tez-tez həmin

---

ci ilədək) və II Qazi Gəray (h. 992-996; m. 1584-1588) xanlıq etmişlər. Bax: K.Э. Босфорт. Мусульманские династии, Москва, 1971, с. 209.

* II Şah İsmayılın qısamüddətli hakimiyyəti zamanı onun dini islahat keçirmək cəhdi barədə O.Ə.Əfəndiyevin verdiyi məlumatlar diqqətəlayiqdir. (Bax: O.Ə.Əfəndiyev. XVI əsr Azərbaycan Səfəvilər dövləti, səh. 139-143).

torpaqlar uğrunda ciddi-cəhd göstərirdilər. Məhz buna görə də, Osmanlı sərdarları, adət üzrə, qış fəslini Ərzurumda keçirir, baharda yenidən özlərinin sultan tərəfindən təyin edilən yerlərinə qayıdırdılar. Osmanlılar qızılbaşlarlın hücumları nəticəsində Şirvanda ara-sıra öz mövqelərini itirirdilərsə də, yeni qüvvə toplayıb sonradan həmin yerləri geri alırdılar. H. 990 (m. 1582)-cı ilən Gəncə hakimi İmamqulu xan Qacar Şah Məhəmməd Xudabəndə tərəfindən 4 xan, 30 sultan, 3 min qorçi və 50 minlik bir qoşunla Şamaxıya göndərilmiş, bəzi yerləri tutmuş, Şabran yaxınlığında olan Niyazabadda Rumeli döyüşçülərinin sərdarı Yaqub bəylə döyüşmüş, məğlub olaraq geri çəkilmişdi. 991-ci ilin rəbiüs-sani ayının 18-də (12 may 1583) isə İmamqulu xanla "islam döyüşçüləri" osmanlılar arasında yeni döyüş olmuşdu. İbrahim Peçəvinin məlumatına görə, "İmamqulu xanın qoşununda ibn Bürhan da vardır. O, Şirvan bəylərindən olub, sonra düşmənlər (qızılbaşlar – Ş.F.) tərəfinə keçmişdi".[73] Şübhəsiz ki, burada adı çəkilən ibn Bürhan yuxarıda haqqında bəhs etdiyimiz Əbu Bəkr Mirzədir.[*]

Zəbt etdikləri və sonradan dəfələrlə əldən verdikləri böyük şəhərləri qorumaq üçün Osmanlılar qalalar tikir, böyük qarnizonlar saxlayırdılar. Belə qalalardan biri də 40 gün ərzində tikilən və cəmadüs-sani ayının 15-də (7 iyul 1583) tamamlanan Şamaxı qalası olmuşdur.[74]

Dərbənd bəylərbəyiliyi isə aşağıdakı 8 sancaqdan ibarət idi: Dəmirqapı, Şabran, Axtı, Quba, Müskür, Kürə, Çıraq, Rustov.[75]

Osmanlı imperiyasının razılığı ilə Şirvanda belə bölgü işi aparılmasına baxmayaraq, orada əldə edilən qələbəni saxlamaq üçün bu işə həvəslə girişə biləcək bir şəxs tapmaq çətinlik yaratmışdı. Şirvandakı Osmanlı qoşunlarına başçılıq etmək əvvəlcə Diyarbəkir Mustafa paşaya təklif olunmuşdursa da, onlar bu vəzifədən boyun qaçırmış, nəhayət sərdar Lələ Mustafa paşa həmin vəzifəni Özdəmiroğlu Osman paşanın öhdəsinə qoymuşdu.[76]

Osmanlı məmurları Şirvanda əhalinin siyahıya alınması ilə də məşğul olub, orada Osmanlı vergi sistemi üzrə fəaliyyətə başladılar. 1582-ci ilin sonlarında III Murad təkcə Şirvanı deyil, bütün Azərbycanı ələ keçirmək niyyəti ilə ölkəyə yeni yürüşlər təşkil etdi.[*] Sonralar Şah Məhəmməd Xudabəndə Şirvanda qalan türklərlə döyüşmək üçün bir neçə dəfə qoşun yolladısa da, lakin İsgəndər bəy Münşinin göstərdiyi kimi, Osman paşa onlara qarşı durmağa müvəffəq oldu.[77]

---

[*] Əbu Bəkr Mirzə 1602-ci ildə vəfat etmiş, ondan sonra varisi qalmadığı üçün Şirvanşahlar dövlətinin bərpası uğrunda daha da bir cəhd göstərilməmişdir. (Bax: Bəkir sidqi Kütükoğlu. Göstərilən əsər, səh. 124-127).

[*] Osmanlı ordusunun Azərbaycana bu yeni yürüşləri ilə əlaqədar bir sıra tədqiqatçıların səhv fikirləri vardır. Şərəfxan Bidlisinin əsərinə istinad edərək, 1582-ci ildən sonrakı Osmanlı yürüşlərində guya Krım tatarlarının da iştirak etmələri xüsusunda məlumat verən İ.P.Petruşevskinin səhv fikri S.B. Aşurbəyli. Şirvanşahlar dövləti, səh. 281-282/. Halbuki, O. Ə. Əfəndiyev tarixçi İ. Peçəvi və tədqiqatçı B. Donra istinad edərək, yuxarıda göstərilən yeni Osmanlı yürüşlərində tatarların iştirakını təkzib etmişdir.

"Sultan döyüşçülərinin ələ keçirdikləri yerlər və məmləkətlərin əhalisi qızılbaş zəbtindən çıxıb, bizim sarayın yolladığı adamların əlində olmalıdır: Təbriz, Qaracadağ ətrafı, Gəncə və Qarabağa mənsub olan yerlər, Şirvan torpaqları, Gürcüstan nahiyəsi, Nəhavənd və ona mənsub yerlər, Luristan və onun tabeliyindəki torpaqlar, sultan sarayının müvəkkillərində və Osmanlı dövlətinin etibarlı adamlarının ixtiyarında qalmalıdır. Sərhədlərin yenidən müəyyən olunması üçün Ban bəylərbəyisi ızır paşa və ali dərgaha yaxın adam olan Hüseyn təyin edildi".[78]

Bu məktubun ardınca III Murad elə həmin məsələ xüsusunda yeni bir namə yollayıb, artıq sərhədlərin müəyyənləşdirilmiş olduğunu Səfəvi hökmdarına bildirirdi.[79]

Beləliklə, 1590-cı ilin may ayının 21-də bağlanan Səfəvi-Osmanlı sülh müqaviləsinin şərtlərindən birinə görə Şirvan vilayəti başqa Azərbaycan torpaqları kimi Osmanlı imperiyasının tərkibinə qatıldı. Həmin ərazi XVII əsrin başlanğıcına qədər türk hakimiyyəti altında qalmışdır. Şirvan 1590-cı ildən sonra on ildən çox Türkiyə tərəfindən idarə olumuşdusa da, bu vilayət öz keçmiş müstəqilliyinə qaytarmaq üçün müəyyən cəhdlər edilmişdir. Belə ki, 1602-ci ildə Şirvan taxt-tacının Şirvanşahlar nəslindən olan son iddiaçısı Əbu Bəkr Mirzə bu məsələdə ona kömək göstərilməsi üçün I Şah Abbasa müraciət etmişdi.[80]

SƏFƏVİ DÖVLƏTİ VƏ OSMANLI İMPERİYASI

XV əsrin müxtəlif dövrlərində Qaraqoyunlularla və Şirvanşahlarla sülh, Ağqoyunlularla gah sülh, gah da müharibə şəraitində yaşayan və həmin dövlətlərdə öz ictimai-iqtisadi, siyasi, dini və hərbi münasibətlərin ardıcıl davam etdirən Osmanlı dövləti XV əsrin II yarısından başlayaraq, əvvəlcə Səfəviyyə dərviş və şeyxləri, sonradan isə (XVI əsrdə) Səfəvi padşahları ilə qarşılıqlı münasibətlərdə olmuşdur. Bütün XVI əsr boyu davam edən həmin münasibətlər əsasən rəqabət xarakteri daşımışdırsa da, Osmanlı-Səfəvi əlaqələrində, dinc yanaşı yaşamaq, bir-birilərinə müxtəlif məqsədlər daşıyan diplomatik elçilər yollamaq, məktublar, hədiyyələr göndərmək məqamları da az olmamışdır.

XVI əsr Səfəvi-Osmanlı münasibətlərinin şərhinə başlamazdan əvvəl, bütün müsəlman Şərqində bərqərar olmuş islam dinin iki cərəyanından – şiəlik və sünnilikdən bəhs etməmək olmaz. Məmlük sultanları Osmanlı və Səfəvi hökmdarlarının islam dininin qayda-qanunları pozmaqda günahlandırın, Qahirəni bütün islam dünyasının baş şəhəri sayır. Məhəmməd peyğəmbərin və böyük müsəlman imamlarının vəsiyyət bildirirdilər.[1]

Məlumdur ki, şiəlik ideyaları VII əsrdən etibarən meydana çıxmışdır. Həmin ideyaların ən dolğun şərhi XII əsr müəllifi Məhəmməd əş-Şəhristani tərəfindən onun "Kitab əl-miləl və-n-nihəl" kitabında təfsilatla verilmişdir.[2]

Onların fikrincə, imamlıq hüququ (imamət) Əli və Fatimə nəslindən başqa (Məhəmməd peyğəmbərin oğlu olmadığına görə) heç kimə mənsub ola bilməz. Şiə əqidəsincə imamət hüququ yalnız irsi prinsipə əsaslanmalıdır, imam müsəlman icması tərəfindən müstəqil olaraq seçilə bilməz (sünni əqidəsinin əksinə olaraq) və yalnız irsi olaraq təyin edilməməlidir. Məhz buna görə də şiələr Əlidən əvvəlki üç xəlifəni – Əbu Bəkri (632-634), Öməri (634-644) və Osmanı (644-656) yalançı imamlar və yalançı xəlifələr hesab etmişlər.[3]

Həmin dövrdə şiəlik yalnız Azərbaycanda deyil, həmçinin İranda, İraqi-Ərəbdə, Suriyada (Şam) və Kiçik Asiyada (Rum) da yayılmaqdaydı. Mötədil şiə-imamların təsiri ilə, yuxarıda adları çəkilən dövlətlərin ərazilərində səfəvi-qızılbaş hərəkatı yaranmaqda idi.[4]

Səfəviyyə, yaxud "Şeyxi" adlanan sufi-dərviş təriqətinin əsası hələ monqolların hakimiyyəti zamanı Ərdəbil şəhərində Şeyx Səfiəddin İshaq (1252-1334) tərəfindən qoyulmuşdu. Ondan sonra bu təriqətin başında oğlu Şeyx Sədrəddin (1334-1392), nəvəsi Xacə Əli (1392-1427), nəticəsi Şeyx İbrahim (1427-1447) və kötücəsi Sultan Cüneyd (1447-1460) dayandılar.[5] Əvvəllər Cüneydin də "şeyx" adlandırılmasına baxmayaraq, o sonralar öz müridlərini silahlandırılmış, özünü "sultan" elan edərək, Azərbaycanda və Anadoluda şiə məzhəbini hərbi-siyasi yollarla yaymağa başlamışdı.[6]

Şeyx Cüneydin "sultan" titulu daşımağı ilə onun siyasi fəaliyyəti Ərdəbil malikənəsi hüdudundan kənara çıxarırdı.[7] O, geniş hakimiyyətə çatmaq üçün hətta, nə qədər təzadlı bir hal olsa da bəzi sünni hökmdarların nüfuzundan da istifadə etməyə çalışırdı. Şeyx Güneyd Şirvanşah Xəlilullaha məktub yollayaraq, onu da cahad və qəzavata dəvət edir, ondan kömək təmənnasında olur.[8] Sultan Cüneyd öz mürid və dərvişləri ilə az sonra Ərdəbili tərk etmiş, Sivasa gələrək, Osmanlı hökmdarı II Sultan Murada elçi göndərmiş, onun torpağında özünə iqamət verilməsini xahiş etmişdi.[9] Türk mənbələrinin məlumatından bəlli olur ki, Sultan Murad Sultan Cüneydin bu xahişi ilə əlaqədar üləmalar ilə məsləhətləşdikdən sonra, şiəliyin Türkiyədə yayılacağından qorxmuş, şiə rəhbərini Osmanlı dövlətinə gəlişinin "millətin birliyini pozan bir təhlükə" olacağı xitabı ilə onun istəyini rədd etmişdi.[10]

Sivası tərk etməyə məcburiyyətində qalan Sultan Cüneyd əvvəlcə Konyada, sonra isə Trabzonda qalmış, öz ideyalarını təbliğinə girişmiş, hətta Trabzon imperatorluğunu yıxıb, özü də müridləri üçün bir dövlət qurmağa çalışmışdı. Özünün bu məqsədinə yetə bilməyən Sultan Cüneyd "Qaraqoyunlu dövlətini devirib,[*] Ağqoyunlu dövlətini yaradan" Uzun Həsənin yanına gələrək, onun bacısı Xədicə ilə evləndi.[11] Bu izdivac onu göstərir ki, Sultan Cüneydin şiə məzhəbinin

[*] Professor. Mehmet Sarayın bu fikri səhvdir. Məlum olduğu kimi, Uzun Həsənin Ağqoyunlu bəyliyinə başçılığa keçməsindən (1453) sonra, heç də Ağqoyunlu dövləti yaranmamış, Qaraqoyunlu dövlətinin 1467-ci ildə süqutuna qədər Uzun Həsən sadəcə olaraq bir "bəylik" hökmdarı olaraq qalmışdı.

dini başçısı olmasına baxmayaraq, o, qatı sünni olan Uzun Həsənin bacısını almaqla, fanatik bir şeyx kimi deyil, siyasi xadim kimi hərəkət etmiş,[12] məhz Ağqoyunlularla qohumluq sayəsində özünün gələcək planlarını həyata keçirmək məqsədi güdmüşdür. Sultan Cüneydin vəliəhdi Heydər də atasının yolu ilə getmiş, Ağqoyunlulara arxalanmış, dayısı Uzun Həsənin qızı Aləmşah (Marta) ilə evlənmişdi. Bu kəbin ilə Uzun Həsən də döyüşkən Səfəvilərin şəxsində özünə himayəçi tapmış, Cahanşah Qaraqoyunlu və Əbu Səid Teymuri ilə mübarizəsində qızılbaşların köməyindən istifadə etmişdir.[13]

Uzun Həsənin vəfatından sonra Ağqoyunlu taxt-tacının irsi sahibi olan Sultan Yaqub Sultan Heydərin siyasi fəaliyyətinin genişlənməsindən qorxmuş, onunla mübarizədə kömək istəyən qayınatası Şirvanşah Fərrux Yəsara hərbi dəstələr yollayaraq belə demişdi: "Əgər Sultan Heydər bu ölkəni (Şirvanı – Ş.F.) ələ keçirərsə, Azərbaycan dövlətini də (yəni Ağqoyunlu dövlətini – Ş.F.) almaq arzusunda olacaqdır".[14] Nəticədə, Sultan Heydər də öz siyasi məqsədlərinə yetə bilmədi və 1488-ci ilin iyun ayının 30-da Tabasaran yaxınlığındakı döyüşdə məhv oldu.[15]

XV əsrdə Səfəvilərin arxalandıqları əsas qüvvə sonradan qızılbaşlar adlandırılan yeddi tayfa (şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər) olmuşdur. Bu tayfalar "müqəddəs" Səfəvi şeyxlərinin itaətinə girərək, özlərini "mürid", "sufi", "dərviş" adlandırsalar da həqiqətdə, Səfəvilərə xidmət edən feodal qoşunları funksiyasını daşıyırdılar.[16]

Səfəvi-qızılbaş təsirinin Ərdəbildən çox-çox kənara yayıldığını (İran, Kürdüstan, Rum, şam və s.) görən Ön Asiyanın sünni hökmdarları şiə hərəkatının belə surətlə genişləndiyindən qorxuya düşdülər. İ.P.Petruşevskinin tamailə haqlı olaraq yazdığı kimi, Şeyx Heydər Səfəvinin Şirvanşah Fərrux Yəsar tərəfindən məğlubiyyəti və qətlinin beynəlxalq əhəmiyyəti vardır.[17] Bu hadisə münasibətilə Yaqub Ağqoyunlu dərhal Osmanlı Sultanı II Bayazidə məktub yazmış, "yolunu azmışların başçısı"[18] (yəni Şeyx Heydər – Ş.F.) üzərindəki qələbəni böyük sevinclə ona bildirmişdi.

Məktubda Şeyx Heydərin "əsil-nəsəb etibarilə övliya xanədanından və Əsfiya (Səfəviyyə - Ş.F.) dudmanından" olduğuna baxmayaraq, siyasi fəaliyyəti (Gürcüstana və alicənab Şirvanşaha qarşı Şirvana hücumu) pislənir, ölümündən zərurət olduğu əsaslandırılır. "O fiqrə (yəni qızılbaşlar – Ş.F.) peyğəmbər şəriətinin və mürtəzəvi təriqətin düşmənləri, din və dövlətin yağılarıdırlar. Onların qəhr olunmaları din və millət səhabələri üçün müjdədir,"[19] – yazan Sultan Yaqubun məktubuna dərhal cavab göndərən II Bayazid bir sünni hökmdarı kimi həmin qələbə münasibətilə onu təbrik etmişdi.[20]

Sultan Heydər Səfəvinin din və siyasət meydandan kənar edilməsindən az sonra Sultan Yaqub Ağqoyunlu da öz yaxın adamları tərəfindən zəhərlənib öldürülmüş, sarayda hakimiyyət uğrunda daxili çəkişmələr qüvvətlənmişdi. II

Bayaziddən də bizim təvəqqemiz budur ki, öz köməyini əsirgəməsin və allahın pənahı ilə yer üzü o cəmaətin (qızılbaşların – Ş.F.) zəlalətindən xilas olsun və Bayanduriyyə xilafəti (hakimiyyəti – Ş.F.) ələ alsın" yazan Əlvənd Mirzə öz narahatlığını Osmanlı sultanına bildirir.[21] "Qızılbaşların ortaya gəlmələri ilə zülmətin çoxaldığı və nurun azaldığını" bildirən Sultan Bayazid özünün növbəti məktubunda "lakin günəşin qabağında çıraq işığının əhəmiyyəti yoxdur" yazaraq, Əlvənd Mirzəyə ürək-dirək verib, ona öz köməyini vəd edir.[22]

Bütün bu hadisələr Səfəvilərin şiə məzhəbini əldə əsas tutaraq, böyük hakimiyyətə yetmək uğrunda etdikləri cidd-cəhdləri nümayiş etdirir. Şeyx Cüneyd, Şeyx Heydər və Şeyx Sultanəlinin məğlubiyyətə uğraması demək deyildi. Qızılbaş tayfaları və Səfəvilərin tərəfdarları sünni hökmdarlarına qarşı çıxmaq üçün əlverişli şərait gizləməyə başladılar. Ağqoyunlu dövləti daxilində baş verən yeni saray münaqişələri qızılbaşlara 13 yaşlı İsmayılın rəhbərliyi ilə yeni fəaliyyətləri üçün imkan yaratdı. 1500-1501-ci illər arasında İsmayıl bütün Azərbaycanı özünə tabe edə bildi.[23]

Qeyd etmək lazımdır ki, Səfəvilərin Anadoludakı müridləri hələ İsmayıl şah olmazdan əvvəl də tez-tez Ərdəbilə ziyarətə gedir, şiəyilin torpaqlarında təbliği üçün böyük səy göstərirdilər. Onlara verilən "Bunca zəhmət çəkib, Ərdəbilə getmək əvəzinə Məkkəyə gedib həzrəti-rəsulu ziyarət etsəniz daha yaxşı olmazmı?" sualına sufilər "biz dirinin yanına gedirik, ölünün yox" cavabını verirdilər".[24]

Azərbaycan torpaqlarını ələ keçirib, orada Səfəvi-Qızılbaş dövləti qurmaq ideyası ilə müxtəlif təşəbbüslərə faciəli uğursuzluqlarından sonra bu yola qədəm qoyan İsmayılı yalnız Ərdəbil sufiləri deyil, habelə bütün İran, İraqi-Ərəb, Kürdüstan və əsasən (Kiçik Asiya) imam-şiələri və dərvişləri qızğınlıqla müdafiə etdilər.[25]

Özündən əvvəlki Qaraqoyunlu və Ağqoyunlu dövlət başçıları kimi Şah İsmayıl da hakimiyyətə gələn zaman Təbriz şəhərini özünə paytaxt etmişdir.

Səfəviyyə-Qızılbaş cərəyanının yeni mürşidi olan Şah İsmayıl özünün saysız-hesabsız müridləri tərəfindən get-gedə ilahiləşdirilirdi. İsmayılın başqa məmləkətlərdə olan müridləri bir-biri ilə qarşılaşanda "Salam əleykum" əvəzinə "Şah" deyirdilər, hətta xəstələrini yoxlamağa gedənlər belə, dua əvəzinə "Şah" sözünü təkrar edirdilər.[**] Bu haqda, alman tədqiqatçısı Valter Hinsin də maraqlı qeydi vardır. O yazır ki, müstəsna şəxsiyyətlərin qəhrəman, yarı məbud hətta məbud sayılmaları bəşəriyyət qədər köhnə olan bir məsələdir.[26]

[**] İsmayılın 1501-ci ildə taxta çıxması haqqında geniş məlumat vardır, lakin türkmən tədqiqatçısı O.Ekayev İsmayılın 1499-cu ildə taxta əyləşdiyi barədə yanlış məlumat verir (Bax: О.Экаев. Усиление проникновение шиизма в Хорасан XV—XVI вв. «Материалы IV Всесоюзной конференции востоковедов. Восток: Прошлое и будущее народов,» Москва, 1991, стр. 220).

XVI əsrin əvvəllərində İran əhalisinin əksəriyyətini sünnilər təşkil edirdilər. Ərdəbil şeyxləri tərəfindən aparılan şiə təbliğatı təkcə İranda deyil, Azərbaycanda və Kiçik Asiyada – türkdilli əhali arasında da böyük əks-səda doğurdu və özünə çoxlu tərəfdar topladı.[27] Frank Babingerin Venesiya səyyahlarının əsərlərinə əsasən verdiyi məlumata görə, XV əsrin sonu – XVI əsrin əvvəllərində Kiçik Asiya əhalisinin artıq beşdə dörd hissəsi şiələrdən ibarət idi.[28]

Yuxarıda yazdığımız kimi, şiə-qızılbaş hərəkatının yayılması türk sultanı II Bayazidi bərk həyəcana salmışdı. O, nə yolla olursa-olsun şiəliyin qarşısını almağa çalışır, qonşu hakimləri də buna dəvət edirdi. Ağqoyunlu şahzadə və mirzələri arasında ixtilafın get-gedə dərinləşdiyini görən II Bayazid vaxtı itirmədən kürd Hacı Rüstəmə məktub yazaraq, Ağqoyunlu-Qızılbaş münasibətlərindən narahat olduğunu bildirir, bu xüsusda ondan məlumat soruşur. Kürd Hacı Rüstəmin cavabı türk sultanının təşvişini bir qədər də artırır.[29]

Şah İsmayıl, şübhəsiz ki, böyük bir şiə dövləti qurmaq niyyətində olmuşdur, lakin o, hələlik bu işi onun məzhəb rəqibi olan başqa qüdrətli hökmdarları özünə qarşı qaldırmaqla görmək istəmirdi. Sultan Bayazidə tezliklə şah İsmayıldan bir məktub gəldi. Səfəvi hökmdarı türk sultanından "Rum ölkəsində yaşayan qızılbaş mürid və əqidə sahiblərinə Ərdəbili ziyarət etmələri üçün icazə" istəyir, yollarda yerli hakim və valiləri zəvvarların gediş-gəlişlərinə mane olmamaları üçün tədbir görülməsini nəzərə çatdırır. Hələ çox gənc olan, lakin belə surətlə qələbələr əldə edən, yalnız Azərbaycanda deyil, Rumda və başqa ölkələrdə də yüz minlərlə tərəfdarı olan Şah İsmayıla etiraz edə bilməyən sultan ona müsbət məzmunlu cavab məktubu yollayır.[30]

İ.P.Petruşevskinin bir qeydində II Bayazidin təbəələri olan Səfəvi dərviş təriqəti müridlərinə onların Ərdəbili ziyarət etmələri xüsusunda icazə verilməsi sultanın belə ziyarətin siyasi deyil, dini xarakter daşıdığını güman etməsi ilə əsaslandırılır ki,[31] zənnimizcə, bu düzgün mülahizə deyil. Heç də təsadüsi deyil ki, gənc İsmayıl hələ şah olmazdan əvvəl II Bayazid müxtəlif qüdrət və iqtidar sahibləri ilə məktublaşır, əlaqədə olduğu bütün nüfuzlu şəxslərin Səfəvilərə qarşı çıxmağa təhrik edir, onlara öz köməyini vəd edirdi. O, Misir və Suriyanı məmlük sultanı Qansu Qiru (1501-1516) ilə qızılbaşlar arasında hərbi ittifaq bağlana biləcəyindən qorxuya düşərək, dərhal məmlük hökmdarına məktub yollayıb onu qızılbaş hərəkatının Ön Asiya dövlətləri üçün təhlükəli ola biləcəyindən hali edirdi.[32]

Gənc Osmanlı şahzadəsi ilə gənc Səfəvi hökmdarı arasında vəziyyət, onsuz da, gərgin idi. Şah İsmayıl taxta çıxdığı vaxtdan etibarən Bayburd, Ərzincan və başqa Anadolu torpaqlarına öz qızılbaş xəlifələrini göndərərək, o yerlərin əhalisini öz tərəfinə çəkməyə çalışırdı. Həsən bəy Rumlu yazır ki, Rum diyarında yerli xalqın bəzi nüfuzlu nümayəndələri, o cümlədən Qaraca İlyas "Rum sufilərinin bir dəstəsi ilə gəlib" ona qoşuldu.[33] Fəxrəddin Kırzıoğlunun məlumatına görə, şahzadə

Səlim Gürcüstan səfərindən qayıtdıqdan sonra, Şah İsmayıl İstanbula bu Trabzon hakimindən "şikayət etmək və padşaha təminatı-dostanədini yenidən bildirmək məqsədilə" bir elçi heyəti göndərdi.[34] Bu məlumatdan görünür ki, Sultan Bayazid kimi, elə Şah İsmayıl da qonşu Osmanlı dövləti ilə böyük ixtilafa can atmırdı. Münəccimbaşıya görə, Sultan Bayazid qızılbaş elçilərini qəbul etdikdən sonra Səlimə "əmri-ali göndərib buyurdular ki, o, ancaq öz sancağını (Trabzonu – Ş.F.) mühafizəyə məşğul olub, ziyadəyə (başqa torpaqlara – Ş.F.) təcavüz etməsin".[35]

Kiçik Asiya şiələrinin Osmanlı sultanı və vilayət hakimləri tərəfindən təqib edilməsi Şah İsmayılın diqqətindən yayınmadı. O, şiəçiliyin daha da genişləndirilməsi üçün hətta Kiçik Asiya şiələrinin İran və Azərbaycana köçürülməsinə cəhd etdi. Lakin bu xüsusda onun II Bayazidə yazdığı h. 908 (m. 1502/03)-ci il tarixli məktubuna sultan tərəfindən heç bir cavab verilmədi.[36] İki il sonra, İraq və Farsı fəth edən Şah İsmayılı təbrik etmək üçün Sultan Bayazid tərəfindən Təbrizə göndərilən elçi heyəti Səfəvi hökmdarı tərəfindən hörmətlə qarşılanmış, Həsən bəy Rumluya görə, "şah Sultan Bayazidə öz məhəbbətini izhar etmişdi".[37]

Sultan Heydərin bir qızılbaş mürşidi kimi fəaliyyətdə olduğu vaxtlarda Anadoludan Həsən Xəlifə adlı bir şəxs iki dəfə İrana getmiş, Sultan Heydərdən "dəsturul-əməl" alaraq Təkə elinə qayıtmışdı. Deyilənə görə, ö öz elinə qayıtdıqdan sonra Sultan Heydərin müridlərindən olan Pirə Sənan belə uzaqgörənlik etmişdi: "Həsən Xəlifə gəldi, amma o, Təkə elinə yanar bir atəş gətirdi". Doğrudan da, Həsən Xəlifənin Təkə elinə apardığı atəş və qan oldu. Onun sonrakı fəaliyyəti bu sözlərin doğruluğunu təsdiq etdi.

Həsən Xəlifədən sonra onun oğlu Şahqulu Təkəli öz atasının davamçısı oldu. Sultan Bayazidin hakimiyyətinin sonlarında, o, bir dəstə Müntəşa və Gərmiyan qızılbaşları ilə Şah İsmayılın yanına yollandı. Təkə elinin hakimi onlara mane olmaq istədikdə, Şahqulu ona qarşı çıxıb, döyüşdü və qalib gəldi. Sultan Bayazidin baş vəziri Xadim Əli paşa 50 minlik ordusu ilə ona hücuma keçmək məcburiyyətində qaldı. Çünki üsyançıların hərəkətləri Osmanlı dövləti üçün artıq böyük təhlükə yaratmışdı; onlar məscidləri dağıdır, kəndləri yandırır, müqəddəs ziyarətgahları və məzarları viran edirdilər. Üsyanın yatırılması və Şahqulunun öldürülməsindən sonra, sağ qalan üsyançılar Qızılbaş dövlətinə qaçmaq məcburiyyətində qaldılar.[38]

Osmanlıların Səfəvi dövlətinə hücum hazırlığı ilə əlaqədar bir məsələnin də nəzərə çatdırılması əhəmiyyətli olardı. Sultan Səlim, məlum olduğu kimi, qızılbaşları müsəlman saymamış, bu xüsusda başqa ölkə başçılarına da müxtəlif risalə və fitvələr yollamışdır. Cənabi-Allahın haram buyurduğuna halal deyən, Qurani-kərimi atəşə atan, şəriət kitablarını cıran, həzrət Əbu Bəkr ilə həzrət Ömərə söyüb, onların xilafətini inkar edən, Peyğəmbər əfəndimin xatunu Ayişə anamıza küfr edən bu qızılbaş tayfasına qarşı hərb elan edilməsi xüsusunda şəriət

kitablarımızın ehkamlarına uyğun olaraq fitva verdik. Zira onlar kafi olmuşlar. Onlarla əlbir olanlar və onların etdiklərini edənlər də kafirdirlər. Bu kafirlərin cəmiyyətini dağıtmaq bütün müsəlmanlara vacib və fərz olmuşdur. Bu iş uğrunda döyüşən müsəlmanların ölənləri şəhid, qalanları isə qazi olacaqdır. Öldürülən qızılbaşlar isə cəhənnəmlikdir!".[39]

Məzəhbərin ayrı, dinləri bir olan qızılbaşları "dinsiz" adlandıran bəzi Osmanlı tarixçiləri də Sultan Səlim tərəfindən yazdırılan fitvaya tərəfdar çıxır, "islam dininə küfr edib, onu rədd edən Şah İsmayıl və onun qazilərinə qarşı başlanacaq savaşların başqa din düşmənlərilə edilən savaşlar kimi cahad sayılacağını" bildirir, şiələrin "öldürülmələrinin cayiz, mallarının halal, nigahlarının isə batil olduğunu" xüsusi olaraq nəzərə çatdırırlar. Vaxtilə Ərdəbildə yaşayan, sonra Anadoluda sığınan Molla Ərəb adlı, əsli Xorasanlı olan bir türk aliminin də Sultan Səlimin Azərbaycana yürüşə rəğbətləndirilməsində böyük rolu olmuşdur. Şiəçilik məsələsinin ciddiliyini Osmanlı sultanına anladan Molla əörəb qızılbaşlar üzərinə hücumun zəruriliyini bildirir və sonralar, yürüş zamanı Çaldırana qədər gedib, Osmanlı əsgərlərini hərbə təşviq edir.[40] Buna görə də, Sultan Səlim özbək Şeybani xana məktub yazaraq, ona "müştərək düşmənləri olan qızılbaşlara qarşı birgə yürüş etməyi təklif edir".[41]

Sultan Səlimin bir müttəfiq kimi özünə cəlb etmək istəyi hökmdarlardan biri də Mavəra ən-nəhr dövlətinin başçısı Übeydulla xandır*. Osmanlı hökmdarının ona yazdığı məktubda "Şərq ölkələri əhalisinin Sufioğlunun (Şah İsmayılın – Ş.F.) əlindən cana doyduqları, onun qədəm basdığı yerlərdə fitnə-fəsad törəndiyi" və s. hərəkətləri pislənilərək, bu şiə hökmdara qarşı yürüşün zəruriliyi qarşıya qoyulur. "Yaxın zamanda böyük bir ordu ilə hərəkət olunacaqdır. Sizə atamın zamanından bəri güvəncimiz vardır və Sizin də bu işdə bizə yardımınız lazımdır. Tezliklə Sizdən sevindirici xəbər gözləyirik" yazan Sultan Səlim tezliklə də Übeyddən cavab məktubu alır. "Siz hücum edən kimi biz də hərəkətə gəlməyi qərara almışıq. Elçimiz Nizaməddin Məhəmməd bəy gələn andan Səmərqənd sərhəddindən tutmuş Daşkəndə qədər bütün mirzələrə (şahzadələrə - Ş.F.) xanlara, bahadırlara, özbək-cağatay bəylərinə tabe olanlara – Çingiz xan soyuna qurultay qurub, rafizilər (qızılbaşlar – Ş.F.) üzərinə yürümələri xüsusunda qərar verildi" – yazan Übeyd xan tamamilə Sultan Səlimə tərəfdar olduğunu bildirir.[42]

Osmanlı sultanı Ağqoyunlu bəylərindən Fərruxşad bəyə (O, Sultan Murad Ağqoyunlunun vəziri olmuşdur) də məktub yollayaraq, onu da "əhli-sünnə" (sünnilər) kimi özünə həmkar olmağa dəvət edir.[43]

* Übeyd xan özbək xanı Mahmudun oğludur. Böyük hakimiyyət əldə etmək məqsədi ilə Xorasana hücum edərək Sultan Hüseyn Baykaranın oğlanları Köpək Mirzə və Hüseyn Mirzəni məğlub edir, Məşhədi tutur, Buxara Zəhirəddin Baburla (gələcək "Böyük moğollar" imperiyasının başçısı) döyüşür, Qəcdəvan qalası yaxınlığında Şah İsmayılın bütün Mavəra ın-nəhrdə tam müstəqil hakimi olur. Xorasanı ələ keçirmək üçün İrana hücum edir.

Göstərdiyimiz bu səbəblərdən başqa, Osmanlı ordusunun qonşu "Şərq diyarına" hücuma aparılmasında ordudakı yeniçərilərin (qeyri-müsəlman Osmanlı piyada döyüşçüləri – Ş.F.) böyük qarət ələ keçirmək üçün hərbi yürüşə çıxmaq istəyi də müəyyən rol oynamışdır. Osmanlı diyarında yeni sultanın hakimiyyətə gəlməsi ilə əlaqədar orada yaranan hərc-mərcliyi bilən "Sufeyi-kamil" ("Kamil sufi"), yəni, şah İsmayıl dərhal Nurəli Xəlifə Rumlunu "sadiq sufiləri bir yerə toplamaq" üçün Anadoluda elə atəş törətdi ki, evlərlə bərabər adamlar da yandı. O, üstünə yeriyən Osmanlı qoşununu məğlub edib, Toqatı tutdu, "Sufeyi-kamil"in adına xütbə oxutdu. Nurəli Xəlifə Ədirnədən Qazçayırı adlı yerə gəldikdə, hətta öz atası Sultan Bayazidə və qardaşı Səlimə qarşı üsyan edən Sultan Murad da 10 minlik qoşunu ilə qaçıb ona birləşdi.[44] Yenidən Toqata qayıdıb şəhəri yandıran bu birləşmiş ordu Nikşəhrə gəldi. Orada Sultan Murad Xəlifədən ayrılıb, Təbrizə - Şah İsmayılın yanına getdi. Nurəli Xəlifə isə Ərzincana gedib, 15 minlik bir orduya qalib gəldi. Sultan Səlimin Qızılbaş dövləti üzərinə təcili hücuma keçmək niyyətinin başqa bir səbəbi də məhz bunda idi. O, yenicə taxta çıxdığı üçün öz qüvvəsini gərək həm "özününkülərə, həm də biganələrə" göstərəydi.[45]

O.Ə.Əfəndiyevin qeydinə görə, Səfəvi dövlətinin hərbi-siyasi tarixində Çaldıran döyüşü mühüm mərhələ olmuşdur. Bu döyüş Kiçik Asiyada yaşayan şiələrdən kömək ala biləcəkləri xüsusunda Səfəvilərin ümidini yanlış olduğunu göstərdi.[46] Döyüşdən əvvəl Sultan Səlimin güclü hazırlıq işi apardığının əksinə olaraq Şah İsmayıl "İsfahan boyalarında ov etməklə" məşğul idi.[47]

Azərbaycana hücum ərəfəsində Sultan Səlim bir-birinin ardınca üç məktub göndərir. Həmin məktubların hamısı təhqiramiz xitab və hədə-qorxu ilə doludur. Osmanlı sultan qızılbaş şahının əlindən bərk yanıqlı idi. Məlumdur ki, bir çox ölkələrin, o cümlədən də Şərq ölkələrinin diplomatiyasına xas cəhətlərdən biri də, taxta yeni cülus edən hökmdarın başqa yaxın və uzaq dövlət başçıları tərəfindən də rəsmən tanındığına baxmayaraq, hələ Şah İsmayıl onu təbrik etməmiş, beləliklə də yaxın bir qonşu kimi onunla siyasi əlaqə yaratmaq cəhdində olmamışdı.[48] Təbiət etibarilə kin-küdurətli bir şəxs olan Sultan Səlim Azərbaycana qoşun çəkməklə bu hərəkətin əvəzini Şah İsmayıldan çıxmalı idi. Məhz elə buna görə də Sulktan Səlim birinci məktubunda qızılbaş hökmdarının da müqabil olaraq özü tərəfindən şah kimi tanınmadığını bildirmək məqsədilə ona "Əmir İsmayıl" deyə müraciət etmişdir.[49] Sonra o, həmin məktubda Səfəvi hökmdarını şəriətə müxalif əməllərdə günahlandırır, onun və ona uyanların qətlinin vacib olduğunu bildirir. Lakin məktubdan göründüyü kimi, Sultan Səlim iki dövlət arasındakı ixtilafın döyüşsüz də həll oluna biləcəyinə işarə edərək ("Əgər, sən tövbə edib, əlindəki ölkəni Osmanlı ölkəsi saysan, çox yaxşı, yox, əgər belə hərəkət etməsən, Allahın istəyi nəsə o da olacaqdır"),[50] onu döyüşdən çəkindirməyə cəhd etmişdir, çünki həmin döyüşün məsuliyyətini başa düşmüş, ola bilsin ki, özünün qələbə çala biləcəyinə tam arxayın olmamışdı.

Şahdan cavab almayan sultan ona ikinci məktubunu yollayır. Müqabil tərəf yenə susur. Üçüncü məktub yazılır, Osmanlı ordusu Ərzincandan Azərbaycana doğru daha da irəliləyir, nəhayət sultanın üç məktubuna şahın bir cavab məktubu gəlir. Şah İsmayıl Sultan Səlimə bildirir ki, Qızılbaş və Osmanlı dövlətləri arasında heç də elə böyük ixtilaf yoxdur, onların münasibətlərinin pisləşməsinə Əlaüddövlə Zülqədər (qonşu hakim) səbəb olmuşdur. Bu məktubun yazı tərzindən görünür ki, Şah İsmayıl da döyüşdən çəkinir və arada sülh yaranacağına ümid edir. Məhz bu niyyətlə də o, Şahqulu ağanın elçi sifətilə Osmanlı sultanının hüzuruna göndərildiyini bildirir. "Bu məktubu dostcasına yazdıq və Sizə qarşı çıxmaq üçün hazırlığa başladıq. İndi, istədiyinizi edin. Əli övladları ilə savaşanların özləri yox olmalıdır!.."[51]

Biz Çaldıran döyüşü ilə əlaqədar mənbə və ədəbiyyatların verdikləri məlumatların təhlili ilə məşğul olarkən, belə qənaətə gəldik ki, hərbi təchizat və qüvvə cəhətincə Osmanlılardan xeyli zəif olan Qızılbaşlar gərək həmin döyüşə çıxmayıb gözləmə mövqeyi tutaydılar. Əgər belə olsaydı, Osmanlılar elə onsuz da öz torpaqlarına dönmək məcburiyyətində qalacaqdılar, çünki Azərbaycana yürüş edən iki yüz minlik böyük bir ordunun yad ölkədə qalması üçün heç bir şərait yox idi. Sultan Səlimin bu xüsusda Sevindik adlı bir xana yolladığı "Çaldıran fəthnaməsi"ndə açıq-aşkar belə yazılmışdır: "O zalım və qəddarın (Şah İsmayılın - Ş.F.) şərindən ətraf əmin olmadığı üçün bu vilayətlərdə qışlamaq çox zor olduğundan Osmanlı mülkünə dönmək lazım gəldi".[52] Lakin Osmanlı qoşununun geri dönmə labüdlüyünə baxmayaraq, Sultan Səlim özünün qələbəsindən olduqca qürurlanmış, elə həmin gün oğlu Süleymana, Krım xanına, Gürcüstan hakiminə, zülqədər əmirinə, kürd bəyinə və "Şərq hakimlərindən onunla gizli dostluq münasibətində olan bir bəyə" fəthnamələr yollamış,[53] hətta Əhməd adlı bir paşanı Təbrizə hakim təyin etmişdi.[54]

Sentyabr ayının 14-də Təbrizi tərk edən Sultan Səlim Naxçıvan və Bayburdu keçib öz məmləkətinə daxil oldu. O, bir neçə min Azərbaycan sənətkarını da köçürüb özü, ilə İstanbula apardı.[55] Ə. Nəvainin məlumatına görə, Sultan Səlim 1515-ci ilin baharında yenidən Azərbaycana hücum planlaşdırmışdı.[56] Yəqin ki, elə buna görə də, o, qızılbaşlarla nifaq mövqeyində durur, onlarla sülhə gəlmək istəmirdi. Sultan Səlim Amasyada olduğu zaman, Şah İsmayılın yolladığı səfarət heyəti qiymətli hədiyyələrlə saraya gəlib, Osmanlı döyüşçülərinin əsir götürdükləri Taclı xanımı geri istəmişdilərsə də, sultan nəinki şahın bu xahişinə əməl etməmiş, hətta səfirləri zindana atmış, məlikə Taclını qoşun qazisi Səfər Çələbi Tacizadəyə vermiş,[57] beləliklə də, qızılbaşlara olan düşmən münasibətini bir daha nəzərə çatdırmışdı.

Çaldıran döyüşündən sonra Şah İsmayıl iki məktub yazaraq, Osmanlılarla bir neçə dəfə sülh bağlamağa cəhd etdisə də, bu cəhdlərin müsbət nəticəsi olmadı. Onun o vaxtlarda sultana yolladığı məktubların birincisi əlimizdə yoxdur. İkinci

məktub isə sanki birincinin davamı kimi yazılmışdır. Qızılbaş hökmdarı həmin məktubda Osmanlı sarayına yolladığı elçi heyətinin geri qayıtmadığından narahat olduğunu bildirir, Kəmaləddin Hüseyn bəydən və Bayram ağadan ibarət olan yeni elçilərinin "masal düşən kimi" geri qaytarılmalarını xahiş edir. Bu məktubun diqqəti cəlb edən yerlərindən biri də, Çaldıranda məğlubiyyətinə baxmayaraq, Şah İsmayılın öz qürurunu qoruyub saxladığını ifadə edən cümlələridir. Şah öz məğlubiyyətinin səbəbini həmin döyüşə əhəmiyyət verməyərək, yaxşı hazırlıq işləri aparmamasında və "tale qismətində" görür. ("O vaxtlarda mən öz əsgərlərimi ətraf yerlərdən çağırmadım, bir neçə mülazimim və diyarbəkir ətrafından gələn adamlarımla zərurət üzündən Sizin qarşınıza çıxdış")[58] Şah İsmayıl sultanı sülhə dəvət edərək ("dindar sultanlar arasında başlanan müxalifət din və imanın zəifləməsinə küfr və üsyan əhlininsə cürət və cəsarətinə səbəb olur"),[59] onun yanına yollanan qızılbaş elçilərinin məqsədlərinin yalnız "əlbirliyin əsasının qoyulması, aradakı düşmənçilik və biganəlik götürülməsi nəzərə çatdırır.[60]

Osmanlı-Qızılbaş sülhünün yaranmasından ötrü Misir dövlətinin Sultanı Qansu Quri də bərk canfəşanlıq edirdi. O, Şah İsmayılla özünün yaxşı münasibətdə olduğunu nəzərə alaraq, Sultan Səlimə İrana yeni hücum etməməsini məsləhət görür, çünki "yeni döyüşdə Şah İsmayıl Uzun Həsənin Sultan Əbu Səidlə etdiyi hərəkəti edə bilər, qarşıya çıxmaz, türk qoşunu dağa-daşa dağılar və qəfil hücumla məğlub olar".[61] Nəticədə, Osmanlılarla məmlüklərin Hələb yaxınlığındakı döyüşü zamanı Qansu Quri məhv edilir (24 avqust 1516) və Sultan Səlim bu qələbəni dərhal "Misir fəthnaməsi" adı altındakı bir məktubla Şirvanşah II İbrahiminə xəbər verir. Məktubda məmlük qoşunları ilə 4 ay ərzində 8 döyüş etdiyini bildirən Sultan Səlim "qızılbaşlar üzərinə hücumun kafirlər üzərinə cahaddan daha zəruri" olduğunu yazaraq, şiə-sünni münasibətlərinin barışmazlığına işarə edir.[62]

Xəzər dənizi və Kür çayı arasındakı torpaqların (Dərbənd də daxil olmaqla)[63] irsi sahibi olan Şirvanşahlar Türkiyə sultanının əldə etdiyi Misir fəthindən çox sevindiyini və bütün Şirvan vilayətinin, həmçinin Şəki, Qumuq və Qaytaq* əhalisinin də əzəmətli padşahın (Sultan Səlimin - Ş.F.) cahangirliyindən xoşhal olduqlarını bildirir. Bu, Osmanlı sultanına Şirvan hökmdarının yazdığı cavabın diplomatik tərəfidir. II İbrahimin bu məktubu yazmaqdan əsas məqsədi isə aşağıdakı cümlələrdən bilinir: "Daraye-əcəm və padşahe-əkrəm (Əcəm Darası və kəramətli padşah - Ş. F.) Şah İsmayıl Səfəvi Sultanın bizə göndərdiyi məktubdan xəbər tutub mənə bildirdi ki, bu səadətxah bəndə hər iki dövlətarasında sülh yaranması üçün vasitəçi olsun. Amma sizin dövlətinizin qulu (yəni II İbrahim - Ş.F.) bu təklifi qəbul etməkdən boyun qaçırdı".[64] Şirvanşahın - guya Şah İsmayılın təklifindən boyun qaçırmağıma inanmaq çətindir, çünki məlum olduğu kimi,

* Məktubda Qaytağın genişliyinə işarə edilərək, o yer "Qaytaqekuhi" və "Qaytaqe-dəşti" ("Dağ Qaytağı" və "Çöl Qaytağı") adı ilə qey edilmişdir. (Bax: Firidun bəy, Münşəati-səlatin, I cild, səh. 444).

Şirvan dövləti Şirvanşah tərəfindən müstəqil idarə olunduğuna baxmayaraq, Səfəvilərə ilbəil xərac verir və onlardan vassal asılılığında idi. Belə olan halda, heç cür inanmaq mümkün deyil ki, Şah İsmayılın etdiyi təkliflə Şirvanşah razılaşmaya bilərdi (onun lap Sultan Səlim kimi əzəmətli bir müttəfiqi olsa da!). Odur ki, II İbrahim yeni bir diplomatik fənd işlədir. O, belə yazmaqla, sonrakı cümlələrindən göründüyü kimi, sultandan məsləhət almaq, yəni özü tərəfindən vasitəçi olmaq təklifinin sultanın icazəsi olmadan qəbul edilməyəcəyini bildirmək məqsəd güdmüşdür. "Mənə çatan xəbərdən bildim ki, [Şah İsmayıl] sizə elçi göndərmək fikrindədir. Məlumdur ki, o, bu bəndəni vasitəçi edəcək. Əgər Sultan [həmin vasitəçiliyi] qəbul etməzsə, bu [hərəkət] böyük bir qovğaya səbəb olacaq".[65] Demək, Şirvanşah həm sultanın etibarını qazanmaq, həm də yeni qırğının qarşısını almaq və "böyük qovğa"dan qurtulmaq naminə müdrik addım atır.

Şah İsmayılın sülh səhdinə baxmayaraq, Sultan Səlim yumşalmaq bilmir. O, Şirvanşaha cavabında "mən gərək o tayfanın vücudunu iti qılıncımla yer üzündən siləm. Buna görə də, o tərəfə yürüş etmək fikrindənyəm"[66] yazaraq, "ətrafda olan başqa hörmətli əmirlərlə də məsləhətləşəcəyini və sonra fitnə-fəsadı" aradan götürəcəyini bildirir.[67]

Növbəti cavab məktubunu sultana yollayan Şirvanşah bu dəfə hətta ona yalvarır ("sizin hücum edəcəyiniz məlum oldu. Bunu etməyin, ey islamın pənahı!"[68]

Şirvanşahdan başqa Gilan hakimi Əmirə Dibaca və Mazandaran hökmdarı Məhəmməd ağaya məktublar göndərib, Şah İsmayıla qarşı ittifaq təklifini irəli sürməklə öz planını onlara bildirən ("Mən daim fitnə-fəsadın aradan götürülməsi barədə düşünürəm")[69] Sultan Səlim Səfəvi dövlətinə olduqca böyük bir yürüş planlaşdırır.[*] Əslinə qalsa, elə Şah İsmayılın özü də Osmanlı sultanının məqsədindən hali olduğu üçün bir sıra diplomatik fəaliyyətə başlayır. O, ilk növbədə, Almaniya, İsveçrə, Venesiya və Macarıstanla yeni danışıqlarına girir. Elə həmin dövlətlərin özləri və başqa Avropa dövlətləri də, Osmanlı imperiyasının get-gedə genişləndiyini görərək, bərk təşvişə düşmüşdülər. Şah İsmayılın bu dövlətlərə müraciətindən sonra, onlar Səfəvilərin əli ilə Osmanlılara zərbə vurmaq qərarına gəldilər. 1519-cu ildə artıq yeni müharibə təhlükəsi gerçəkləşməkdə idi. Nikosiyada Venesiya Respublikasının canişini olan Alvikos d'Armer iyulun 7-də Hələbdən aldığı xəbər barədə öz respublikasına məlumat verib, "Böyük Türkün ordusunun Sufinin üzərinə hücuma hazırlaşdığını"[70] yazırdı.

Hələ 1518-ci ildə Almaniya imperatoru V Karla məktub göndərərək, ona "müştərək düşmənimiz olan Osmanlı türklərinə qarşı siz qərbdən, mən isə şərqdən

[*] Həmin yürüş 1525-1526-ci illər üçün planlaşdırılmışdı. Lakin o zaman Almaniya-Macarıstan müharibəsi baş verdiyi və Türkiyənin Fransa ilə əlbir olaraq Almaniya və Avstriyaya qarşı hərbi yürüşlərdə iştirakı səbəbindən "Şərq səfəri" bir neçə illiyə təxirə salındı (Bax: F. Kırzıoğlu. Göstərilən əsər. səh. 127).

hücuma keçib, onlara qalib gələ bilərik" təklifini edən və hücumun vaxtını 1519-cu ilin aprel ayına salan Şah İsmayıla yazılan cavab olduqca gec, 5 ildən sonra, 1524-cü ilin avqust ayında Səfəvilər sarayına yetişmişdi. Lakin V Karlın "müştərək düşmənimiz olan Osmanlı türklərinə qarşı birgə mücadiləyə hazırıq" cümləsini oxumaq Şah İsmayıla qismət deyilmiş. O, 1524-cü ilin may ayının 23-də vəfat etmişdi.[71]

O zaman Osmanlı taxt-tacının da sahibi Sultan Səlim deyildi. O, Şah İsmayıldan 4 il əvvəl ölmüş, 1520-ci ilin sentyabr ayının 30-dan etibarən şahzadə Süleyman "Sultan Süleyman" olmuş, imperiyaya başçılıq etməyə başlamışdı.

Sultan Səlimin vəfatından sonra da Osmanlı-Səfəvi münasibətləri düşməncəsinə olaraq qalmaqdaydı. Şah İsmayıl yalnız 1523-cü ildə Sultan Süleymana ilk məktubunu yazıb, onu həm taxta cülusu, həm də Rodosu fəth etməsi münasibətilə təbrik etmişdi.[72] Lakin sultanın əmri ilə rəisül-küttab (baş münşi) Cövri Çələbi tərəfindən şaha cavab məktubu yazılmışdısa da,[73] münasibət yaxşılaşa bilmirdi. Hətta, Şah İsmayılın ölümü münasibətilə Gilan hakiminə məktub yollayan Sultan Süleyman İrana hazırlanan yürüşə bu ölüm hadisəsinin mane olduğunu ("Ərdəbiloğlu öldü. Məncə, o qəddar zındıqları dəf etmək üçün Şərq diyarına yürüş etmək fikrindəydim"), lakin bununla belə tezliklə yürüşün baş tutacağanı ("İran məmalikinə hücum edəcəyəm, bu işdə o cənabın da köməyi vacibdir") bildirir.[74]

I Səlimin vaxtında Azərbaycanı işğal etməyə nail ola bilməyən Osmanlı Türkiyəsi I Sultan Süleyman (hakimiyyət illəri: 1520-1566) zamanı öz ərazisini şərq istiqamətində genişləndirmək üçün dəfələrlə cəhd etdi.[75] Səfəvi hökmdarının yaşının azlığı (Şah Təhmasib taxta çıxarkən 10 yaşında idi. Ş.F.) və Qızılbaş dövləti daxilində əmirlərin yüksək vəzifələr əldə etmək naminə tez-tez baş verən qanlı toqquşmaları[76] Azərbaycanın tezliklə Türkiyə ərazisinə qatılması üçün əlverişli şərait yaratmışdı. Lakin Osmanlı sultanının başı imperiyanın nüfuzunu Hindistan, Suriya və Misir istiqamətində genişləndirməyə və portuqallara qarşı mübarizəyə qarışdığı üçün həmin imkandan istifadə olunmadı. Buna baxmayaraq, hələ öndə 4 böyük hücum dururdu.

Yuxarıda qeyd edildiyi kimi, Sultan Süleyman Osmanlı taxtına çıxdığı ilk illərdən başlayaraq "Şərq diyarına"-Azərbaycana hücum etmək fikrində idi. Bu məqsədini həyata keçirmək üçünsə hər hansı bir bəhanə lazım idi. Şah Təhmasibə atasının vəfatından az sonra sultanın olduqca təhdidamiz bir məktubu təqdim olundu.* Şah İsmayılın 1523-cü ildə, gec də olsa Osmanlı sultanının taxta çıxmasını təbrik etdiyinə baxmayaraq, görünür ki, diplomatik əlaqə saxlamaq naminə həmin hadisə yeni Səfəvi hökmdarı tərəfindən də alqışlanmalı və hətta

* Sultanın Gilan hökmdarına yollamış olduğu məktub h. 931-ci ilin ramazan ayında (1525-ci ilin iyul ayının I yarısında) yazıdığı üçün güman etmək olar ki, Şah Təhmasibə yazılan məktub da təxminən 1525-ci ilin yay aylarında ünvana çatdırılmışdır.

Səfəvilərin hərbi cəhətcə onlardan güclü Osmanlılardan asılılığı xüsusi olaraq qeyd edilməli idi. Şah Təhmasibə gələn məktub təhqiramiz ifadə və hədələrlə dolu idi: "Nə üçün sarayıma adam göndərib, öz tabeliyini bizə izhar etmədin? Ağlının nöqsanı mənim yaxın vaxtlarda Şərq diyarına hücum edəcəyimə səbəb olubdur. Çadırımın təkcə Təbriz və Azərbaycanda deyil, bəlkə də [bütün] İran və Turan məmləkətlərində qurulması müəyyən edilmişdir".[77] Sultan Süleyman bu hədə-qorxudan sonra Səfəvi şahına hətta döyüşsüz təslim olmağı təklif edir: "İndi sən gərək öz xanimanın və məmləkətini taraca vermədən tacını başından çıxarıb, əcdadın kimi əyninə kətan parçadan paltar geyərək dərvişlik zaviyəsində əyləşəsən. Fərmanıma cavab göndərib, [əgər] ərsənsə döyüşə hazır olasan".[78]

Belə sərt yazılmış məktub göndərildiyinə baxmayaraq, Türkiyənin Azərbaycana hücumu 1534-cü ilə kimi ləngidi. Sultanın hücum barədə qəti qərara gəlməyinə səbəb iki Səfəvi əmirinin - Noxud Sultan Mosullu (Luristan hakimi Zülfüqar xan) və Ölmə Təkəlinin (Azərbaycan əmirəl-ümərası) Şah Təhmasibə xəyanəti olmuşdur. Noxud Sultan h. 934 (m. 1528)-cü ildə Bağdada hücum edib, oranı öz əlinə keçirmiş və özünün bundan sonra Azərbaycan şahına deyil, Türkiyə sultanına tabe olacağını bildirmiş, hətta Sultan Süleymana məktub yazaraq, Bağdadın açarlarını ona göndərmişdi.[79] Bir il sonra Bağdada hücum edən Şah Təhmasib yenidən şəhəri öz əlinə keçirmişdi.[80] Qızılbaş hökmdarına xəyanət edib "ömür kasasının hələ dolmadığına görə".[81] Osmanlı sultanına sığınan Ölmə Təkəli* isə sultanı tez-tez Azərbaycana və İraqa hücum etməyə şirnikləndirir, Şah Təhmasibin başının Xorasanda özbəklərlə müharibəyə qarışdığını və Azərbaycanın dərhal ələ keçiriləcəyini bildirirdi. Buna görə də, Sultan Süleyman 1534-cü ilin yayında böyük bir ordu ilə Azərbaycana birinci yürüşünü etdi. Artıq, sentyabr ayının sonuna qədər, başda Təbriz olmaqla Azərbaycanın cənub hissəsi Osmanlı qoşunları tərəfindən zəbt edilmişdi. Bu xəbəri eşidən Şah Təhmasib Xorasandan çıxıb əvvəlcə Reyə, sonra isə Qəzvinə və Əbhərə gəlib çatdı. O, atası Şah İsmayıl kimi əzəmətli türk ordusunun önünə çıxıb vuruşmağın məğlubiyyətlə nəticələnəcəyini bildiyi üçün döyüşə girməməyi qət etdi və özünün bu hərəkətini əsərində belə əsaslandırdı: "Onun məktubuna cavabda yazdım ki, həzrət

* Kiçik Asiya Təkə-türkmanlarından olan, lakin qızılbaşlara qoşularaq, 1511-ci ildə, yuxarıda bəhs etdiyimiz "Şahqulu üsyanı"nda iştirak edən, Sultan Səlimin təqibinə məruz qalaraq, Şah İsmayılın yanına qaçan Ölmə bəy (Üləma, Ulama) Şah Təhmasib vaxtı bəylərbəyi oldu, qohumu Çuhə Sultan Təkəlinin öldürülməsindən sonra isə onun yerinə şahın baş vəziri olmaq fikrinə düşdü, lakin buna nail ola bilmədiyindən Türkiyəyə getdi, 1531-ci ildə Bidlis bəyliyi ona verildi, "paşa" tituluna layiq görüldü, Sultanı Azərbaycana yürüşə tərğib etdi, özü də bir neçə dəfə hücumla Təbriz və Ərdəbilə qədər gəlib çıxdı. (Həsən bəy Rumlu. Əhsənüt-təvarix, Seddon nəşri, səh. 237, 239; Şərəfxan Bidlisi. Şərəfnamə, I cild, səh. 418- 421). Osmanlı ordusunun Azərbaycana üçüncü yürüşü ərəfəsində Bosniyada bəylərbəyi olan Ölmə paşa Təkəli "İran barədə yaxşı məlumatı və tanışlığı olduğu üçün" İstanbula çağırılıb Ərzuruma bəylərbəyi və Əlqas Mirzəyə lələ təyin edildi və yenə də Azərbaycana hərbi səfərdə iştirak etdi (F. Kırzıoğlu. Göstərilən əsər, səh. 180-186).

pərvərdigar bütün mövcüdatın böyüyüdür. O, "Kəlame-şərifdə (Quran – Ş.F.) buyurmuşdur ki, kafirlərlə cahad və qəza etdiyiniz vaxt özünüzü təhlükəyə atmayın. Pərvərdigar bir halda ki, bizim kafirlərlə* döyüşdüyümüz vaxt belə təhlükəli hərəkəti qadağan etmişdir, mən döyüş fitvası verərək necə ola bilər ki, müsəlmanları təhlükəyə atım?" Şah Təhmasib belə dəlil gətirməklə yanaşı, eyni zamanda qızılbaş və Osmanlı qoşnlarının tənasübünü də nəzərə çatdırmağı unutmur: "İndi bizim bir nəfərimiz Sizin on nəfərinizin müqabilində nə edə bilər? Belə olan halda biz necə Allahın əmrinə qarşı çıxaq və bilərəkdən özümüzü oda yaxaq? Adam gərək divanə, ya da sərxoş olsun ki, faydasız döyüşə başlasın".[82]

Göstərmək lazımdır ki, el baş vəzir İbrahim paşa da, qızılbaşlarla döyüşməyi məsləhət bilmədiyinə baxmayaraq, bu barədə fikrini sultana bildirməyə qorxduğundan, Şah Təhmasibin zövcəyi Bəyimə məktub yazmış, sanki döyüş tərəfdarı olmamışdır. Lakin Sultan Süleymanın fikri qəti idi. Təbrizdə girdiyinə baxmayaraq, bir həftədən sonra Azərbaycandan çıxmağa məcbur olan Osmanlı qonşunu Bağdada yollandı.[83]

Osmanlı qoşununun Azərbaycana birinci yürüşü və onun səbəbləri barədə Sultan Süleymanın Krım hökmdarı Mengli Gəray xana bir məktubu vardır. Orada, Krım xanına məlumat verilir ki, "İslam etiqadını möhkəmləndirmək naminə" Şərq diyarına hücum edən osmanlı qoşununun qorxusundan guya Şah Təhmasib Xorasana qaçmağa məcbur olmuşdu.[84] Əslində isə bildiyimiz kimi, bu belə olmamışdır. Sultanın bu yürüşü başlamazdan əvvəl Şah Təhmasib Xorasanı tutan özbəklər üzərinə hücuma keçmiş, Azərbaycanın idarəsini Musa bəy Mosulluya tapşırmışdı.[85] Demək, Sultan Süleyman tərəfindən Krım xanına verilən məlumat düzgün deyildir.

Tarixçi Həsən bəy Rumlu bildirir ki, bu hadisədən bir il sonra Sultan Süleyman ikinci dəfə Azərbaycan üzərinəı hücum etsi.[86] Lakin birinci yürüş kimi, Sultanın ikinci yürüşü də uğursuzluqla nəticələndi. Şah Təhmasibi bu dəfə də döyüşə cəlb edə bilməyən Sultan Süleyman Türkiyəyə qayıtmış, onun ardınca hücuma başlayan qızılbaşlar isə Van və Ərciş qalalarını ələ keçirmişdilər.[87]

Sultan Süleymanın qızılbaş torpaqlarında qala bilmədiyini nəzərə çatdıran Əbdülhüseyn Nəvai yazır: "Mərkəzi Avropada Vyana şəhərini tutan və İstanbuldan İsveçrəyə qədər ölkələri zəbt edən Sultan Süleyman İranla bacarmadı, Avropada hökmranlıq edən ən qüdrətli türk sultanı İranla bacarmadı".[88]

Lakin bu heç də o demək deyildi ki, Türkiyə Azərbaycana hücum etmək cəhdindən tamamilə əl çəkmişdi, Sultan Süleymanın "Şərq diyarı"na üçüncü yürüşünün əsas təhrikçisi və səbəbkarı Şah Təhmasibin qardaşı, 1538-ci ildən bəri

* Sünni Osmanlılar işə qızılbaşları kafir adlandırdıqları kimi, qızılbaşlar da sünni özbəklər, məhz məzhəb baxımından, kafir sanırdılar: "Həzrət xandgar kəmfürsətlik edib, mən Herat tərəfindən və özbək hərbindən qayıdarkən, bizim ölkəmizə hücum etdi (Bax: Şah Təhmasib. Təzkirə, səh. 32.).

Şirvanda bəylərbəyi olan, 1547-ci ildə isə Şirvanda uğursuz müstəqillik cəhdindən sonra İstanbula qaçan Əlqas Mirzə olmuşdur.[89] Əlqasın qızılbaşlara xəyanəti və bunun səbəbləri barədə Şah Təhmasibin özünün maraqlı mülahizəsi vardır. "Təzkirə"də Səfəvi hökmdarı Əlqasın İstanbula fərar etməsinin iki səbəbini göstərir ki, həmin səbəblərin ikincisi həqiqətə uyğundur. Şah yazır: "Əlqas yağı oldu".[90] Qardaşınının ona qarşı çıxmasını ürək ağrısı ilə xatırlayan Səfəvi hökmdarı bu hadisənin başvermə səbəbləri üzərində xeyli düşündükdən və bu məsələni götür-qoy etdikdən sonra sözünə davam edir: "Onun mənə yağı olması (xəbəri) yayılmazdan əvvəl mən Əliağa Ağcasaqqalı onun yanına göndərdim ki, o, müxalif olub, üzünü rəhm silləsindən qaçırmasın. Amma o, Əliağanın nəsihətinə heç də qulaq da asmadı. Öz adına xütbə oxutdurub, sikkə kəsdirdi.[*] Çərkəzə qaçdı. Oradan mənə məktub yazdı ki, "bəs mən həzrət xandgarın yanına gedirəm, görün Sizin başınıza nə oyun alacağam!.."[91] Əlqasın xəyanətinin ikinci səbəbini belə izah edən Şah Təhmasib Türkiyə Sultanının Azərbaycana hücumunun heç bir əsası olmadığını və bu işdə Əlqasın yalnız bəhanə olduğunu bildirir: "Gərək həzrət xandgar əvvəlcə onun (Əlqasın – Ş.F.) idrak və əqlini imtahana çəkəydi və sonra onun sözünə əməl edib bu tərəfə gələydi. Bundan başqa, gərək həzrət, Əlqasın günahını öyrənəydi. Əgər mən razılaşmasaydım, istədiyini edəydi. Belə olan surətdə o, mənim üstümə qəzəblə gəlsəydi də haqlı olardı".[92] Şah Təhmasibin dövlətlərarası ixtilafları nizama salmaq barədə mülahizəsi belədir. Lakin Sultan Süleyman h. 955 (m. 1548)-ci ilin baharında, Həsən bəy Rumlunun məlumatına görə Osmanlı imperiyasına tabe olan bütün ölkələrdən – Macarıstan, Anadolu, Bosniya, Serbiya, Qaraman, Ərəb və Kəfədən böyük qoşunlar çağırıb üçüncü dəfə Azərbaycana yürüş etdi.[93]

"İranı asanlıqla tuta biləcəyi barədə"[94] Sultan Süleymanı əmr edib onu üçüncü dəfə Şərq yürüşünə çıxmağa şirnikləndirən Əlqas Mirzə də yanılmışdı, Sultan Süleyman da. Həsən bər Rumluya görə, Şah Təhmasib qətiyyən fəaliyyətsizlik edib gözləmə mövqeyində durmur, "qızılbaş dilavərlərini rumluların dörd bir tərəfinə kəşfiyyata göndərir, qazilər Rum əsgərlərini ordubazarda dara çəkirdilər". Qızılbaşların belə müqavimətinə "pərişan və heyran" qalan Sultan Süleyman qayıdarkən, Təbriz əhalisi onun döyüşçülərinə hücum etmişdi.[95] Lakin üçüncü Şərq yürüşünə Təbrizdə cəmi dörd gün qalıb heç bir qələbə əldə etmədən geri qayıtmağa məcbur olan Sultan Süleyman bu yürüşün nəticələrini "zəfər və qələbə" adlandırmış, hətta bunu Qərb dövlətlərinə edə bildirmək üçün Fransa kralı II Henrixə bir namə də yollamışdı: "Məlum olsun ki, ovbaş qızılbaş tayfası şiə

[*] Qeyd: Əlqas Mirzə doğrudan da Şirvanda öz xütbə oxutdurmuş, lakin Şah Təhmasibin fikrinin əksinə, sikkə kəsdirməmişdir. Bunu elə Əlqas Mirzənin özü sultan Süleymana yazdığı bir məktubda belə qeyd edir: "ümidvaram ki, o İsgəndərməkan və Süleymanın sultan (I Süleyman – Ş.F.) bu bəndənin halına acıyacaq, mövrusi ona verəcək, dinar və dirhəmi onun adı ilə kəsdirəcəkdir" (Bax: Ə.Nəvai, Şah Təhmasib Səfəvi, səh. 172.).

məzhəbini yaymaqla iman şöləsini öz dövlət çıraqlarından uzaqlaşdırmışdır. Onların sərdarları olan Təhmasibin qardaşı Əlqas ali sarayımıza müraciət etmişdi. Din güzcüsünü tutan pası qılıncla silib-təmizləmək üçün diyari-şərqə yürüş əmri verildi. Azərbaycan ərazisi fəth edildi. Əsl məqsədimiz Azərbaycan ərazisi fəth edildi. O qəhr olunmuşun (Şah Təhmasibin – Ş.F.) Şirvan məmləkəti də əlimizə keçdi".[96]

Məsələ bundadır ki, Sultan Süleymanın birinci iki yürüşü kimi bu üçüncü yürüşünün də qələbə ilə bitməsi barədə məktubda deyilən qətiyyən düzgün deyildir. Tamamilə müstəqil bir dövlət ərazisində bir neçə gün dayandıqdan sonra yenidən öz dövlətinə qayıtmaq hansı səbəblə adlandırıla bilər? Əgər həmin yürüşlərdən sonra Osmanlı qoşunları Azərbaycan və Şirvan torpaqlarında qalsaydı və həmin yerlər Osmanlı qayda-qanunu əsasında idarə olunmağa başlanılsaydı, bunu sözsüz ki, Osmanlı qələbəsi kimi qəbul etmək olardı. Öz ölkəsinə "qış gəldiyi üçün"[97] qayıdan sultanın bu dönüşünü qətiyyən qələbə adlandırmaq olmaz. O biri tərəfdən, Osmanlı qoşunlarının Azərbaycandan çıxmasını onların qələbəsi yox, məğlubiyyəti kimi qiymətləndirən Şah Təhmasib, bəlkə də haqlı olaraq özünə nəticə etibarilə qalib saymış, Rüstəmdən hakimi Məlik Kəyumərsə bu xüsusda bir fəthnamə yollamışdır. İran Milli Şura Məclisində saxlanan 606 №-li əlyazmanın 327-ci səhifəsindən əksini tapan həmin fəthnamədə Əlqas Mirzənin xəyanəti, sultanın üçüncü yürüşü, Osmanlı qoşununun Mərənd döyüşü zamanı məğlubiyyəti, "yürüşdən peşman olub geri qayıtmaları" haqqında ətraflı məlumat verilmişdir.[98] Əlyazmanın sonunda Şah Təhmasibin belə bir göstərişi vardır: "bu müjdəni eşidən bütün xalq gərək üç gecə-gündüz nağara çalıb şadlıq etsin".[99]

Bir neçə kəlmə də, Şah Təhmasibin şəxsiyyəti barədə demək yerinə düşərdi. O.Əfəndiyev "XVI əsr Azərbaycan Səfəvi dövləti" kitabında bəzi tədqiqatçıların onun guya qeyri-fəal, qətiyyətsiz, təşəbbüssüz olduğunu, "öz böyük atasına qətiyyən bənzəmədiyini" bildirən mülahizələrini doğru olaraq rədd edir və yazır ki, "Şah Təhmasibin şəxsində biz ağıllı, ehtiyatlı bir siyasətçi görürük".[100]

Sultan üçüncü yürüşə yollanarkən, Şah Təhmasibin Anadolu keçən bir məktubunda deyilirdi: "Siz ki, qədimül-əyyamdan əshabe-xanədane-sorxsər" və ərbabe-əhzabe-mərdane-rəfzpərvərsiz, hazır və mühəyya olasız. Biz bu canebdən ale-Osman ilə karzarda ikən gəlib yetişəsiz. Ola bilsin ki, Sizin köməyiniz sayəsində bu bəliyyeye-əzimə (böyük bəla –Ş.F.) üstümüzdən dəf ola".[101] Deməli, Şah Təhmasib heç də "təşəbbüssüz hökmdar" olmamış, yeri düşdükdə, Osmanlılara qarşı öz hərbi fəndlərini həyata keçirməyi bacarmışdır. O öz "Təzkirə"sində, hətta Əlqasın sözü ilə hərəkət edib, Azərbaycana hücuma keçən Osmanlıları "divanə və ağılsız" adlandırmışdır: "Əlqas bir məktub yazıb bildirir ki, xandgar atamın mülkünü (yəni Qızılbaş dövlətini – Ş.F.) bütünlüklə mənə vermişdir. Bu məktub mənə (yəni Şah Təhmasibə - Ş,F.) çatan kimi rumilərin divanəliyi və ağıllarının azlığı tamamilə məlum oldu. Cavabında yazdım ki, mülk

nə mənimdir, nə də xandgarın, mülk allahındır ki, hər kimə məsləhət bilsə ona da verər”.[102*]

Mənbələrin məlumatından bəlli olur ki, Sultan Süleyman “Şərq diyarı”na etmiş olduğu uğursuz üçüncü yürüşdən 6 il sonra yenidən Aərbaycana hücuma keçmişdir. Bildiyimiz kimi, o, dördüncü yürüşə üçüncü yürüşdən az sonra başlamaq istəmiş, lakin başı imperiyanın niyyətini tezliklə həyata keçirə bilməmişdir. Lakin bu heç də o demək deyildir ki, Osmanlı sultanı dördüncü yürüş barədə 6 il düşünüb-daşınmamışdır. Biz Azərbaycan torpağında və İraqi-Əcəmdə kama yetdik, qazilərimiz neçə-neçə qala aldı. İki il yaxındır ki, əsgərlərimiz öz ipək libaslarını polad paltarlarla əvəz etmişdir. Əgər o tərəfdən də (yəni Mavəra ən-nəhrdən – Ş.F.) din qoşunları hücuma keçərsə, o yolunu azmış tayfa yer üzündən silinər. Həmin yolunu azanlar olduqca zəifdirlər. Əgər Sizin də qoşunlarınız o müridləri əzmək üçün, gələrsə, işlərimiz düzələr.[103]

Qızılbaş ordusunun “olduqca zəif” olmadığına Sultan Süleymanın başqa bir məktubu da sübutdur. Bir türkmən hakiminə müraciətlə göndərilən həmin məktubda h. 961 (m. 1554)-ci ilin ramazan ayının ortalarında “qorxaq qızılbaş tayfasına yürüş üçün qəza” təklif olunur, “bu işin (qəzanın) həyata keçməsi üçün bundan əvvəl də həmin türkman hakiminə məktub göndərildiyi” bildirilir.[104]

Göstərmək lazımdır ki, Sultan Süleymanın qızılbaşlara müxalif olan hakimlərə belə məktublar göndərilməsinin səbəbi h. 959 (m. 1552)-ci ildən başlayaraq Şah Təhmasibin Osmanlıların əlində olan torpaqlara etdiyi fəal hərbi hücumlarla əlaqədardır. 1552-ci ilin başlanğıcında Ərzurum hakimi İsgəndər paşanın əvvəlcə Xoya, sonra isə Çuxursədə hücumuna cavab olaraq, Şah Təhmasib həmin ilin yayında böyük ordu yığmış, onları dörd hissəyə bölüb aşağıdakı dörd istiqamətə yollamışdı.

1. Ərciş və Bargiri;
2. Pasin;
3. İraqi-Ərəb;
4. Dəbil (Dvin).

Qızılbaşların bu hücumlarında məqsəd Osmanlı Türkiyəsi sərhəd vilayətlərini Osmanlı döyüşçülərindən təmizləmək və hərbi qənimət ələ keçirmək idi. Şah Təhmasibin özü şəxsən bu hərbi yürüşlərdə iştirak edirdi.[105]

1552-1553-cü ildə Türkiyə ilə həmsərhəd vilayətlərdə bir sıra uğurlu qələbə əldə edən qızılbaşlar (Trabzon valisi Mustafa bəy, Mərəş hakimi Xeyrəddin bəy

[*] Sultan Süleyman üçüncü dəfə Təbrizə girdiyi zaman doğrudan da, Əlqas Mirzənin ixtiyarında “top və çəpi” verərək onu “Təbrizdə İran taxtına” çıxzarmışdı. F.Kırzıoğluya görə, hökmdarlığa yaramadığını bildirdi. Vaxtilə Şirvanda etdiyi zülmləri Təbrizdə də etməyə başladı. Sultan vəziyyəti belə görüb, “Əlqas Mirzənin Təbrzi taxtına uyğun görmədi” (Göstərilən əsər. Səh. 186). Bizə elə gəlir ki, Sultan Süleymanın Əlqası “təbriz taxtına uyğun görməməsini” səbəbini heç də “bu yeni hökmdarın” zülmkarlığında yox, Osmanlılardan Şah Təhmasibin hərbi siyasəti nəticəsində Azərbaycanda qala bilməmələrində axtarmaq lazımdır.

əsir tutulmuş, Ərciş və Barciri fəth edilmişdi)[106] geri dönmüş, Şah Təhmasib h. 960-cı (m. 1553) ilin baharında Naxçıvana qayıdaraq, Həsən bəy Rumlunun məlumatına görə, əmir Şəmsəddin Dilcanini sülh danışıqları aparmaqdan ötrü sultan sarayına yollamışdı. Lakin yenə də bu tarixçiyə görə, sultan tərəfindən qızılbaş səfiri etinadsızlıqla qarşılandığı üçün Şah Təhmasib təzədən oğlu İsmayıl Mirzəni Kürdüstan üzərinə hücuma yollamış, onlar Van, Vostan, Ərciş və Adilcəvazi qarət edərək yenidən Naxçıvana qayıtmışdılar.[107]

Bu hadisələrdən bi il sonra (h. 961; m. 1554) Azərbaycana dördüncü yürüşünə başlayan Sultan Süleyman böyük ordu ilə Qarsa gəlib, oradan Naxçıvan istiqamətinə hərəkətə başladı. O, Qarsda olarkən, şah Təhmasibə məktub yollayaraq, onu "din yolundan döndüyü və düzgün şəriəti dəyişməklə insaf dairəsindən çıxdığı" üçün töhmətləndirir, artıq "şüarı küfr olan Şərq diyarını dağıtmaq niyyəti ilə fəqih və seyidlərin fitva" verdiklərini* bildirir, şahın yenə də, əvvəllərdə olduğu kimi açıq müharibəyə dəvət edirdi: "Əgər, yenə cürət etməsən şahlıq adı sənə haram olsun. Mənim bu fərmanıma cavab göndərib, vaxtlı-vaxtında döyüşə hazır ol".[108]

Ehtiyatlı şah və uzaqgörən sərkərdə olan Şah Təhmasib, bu dəfə də hərbi qüvvəcə və sayca qızılbaşlardan üstün olan Osmanlılarla üzbəüz gəlmir, lakin Osmanlı ordusunun Naxçıvanda olmasından istifadə edərək, özünün iki qoşununu Van və Voston bölgələrini, həmçinin Pasin vilayətini işğal etmək, beləliklə də, geri qayıdacaq Osmanlı qoşunları üçün ərzaq və daldalanacaq sarıdan çətinlik yaratmaq məqsədilə hücuma göndərir. Doğrudan da, Naxçıvanda iki gündən çox qala bilməyən, Bazarçay və Qanlıçəməni adlı yerlərdə məğlubiyyətə uğrayan Osmanlı qoşunları tezliklə öz ordularına qoşularaq Ərzuruma qayıtdılar.[109]

Yenə də tarixçi Həsən bəy Rumlunun məlumatına görə tezliklə tərəflər arasında sülh müqaviləsi imzalandı və hər iki tərəfin küdurəti aradan götürüldü.[110]

Bir sıra Osmanlı mənbələrində Osmanlı qoşunları müqabilində guya qızılbaş qoşunlarının və şəxsən Şah Təhmasibin həmişə qaçdıqları kimi yanlış

* Osmanlıların hücumu ərəfəsində, adətən şeyxülislamlar hücumları əsaslandırmaq üçün fitva verirdilər. Məsələn, birinci yürüş ərəfəsində verilən fitvanın mətni 1534-1539-cu illərdə şeyxülislam olmuş tarixçi Xoca Sədəddin Əfəndi tərəfindən yazılmışdı. Nasuhi Mətrəki özünün "Bəyane-mənazile-səfəre-İraqeyne- Sultan Süleyman xan" əsərində birinci səfərin səbəbinin Osmanlı ordusuna belə anladıldığını bildirir: "Şimdiki hində diyare-Şərqdə təbdile-ayine-şəriəte- Muhəmmədiyyə və təğyire-məzahibe-millətə hənəfiyyə edən rəise-rüusul-əhməd Təhmasib ibn Heydər nam şahın vücudu mayeye-itneyi-alənm və maddeye-iztirabe-bəni-Adəm" olduğundan onun aradan götürülməsinə qərar verildi. (Bax: Mətrəkçi. Göstərilən əsər, vər. 2b-3a; F.Kırzıoğlu. Göstərilən əsər. səh. 140). Dördüncü Şərq yürüşü ərəfəsində verilən dördüncü fitvada (həmin fitvanın surəti Ali Əfəndinin "Nüsrətnamə" əsərində verilmişdir. Belə deyilirdi: "O zalımlar Qurane-əzimi və şəriəte-şərifəni istixlaf eyləməklə və kotobe-şəriyyəni təhrir edib oda yaxmaqla üləmaye-dini qırmaqla, rəisləri olan şahı məbud yerinə qoyub, ona səcdə eyləməklə, həzrəte-Əbu Bəkrlə həzrəte-Öməri lən eyləməklə kafir olduqdan sonra Qurane-kərimi təkzib edib, kafir və mürtədd olduqları üçün onların küfrlərində tərəddüd edən (şəxs) müslim deyildir" (Bax: F.Kırzıoğlu. Göstərilən əsər, səh. 140).

məlumatlar boldur. Biz bir daha qeyd etmək istərdik ki, Şah Təhmasib özünün uzaqgörənliyi sayəsində mənasız müharibəyə girərək, mütləq məğlubiyyətə uöramasından ötrü doğrudan da qızılbaş ordusunu Osmanlı ordusuna dəfələrlə ciddi həmlələr edilmiş, xəsarət, yetirilmişdir. Sultan Süleymanın təhqiramiz məktublarına təhqiramiz da cavablar Səfəvilərə qarşı olan düşmənçilik siyasətini qınamış, "bəd etiqadlı və imansız olan ale-Osmanın bəzi şeytanların uğrunda vədlərinə uyaraq yer üzünün ən gözəl mülkü olan İranda şahlıq və padşahlıq xəyalına düşüb. Azərbaycan məmləkəti üzərinə" yürüşlərini pisləmişdir.[111] Bu qəbildən onun Sultan Süleymana yazdığı bir məktub olduqca səciyyəvidir. İran Milli Şura Məclisinin 606 nömrəli əlyazmasında həmin məktub da saxlanılmaqdadır. Şah Təhmasib sultana yazır: "Mənə deyiblər ki, rum tayfası öz amansız qədəmlərini Naxçıvan vilayətində basıb zülm bayrağını ucaltmışdır. Mən bəzi əsgərlərimi o tərəfə yolladım. Onlar Naxçıvan ulkasından itlər kimi qaçmış, qəhətlik, çatışmamazlıq, aclıq və başqa səbəblər üzündən təngə gəlib Diyarbəkirə dönmüşlər. Bu xəbər mənə çatdıqda, əziz fərzəndim... İsmayıl Mirzə bəzi adlı-sanlı əmirlər, qazilər və ağır qoşunla onların arxasınca getmək icazəsi istədi. Mən buna razı olmadım. Qələbə Allah tərəfindən müəyyənləşibsə, qoşuna nə hacət".[112] Deməli, qızılbaş qoşunu heç də həmişə Osmanlılardan qabağından qaçmamış, yeri gəldikdə onlara hücumlar da etmişlər. "Mənə yazdığın "mən bir dəfə sənin məmləkətinə hücum etdimsə də, sən qarşıya çıxmadın və bizimlə bacarmağa qüvvəm çatmır" kimi yava sözlərinə qarşı bildirirəm ki, adlı-sanlı sultanlar və dünya xaqanları heçdə mərdliyi, mərdanəliyi, igidliyi və müdrikliyi sənə şamil etmirlər, çünki sən heç vaxt igidlər səfindən olmamısan, müdirklik və mərdanəlik etməmisən, həmişə şədəbazlıq və atəşbazlıq edərək, üzü çadralı qadınlar kimi qala içərisində oturmusan və üç yüz min namərdi də meydanda məhbus vəziyyətində saxlayaraq, onların ətrafını zəncirləmisən.[*] Şücaət və igidlik bizə böyük əcdadlarımızdan və əcdadlarımızdan və atamızdan miras qalmışdır!".[113] Mənim əsgərlərimin əksəriyyəti, doğrudan da qaçmışdı. Mən üç min adamla qalmışdım. Məhərrəmin 12-də sübh vaxtı iki yüz əlli min özbək əsgəri və bütün Turan məmləkəti sultanları qarət üçün atlandıqları vaxt qaibdən qulağıma bir səda gəldi: "12 müqəddəs imam və həzrət Sahibüz-zəman sənin köməyinə gəlmişdir, tez ata min!". Mən həmin üç min silahlı cavanla iki yüz min özbəyə həmlə etdim. Üç min qılınc eyni vaxtda işlədi. Turan mülkünün 80 padşahını ləşkərləri ilə birlikdə bir fərsək uzağa qovduq. Biz həmin döyüşdən zəfərlə qayıtdıq".[114] Həsən bəy Rumlunun da məlumatına görə, "bir qızılbaşın iyirmi özbəyə qarşı döyüşdüyü" Ülənge-Cam, Sarıqamış və yaxud Cam döyüşü adlanır ki, orada özbək Übeydulla xanın bütün Mavəra ən-nəhr, Kaşqar, Əndican, Otrar, Seyran, Kabul, Qılmaq, Məska, Çərkəz və Qıpçaqdan topladığı nəhəng ir ordu gənc Səfəvi şahının

[*] Burada Şah Təhmasib türklərin döyüş üsuluna işarə edir. Məlum olduğuna görə, Osmanlılar əsgərlərin fərar etmələrinə yol verməmək üçün ordunun arxa tərəfinə araba və zəncirlərdən sədd çəkirdilər.

qarşısına çıxmışdı.[115] "Əgər indi sən də mənim mərdlik və mərdanəliyimi müşahidə etmək istəyirsənsə, pərdə arxasında əyləşən qadınlar kimi deyil, şir ovlayan nəhənglər kimi top-tüfəng qalasından çıx[*] və bizi ilahi qüdrətimizi gör!..

Həmin məktubda Sultanın dördüncü yürüşü üçün fitva verərək sünni üləmaları da tənqid olunur. Bu, artıq Şah Təhmasibin ideoloji mübarizəsidir: "Məlumunuz olsun ki, biz sizin üləmaları bir neçə xüsusiyyətə görə kafir, fitnəkar, bədbəxt və üzüqara sanırdıq. Onların əksəriyyəti rəsulullah evinə ədavət edir. Sünniliyə öz müstəqil münasibətini bildirən Şah təhmasib sonra şiələrin və şiəliyin tərifinə keçir. "Osmanlıların və Mərvani davamçılarının məzhəb və qanununun şərəfsizliyinə və rüsvayçılığına baxmayaraq, siz şiə tayfasına "rafezi" demiş, onları "şiəye-şəniyye" ("murdar şiə") adlandırmısınız . Həzrıte-kainatın (Məhəmməd peyğəmbərin – Ş.F.) dövründə onlara heç kim belə deməzdi".[116]

"Yazmısan ki, üç illik yaraq-yasaq hazırladığından sonra, ağır qoşunla dörd bir tərəfdən İrana yollanırsan. Sən beş dəfə bu diyarı tutmaq və viran etmək üçün üç yüz minlik qoşunla gəlmisən[*]. Qüvvət və qüdrət toplamısan ki, [burada] beş gün qala biləsən. Sən gərək mənə yazdığın layiqsiz məktubun bu cavabını oxuyub cəhalət və ədavəti tərk edəsən, peyğəmbər şəriətinə tabe olasan, islam əhlinin yolunu tutasan, inadı yerə qoyasan və səadət tapasan".[117]

Osmanlı ordusunun Azərbaycana dördüncü yürüşü xüsusunda Şah Təhmasibin "Təzkirə"sində də məlumat vardır. Orada deyilir ki, əmir Həsən bəy Yüzbaşının Osmanlı ordusuna hücum etmək barədəki təklifinə şah razı olmamış, "mən qəfildən onlara hücum edib, qanlarına bais ola bilmərəm" demişdir. Şah Təhmasib yazır: "Onların "gəlin döyüşək" sözlərindən məlum olur ki, neçə dəfə sizi cəngə çağırdıqsa da, gəlmədiniz, qaçdınız və biz buna görə də geri qayıdırıq. Xülasə, bundan üç gün sonra xandgar geri qayıtdıq. Sonra Şahverdi Sultan mənə dedi ki, əgər əmr etsəniz, biz irəli gedər, Arazda toplanan qoşuna hücum edərik. Razılaşmadım".[118] Sultan Süleymanın ikinci vəziri İsgəndər paşanın və ərzurum hakimi Ayaz paşanın Səfəvi əmir və vəzirlərinə göndərdiyi məktublar ("Məlumunuz olsun ki, biz bundan əvvəl də siz tərəfə məktub yollamışdıq, məqsədimiz sərhəd vilayətlərin əmirləri arasında sülh olmasıdır. Əgər onlardan sədaqət görünsə, bu tərəf də sədaqətə əməl edəcəkdir"),[119] Şah Təhmasibin dövlət başçıları Şahqulu Xəlifə, Sevindik bəy Qorçibaşı, Məsum bəy Səfəvi və Bədrxan Əmirdivanın birgə yazdıqları məktub[120] hər iki ordunun artıq döyüşlərdən bezdiyini göstərir. Lakin Sultan öz qürurunu sındırmaq istəmir. "Məktubunuz gəldi.

[*] Tür tədqiqatçısı F.Kırzıoğluya görə, Sultan Süleyman doğrudan da ikinci "Şərq səfəri"ndən sonra "xəstəhal olduğundan" heç bir hərbi döyüşdə şəxsən iştirak etmir, yeni ölkə və vilayətlərin zəbti üçün vəzir və paşalarını yollayırdı. 1552-ci ilin baharında 59 yaşlı sultan Macarıstan üzərinə yeni yürüşə də öz vəzirini yollamışdı və özü "ovlaqlarda ov edərək" istirahətlə gün keçirməkdə idi. (Bax: F.Kırzıoğlu. Göstərilən əsər, səh. 209-210).

[*] Şah təhmasib "beş hücuma işarə etməklə görünür ki, Sultan Səlimin 1514-cü ildə Azərbaycana yürüşünü də nəzərdə tutmuşdur.

Bizim xidmətimizdə olan vəzir və qulların siz tərəfə heç bir sülh məktubu göndərilməmişdir. Bizim üçün nə zərurət vardır ki, sizinlə sülh bağlamağı arzulayıb məktub göndərək? Sülhə çatmaq istəyirsinizsə, bilin ki, sülh qapısı bağlıdır. Əlacsız qalıb zəbun olanlar sülh xahişi elə xahişi edə bilərlər".[121] Sultan Süleyman yenə də qızılbaşları kafir adlandırır: "Kafir kimə deyirlər? Əgər kafir yalnız ölkəsində kilsə olan adamlardırlarsa, ölkənizdə kilsə yoxdur, lakin siz imamın və islamın kimi və nə olduğunu bilmirsiniz".[122] "Sonuncu namənizdə sülh əhvalı zikr olunmuşdur. Əgər sülh istəsəydiniz, öz məmləkətinizdə oturub, fitnə-fəsada başlamazdınız. Əgər həqiqətən sülh istəyirsinizsə, bir adam göndərin ki, təklifinizə cavab verilsin".[123]

Lakin sultan yenə də özünün Azərbaycana etdiyi hücumlara bəraət qazandırır: "Şərq məmləkətləri üzərinə bizim tərəfimizdən hər dəfə yürüş edilərkən, bilin ki, bunlar məhz islam qayda-qanununu himayə etmək və dini işlərə riayət olunması üçün edilmişdir". Sultanın bu məktubunda hədə-qorxu duyulsa da, nəhayət sultan bildirir: "Əgər sizin xatırlatdığınız əhdi-peyman etibarlıdırsa özünüzün mötəbər əmirlərinizdən birini bizim tərəfə yollayın və verdiyiniz söz və şərtdən kənara çıxmayın".[124] Tezliklə Şah Təhmasibdən cavab məktubu alan Sultan Süleyman orada bu cümlələri oxuyur: "Fərruxzad bəy Eşikağasını risalət təbliği və sədaqət təkidi üçün ali dərgaha göndərdik. Qoy sülh elə möhkəm olsun ki, bundan sonra bütün islam əhli, əsgər ya rəiyyət olmasından asılı olmayaraq, əmin-amanlıq beşiyində asudə və xoş-hal yaşasın! Qoy həmişə yazışma və elçi gediş-gəlişi davam etsin!".[125]

Heydər Evoğlunun "Münşəatı"nda dərc olunan başqa bir məktubunda isə Şah Təhmasib Osmanlı-Səfəvi döyüşlərinin başvermə səbəblərini izah edir, Əlqas Mirzəni, Osmanlı sərhəd əmiri İbrahim paşanı, "sərhədləri qoruyan bəzi alçaq adamlar" təqsirləndirir, sülhün Türkiyə ərazisindən keçib Beytullaha gedən zəvvarlar üçün zərurət olduğunu bir daha xatırladır.[126] beləliklə, Sultan Süleymanın razılığından sonra, iki elçi heyəti - əvvəlcə Şahqulu bəy Qacarın, az sonra isə Fərruxzad bəyin başçılıq etdiyi heyətlər Türkiyəyə yollandı. Müqavilənin dəqiq imzalanma günü məsələsində İran və Osmanlı tarixçilərinin məlumatlarını hərtərəfli araşdıran O.Əfəndiyevin fikrincə, həmin sülh 1555-ci ilin may ayının 29-da imzalanmışdır.[127]Alman müəllifi Hammerin yazdığına görə, Amasya sülhü Osmanlı imperiyası və Səfəvi dövləti arasında imzalanmış ilk rəsmi sülh olmuşdur.[128]

Amasya müqaviləsinin şərtlərinə əsasən Gürcüstanın qərb vilayətləri (İmeretiya, Meqreli və Qori) Türkiyənin, şərq vilayətləri isə (Mesxetiya, Kartli, Kaxetiya) Səfəvilərin, həmçinin, ermənilər yaşayan torpaqların qərbi Osmanlıların, şərqi isə qızılbaşların hakimiyyəti altına keçməsi haqqında İsmayıl Uzunçarşılının fikri yanlışdır[129] və heç bir sərhəd dəyişikliyinin müqavilə olmadığı barədə Sultan Süleymanın özünün Şah Təhmasibə belə bir məlumatı vardır: "Sülh, vaxtı

məmləkət hüdudu və vilayət sərhədində dəyişiklik olmayacaq, hər yer öz əvvəlki vəziyyətində qalacaqdır".[130]

Barış müqaviləsindən sonra Amasyadan başlayaraq bütün sərhədlər boyu bir neçə il asayiş bərpa olundu.[131]

Beləliklə, təxminən yarıməsrlik gərgin Türkiyə-Azərbaycan siyasi münasibətlərindən sonra hər iki ölkə üçün zəruri olan sakitlik dövrü başlandı. Azərbaycana doğru yönələn Osmanlı yürüşlərindən məqsəd, heç şübhəsiz, Türkiyənin Xəzər dənizinə çıxmaq və Orta Asiya ölkələri ilə birbaşa əlaqə yaratmaq istəyi üç minlik fasilədən sonra yenidən alovlanacaqdır. Lakin sülhün yaranması (müvəqqəti olsa da) XVI əsrin II yarısında ilk növbədə Azərbaycan ərazisində əmin-amanlığın bərqərar olmasına və Səvəfi hərbi qüvvələrinin müəyyən dincliyinə səbəb oldu. Türkiyə isə hələ qüvvələrinin Qərb dövlətləri, o cümlədən Avstriya, Venesiya, Macarıstan və Kiprlə öz hərbi münaqişələrini davam etdirirdi.[132] Səfəvi-Osmanlı müharibələrinin davamını arzulayan Almaniyanın Türkiyədəki səfiri Busbekin mülahizəsinə görə, əgər İran olmasaydı, Türkiyə bərk şadyanalıqla onlarla (Avstriya-Almaniya bloku ilə - Ş.F.) öz haqq-hesabını çürüdə bilərdi. "Bizimlə ölüm arasında İran durur", deyən səfir Amasya sülhündən bərk narahat olduğunu açıq-aşkar nümayiş etdirir.[133]

Beləliklə, hətta mərkəzi Avropada Vyana çəhərini belə tuta bilən və İstanbuldan İsveçrəyə qədər yerləri zəbt edən Sultan Süleyman Şah Təhmasibi əzə bilmədi. "Avropada hökmranlıq edən ən qüdrətli türk Sultanı İranla bacarmadı" yazan Ə.Nəvai Osmanlı Sultanı ilə yanaşı Qızılbaş şahının da hərbi məharətini qiymətləndirmişdir.[134] Türkiyə Sultan Süleyman Qanuninin vəfatınadək 1555-ci il sülhünə ciddi riayət etmiş, İranla açıq hərbi münaqişədən çəkinmişdir.[135]

Yuxarıda göstərildiyi kimi, Sultan Süleyman şiə qızılbaşlara qarşı sünni yaşılbaşların[*] - xanlarını da cəlb olunması üçün canfəşanlıq etmiş, "Şərq yürüşləri"ndən əvvəl onlarla məktublaşmışdır. Həmin məktublaşmanın Amasya sülhündən sonra da davam etməsinə baxmayaraq, artıq məktubların məzmunu başqalaşmış, cəngə dəvət əvəzinə sülhə dəvət çağırışları səslənmişdir. Hücumun artıq lüzumsuz olduğu bildirən Omsanlı sultanı onlara "islam əhlinin asudəliyi üçün" Səfəvilərlə sülh bağladığını xəbər verir, qızılbaşların da özbəklərin hakimiyyətində olan "müsəlman ölkələrinə təcavüz" etməyəcəklərini bildirirdi.[136] Göründüyü kimi, bu artıq təcavüzkar Sultan Süleyman deyil, Səfəvilərlə barışıq yoluna qədəm qoyan Sultan Süleymandır. 1556-cı ilin 16 avqustunda İstanbulda 6 illik tikinti işlərindən sonra inşası bitən Süleymaniyyə məscidinin istifadəyə

[*] Hammerə əsaslanan F.Kırzıoğlu yazır: Şiə Səfəvilərə (F.Kırzıoğlu heç bir ehtiyac olmadan əsərinin hər yerində "Səfəvi" sözünü türkləşdirərək "Səfili" şəklində yazır) "qızılbaş" deyən Osmanlılar sünni özbəklərə deyirdilər. belə ki, İstanbuldakı Venesiya elçilərinin raportlarında özbək elçisi "della tesda verde" ("yaşılbaş"), şahın elçisi "della testa rosta" ("qızılbaş") Osmanlılar "della testa bianca" ("ağbaş") və gürcü elçisi "della testa negra" ("qarabaş") adlandırılır", (Bax: Fkırıoğlu. Göstərilən əsər, səh. 113).

verilməsi münasibətilə Sultan Süleymanı təbrik edən Şah Təhmasib[137] bu məktubu ilə sanki dağıntı yox, abadlıq işlərində çalışmağın cavaba uyğun olduğunu anlatmışdır.

Süleymaniyyə məscidinin inşası xüsusunda Şah Təhmasibin bacısı Məhinbanu da tezliklə sultanın sevimli zövcəsi Xasəgi Sultana (Xürrəm Sultana)* təbrik məktubu yollamış, məktubla bərabər İstanbula həmin məktubu "qiraət edilməkdən örtü" bir neçə nüsxə Quran və bir neçə "əla xalı" da göndərilmişdi[138] ki, bu hərəkət Osmanlı-Səfəvi mədəni münasibətlərinin yenidən başlanmasını sübut edir.

Məlum olduğu kimi, Sultan Süleymanın beş oğlu vardı. Birinci oğlu Məhəmməd 1542-ci ildə vəfat etmiş, ikinci oğlu Mustafa isə sultanın zövcəsi (Rokselena, Xürrəm, Xasəgi Sultan) tərəfindən iftiraya məruz qalaraq qətlə yetirilmişdi. Üçüncü şahzadə Cahangir şikəst idi və erkən yaşından özünü öldürərək, canını bu məlikənin şərindən xilas etmişdi. Dördüncü Sultan Bayazid, beşincisi isə Sultan Səlimə"** idi.[139].

Sultan Səlim gözəl Konya vilayətində və Bursada hakimlik etdiyi halda, Sultan Bayazid əvvəlcə Kutahiyyədə, sonralar isə Ankarada və Amasyada hakim

---

* Osmanlı tarixçilərinin Xasəgi Sultan (Xürrəm Sultan) avropalıların isə Rokselena (Roxelena) kimi qələmə verdikləri bu məlikə (1505-1551) kəniz sifətilə saraya gətirildiyinə baxmayaraq, sonrakı nəinki bütün kənizlərdən, hətta bütün saray xanımlarından üstün olur. O, ilk qadındır ki, kəniz olduğu halda sultanın rəsmi arvadı ("həmsəre-xas" – "xasəgi") məqamına yüksəlir.
Xasəgi Sultan ərindən sonra oğlu Səlimi Osmanlı taxt-tacının sahibi kimi görmək istəyirdi. Lakin sultanın Məhəmməd və Mustafa adlı iki şahzadə varisi də vardı. Vəziyyətin Səlimin xeyrinə olmadığını görən Xasəgi öz siyasi fəaliyyətinə başlayır. O, əvvəlcə, 14 il baş vəzir olmuş İbrahim paşanın öldürülməsinə nail olur, Ayaz paşadan sonra vəzarət mənsəbinə Rüstəm paşanı layiq görür və sultanın sevimli qızı Kaşifəni ona verir. Əlqas Mirzənin Osmanlı sarayına sığınmasından sonra qızılbaşlarla müharibə olması və beləliklə, səfərdə olan ərinin əvəzinə oğlu Səlimin Sultanın rəsmi nümayəndəsi adlandırılması Xasəginin etdiyi cəhdlərdən idi. Amma buna baxmayaraq, Osmanlı ordusunun üçüncü yürüşü də, əvvəlki yürüşlər kimi tez və qələbəsiz başa çatdı. h. 961-ci (m. 1551) ildə yenidən başlayan hərbi yürüşdə Rüstəm paşa qoşun başçısı (sərəsgər) təyin edildi. O, Anadoludan Sultan Süleymana bir məktub yazıb, şahzadə Mustafanın guya qızılbaşlarla əlaqəsi olduğu barədə sultana məlumat verdi. Bunu bilən sultanın əmri ilə 7 lal cəllad şahzadəni kəndirlə boğdu (Süleyman da bu qətlə pərdə dalından baxırdı). Bütün bu cəhdlərə baxmayaraq, Xasəgi Sultan II Səlimi "sultan", özünü isə "sultan anası" kimi görə bilmədi. Sonrakı il o, ölmüşdü (Bax: Ə. Nəvai. Şah Təhmasib Səfəvi, səh. 311-342).

** Yuxarıda qeyd etdiyimiz kimi, Sultan Səlimin anası Rokselana idi. Lakin bəzi tarixçilər (İsmayıl həqqi Uzunçarşılı) Rokselananın Sultan Səlimin deyil, Sultan Bayazidin anası olduğunu söyləyirlər ki, fikrimizcə, bu yanlış məlumatdır. Bundan başqa, mənbələrə görə, sonbeşik Osmanlı şahzadəsinin Sultan Bayazid olduğu göstərildiyi halda, Sultan Səlimin ondan kiçik olduğu barədə də İ. H. Uzunçarşılının yanlış məlumatı mövcuddur (Bax: Prof. İsmail Hakkı Uzunçarşılı İran Şahına iltica etmiş olan Şehzade Bayezidin teslimi için Sultan Süleyman ve oğlu Selim taraflarından Şaha gönderilen altunlar ve kiymetli hediyeler. Şehzade Bayezizin İrana firari hakkında bir hulase. Turk tarih kurumu, Belleten, cilt XXIV, sayı 93. Ocak, Ankara, 1960, s. 104-106). Şah Təhmasibin Sultan Süleymana yazdığı bir rəsmi məktubda da Sultan Səlimin Bayaziddən böyük olduğu qeyd edilir: "Şahzadə Sultan Bayazid və onun cəhalət və cavanlığı üzündən atasına və böyük qardaşına (Sultan Səlimə - Ş.F.) qarşı etdiyi ədəbsizlik".

olmuşdu. Ona pis, ögey qardaşı Səlimə isə yaxşı münasibətdən narazı qalan Bayazid "Mənim padşahım, mənim dövlətim, mənim sultanım" deyə müraciət etdiyi atasına "Ankaradan məni Çoruma göndərdin vəziyyətim çox pisdir. İnsafdırmı ki, mən Ankaradan belə bir yerə gəlim, amma Səlim xan Bursada qalsın?" yazaraq tez-tez şikayətlənirdi.[***] Nəhayət, belə vəziyyət böyük narazılığa səbəb oldu və Konya yaxınlığında baş verən döyüşdə, Sultan Səlim qardaşına qalib gəldi (h. 966-cı ilin şəban ayı; m. 1559-cu ilin iyunu). Çarəsiz qalan Sultan Bayazid oğlanları Urxan, Osman, Mahmud[****] və Abdulla ilə Səfəvi dövlətinə üz tutdu. Onun 10-12 min əsgərdən ibarət böyük ordusu da sərhədi keçərək, onunla birlikdə Şah Təhmasibin yanına yollandı.

Qeyd etmək lazımdır ki, Sultan Bayazid Osmanlı torpağından qaçmazdan əvvəl sığınacaq barədə Şah Təhmasibə məktub yazaraq, onun razılığını almışdı. Belə bir fürsutin ələ düşməyindən sevinən Səfəvi hökmdarı özünün gələcək planları naminə (əvvəllər qızılbaşların hakimiyyəti altında olan Bağdadın yenidən onlara qaytarılması, Kərbəlanın şiə məzarları üzərində nəzarətin qızılbaş seyidlərinə tapşırılması, xüsusilə, bu işdən çoxlu var-dövlət əldə edilməsi) dərhal Osmanlı şahzadəsinin məktubuna cavab yazır: "sizin məhəbbətlə dolu namənіz şadlığımızı artırdı. Gəlişinizlə əlaqədar vilayətdə çaxnaşma olmamasından ötrü fərman verildi ki, Şahqulu Sultan Ustaclı...Naxçıvana getsin [həmçinin] sizi qarşılamaq üçün Azərbaycan vəziri Ətaullanın adına bir fərman göndərdim ki, o, Naxçıvanda zəruri işlərlə məşğul olsun. O, sizinlə və sizin adamlarınızla birlikdə darüs-səltənəyə (Təbrizə - Ş.F.) gedəcəkdir. Darüs-səltənədə isə, bizim mehmandarımız sizin xidmətinizə yetəcəkdir. O yerlərin imarət, ev və bağ-bağatını seyr etdikdən sonra bizim səltənət paytaxtımıza gələcəksiniz. [Təbriz] darüs-səltənəsindən çıxandan sonra sizi istiqbal etmək üçün dövlət başçıları və əyanlar də dəstə-dəstə önünüzə çıxacaqlar. İnşallah o həzrət (Sultan Bayazid – Ş. F.) böyük ehtiramla yanımıza gələcəkdir. Sizə köməklikdə heç nədən heç bir vəchlə müzayiqə olunmayacaqdır".[140]

Bu məktubun sonrakı cümləsi Şah Təhmasibin əvvəlcə bu məsələyə ehtiyatla yanaşdığını göstərir və məlum olur ki, Osmanlı şahzadələri arasında ixtilafdan xəbərdar olan Səfəvi hökmdarı, Bayaziddən rəsmi rica gözləyirmiş. "Sizin namənіz gəlməzdən əvvəl bir qədər tərəddüd edirdim. Məktubunuzu alandan sonar biz də o səltənətpənahı (Sultan Bayazidi - Ş. F.) özümüzün izzətli və əziz fərzəndi etdik".[141]

Sultan Bayazidin fərar xəbərinin eşidən Sultan Süleyman dərhal Ərdəhan sancaqbəyisi Sənanı Səfəvi sarayına yollayaraq "bədxasiyyət" oğlunun ona

[***]İstanbulun Topqapı muzeyində Sultan Bayazidin atasına öz əli ilə yazdığı 23 məktub saxlanılmaqdadır.

[****] Urxan-Çorum sancaqbəyisi, Osman-Şərqi Qarahisar sancaq bəyisi, Mahmud-Canik sancaqbəyisi idi.

sığınacağı təqdirdə, bu hadisənin "məmləkət rəiyyətinə əzab-əziyyət verməməsindən ötrü" geri qaytarılmasını xahiş edir. Zahirən xahiş kimi görünən həmin məktub tələbi xatırladır. Orada 1555-ci il "əhdnamə"si də yada salınır ("aramızda bağlanmış məhəbbət və sədaqət sazişi"), aradakı sülhün pozula biləcəyi ehtimalına işarə edilir.

Sultan Bayazidin Səfəvi dövlətinə sığınması və üç ilə yaxın orada yaşaması barədə o dövrün müəllifləri Qazi Əhməd Qəffari, Qazi Əhməd Qumi, Həsən bəy Rumlu, İsgəndər bəy Münşi, Mustafa Ali, Sarı Abdulla Əfəndi, Busbeq, Hammer və başqaları ətraflı məlumat vermişlər. Elə Şah Təhmasibin özü də "Təzkirə" əsərində bu məsələnin baş verməsini və ona münasibətini belə bildirir: "Sultan Bayazid Amasyada qoşun toplayır ki, qardaşı Sultan Səlimlə döyüşsün. Öz-özümə deyirdim ki, onların nə həddi var ki, həzrət xandgar sağ-salamat taxtda əyləşdiyi halda bir-birləri ilə [taxt üstündə] döyüşələr? Yadigar bəy Pazukinin yanına adam yollayıb, sərhədlərdə bunun öyrənilməsini tapşırdım. Onun casus və mülazimləri gəlib, Sultan Bayazidlə birlikdə olan Əlqasın iki mülazimini də özləri ilə gətirdilər".[142] Sonra qardaşlar arasında Konyada baş vermiş döyüş və Bayazidin məğlubiyyətindən bəhs edən Şah Təhmasib məğlubiyyətə uğrayan şahzadənin onun yanına adam yollayaraq, 1500 tümən qızıl pul istədiyini və həmin borsu "atasının taxtını tutandan sonra qaytaracağını" vəd etdiyini bildirir: "Mən bu sözlərdən təəccüblənib dedim ki, bu adam Əlqasdan da ağılsızdır. Əvvəla, ona görə ki, mən həzrət xandgarla uzun müddətdir ki, sülh etmişəm. Niyə sənə borc qızıl verim? Bundan başqa, sən məgər 1500 tümənlə xandgarla düşmənçilik edə bilərsənmi?".[143]

Sonra Şah Təhmasib şahzadə Bayazidə öz ölkəsində sığınacaq verdiyini əsaslandırmağa çalışır. O, Sultan Süleymana göndərdiyi bir məktubda Sultan Bayazidi hələlik Osmanlı sarayına göndərə bilməyəcəyini açıq-aşkar bildirir və şahzadə Mustafanın Sultan Süleyman tərəfindən öldürüldüyünü bir daha xatırladır:

"O şahzadə (yəni Sultan Bayazid - Ş. F.) torpaqlarımızın yaxınlığına görə özünü bu diyara atmış və məhəbbət və dostluğumuzun möhkəmlənməsi qayda-qanunu əsasında bizi (yəni Şah Təhmasibi - Ş. F.) tövbə etmək və üzr istəmək üçün bir vasitə bilmişdir. O şahzadənin vəziyyət [kitabının] səhifələrindən peşmançılıq oxunmaqdadır. Amma o deyir ki, əgər məni o tərəfə yollasanız, [atam] məni də Sultan Mustafa kimi qətlə yetirəcək və mənim qanım sizin boynunuzda qalacaqdır. Məhz buna görə də, bu sədaqətli dost onun geri göndərilməsini dayandırdı".[144] Beləliklə, "sədaqətli dost"un naməsindən bilinir ki, Şah Təhmasib Osmanlı sarayında baş verən hadisələrdən vaxtaşırı hali olmuşdur. "Təzkirə"sində Şah Təhmasib Osmanlı şahzadəsinə öz ölkəsində yer verməyəcəyi təqdirdə, onun qaçıb başqa bir ölkəyə getmək ehtimalına işarə edib yazır: "Mən əmirlərə dedim ki, o, bizim ölkəyə gəldiyi üçün onu başqa yerə getməyə qoymaq olmaz. Əgər belə olsa, xandgar buna pis baxa bilər".[145] Demək, Şah Təhmasib şahzadəyə sığınacaq

verilməsini özünün xeyirxahlığı kimi qələmə verir və sonrakı cümlələrdə Sultan Bayazidin Osmanlı taxtını ələ keçirmək planını açıb göstərir: "Təbrizdə olarkən o mənə yazmışdı ki, "siz də Təbrizə gəlin, biz iki bölük olub, birimiz Bağdada o birimiz isə Vana hücum edək. Sultan Səlim bölüyün birinin qarşısına çıxacaq, o biri bölüyün önünə isə heç kim çıxmayacaq. Xandgarın bütün qoşunu mənə tərəfdardır və məni istəyir (eynən Əlqas Mirzənin türk sultanına dediyi kimi: "Qızılbaşlar məni istəyirlər." - Ş. F.), xandgar İstanbulda bu xəbəri eşidənədək bütün qoşun mənim yanıma gələcək". Mən cavabında yazdım ki, Qəzvinə gəl, qoy birgə fikirləşək, hər nə məsləhət görülsə, elə də edərik".[146]

Şah Təhmasibin sonrakı məlumatından bəlli olur ki, o, 1555-ci il sazişinə ciddi əməl etməyi qərara almış olduğundan Sultan Bayazidin Türkiyəyə birlikdə hücum planına razı deyildir. O, belə yazmaqla, eyni zamanda sultanın Əlqas Mirzənin sözlərinə uyub Azərbaycana hücum etməsini onun dövlətinə olan xəyanət və pislik kimi qələmə verərək, ötən illərə qayıdır: "Bizim elçilərimiz üç dəfə həzrət xandgarın yanına getmişlər, amma o, bizim dərvişanə töhfəmizə lazımi əhəmiyyət verməyərək, Əlqas bizim yanımızdan qaçıb oraya gedən vaxt, yerindən qalxıb bu tərəfə gəldi. Mən heç cürə qavraya bilmirəm ki, padşahlar belə sözlərə inanıb necə öz yerlərindən tərpənə bilərlər?".

Şah Təhmasib Türkiyəyə qarşı özünün xeyirxahlığını bəyan edərək, Bayazidin planına əsla tərəfdar olmadığını belə göstərir: "Mən əsla onun sözünə inanıb yerimdən tərpənmədim və öz ədəbimi olduğu kimi hifz etdim. Əlimdən bir iş gəlməsə də, onun ölkəsinə gedib, oradakı torpaqların hamısını yandırıb-yaxardım və bundan sonra onların bütün gediş-gəliş yolları qapanardı. O vaxt həzrət xandgar İstanbulda idi. Əgər istəsəydim, Diyarbəkiri, Ərzurumu və Vanı elə hala salardım ki, o yerlərdə abadlıqdan əsər-əlamət qalmazdı".[147]

Sonra, Şah Təhmasib Sultan Bayazidin sonrakı planını açıb göstərərək ("Qoy mənim iki oğlum sizin yanınızda [girov] qalsın, ikisi isə mənim. Siz Ərzuruma, mən isə Bağdada hücum edim"), həmin planın onu qətiyyən şirnikləndirmədiyini belə bəyan edir: "Mən sultan Bayazidə dedim ki, xandgar yaxşı iş görməyərək, Əlqasın sözü ilə mənim üstümə gəldi. Yoxsa, mən də başqa bir nəfərin sözü ilə elə hərəkət edib, sülh və əhdi pozum? Məsləhət gördüm ki, elçi yollayıb onun günahının bağışlanmasını sizdən xahiş edim. Əgər hökm etsələr, onun adamlarını tutub saxlaram, yaxud da [Ruma] göndərərəm".[148]

Hadisələrin davamı isə göstərir ki, istər Sultan Süleyman, istərsə də Sultan Səlim tərəfindən dəfələrlə xahiş və hökm edildiyinə baxmayaraq, Səfəvi hökmdarı Sultan Bayazidi və onun çoxsaylı qoşununu iki ildən çox öz yanında saxlamış, bu hadisədən istifadə edərək, Rum padşahından intiqam almağa çalışmışdır. Lakin aylar ötdükcə, vəziyyət gərginləşməyə başlayır, Sultan Süleyman və Sultan Səlim Türkiyədə, Şah Təhmasib və Sultan Bayazid qızılbaşlar diyarında həyacan keçirirlər.

Sultan Süleymanla şahzadə Səlimin Şah Təhmasibə bir-birinin ardınca yolladığı məktublarda Sultan Bayazid əhvalatının iki ölkə arasında müharibəyə səbəb olacağı bildirilir, "hər iki tərəfin rəiyyətinin asudə və rahat, şəhərlərinin isə abadan" qalması naminə, şahzadənin geri qaytarılmasında təkid olunur.[149] Şah Təhmasib həmin məktublara da etinasız qalıb. Osmanlı şahzadəsini Osmanlı sarayına göndərmir. Hətta onun əfvini xahiş edir: "Şahzadə Sultan Bayazid barədə yazılan məktub bu yaxşılıq sevənin mütaliəsinə çatdı, [onu] insaf baxımından fikrə qərq etdi və həmin mütaliə nəticəsində həqiqət işığı gözə göründü. Aramızda olan sədaqət və dostluq qayda-qanununun möhkəmlənməsi naminə bu dost (yəni Şah Təhmasib - Ş. F.) onun əfv olunmasını xahiş etdi. O, düşmənlərinin yox, dostlarının yanına gəlmiş, indi isə etdiyi işlərdən peşman olmuşdur".[150]

Şah Təhmasibin öz inadından dönməyəcəyi Osmanlı sarayında məlum olduqdan sonra, Sultan Süleymanın icazəsi ilə ikinci vəzir Məhəmməd paşa və Sultan Səlimin lələsi Mustafa paşa da Səfəvi hökmdarına ayrı-ayrılıqda məktublar yazıb, təkidlə şahzadanin geri qaytarılmasını xahiş edirlər.[151] Lakin bu məktubların da yaranmış vəziyyətə heç bir təsiri olmur. Bu müddət ərzində "göz dustağı" olan Osmanlı şahzadəsi isə yeni plan sızır. "O istədi ki, Gilan, Mazandaran, Herat, Qəndəhar, Sistan, Məşhəd, Şiraz, Kirman və Azərbaycanın sərhəd əmirlərinə töhfə göndərsin Sultan Bayazid deyirdi ki, orus (rus - Ş. F.) padşahı mənimlə dostdur. Onun yanına adam yollayıb, deyərəm ki, mən xandgarın düşməniyəm. Ondan kömək alıb, Çərkəzi ələ keçirib, Krım, Noqay, Orus (Rusiya - Ş. F.) və Çərkəzdən çoxlu ləşkər yığıb, əlim çatan yerlərdə xandgarın ölkəsini qarət edərəm". Lakin Şah Təhmasib yenə də onun sözlərinə məhəl qoymur. İş o yerə çatır ki, Sultan Bayazid daha qəti tədbirə əl ataraq, Şah Təhmasibə qarşı sui-qəsd etmək, onu "Rumdan özü ilə gətirdiyi" içinə zəhər qatılmış halva ilə zəhərləmək istəyir. Lakin bu baş tutmur, məsələnin üstü açılır və Sultan şahın əmri ilə həbs edilir.[152]

Bu xəbər Türkiyəyə çatdıqda, Sultan Bayazidin öz ölkəsinə qaytarılması üçün Sultan Süleyman 900, Sultan Səlim isə 300 qızıl sikkə boyun olub, Fars qalasını da qızılbaşlara qaytarmağı vəd etdilər. Şahzadənin geri alınmasından ötrü Osmanlıların "hər hansı bir şərti qəbul edəcəklərini" görən Şah Təhmasib tələblərinin sayını artırdı. Bundan bərk əsəbiləşən Sultan Süleyman dərhal hücum etmək fikrinə düşdü. "Münşəati-səlatin"də yazılır: "Sülh müqaviləsi bağlandıqdan sonra Şah Təhmasib tərəfindən bir sıra bəyənilməz hərəkətlər zahir olduğu üçün qərara gəlmişəm ki, fitnə-fəsad adamlarının dəf olunması üçün bir tədbir görüm".[153] Doğrudan da o, Səfəvi dövlətinə hücum planını gerçəkləşdirmək üçün tədbir görməyə başlayır və dərhal özbək hökmdarı PirMəhəmməd xana namə yollayır: "Oğlum Bayazid öz qüruru üzündən diyari - şərqə vardıqda, şahın xəbisliyinə görə aramızdakı sülhə müxalif bəzi xoşagəlməz vəziyyət və hərəkət görünmüşdür. [Biz] bundan sonra, onun yalanlarına inanmayıb hücum etməyi qərara almışıq. Siz və sizin əcdadınız hamılıqla islam dindarlığınız və sünni

müsəlmanlığınızla məşhursunuz. Gərək qızılbaşi-bədməaşın izaləsi üçün siz də cidd-cəhd edəsiniz. Sizin də bu işdə lazımi qədər səyiniz olmalıdır".[154]

Sultan Süleymanın başqa özbək hakimi İbrahim Sultana göndərdiyi məktubda da Şah Təhmasibin "əhdə və vədə xilaf hərəkətləri" pislənmişdir: "Belə niyyət etdik ki, o bədxasiyyət tayfanın (qızılbaşların - Ş. F.) mövcudluğuna qılınc gücü ilə son qoyulsun, dünya xalqı şər və zərərə mübtəla olmasın. Siz də, islam qeyrəti ilə bu məsələdə səyinizi göstərin, o tərəflərdəki din adamları və müsəlman əsgərləri ilə hücuma keçərək, o fəsad əhlinin məmləkətini talan edib, xarabazara çevirin".[155]

Deməli, müharibə niyyəti doğrudan da gerçəkləşə bilərdi, amma sonradan, Sultan Süleyman "belə cəngin ona fayda verməyəcəyini" (Hüseyn Mircəfəri) bilib. Şah Təhmasibin başqa tələblərinə də əməl etdi. 969-cu ilin zilqədə ayının 14-də (1562-ci il 16 iyul) 200 nəfərlə Qəzvinə gələn Xosrov paşa şah tərəfindən ehtiramla qarşılandı, iyulun 23-də Sultan Bayazid və onun dörd oğlu Sultan Səlimin etibarlı adamı Əli ağa tərəfindən qətlə yetirildi.[156] Sultan Bayazidin Bursa şəhərində olan beşinci, üç yaşlı ən kiçik övladı da sultanın hökmü ilə öldürüldü[157] və beləliklə, böyük bir münaqişəyə son qoyuldu. Şahzadə Sultan Bayazidin Səfəvi dövlətilə qaçması ilə əlaqədar olan 1559-1562-ci il hadisələrindən belə qənaətə gəlmək olur ki, Osmanlı şahzadəsi geri qaytarılmasaydı, ya Azərbaycan-Türkiyə müharibəsi yenidən başlanacaq, ya da Sultan Bayazid ola bizsin ki, Səfəvi hakimiyyətini öz əlinə keçirəcəkdi.[158]

Bu hallardan hər ikisi, şübhəsiz ki, arzuolunmaz bir məsələ idi. Sultan Bayazidin Səfəvi sarayına fərarı üç ilə yaxın müddətdə bu ölkələr arasındakı vəziyyəti gərginləşdirmişdisə də, nəticə etibarilə diplomatik əlaqələrin genişlənməsinə səbəb olmuşdu. Şah Təhmasibin Sultan Səlimə yazdığı bir məktubda o şahzadə "fərzənde-ərcümənd" ("əziz fərzənd") adlandırılmış, onunla özü arasında "atalıq və oğulluq rabitəsindən" bəhs edilmişdir.[159] Tərəflər arasındakı yazışmalarda 1555-ci il Amasya sülhünün şərtlərinə qeydsiz-şərtsiz əməl edilmə zərurəti bir daha göstərilir. Belə ki, Sultan Süleymanın məktublarının birində həmin müqavilə yenidən nəzərə çatdırılır: "Nizamnamədə yazıldığına görə, o tərəfin təbəələrindən bu tərəfə gələnlərə sərhəd əmirləri sərhədi keçməyə icazə verməyib geri qaytarırlar. Buna görə də, ölkəmizi qoruyan sərhəd əmirləri və məhrusə vilayətlərin qoruyucularına əmr edildi ki, o tərəfin icazəsi olmadan gələnlərin yolları bağlansın, heç kim sərhədi keçməsin və geri qaytarılsın. [Amma] o humayun padşah tərəfindən göndərilən etibarlı şəxslər ehtiramla qarşılanacaqlar".[160]

Qeyd etmək lazımdır ki, "Sultan Bayazid əhvalatı" həll edildikdən sonra hər iki ölkə başçıları arasında yenə sülh əhvali-ruhiyyəsi bərpa olunmuş, qızılbaş böyükləri Məsum bəy Səfəvi, Sevindik bəy Qorçibaşı, Şahqulu Xəlifə Möhrdar və Osmanlı vəzirləri arasında bir-birlərinə dostluq məktubları yazılmışdır.[161] Sultan

Süleyman da, Şah Təhmasibə "əgər sizin tərəfinizdən bizə qarşı vəziyyət pisləşməzsə, aramızda nəsilbənəsil müxalifət olmayacaq, yalnız dostluq hökm sürəcəkdir" yazırdı.[162] Doğrudan da, III Sultan Muradın hakimiyyətinə qədər buna əməl olundu və Sultan Süleyman və Sultan Səlimin "Şərq diyarı" ilə işləri olmadı və tam qətiyyətlə 1555-1578-ci illəri Səfəvi-Osmanlı münasibətlərinin ən dinc dövrlərindən saymaq olar. Lakin İranın qatı şiələri tərəfindən bəzən sünnilik və Osmanlılar əleyhinə təbliğat aparılır, şiəliyin yenidən Türkiyə ərazisində yayılması xüsusunda məsələ qaldırılırdı. Əlbəttə, bütün bunlardan Sultan Süleyman vaxtlı-vaxtında xəbərdar olurdu. Bu barədə Şah Təhmasibə göndərilən bir sultan məktubunda deyilir: "Bizə məlum olduğuna görə, o diyarda (Səfəvi səltənətində - Ş. F.) aşkar olan və tüğyan əlamətləri görünən şəxslər vardır. Onların hər biri rəiyyət oğlu rəiyyət ikən nemətə ağ oldular. Madam ki, o diyarda elə fitnəkarlar vardır, aramızda ixtilaf baş verəcəyinə heç bir şübhə yoxdur. Hüsn-rəftarımızın səməri və ittifaqımızın nəticəsi bunu tələb edir ki, o bədfəal tayfa gərək yubandırılmadan mənim dərgahıma göndərilsin".[163]

Osmalı hökmdarı tərəfindən belə təhdidamiz məktub alan Şah Təhmasib, görünür ki, yenə də ona xas olan ehtiyatkarlığı və tədbirli hərəkəti sayəsində sultanın qəzəbini yatırmağa nail olmuş, münasibətlər pozulmamışdı.

Osmanlıların ən uzun hakimiyyət sürən padşahı Sultan Süleyman 1566-cı ilin sentyabr ayının 24-də Belqradda vəfat etdi. Atasının ölüm xəbərini eşidən Səlim dərhal İstanbula gəldi (h. 974-cü ilin rəbiül-əvvəl ayının 9-u; m. 1566-cı il sentyabrın 24-ü). Osmanlı dövlət başçıları onun sultan olmaq tələbini qəbul edib, əlini öpdülər. Sultan Səlim iki gündən sonra Belqrada yollandı, Yolda atasının vəfatı və özünün cülusu barədə İran, Fransa və Venesiya padşahlarına məktublar yollayan Səlim öz sultanlığını rəsmən elan etdi.[164] Onun Şah Təhmasibə yolladığı məktub "dostanə" ifadələrlə zəngindir.

Yeni Osmanlı sultanından məktub alan Şah Təhmasib dərhal ona "şahanə və pedəranə" (Ə. Nəvai) namə göndərib, atasının ölümü münasibətilə təsəlli, özünün cülusuna görə isə təhniyət verdi. Məktub artıq bir neçə diplomatik səfərdə olmuş Şahqulu Sultan Qacar tərəfindən yeni sultana təqdim edildi.[165]

Şahqulu Sultanın Türkiyəyə bu səfərindən məqsəd, həmçinin, 1555-ci il sülh sazişini təzələmək idi.

Türkiyədə Şahqulu Sultanın Osmanlı hökmdarına təqdim etdiyi 1500 sətirlik şah məktubunda yeni Osmanlı sultanı "İkinci İsgəndər Zülqərneyn" adlandırılmış, onun şərəfinə şer və nəsrlə çoxlu tərifl ər deyilmişdir. Şah Təhmasib yeni Osmanlı sultanının xarici siyasətinin doğru istiqamətə yönəldiyindən şad olduğunu bildirərək, Sultan Səlimə yazır: "Sizin tərəfinizdən göndərilən Sənan Kəndxuda və Ərzurum bəylərbəyisi Əli paşa gəlib xəbər gətirdi ki, sizdər firəng kafirləri ilə cahada getmişlər və istəyirlər ki, Firəngistanı xəbis kafirlərin vücudlarından təmizləyələr, öz ataları [Sultan Süleyman] kimi, onlarıl kilsə və

məbədlərini məscidlərə döndərələr islamla müşərrəf olmayan o firənglərin hər birini qətlə yetirib, cəhənnəmə yollayalar. Bu xeyirxah xəbər dövlətxahınız olan mən kimi bir dost bəndəyə çatdıqda dua etməyə başladı və bu sadiq bəndənin qələmrəvində (ölkəsində - Ş. F.) olan hər bir qəsəbə və şəhərə adam göndərildi ki, üləmalar və zahidlər Quran oxumağa başlasınlar və mən özüm də xətmi-Quran və dua ilə məşğul oldum".[166]

Sultan Səlimin tamamilə doğru yolda olduğunu, yəni öz qoşunları olan müsəlman dövlətləri ilə deyil, "firənglərlə" döyüşə yollandığını tamamilə təqdir edən Şah Təhmasib ona "iki böyük hadisə münasibətilə" də təsəlli verir: "Gərək iki böyük hadisə münasibətilə özünə təsəlli verəsən. Birincisi odur ki, o cənnətməkan sultan (Süleyman - Ş. F.) şəhid olmaqla iki cəhətdən səadətə yetmişdir ki, onlardan biri onun kafirlərlə cahad vaxtı əbədi dünyaya getməsi (və şəkk yoxdur ki, o cənnətə düşmüşdür) və orada şəhidlər silki və xoşbəxtlər zümrəsinə qovuşmasıdır. İkinci [böyük hadisə] isə odur ki, əlahəzrət sultan yerini özündən sonra sizin kimi şərafətli bir fərzəndə qoyub getmişdir".[167]

Ümumiyyətlə, Şah Təhmasibin Osmanlı sultanlarına yolladığı məktubların əksəriyyətində onun xasiyyətinə uyğun ehtiyatkarlıq və diplomatik yazışma tərzinə əməl etmək prinsipi açıq-aşkar görünür. İ. P. Petruşevskinin yazdığı kimi, "Osmanlı Türkiyəsi ilə Amasya sülhü (1555) bağlandıqdan sonra o, Osmanlılarla yaxınlıq etmək siyasəti yetirməyə cəhd edir və bu xarici siyasət xəttini qətiyyətlə həyata keçirirdi. O, Osmanlı dövlətinin narazı qalacağından çəkinərək, Qızılbaş dövləti, xüsusilə Azərbaycan üçün əhəmiyyətli olan İngiltərə və Rusiya ilə Volqa-Xəzər vasitəsilə daimi ticarət əlaqələri yaratmaq xüsusunda Cenkinsonun[*] təklifinə razılıq verməmiş"[168] beləliklə də Türkiyə ilə ola biləcək hər hansı bir münaqişədən çəkinmişdir. Bizim fikrimizcə, öz yaxın qonşusu ilə belə davranmağa məcbur olan Şah Təhmasibin Osmanlılara qarşı ehtiyatlı münasibəti məhz onun uzaqgörənliyindən irəli gəlirdi. İyirmi il ərzində, dörd Osmanlı yürüşünün şahidi olan və həmin yürüşlərin xalq üçün böyük münasibətlərini görən Səfəvi hökmdarı əslində başqa cür hərəkət edə bilməzdi, əks təqdirdə, hərbi cəhətcə qızılbaşlardan üstün olan Osmanlıların yürüşləri təzələnə bilərdi.

II Səlim və I Şah Təhmasib arasında mövcud olan dinc yanaşı yaşamaq münasibətindən məlumat verən Y. Mahmudov, o vaxtlarda Səfəvi hökmdarının Osmanlı dövlətinə qarşı heç də tamamilə passiv mövqedə dayanmadığını, Türkiyə əleyhinə yenidən yaranmaqda olan Avropa ölkələri hərbi siyasi ittifaqının nüfuz və qüdrətinin məxfi şəkildə Şah Təhmasib tərəfindən səylə öyrənildiyini nəzərə çatdırır. Məlum olduğu kimi Amasya sülhündən sonra Osmanlı imperiyası özünün Avropa cəbhəsindəki əməliyyatlarını genişləndirmiş. Kipr uğrunda Venesiya respublikası ilə müharibəyə başlamış, Almaniya və Dalmasiyaya da qoşun

[*] 1562-ci ildə diplomatik missiya ilə Səfəvi sarayına göndərilmiş diplomatiya Antoni Cenkinson.

yollamışdı. Belə bir şəraitdə, Venesiya şah Təhmasibə gizli məktub yollayaraq, ona Qərb dövlətlərinin köməyi ilə Türkiyəyə qarşı müharibəyə başlamağı təklif etmişdi. Y. Mahmudovun məlumatına görə, Venesiya respublikasının məktubunda göstərilirdi ki, Türkiyəyə qarşı "əgər Səfəvi dövləti şərqdən, Venesiya və başqa xristian dövlətləri isə qərbdən eyni vaxtda hücuma başlasalar, Türkiyə döyüşçülərini iki cəbhəyə ayırıb. məğlubiyyətə uğratmaq mümkün ola bilər. Belə olan təqdirdə şah Təhmasib əvvəllər Osmanlı imperiyası tərəfindən ədalətsiz işğala məruz qalan Səfəvi torpaqlarını geri qaytarar". Məktubun sonunda Venesiya hökuməti Səfəvi hökmdarını tezliklə Türkiyəyə hücum etməyə çağırır və vəd edirdi ki, "başqa xristian dövlətləri ilə birlikdə ümumi düşməni suda və quruda darmadağın etmək üçün bütün güc və qüvvəsini sərf edəcəkdir".[169]

Məgər Venesiyanın Şah Təhmasibə yolladığı bu məktubda yazılanlar həmin dövlət tərəfindən vaxtı ilə Uzun Həsənə yollanan məlum təkliflərlə həmahəng səslənmirmi? Şübhəsiz ki, Şah Təhmasib kimi ehtiyatlı bir hökmdar Venesiyanın həmin təklifi ilə düşünülməmiş şəkildə razılaşa bilməzdi. İkinci tərəfdən isə həmin təklif müəyyən mənada Şah Təhmasibi şirnikləndirməyə də bilməzdi. Lakin "Qərb diplomatiyasının mahiyyətini yaxşı anlayan şah Təhmasib"[170] Amasya sülhünü pozmağa iqdam etmədi, çünki, şübhəsiz ki, Şah Təhmasib Venesiya-Ağqoyunlu münasibətlərindən xəbərdar idi. O yaxşı, bilirdi ki, Uzun Həsənin döyüşündə II Məhəmmədə məğlubiyyətinin əsas səbəbi ona vəd edilən hərbi silah və ləvazimatın vaxtında Venesiyadan gətirilib çıxarılmaması idi. Ona bu da məlum oldu ki, iki əzəmətli imperiyanı – Səfəvilər dövlətini və Türkiyənin bir-biriləri ilə döyüşdürmək, nəticədə isə onların hər ikisini zəiflətmək Avropa dövlətləri üçün faydalı idi.

Tezliklə Venesiya respublikası Şah Təhmasibə ikinci məktubunu da yolladı. Həmin məktubu "uzun illər Konstantinopolda yaşamış", "Türkiyə üzrə mütəxəssis", "cənab Türk (II Səlim – Ş.F.) və cənab Sufi (Şah Təhmasib – Ş.F.) arasındakı ziddiyyətlər müfəssəl məlumatı olan" Venesiya senatının katibi Vinçesko d'Alessandri Səfəvi sarayına gətirmişdi. Bu məktubda elə birinci məktubun məzmununda idi. Orada əlavə olaraq vəbər verilirdi ki, Venesiya əleyhinə Kiprə, həmçinin Almaniya və Dalmasiyaya qoşun göndərən Türkiyə asanlıqla məğlub edilə bilər, belə ki, "başqa xristian hökmdarları da Türkiyə əleyhinə müharibə üçün öz ordularını hazırlamaqdadırlar, Roma papası və İspaniya kralı isə, artıq öz hərbi qüvvələrini Venesiya qüvvələri ilə birləşdirmişlər".[171]

Bu Venesiya diplomatının məlumatına görə, o, şahın üçüncü oğlu Heydər Mirzə ilə görüşmüş, söhbət vaxtı Səfəvi şahzadəsi ona demişdi ki, tezliklə onun şahla görüşü təşkil ediləcəkdir, lakin bu şərtlə ki, həmin görüş "ciddi bir sirr olaraq qalmalı və heç kəs aparılacaq söhbətdən xəbərdar olmamalıdır".[172] Bu bir daha təsdiq edir ki, Səfəvi hökmdarı Osmanlı imperiyası ilə sülh münasibətlərini qoruyub saxlamağa cəhd edir, onun əleyhinə Qərb dövlətləri ilə açıq danışıq

aparmaqdan çəkinirdi. Məhz Şah Təhmasibin uzaqgörənliyi sayəsində Səfəvi dövləti Osmanlılar əleyhinə Avropa ittifaqına qoşunmadı, Türkiyə isə 1571-ci ilin avqust ayının 1-də Lələ Mustafa paşanın komandanlığı ilə Kipri ala bildi.[173]

XVI əsrin ortalarında Səfəvi - Osmanlı münasibətlərinin ziddiyyətli inkişafında başqa bir Avropa dövətinin - Portuqaliyanın da müəyyən rolu olmuşdur.[174] İran körfəzinin Hörmüz və başqa bir neçə adasını ələ keçirən Portuqaliya Səfəvi sərhədlərinin yaxınlığında fəaliyyət göstərdiyindən, təbii ki, Səfəvilərlə müəyyən təmasda idi Məhz Portuqaliya Səfəvilərin və Osmanlıların Hindistanla dəniz ticarətinin genişlənməsinə imkan vermir, Aralıq dənizi vasitəsilə aparılan Avropa - Asiya ticarətindən əldə edilən böyük gəlirə başqa dövlətlərin ortaq olmasını istəmir, düşmənçilik etdiyi Türkiyənin Hindistanla ticarət etməsinə maneçilik törədirdi. Portuqallar Osmanlı Türkiyəsi ilə apardıqları bu rəqabətdə Səfəvilərə yaxınlaşmağı məqsədəuyğun bilərək, Şah Təhmasiblə Sultan Süleyman arasında baş verən müharibələr dövründə Səfəvilərə hərbi və maddi köməklik göstərirdilər. F.Kırzıoğlunun məlumatına görə, Şah Təhmasib 1549-cu ildə portuqallardan 10 min əsgər və 20 top almışdı.[175] A.Berşenin məlumatına görəsə, Portuqaliya kralı XVI əsrin 70-ci illərində Səfəvilərə 20 min sexin (pul vahidi – Ş.F.) pul göndərmişdi.[176]

Tarixçi Həsən bəy Rumlunun məlumatına görə, Portuqaliya kralı III Juanın (1502-1557) h. 958 (m. 1551)- ci ildə Qəzvinə gələn elçilərinin Səfəvi sarayında yaxşı qarşlanmalarına baxmayaraq, h. 982 (m. 1574/1575)-ci ildə təşrif gətirən başqa portuqaliyalı elçilərə münasibət soyuq olmuş, onlar şah tərəfindən qəbul edilmişdilər.[*] Hərçənd ki, Həsən bəy Rumlu bunun səbəbini portuqaliyalıların İran körfəzində müsəlmanları sıxışdırmaları ilə əlaqələndirir, lakin əsas səbəbi Səfəvi - Osmanlı münasibətlərinin qorunub saxlanılması, Şah Təhmasibin portuqaliyalılarla düşmən münasibətdə olan Osmanlıları özünə qarşı qəzəbləndirmək istəyi olduğu şübhəsizdir. İsgəndər bəy Münşi bildirir ki, Səfəvi sarayına gəlmiş bu ikinci elçi heyəti onlara geri qayıtmaq barədə Şah Təhmasibin icazəsi olmadığından bir neçə il Qəzvində qalmış, yalnız Şah Məhəmməd Xudabəndənin hakimiyyəti zamanı öz ölkələrinə qayıda bilmişdilər.[177]

H. 982-ci ilin şəban ayının 27-də (14 dekabr 1574) müsəlmanların "Məst" ləqəbi verdikləri II Sultan Səlim 8 illik hakimiyyətindən sonra vəfat etdi. Onun vaxtında Sultan Süleyman dövrünün əksinə olaraq Osmanlı dövlətinin ərazisi genişləndirilmədi və Ə. Nəvainin təbirincə desək "Osmanlı dövləti zəiflədi".[178] Sultan Səlimin vəfatı ilə əlaqədar bir məktubu dərhal Osmanlı sarayına yollayan Şah Təhmasib, yeni sultan III Murada atasının vəfatı münasibətilə təsəlli verərək, həmin itkini "müsibət" adlandırdı. "Qoy dünya o alişan sultanın (III Muradın - Ş.F)

[*] İ.P.Petruşevskiyə görə Şah Təhmasib qatı dindar olduğundan Səfəvi sarayına diplomatik nümayəndəliyin başçısı sifəti ilə 1562-ci ildə təşrif gətirmiş ingilis Cenkinsonu məhz "müsəlman olmadığına görə" qəbul etməmişdi (Bax: Azərbaycan tarixinə dair məqalələr toplusu, səh. 264).

cülusu münasibətilə ədalət və ehsanla bəzənsin, rəiyyət əmin-amanlıq beşiyində asudə olsun" yazan Səfəvi hökmdarı yeni Osmanlı sultanı ilə dostcasına münasibətə tərəfdar olduğunu bildirdi.[179]

Atasının ölümündən sonra taxta cülus edən III Murad dərhal, Osmanlı sultanlarının adəti üzrə, beş qardaşını qətlə yetirib, onları atası Sultan Səlimin qəbri yanında torpağa tapşırdı. "Bu əzəmətli sultanın (III Muradın - Ş.F.) cülusunun dostların yaralı ürəklərinə qüvvət verdiyini" yazan[180] Şah Təhmasib Səfəvilərlə dost münasibətdə olan II Səlimin vəfatından olduqca kədərləndirdiyini bildirməklə, yeni sultanı da onunla atasın kimi davranmağa təhrik edirdi. Doğrudan da Şah Təhmasibin vəfatınadək Osmanlı-Səfəvi münasibətlərində düşmənçilik əhval-ruhiyyəsi açıq- şəkildə görünmədi. Lakin Osmanlı sarayının yeni tacdarı taxta çıxan kimi fürsəti fövt etmədən Səfəvilərlə döyüşməyi qərara aldı. Əvvəllər Osmanlı ordusunda çavuş olan, sonralar isə II Sultan Murad ordusunun tərkibində Lələ Mustafa paşa ilə Azərbaycana gəlib, özünün üç məşhur əsərlərini yazan İbrahim Rəhimizadənin məlumatına görə, 1574-cü ilin dekabr ayının 23-də İstanbulda yüksək saray əyanları III Muradın yanına toplaşıb, "İslam dövlətlərinin vəziyyəti" müzakirə etmiş, 1555-ci il sülh müqaviləsindən sonra Səfəvilərin əlinə keçən ərazilərdə "sünniliyin ehyası üçün" tədbirlər düşünmüşdülər. Deməli, Osmanlıların 1578-ci ildə "Şərq diyarı"na yürüş hələ 4 il əvvəl planlaşdırılmışdı.[181]

1576-cı il may ayının 15-də 1524-cü ilin may ayının 24-dəön bəri 52 il Səfəvi taxtında əyləşən, qərbdən Osmanlı, şərqdən isə Özbək-Cağatay kimi sünni dövlətlərin hücumlarına dəfələrlə məruz qalan Şah Təhmasib taxt-taca "vəliəhd belə təyin etməyə macal tapmadan"[182] vəfat etdi. Bununla əlaqədar bütün İranda böyük qarışıqlıq yarandı. Şah Təhmasibin ölümündən 3 ay 1 həftə sonra şahzadə İsmayıl Mirzə II Şah İsmayıl adı ilə taxta cülus etdi (avqust ayının 23-də). Ertəsi gün, ölümündən 2 gün əvvəl Şah Təhmasibin elçi sifətilə İstanbula göndərildiyi Məhəmmədi Sultan Toxmaq Ustaclı (Şahqulu Sultanın oğlu - Ş.F.) III Sultan Muradın Şah Təhmasibə yolladığı töhfələrlə və bir sultan çavuşunun gətirdiyi məktubla yeni şah II İsmayılın yanına gəldi.[183]

II Şah İsmayılın bir dövlət xadimi kimi fəaliyyətinə nəzər salaraq, biz onun xasiyyətində öz baba və atasının əksinə olaraq, qatı şiəliyə deyil, sünniliyə doğru meylin güclü olduöunu görürük.[184] O, şiə ruhanilərinin müqavimətinə baxmayaraq, təbərrayi adətini (Əbu Bəkr, Ömər və Osmanlı lənətlənməsini) qadağan etdi.[185] Yeni Səfəvi hökmdarının belə dəst-xətt götürməsinə səbəb nə idi? Baş verməkdə olan bu hadisələr şəxsən müşahidə edən Şərəfxan Bidlisinin yazdığına görə, II Şah İsmayıl ölkədə elə üsul-idarə yaratmaq istəyirdi ki, sünnilər və şiələr öz əqidələri üzrə hərəkət edərək, bir-birilərinin işlərinə qarışmasınlar.[186] O. Əfəndiyevin gəlmiş olduğu qənaətə görə, II Şah İsmayıl belə hərəkət etməklə II Muradla sülh münasibəti yaratmaq, şiə-sünni ziddiyyətini bir qədər yumşaltmaq fikrindəydi. "Olaq bilsin ki, elə buna görə də, II İsmayılın qısa hakimiyyəti müddətində Səfəvi-

Osmanlı sərhədində sakitlik hökm sürmüş, tərəflərin heç biri sülhü pozmamışdı"[187] yazan O. Əfəndiyevlə həmin məsələ xüsusunda türk tədqiqatçısı F.Kırzıoğlunun fikirləri arasında nəzərə çarpan fərq mövcuddur. Bu türk aliminin Bəkir Kütükoğluya istinadən verdiyi məlumata görə, II Şah İsmayılın döyüşçüləri Zəncanda olan bir Osmanlı karvanını basmış və qarət etmiş, səfəvi hökmdarı isə bu işin təhqiq etmək üçün Ərzurumdan gələn iki çavuşu həbsxanaya salmış, hətta həmin çavuşların əhvalını öyrənməyə gələn Van paşasının adamlarını da dustaqxanaya göndərmişdi. Bundan başqaŞ yeni Səfəvi hökmdarı I Şah İsmayıl və I Şah Təhmasib vaxtlarında olduğu kimi, Osmanlıların Anadoludakı qızılbaş ələvi tayfaları arasına onların Ərdəbil təkyəsinə və Səfəvilərə bağlılıqlarını təbliğ edən xəlifələr yolladı. O, Amasya sülhünü açıqca pozub, Osmanlıların mal, torpaq və təbəəsinə təcavüzə başladı. Bütün bu hərəkətlər isə, nəticə etibarilə Osmanlıların II Şah İsmayıla qarşı səfərə çıxmaq barədə qərara gəlmələrinə[*] səbəb oldu.[188]

Bunları nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, II Şah İsmayılın sünni məzhəbinə meylinin onun "III Muradla sülh münasibəti yaratmaq, şiə-sünni ziddiyətinin bir qədər yumşaltmaq" fikri ilə əlaqələndirilməsi məsələnin yalnız bir tərəfidir. Zənnimizcə II Şah İsmayılın sünniliyə meylinin səbəbini onun həyatının sonuna yaxın xasiyyətindəki qeyri-tarazlıqda, təbiətindəki zehni və və səbatsızlıqla axtarmaq lazımdır. Bu Səfəvi hökmdarı, elə taxta çıxmazdan əvvəl də. Osmanlıların qatı düşməni olmuş, dəfələrlə onlarla döyüşmüş, bir sıra Osmanlı sərhəd vilayətərini qarətə və dağıntıya məruz qoymuşdu. O, hələ Heratda hakim olarkən (h. 963; m. 1556) Venesiya müəllifi d'Alessandrinin yazdığına görə, Şah Təhmasibin icazəsini almadan, vilayət hakimlərinə Amasya sülhün pozaraq, qoşun toplamaları və Osmanlı torpaqlarına hücum etmələri xüsusunda məktublar tollamışdı.[189]

Oğlunun çılğın təbiətindən yaxşı xəbərdar olan Şah Təhmasib, İsgəndər bəy Münşinin məlumatına görə, onu tezliklə Qəhqəhə qalasında dustaq etmiş, beləliklə, İsmayıl Mirzə 19 il 6 ay 21 gün qalada məhbus olmuşdu.[190]

İsmayıl Mirzənin Səfəvi şahı olmağı Osmanlıları dərhal narahat etdi. O taxta çıxan kimi, Türkiyənin diqqəti İrana və özlərinin şərq sərhədlərinə dikildi. Bütün bunlar yeni Səfəvi-Osmanlı müharibələri dövrünün tezliklə başlayacağından xəbər verirdi. Əvvəlcə II Sultan Səlimin (1574), ondan iki il sonra isə Şah Təhmasibin vəfat etmələri ilə 1555-ci ildən etibarən arası kəsilən döyüşlərin yenidən qızışacağı ehtimalı gerçəkləşdi. Şah Təhmasibin vəfatından azacıq sonra İstanbuldan Bəsrə, Bağdad, Şəhrizur, Diyarbəkir, Van və Ərzurum kimi bütün Səfəvi sərhəd vilayətlərinə göndərilən hökmlərə Səfəvilərin sülhə riayət edəcəkləri təqdirdə Osmanlıların da "əhdnamə xilafına" çıxmaları tapşırılır, sərhəd

[*] Bunlar heç şübhəsiz, hərbin başlanması üçün bəhanə idi. Bir qədər aşağıda görəcəyimiz kimi, F.Kırzıoğlu özünün əvvəlcə dediyi fikirlərinin başlanmasının əsl səbəbini – Osmanlıların bu müharibədə siyasi maraqlı olduğunu açıq etiraf etmişdir.

əsgərlərindən ayıq olmaq tələb olunurdu. Lakin belə tapşırıqlar heç də Osmanlıların Səfəvilərə qarşı olan gələcək hərbi planlarını ört-basdır edə bilmir. Qətiyyətlə deyə bilərik ki, hər iki dövlət arasında başlanan yeni hərb məsələsi məhz Osmanlıların yenidən Azərbaycanı ələ keçirmək marağının nəticəsidir. "Osmanlı sultanı III Murad (1574-1595) Səfəvilərlə müharibəyə ciddi hazırlaşmışdı" (Bax: O.Ə.Əfəndiyev. XVI əsrdə, səh. 149).

III Murad taxta çıxan çağlarda Osmanlı dövləti, demək olar ki, daha rəqibinin qalmadığı ən böyük imperiya idiş 1567-1569-cu illərdə Yəmən, 1570-1571-ci illərdə Kipr, 1574-cü ildə isə Tunis fəth edilmişdi. F.Kırzıoğlunun məlumatına görə, artıq 1577-ci ildə Osmanlı imperiyasının şimal, qərb və cənubda döyüşəsi bir düşməni və tamah salınıb alınası bir torpağı qalmamışdı. Amma onun şərq qonşuluğunda II Şah İsmayılın bəhs etdiyimiz davranışı, yəni 1555-ci il Amasya sülhünün 1576-cı ildən bəri pozulması, Anadoludakı qızılbaşların fitnə-fəsadı, Dağıstan, Şirvan, Gilan əhalisi və Yəqə türkmənləri kimi İran sünnilərinin də islam xəlifəsi və dünyanın ən böyük və adil paşahından (yəni III Muraddan – Ş.F.) yardım istəmələri, Özbək və Xarəzm xanlıqlarının, eləcə də, onlardan şərqdə yaşayan türklərin Xəzər-Qara dəniz ticarət yolunun açılması üçün İstanbula tez-tez müraciətləri kimi səbəblərə görə Osmanlı dövləti İranla döyüşmək qərarına gəldi.[192] F. Kırzıoğlu Qızılbaş - Osmanlı münasibətlərinin pozulma səbəblərini, heç şübhəsiz, obyektiv vermir və "İranla döyüşmək qərarına gələn" Osmanlıların əsl məqsədini - öz sələflərinin "Şərq diyarını" zəbt etmək məqsədilə pərdələməyə çalışır. Lakin elə onun özü azacıq sonra bu xüsusda belə yazır" "Osmanlıların III Muradın hakimiyyəti vaxtı İranla müharibə etməsinin ana qayəsi Xəzər dənizində donanma saxlamaq istəyi idi".[193] Demək, məsələ yeni bir ölkə zəbt etmək tamahında və beləliklə də qonşu Səfəvi dövlətinin tüzliklə aradan götürülmə istəyində idi. Başqa bir türk tədqiqatçısı Camal Göycə 1578-ci ildə başlayan Səfəvi-Osmanlı hərbini əsl səbəbini qızılbaşlığın iranlılar tərəfindən Türkiyənin şərqində yayılmasında və hər iki dövlətin – Türkiyə və İranın Gürcüstan və Azərbaycan üzərində "nüfuz əldə etmək istəyi"ndə görür.[194]

1578-ci ilin əvvəlində rəsmi müharibə elan edilmədiyinə baxmayaraq, artıq Osmanlılar bəzi sərhəd vilayətlərində Səfəvilərlə döyüşə başlamışdılar. III Muradın 1577-ci ilin dekabr ayının 31-də sərhəd bəylərinə göndərdiyi bir hökmdə vəfat Şah İsmayılın hələ atası vaxtı imzalanan sülhə riayət etmədiyi və İstanbula heç bir elçi heyəti göndərmədiyi anılır və bu əməl düşmənçilik kimi qiymətləndirilirdi.[195]

II Şah İsmayılın Osmanlılarla olan düşməncəsinə münasibəti tezliklə yeni böyük bir yürüşün təşkil edilməsini labüdləşdirirdi. Lakin 24 noyabr 1577-ci ildə (h. 13 ramazan 985) cəmisi 1 il 3 ay və 2 gün hakimiyyət sürən II Şah İsmayıl saray sui-qəsdi nəticəsində öldürüldü və Qazi Əhməd Quminin "Xülasətət-təvari"

əsərində yazıldığı kimi hakimiyyətə onun bacısı Pərixan xanım* gəldi.[196] Lakin tezliklə dayısı Şamxal Sultanın köməyilə Qəzvində taxta çıxan nu nüfuzlu qadının hökmranlığına con qoyuldu və Səfəvi taxt-tacı onun böyük qardaşı Məhəmməd Xudabəndəyə verildi.[197]

Dördüncü Səfəvi hökmdarı Şah Məhəmməd Xudabəndə (1578-1587) Şah Təhmasibin ən böyük oğlu idi. Zəif iradəli, qeyri-təşəbbüskar və gözləri, demək olar ki, görməyən bu şəxs haqqında tarixi qaynaq və ədəbiyyatda müəyyən məlumat vardır. Lakin bir müddət Herat və Şirazda hakim olmuş şahzadə Məhəmməd Mirzə (gələcək Səfəvi şahı) heç də yazılanlarla olduğu kimi tamamilə və qətiyyətsiz adam olmamışdır. Bacınızın Qəzvində hakimiyyəti əlinə aldığını eşidən Məhəmməd Mirzə dərhal onu taxt-tacdan kənar etmək məqsədilə Qəzvinə yollanır və şəhərə çatan kimi Pərixan xanımın lələsi Xəlil xan Əfşara öz rəqib bacısını qətlə yetirməyi əmrini verir. Pərixanın dayısı Şamxal xan Çərkəz, II Şah İsmayılın bir yaşlı oğlu Şah Şüca və onun lələsi Vəli Sultan Qalxançıoğlu da Məhəmməd Mirzənin əmri ilə öldürülür və Ə. Nəvainin dediyi kimi, Səfəvi taxt-tacının "iddiaçıları" aradan götürülür.[198]

Məhəmməd Mirzə, atası Şah Təhmasib kimi uzaqgörənlik edərək, hələ Səfəvi taxtına çıxmazdan əvvəl Qızılbaş – Osmanlı münasibətlərini axarını dinc məcraya yönəltmək üçün təşəbbüs etmişdir. Heydər Evoğlunun "Məcmueyi-münşəat"ındakı bir məktub fikrimizi sübuta yetirir. Orada yazılır: "Bu sadiq şəxs (yəni Məhəmməd Mirzə - Ş.F.) sədaqət qanununa əməl edərək, sarayın etibarlı adamlarından olan Vəli bəyə məktub verir, sizin ölkənizə yolladı. Biz sizdən cavab gözlədiyimiz halda sərhəd paşası Vəli bəyi sizin əmriniz olmadan həbs etdi. Sonra isə bizim irsi məmləkətlərimizə qoşun yolladı. Fitnə-fəsad atəşi göy, qalxdı, zülmə, müsəlmanların əhl-əyalını əsir götürməyə başladılar.*

Sultan Bayazid barədə bizim xidmətlərimizin sizin səltənət və xilafətinizin bərqərar olmasında əhəmityyəti böyükdür.[199]

Ə. Nəvainin göstərdiyi kimi, Məhəmməd Mirzə Osmanlı şahzadə Sultan Bayzidin Səfəvilərə sığındığını kinayə ilə III Murada xatırlatmaqla bildirir ki, əgər o zaman Səfəvilərin köməyi ilə Bayazid Osmanlı taxtına çıxarılsaydı, səltənət onun

---

* Pərixan xanım Şah Təhmasibin çərkəz zövcəsindən doğulmuş sevimli qızı idi. Ağıllı və gözəl qadın olan Pərixan xanımın dövlət işlərində böyük təsiri vardı. O, atasının hakimiyyətinin son illərində "ali məclislərin" iclaslarında da iştirak edirdi. (O.Əfəndiyev. XVI əsr, səh. 144). Baş vermiş hadisələr zamanı onun cəmi 30 yaşı vardı. Pərixan xanım həm də şair idi və "həqiqi" təxəllüsü ilə şeirlər yazırdı. O, "Zindaniye-qəl'eye-Qəhqəhə" və "Qəsseye – porqüsseye-eşqe-Pərixan xanım" adlı poemalar da yazılmışdır. Onun "Zindaniye- qəl'eye-Qəhqəhə" poemasında qardaşı II Şah İsmayılın həyatı tərənnüm edilmişdir (Bax: Ş.Məmmədova. "Xülasətət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, səh. 106).

* Söhbət 1577-ci ildə Van vilayətinin hakimi Xosrov paşanın başçılığı və kürdlərin iştirakı ilə Xoya hücumdan, Göyərçinlik və Urmiya qalalarının Osmanlılar tərəfindən tutulmasından qızılbaş düşərgələrinin çoxlu əsir aparılmasından gedir (Bax: O. Əfəndiyev. XVI əsr, səg. 147-148).

xanədanına mənsub olar və qardaşı II Səlim və onun oğlu III Murad sultan ola bilməzdi.[200]

Məktubda sonra deyilir: "Sizi sevən bu şəxsin niyyəti həmişə sülhü davam etdirmək olmuşdur. Yəqin ki, o əlahəzrət də buna tərəfdar olacaqdır. Buna görə də, biz Azərbaycan məmləkətini və Təbriz darüs-səltənəsinin hifz olunması üçün çalışaraq Hacı Maqsud bəy Zülqədəri sülh və sədaqət maddələrinin təzələnməsi üçün (yəni 1555-ci il sülh müqaviləsinin yenidən təsdiqi üçün - Ş.F.) Sizin dərgaha yolladıq. Bizim tərəfimizdən sülh yolunda sabitqədəm olmaqdan və sülh maddələrini hifz etməkdən başqa heç bir əməl ola bilməz. Əgər siz [də] hər iki tərəf rəiyyətinin əmin-amanlığını istəyirsinizsə,İsmayıl Mirzə (II Şah Ismayil – Ş.F.) tərəfindən sizə qarşı edilən bəyənilməz hərəkətləri unudub xaliq tərəfindən bəyənilən sülh qaydalarının təzələnməsinə əmr edin".[201]

Məhəmməd Mirzənin Şah Məhəmməd Xudabəndə kimi taxta əyləşməsindən sonra da, Səfəvi sarayında II Şah İsmayılın hakimiyyəti zamanında olduğu kimi feodal araçəkişmələri və intiqam əhval-ruhiyyəsi hökm sürməkdə idi. Belə vəziyyət, O. Əfəndiyevin mülahizəsinə görə, Səfəvilərin siyasi müxalifətlərinin, o cümlədən müharibəni təzələmək üçün əlverişli vaxt gözləyən Osmanlı Türkiyəsinin xeyrinə idi. İsgəndər bəy Münşi yazır: "Araçəkişmələr və nizam-intizamsızlıq getdikcə artırdı. Belə bir günü gözləyən qonşu padşahlar və düşmənlər fürsəti qənimət bilib, Əcəmi (Səfəvi dövlətini – Ş. F.) ələ keçirmək üçün həm şərqdən və həm də qərbdəncəhd etdilər. Sultan Murad Azərbaycanı və Şirvanı tutmaq arzusunda oldu".[202]

III Sultan Murad ciddi surətdə Səfəvilərlə müharibə hazırlığına başladı.[203] Osmanlıların Səfəvi dövlətinə müharibəyə vadar edən səbəblər bunlar olmuşdur: Amasya sülhü bağlanmağından sonda Səfəvilər Rusiya və İngiltərə ilə Qafqaz və Xəzər dənizi vasitəsilə ticarət əlaqələrini inkişaf etdirməyə başladılar ki, Osmanlılar bir kənarda qalmışdılar. Onlar da Xəzər dənizində öz hərbi dəniz qüvvələrini saxlamaq, beləliklə Mərkəzi Asiya və əgər mümkün olarsa lap Uzaq Şərqlə əlaqə yaratmaq fikrindəydilər. Osmanlılar bu planı həyata keçirməklə böyük gəlir əldə edə bilərdilər, çünki ispanlar və portuqallar Osmanlıların əvvəllər İran körfəzi və Qırmızı dənizdən keçən Yaxın Şərq ticarətinin böyük hissəsini öz əllərinə almışdılar. Bundan başqa Osmanlılar ümidlərini Səfəvilərə bağlayan Kiçik Asiya şiələrinin Türkiyənin daxili təhlükəsizliyini pozacağından da qorxurdular.[204] 1578-ci ilin yanvar ayının 2-də III Sultan Murad "zəruri qüvvənin yığılması üçün" sərhəd bəylərindən Ərzurum bəylərbəyisi Fərhad paşaya və İrana bələd olan Pasin sancaqbəyisi Mirzə bəyə əmr göndərdi. Həmin əmrdə İrana olunacaq yürüşdə Osmanlı qüvvələrinin bir yerə yığışması tələb edilirdi.[205]

"Şərq səfəri"nə başlamaq xüsusunda sədaqət divanında" çoxlu məktublar yazılaraq, sərdar Lələ Mustafa paşa tərəfindən bu məsələdə marağı olan 11 ünvana

göndərildi.* Paşa Krım xanı Məhəmməd Gəraya yazırdı: "Mən şəvvalın 20-də, ocaq ayının 1-də (1 yanvar 1578 – Ş.F.) Azərbaycana və Şirvana sərdar təyin edildim. Məhərrəmin sonlarında (aprelin əvvəllərində - Ş.F.) hərəkət edəcəyəm".[206] Bu xüsusda O. Əfəndinin məlumatına görə "türk döyüşçülərinin baqş komandanı təyin edilən Mustafa Lələ Ərzurumda yüz minlik bir ordu yığıdı. Öz qüvvələri ilə kifayətlənməyən Türkiyə özünün vassalı olan Krım xanı II Məhəmməd Gəryadan (1577-1584) həmin yürüşdə tatar döyüşçüləri ilə iştirakını tələb etdi",[207]

1578-ci ilin aprel ayının 5-də Lələ Mustafa paşa III Murad tərəfindən qəbul edildi və elə hənmin gün 5 min nəfər yeniçəri 15 gəmiyə minib İstanbuldan Üsküdara yollandı. "Qəzvinə rəsmən elan edilmədiyinə baxmayaraq, Osmanlı-Səfəvi müharibəsi elə həmin gündən başladı" yazan A.M. Fərzəliyev yanılmır.[208] Aprelin 7-də "Şərq yürüşü"nün son planına sarayda yenidən baxıldıqdan sonra türk ordusu Səfəvi dövləti üzərində böyük hücuma başladı.

Beləlijklə, 1555-ci ildə Amasya sülhü Osmanlılar tərəfindən pozuldu və onlar Gürcüstan və Şirvan üzərinə hücuma keçdilər. Qaynaqlardan və bir sıra tədqiqat əsərlərindən məlum olunduğuna görə, bir neçə ciddi vuruşmaqdan əvvəl Gürcüstan, az sonra isə Şirvan Osmanlılar tərəfindən ələ keçirildi.[209]

"Bizim atlarımız bir-biriləri ilə rəftarda qarşılıqlı razılaşma və sədaqət yolunu tutdular. Yeni cənnət olan Həzrət şah (Şah Təhmasib – Ş,F.) fani cahandan əbədi məkana köçəndən sonra İsmayıl Mirzə öz ata-babasının yolu ilə getmədi, öz qardaş və qohum-əqrabasının hamısına qanlı kəfən geydirin o dünyaya göndərdi. Elə buna görə də o, öz əməl budağından həsrət və məlamət meyvəsindən başqa heç nə dərə bilmədi. [Amma] hakimiyyət bu sadiq şəxsə yetən kimi o, yeri cənnət olan şahın yolu ilə getməyə başladı. Sədaqət, birlik və səmimiyyət qanunlarını təzələmək üçün Vəli bəyi – Məhəmmədi Sultanın vəkilini* sizin dərgahınıza yolladıq. Amma xəbər gəldi ki, Lələ paşa Şirvan ulkasında nüzul edib, sülh evini viran eryləmişdir, orada çoxlu rəiyyət öldürüldü. Müsəlman qanı axdı. Qoy sizə məlum olsun ki, bizim tərəf heç bir cəvhlə əhd-peymana müxalif olmamışdır və yenə də öz sədaqət və əhdimizdə mökhəmik".[210]

Məhəmməd Xudabəndənin bu məktubunu alan III Murad ona son dərəcə təhqiramiz bir namə yolladı.

---

* Həmin məktubların hyamısı məşhur Osmanlı tarixçisi Mustafa Ali Əfəndinin qələmi ilə yazılmışdı (Bax: FıKırzıoğlu. Göstərilən əsər, səh. 278).

* Vəli bəy – Çuxur-Səd bəylərbəyisi Məhəmmədi xan Toxmaq Ustaclının vəkili deyil, vəziri idi. Məhəmməd Xudabəndənin birinci məktubunu da Osmanlı sarayına o aparmışdı. (Ə. Nəvai. Şah Abbas, I c. Səh. 53). B.S. Kütüoğlu yazır: "Məhəmməd Xudabəndə Osmanlıların səfər hazırlıqlarını öz casuslarından öyrənib, bir yandan müdafiə və savaş hazırlığı gördü, o biri yandan da İstanbula elçi yolladı. Qara Vəli Sultan Ustaclı sülh məktubu ilı Vana gəldi. Vanda onun məktubu alınıb İstanbula göndərildi, elçi isə 53 gün Vanda, 1 il Bidlisdə, 10 aydan da çox Diyarbəkir qalalarında göz dustağı oldu. (B.S. Kütüoğlu. Göstərilən əsər. səh. 43-44).

“Diyare-əcəmin məkrli valisi (şahı yox, valisi – Ş.F.) olan Xudabəndə qoy bu tovqini (sultan fərmanı – Ş.F.) alıb, bilsin ki, günahkar İsmayıl (I Şah İsmayıl – Ş.F.) öz fitnəkar atası Şeyx Heydərin təbəəsi olan bir neçə natəmiz adamın köməyi ilə səltənət ucalığına yüksəlib fəsad edərək hidayət yolundan dönmüşdü. Babam Sultan Səlim isə əcəm mülkünü tutmaq və o məlunu əzmək üçün yürüş edib, Çaldıranda döyüşdə babanız Allahın qəzəbinə gəldi”.[211]

Səfəvi-Osmanlı münasibətlərinin yarım əsr ondan əvvəlki vəziyyətini belə müxtəsər və təqhiramiz üsluda şərh edən III Murad sünni-şiə münasibətlərinə də nəzər salır: “ Siz peyğəmbər səhabələrinə, yəni həzrət Əbu Bəkrə və Ömərəöz düşmənçiliyinizi və kininizi izhar etdiniz, fəzilətli və sülhsevər sünniləri qətlə yetirdiniz. Sünnilər də, cahana pənah verən dərgahdan (Osmanlı sarayından – Ş,F.) pənah istədilər. Səltənət bizə çatanda şəriət qayda-qanununun kamilliyi və şiə qanunlarının aradan götürülməsi üçün bir nəvvabımı çoxlu ləşkərlə sizin diyara yolladım. O, sizi torpaqlarınızı ələ keçirdi, siz isə ona qarşı çıxmayıb gizləndiniz”.[212]

Baş verən son hadisələri belə izah edən III Murad məktubun sonunda Şah Məhəmməd Xudabəndəyə təslim olmağı məsləhət görür: “Vallah bizim gözümüzdə dünyanın zərrə qədər də qiyməti yoxdur. Bizə tabe ol! Ahu kimi qaçsan belə Məhəmməd millətinin Azərbaycana, İraqa, İsfahana, hətta Türkistana, Çinə və Oman sahillərinə getsən belə səni tutub gətirəcəklər”.[213]

Hammerin məlumatına görə, İstanbuldakı Avstriya elçisinə bir dostunun verdiyi xəbərdən məlum olur ki, 1578-ci ildə Səfəvilərin iki yüz minlik ordusu 4 qola ayrılmışdı: 1) Məhəmməf Xudabəndənin hərəmi (Xeyransa bəyim Ş.F.) ilə baş vəzir Mirzə Salman Cabirinin idarəsində 40 min əsgər Azərbaycan cəbhəsində; 2) Solaq Hüseynin idarı etdiyi 40 min əösgər Bağdad cəbhəsində; 3) Rəvfan bəylərbəyisi Toxmaq xanın tabeliyindəki 20 minlik üçüncü qol Ərzurum cəbhəsində; 4) 100 minlik dördüncü qol isə şahın ixtiyarında olmaqla mərkəzdə - Qəzvin ərtafında ehtiyatda idi.[214]

Qaynaq və bir sıra tədqiqat əsərlərindən məlum olur ki, əgər qızılbaş qoşunları düzgün taktika seçsəydilər, bəlkə də məğlubiyyətdən yaxa qurtarmaq mümkün olardı. Belə ki, Qarsdan şimal-şərq istiqamətində yerləşən Çıldır gölünün yaxınlığında baş verən məşhur Çıldır döyüşündə əvvəlcə İmamqulu xan Qacarın başçılığı ilə Qarabağ döyüşçüləri qalin gəlmiş, lakin Mustafa paşanın əlavə göndərdiyi 20-30 minlik ordu tərəfindən məğlubiyyətə uğradılmışdılar.[215] Oruc bəy Bayat isə yazır ki, öz kəşfiyyatçılarının səhv məlumatına inanan Məhəmməd xan Toxmaq yanılaraq Dərviş paşa və Bəhram paşanın 40 minlik qoşununu Osmanlıların əsas qüvvəsi sanmış, Mustafa paşanın döyüş meydanından bir qədər uzaqda gizli saxladığı 70 min Osmanlı döyüşçüsünün qəfil hücumu nəticəsində 7 min əsgər itirərək geri çəkilməyə məcbur olmuşdu.[216]

Beləliklə, qızılbaş əmirləri arasında birliyin olmaması, bəzi Səfəvi əmirlərinin türklərlə döyüşün "yüngül bir iş" olcağı barədə səhv mülahizələri, 50 minlik Azərbaycan və Şirvan döyüşçüsünün birləşə bilməməsi, ən nəhayət Osmanlı ordusunun sayca çox, döyüş hazırlığı cəhətincə isə üstün olması Gürcüstanın və Şirvanın Səfəvilərin əlindən çıxmağına səbəb oldu.[217]

Şirvanın tutulmasından sonra Mustafa paşa Şamaxıda Osmanlı əmirlərinin iştirakı ilə divan çağırıb, bu ölkədə sultan hakimiyyətinin möhkəmlənməsi barədə bir sıra təklifləri müzakirə etdi və Şirvanda, yuxarıda qeyd edildiyi kimi, türk hərbi-inzibati üsul-idarəsi yaradıldı.[218]

İbrahim Rəhimzadəyə görə, türklərin "Şərq yürüşü"ndə onlara Kaxetiya çarı Aleksandrın və "sultanın muti bəndəsi" Dağıstan xanı Şamxalın da köməyi dəymiş, onlar hətta qızılbaşlarla qarşı aparılan döyüşlərdə iştirak etmişdilər.[219]

Qış fəslinin yaxınlaşdığından və bu yerlərdə qalmağın heç də təhlükəsiz olmadığını görən Mustafa paşa Şirvanın mühafizəsini Osman paşa Özdəmiroğluya tapşırıb geri qayıtdı.[220]

1578-1590-cı illər arasında qızılbaş və Osmanlı qoşunları dəfələrlə üz-üzə gəlmiş, Azərbaycanın cənub torpaqları, Kür və Araz çayları arasındakı yerlər, həmçinin bütün Şirvan ərazisi qanlı döyüş meydanlarına çevrilmişdi. Bəzi illərdə, hərbi üstünlüyün Osmanlılarda olmasına baxmayaraq, qızılbaş qoşunları böyük qələbələr də əldə etmişdilər, lakin Səfəvi dövləti daxilində baş verməkdə olan çəkişmələr, qızılbaş döyüşçülərinin uğurlu hərbi fəaliyyətlərinə mane olurdu.[221] Bundan başqa, Şirvan və Qarabağ torpaqlarını Krım tatarları da bir neçə hücuma məruz qoymuş, Osmanlı qoşunları ilə birləşərək, Şamaxı, Gəncə, Bərdə və onlarla şəhəri talayıb çapmış, böyük qənimət ələ edib, yenidən Krıma qayıtmışdılar.[222] Firidun bəyin "Münşəati-səlatin"ində dərc edilən məktubların biri Osmanlı dövlətinin sədr-əzəmi* tərəfindən yazılmış və Səfəvilərin məşhur dövlət başçıları və əmirlərinin ünvanına cxavab məktubu kimi göndərilmişdir. Həmin cavabda Mirzə Salman Caberi, Xəlil xan Əfşar, Müseyib, Şərəfəddinoğlu, Məhəmməd Müsahib Türkman, Şahrux Xəlifə Rumlu, Əmir Həmzə ibn Abdulla xan Ustaclı və Sultan Hüseyn Şamlı kimi məşhur qızılbaşlara müraciət edilərək, Səfəvi-Osmanlı münasibətlərinin pisləşmə səbəbləri göstərilir və təbiidir ki, 1578-ci ildə başlayan Osmanlı yürüşlərinə bəraət qazandırılır: "İranda xilafətə başladığı vaxtdan etibarən İsmayıl Mirzə öz ətrafına bir neçə nalayiq adam yığıb, nə qədər tacir və zəvvarı qarət etdi. O, sizin ölkəyə (elçi) gələn Van və Ərzurum çavuşlarını zindana saldı, fitnə-fəsad törətdi".[223]

Göstərmək lazımdır ki, bu məktub Qızılbaş dövlət və ordu başçılarına Osmanlı "ali dərgahının başçısı" III Muradın dilindən yazılmış olduğundan (Sonradan məlum olacaqdır ki, həmin məktubun yazılması və göndərilməsindən

* Sənan paşa – Ş.F.

sultan xəbərsizdir) qəzəbli hökm və ibarələrlə zəngindir. II Şah İsmayılı bərk məzəmmət edən Osmanlı sultanı Şah Məhəmməd Xudabəndəni də unutmur, onu da ciddi tənqidə başlayır: "O şah (Şah Məhəmməd Xudabəndə - Ş.F.) gərək çirkin əməllərə görə (İsmayıl Mirzənin əməlləri nəzərdə tutulur – Ş.F.) bizdən üzr istəsəydi və sülhü qorumaq naminə, bizim tərəfimizdən qaçıb İran torpağına pənah aparan şəxslərin əl-qollarını başğlayaraq, onları sarayımıza yollayaydı. O, dostluğa riayət etmədiyi üçün, padşahın (III Muradın – Ş.F.) və qoşun başçılarının qəzəbini yatıra bilmədi".[224]

Məktubun sonrakı cümlələrində sultanın şah qarşısında qoyduğu belə bir tələb ifadə olunmuşdur: "Lakin aramızdakı sülhün möhkəmlənməsi naminə biz [Şah Məhəmməd Xudabəndənin etdiyi] xahiş müqabilində sizin rəiyyətinizin asayişi üçün belə qərara aldıq ki, bizim əsgərlərin ayağı dəyən hər yer onların olmalı və o yerlərdən çıxmamalıyıq. Beləliklə, Mustafa paşanın əlində olan yerlərdən başqa (Şirvan və Gürcüstan nəzərdə tutulur – Ş.F.), həmçinin Qarsdan da əl çəkin. Mahmudabadda* həbs olunmuş Adil Gəray sağ-salamat geri qaytarılsın. Sülhün bərqərar olmasından ötrü bizim sərhədlərdə tikdiyimiz qalalara bir daha hücum etməyin".[225]

Osmanlı sədr-əzəmi sultanın bu sözlərini xatırlamaqla kifayətlənməyərək, öz tərəfindən qızılbaş hökmdarını hədələyir: "Hal-hazırda bizim padşahımızda cahad və qəza müşahidə edilir. O, ölkələr almağa mail bir adamdır. İrandan başqa bütün ətraf ölkələrin xan və sultanları ona tabedirlər. Buna görə də sultan siz tərəf hücum etmişdir. Bizə müvafiq cavab yollayın, yoxa bütün əsgərlərimiz tatar, çərkəz, Babül-Əbvab və başqa yerlərin sərbazlarıyla hər tərəfdən hərəkətə gəlib, sizin əhalinizi mühasirəyə alacaq, sizi məğlub edəcəklər. Sizin diyarınız tamamilə xaraba qoyulacaq, viran ediləcəkdir".[226]

Əlbəttə, bu sülh məktubunun sədr-əzəm Sənan paşa tərəfindən qızılbaşlarla göndərilməsi və onun fəlakətli döyüşləri dayandırmaq xahişi müsbət hərəkət kimi qiymətləndirilməlidir. Lakin Osmanlı tarixçisi, III Murad və Sənan paşanın müasiri olmuş İbrahim Peçəvinin məlumatına görə, həmin məsələdən sultan xəbərsiz olmuşdur. İ. Peçəvi yazır: "Sədr-əzəm qızı adəti olaraq Ərzurumda keçirdi. O, burada cari işlərlə məşğul olub, İranda barışıq yolları axtarmaqda ikən, azğın şahdan yeni elçi** gəldi. O, qoca idi və hələ Sultan Süleyman xanın vaxtında da elçi kimi gəlmişdi. Elçi 988-ci ilin zilhiccə ayında (1581, yanvar) gəlib çatdı və sərdar tərəfindən yaxşı qarşılandı. Şah təklif edirdi: "Kasıb-kusubun rahatlığı naminə Sultan Süleyman xan vaxtı qüvvədə olan sülh müqaviləsi yenidən bərpa olunmalıdır. O zamankı sərhədlərin toxunulmazlığını qoruyub saxlamalı, tərəflər

* Mahmudabad orta əsr şəhərlərindəndir. Mənbənin məlumatına görə, tatar şahzadəsi Adil Gərayla qızılbaşların döyüşü h. 986-cı ilin ramazan ayının 28-də (8 noyabr 1578) baş vermiş, nəticədə şahzadə əsir alınmışdı. (Bax: "Xülasətət-təvarix", vər. 288 b; O. Əfəndiyev. XVI əsr, səh. 161).

** Hacı Maqsud bəy Zülqədər – Ş.F.

arasında münasibətlərin yaxşılaşması üçün yeni sülh müqaviləsi imzalamalıdır". Sultan Sənan paşadan sülh danışıqları barədə fikrini soruşduqda sədr-əzəm belə dedi: "Şah könüllü olaraq və sultanın hər istədiyi bütün torpaqları ona verməkistəyir və sultanın hər istəyini yerinə yetirməyə hazırdır".[227]

Sədr-əzəm Sənan paşanın sülh yaratmaq cəhdi onun vəzifədən uzaqlaşdırılmasına səbəb oldu. İ. Peçəvi yazır: "Hələ Sənan paşa Ərzurumda olarkən, şahın yanından İbrahimxan Türkman adlı bir elçi gəlmiş və sədr-əzəm onu İstanbulda qalanda yollamışdı. Həmin elçi bir ildən çox İstanbulda qalandan sonra sultan tərəfindən qəbul edilmiş, ona demişdi: "Sizin sədr-əzəm bizim şahdan sülh barədə danışıq aparmaq üçün etibarlı bir nümayəndə göndərməyi xahiş etmişdi. Şah da bu aciz bəndəni göndərib ki, sülh haqqında sultanın fikrini öyrənsin". Sultan, Sənan paşadan şahın məktubun tələb etdi. O, səfirin Sənan paşanın təkidi ilə İstanbula göndərildiyini bildikdə bərk hirsləndi və sərd-əzəmi vəzifədən kənar etdi".[228]

Bu sadiq bəndə uzun müddət sərhəddən uzaq oldu. Qayıdıb gəldikdə Rizvan paşa ilə bizsə yolladığınız məktubu mənə verdilər. Həmin məktubda sülh bağlanması üçün bir vəkilimizin siz tərəfə elçi göndərilməsinə işarə olunmuşdu. Amma şahınızın sərhəddən Qəzvinə tərəf hərəkəti bizim padşahımızın qəzəbini artırdı. Əgər bu ramazan ayında elçiniz sülh danışıqları üçün gəlməsə, baharın əvvəllində diyarınıza böyük yürüş ediləcəkdir. Tez bir-birimizə elçilər yollayaq, yoxsa ölkənizin bütün torpaqları bizim atların tapdağı altında qalacaqdır".[229]

Bu, sədr-əzəm Sənan paşanın dilindən qalib tərəfin məğlub tərəfə göndərilən amiranə bir məktub idi. Lakin bütün bunlarla bərabər göstərmək lazımdır ki, hər iki tərəfin əyan və əmirləri tərəfindən (Sənan paşa başda olmaqla) eldən bir neçə uğursuz cəhdə baxmayaraq, 1578-ci ildə başlamış Səfəvi-Osmanlı döyüşləri davam etməkdə idi. Sənan paşanın əksinə olaraq, Dərbənddə əyləşib Şirvanı idarə edən Osman paşa Özdəmiroğlu qızılbaşlarla sülh bağlamağın əleyhinə idi. O, 1582-ci ildə Sultan Murada məktub yollayaraq əmin etmişdi ki, Şah Məhəmməd Xudabəndənin Xorasanda əyləşməsindən istifadə edərək dərhal yeni əsgəri qüvvə göndərilərsə, bütün Azərbaycanın və İranın qərb vilayətlərini alıb Osmanlı imperiyasını ilhaq etmək mümkündür. İsgəndər bəy Münşinin məlumatına görə, sultan tərəfindən həbs edilən Səfəvi elçisi İbrahim xan Türkman, Xorasanda olan şaha məktub yollayaraq, Səfəvi dövlətinin ağır daxili vəziyyətinə görə hal-hazırda sülh bağlamağı zəruri olduğunu yazmışdı, lakin "xudbin qızılbaş əmirləri"nin elçiyə yolladıqları cavab məktubunda Şirvanın heç vaxt onlar tərəfindən Osmanlılara verilməyəcəyini bildirilir və qeyd edilirdi ki, əgər sultan 1555-ci il sülh şərtləri ilə razı deyilsə, müharibə davam etdiriləcəkdir.[230]

Lakin hələlik müharibə davam edir, Azərbaycanın müxtəlif şəhər və vilayətləri əldən-ələ keçirdi. O. Ə. Əfəndiyevin müəyyən etdiyinə görə 1578-1581-ci illərdə Krım tatarları Şirvana dörd dəfə hücum etmişdilər. Osmanlılar isə

Dərbəndi sərdara iqamətgah edib, ətraf yerləri Osmanlı qayda-qanunu əasında idarə etməkdə idilər. 1583-cü ildə "Şərq yürüşləri"nin yeni sərdarı Fərhad paşa 70-80 minlik ordu ilə Ərzurumdan hücuma keçib Çuxur-Səd vilayətini tutdu. Bu zəfərlər III Sultan Muradı qane etmirdi. O, Təbrizi ələ keçirmək beləliklə də Araz çayının cənubunu da bütünlüklə özünə tabe etmək istəyirdi.[231] O, Osman paşa Özdəmiroğlunu Şirvandan geri çağıraraq, ona böyük bir ordu verib, Azərbaycana yolladı.[232]

Təbrizin fəthindən sonra Xadim Cəfər paşa (Suriyanın Tripoli bəylərbəyisi) üç ildən sonra Buda (Budapeştin bir hissəsi, Dunayın sağ sahili) bəylərbəyisi olacağı şətri ilə şirnikləndirilərək Azərbaycana çağırıldı və Təbriz əyaləti "arpalıq" kimi ona verildi. İ. Peçəvi yazır ki, Ucan və Qızıldağ adlı iki yaylaq arasında yerləşən Təbriz böyük bir şəhərdir və yarandığı vaxdan bəri Azərbaycanın inzibati mərkəzidir. Şəhərin üç aylıq mühasirəsi zamanı bütün ərzaq tükəndiyi üçün, nəhayət Cəfər paşa Saçlı Əhməd adlı bir döyüşçüyə sağ cinahı tapşıraraq, onu "qırmızı bayraqla" döyüşə göndərdi. Sol cinahdan da, "qızmızı bayraqla" hücuma keçən Dəli Osmanlı hücumundan sonra mühasirə yarıldı və qızılbaşlar geri çəkilmək məcburiyyətində qaldılar. Lakin tezliklə qayıdan Həmzə Mirzə yenidən qalanı mühasirə etdi. "Beləliklə, qazilər on bir ay mühasirədə qaldılar. O, müddəti bir günü belə rahat ötmədi".[233]

Osman paşa həmin ilin zilqədə ayının 6-da (noyabrın 1-də) çərşənbə günü dəflətən vəfat etdiyi üçün, iki il əvvəl Şirvanda və Gürcüstana yürüş edən Fərhad paşa ikinci dəfə* Osmanlı qoşununa sərdar təyin edildi.[234]

O, Təbriz yaxınlığındakı "xəndəyi torpağın dibi dərinliyində olan olan Xəmnə" adlı qalanı mühasirəyə aldı. İ. Rəhimizadə Xəmnə qalasının ələ keçirilməsi zərurətini bildirərək yazır: "Əgər Azərbaycan vilayəti bir hasara bənzəsə, Xəmnə qalası onun qapısı sayıla bilər".[235] Bu hadisələrin təsviri ilə əlaqədar olaraq, mənbədə göstərilir ki, "Fəth olunan yerlərin malı, əhli və əyalı - əsgərlərin, daşı və torpağı isə padşahın olsun" şüarı ilə hücum edən Osmanlı döyüşçüləri Xəmnə qalasını dağıdıb, torpaqla yeksan etdilər.[236]

Göstərmək lazımdır ki, Osmanlılar ələ keçirdikləri hər hansı bir qalanı dağıdılmış vəziyyətdə saxlamır, tezliklə təmir edir, çoxlu silah və əsgəri qüvvə ilə təchiz edərək, oranı özlərini istehkamına çevirirdilər.* Xəmnə qalası da, "qıza bir vaxt ərzində" yenidən tikilmiş və onun mühafizəsindən ötrü qalada "bir əmirin

* Şirvanda və Azərbaycan vilayətlərinə yaxşı bələd olan Osman paşa Özdəmiroğlunun, Fərhad paşanın və sonradan Cəfər paşanın dəfələrlə bir-birilərini əvəz edərək Osmanlı ordusuna sərdar və qızılbaşlardan alınan yerlərə hakimi təyin edilməsi zəbt edilmiş Səfəvi ərazilərini etibarlı və təcrübəli şəxslərə tapşıran III Muradın ehtiyatkarlığına dəlalət edir.

* Bu xüsusda məlumat verən İsgəndər bəy Münşi yazır ki, Azərbaycan hücum edən Rumiyyə (Osmanlı – Ş.F.) qoşunu "bir yandan döyüşür, başqa yandan qala tikirdi" (Bax: İsgəndər bəy Münşi. Göstərilən əsər. I cild. Səh. 311-312).

başçılığı ilə igid əsgərlər" saxlanılmışdı.[237] İ. Rəhmizadəyə görə, Osmanlıların səkkizinci hücumundan Təbriz ələ keçirilmiş, mühasirə və hücum vaxtı dağıdılan məhəllələr 3-4 gündə "min səy və çalışqanlıqla yaşayış yerindən artıq istehkam kimi tikilmişdi".[238]

Məlum olduğu kimi, Azərbaycanın cənub vilayətlərini də ələ keçirən Osmanlılar zəbt etdikləri yerlərdə öz qarnizonlarını saxlayır, bir müddət hücum dayandırmışdılar. Onların növbəti yürüşü qızılbaşların əvvəllərində olan başqa Azərbaycan torpaqlarına yox, Gürcüstan üzərinə qərara alınmışdı. 1586-cı ilin avqust ayında Əxistə (Axaltsixe – Ş.F.), Tumanes (Dmanisi** - Ş.F.) və Qori qalalarını alan Osmanlılar öz növbəti hücumlarını Azərbaycanın şimalına istiqamətləndirdilər. Ramazanın 29-da (sentyabrın 4-də) onlar artıq Kür çayına çatmışdırlar. Orada bir qədər yubanan Osmanlı qoşunu şəvvalın 9-da (sentyabrın 13-də) Gəncə qalasına daxil oldu.[239]

İbrahim Rəhmizadə "Zəfərnameyi-Sultan Muradesales" əsərində Gəncənin təsvirinə iki səhifə yer ayırmış, "Vilayete-Gəncə bir mənzile-dilkəş və bir səfabəxş" yazaraq, həmin torpağın bol meyvə bitirdiyini, ərazisindən 360 çay ("nəhr") axdığını (yəqin ki, müəllif şəhərdəki və yol kənarındakı arxları da çay adlandırır), orada çoxlu ipək hasil olunduğunu göstərir.[240] Qalada 473 güllə qurulmuş və 7 dəmir qapı qoyulmuşdu. Mənbənin məlumatına görə, Trabzon bəylərbəyisi Çərkəz Heydər paşa Gəncə qalasına bəylərbəyi təyin edildi.[241]

Osmanlı qoşunu Gəncə vilayətinə maneəsiz daxil olmuşdu. Gəncə hakimi olan Məhəmməd xan Ziyadoğlu o zaman şəhərdə yox idi. Vilayətin tutulması xəbərini eşidən Məhəmməd xan geri qayıdır. Onun gəlişini görən Osmanlılar zilqədənin 8-də (oktyabrın 11-də) cümə günü xanın qarşısına yollandılar. İbrahim Rəhmizadə yazır ki, əvvəllər qızılbaşlara xəyanət edib, Osmanlı ordusuna pənah aparan İsmayıl adlı bir xan bu dəfə Osmanlılara xain çıxıb, Məhəmməd xanın düşərgəsinə gəlmiş və xanı Osmanlı qoşunun hücumundan xəbərdar etmişdi.[242]

Çox keçmədən Bərdə hakimi Əli Sultan da Osmanlılara tabe oldu. Gəndə və Bərdənin ələ keçirilməsi mənbədə "fütuhate-əzimul-bərəkət" ("böyük mənfəətli qələbə") adlandırılır[243] ki, bu heç də təsadüfi deyildir. Həqiqətən də, qalib gələn Osmanlı qoşunu Şirvan və Qarabağ vilayətlərini "eninə və uzununa" talan etmiş, böyük mənfəət götürmüşdü.[244]

Fərhad paşanın şərtinə görə qızılbaş şahzadələrindən biri hökmən girov kimi Osmanlı sarayına göndərilməli idi. Bu təkliflərlə razılaşmaq məcburiyyətində qalan Həmzə Mirzə öz kiçik oğlu Heydər Mirzəni İstanbula göndərmək qərarına gəldi.[245] Lakin sülh bağlamaq Həmzə Mirzənin qismətində deyilmiş. O, Gəncə yaxınlığında özünün Xudaverdi adlı erməni dələyi tərəfindən qətlə yetirildi.[246*]

** 1947-ci ilədək Başkeçid adlanırdı.

* Həmzə Mirzə, yuxuda ikən, Qırxçay çayının yaxınlığındakı düşərgədə, Nizami Gəncəvinin məqbərəsi yaxınlığında 1586-cı ilin dekabr ayında öldürülmüşdür (O. Əfəndiyev. XVI əsr. Səh. 198).

O. Əfəndiyevə görə, dəllək Xudaverdi Həmzə Mirzənin siyasətindən narazı olan qızılbaş əyanlarının əlində bir oyuncaq, bir vasitə olmuş və belə alçaq bir əməli həyata keçirmişdir.[247]

Həmzə Mirzənin öldürülməsindən sonra Səfəvi dövlətini məhv olma həddinə çatdıracaq feodal hərc-mərcliyi başlanmışdı. Şah Məhəmməd Xudabəndə işləri öz əlinə almaqla dövləti daxili süqutdan və xarici işğaldan qurtarmaq üçün cəhd etdi. Lakin qızılbaş əyanlarının əlində bir oyuncağa çevrilmi. Zəif iradəli şah bunu bacarmadı.[248]

Əyan və əmirlərin arasında artmaqda olan ixtilaf getdikcə dərinləşərək, özünün zirvə həddinə yetişdi. Yuxarıda söylədiyimiz qətldən sonra əmirlə Şah Məhəmmər Xudabəndənin narazılığına baxmayaraq, onu Həmzə Mirzənin əvəzinə 13 yaşlı Abutalıb Mirzəni vəliəhd elan etmək məcburiyyəti qasrşısında qoydular.[**] Aydındır ki, onlar belə hərəkət ilə hakimiyyəti hələ yeniyetmə olan yeni vəliəhdin adından idarə etmək istəyirdilər. Beləliklıə, hakimiyyət faktiki olaraq gənc şahzadənin lələsi Əliqulu xan Fəth oğlu Ustaclının və əmir İsmayılqulu xan Şlamlının əlinə keçdi.[249]

Xorasan və Fars əmirləri isə, bu xəbəri eşidib, Abbas Mirzəni taxt-tacın varisi elan etdilər.[250] 1598-ci ildə (h. 996) Sənan paşa 30 minlik qoşunla Bağdaddan Həmədana hücum edərək, Nəhavəndi ələ keçirdi.[251] Yuxarıda bəhs etdiyimiz Gəncə və Bərdə fəthindən sonra tezliklə Naxçıvan da tutuldu.[252]

Yuxarıda adı çəkilən sol cinah komandiri Saçlı Əhməd fərar edib Naxçıvanda gizləndisə də, sonradan geri gətirildi və Cəfər paşanın "özü öz əli ilə onun başını kəsdi".[253] İ. Peçəvinin bu məlumatından, Səfəvi "şahi"lərinin çəkisinin bir müddət azalmasının səbəbi aşkar çıxır, eyni zamanda Osmanlıların hətta öz əsgərlərinə qarşı etdikləri ciddi cəza tədbirlər nəzərə çatdırılır.

Şah Abbas Səfəvi taxt-tacının sahibi olandan sonra dərhal Osmanlı sərdarı Fərhad paşaya məktub yazaraq,[**] sülh bağlaması üçün köməklik göstərilməsini ondan xahiş etdi:

"Aramızdakı fitnənin aradan götürülməsi üçün vəkilik olan Mürşüdqulu xan "islam padşahının" hüzuruna yollandı. Bu xan bizim şahzadənin göndərilməsi haqqında sizə bəzi məsələləri deyəcəkdir. Mən, həmçinin, o əzəmətli vəzirdən gözləyirəm ki, aramızda sülhün bərqərar olmasından ötrü elə səy etsin ki, bu iş taerixin səhifələrinə səbt olunsun".[254]

Fərhad paşadan ümidverici bir cavab məktubu gözləyən Şah Abbasın ümidi özünü doğrultmadı və bu türk paşası ona yox, özbək hökmdarı Abdulla xana bir namə göndərdi. O, yazırdı: "Əvvəlki məktubunda yazmışdı ki, sən xilafətə

[**] Beləliklə, Şah Məhəmməd Xudabəndə özünü 9 illik hakimiyyətindən sonra, rəsmən taxt-tacdan uzaqlaşdırıldı. Şah Məhəmməd şairliyi də var idi və "Fəhmi" təxəllüsü ilə şeirlər yazırdı.

[**] Bu məktuba tarix qoyulmamışdırsa da, onun 1588-ci ildə yazıldığı məlumdur, çünki Heydər Mirzə elə həmin il Osmanlı sarayına girov göndərilməli idi – Ş.F.

cülusundan başlayaraq bu günə kimi dinin hifzi üçün fəsad əhli ilə mübarizə aparırsan və tatar əsgəri ilə hücum edib Heratı,* Bəstamı və Damğanı almısan. Sənə məlumdur ki, biz bir neçə ildir ki, dini mərasimin izharı üçün Şərq diyarına əzm olunması və o "dinsiz azğınların" yox olmalarından ötrü yürüş həyata keçirmişik və Allahın köməyi ilə onlardan bir neçə vilayət almışıq".

Artıq, özlərinin mütləq qalib hiss edən Osmanlı paşası özbək hökmdarına məsləhət verməyi də unutmur: "Sizin fəth etdiyiniz vilayətlər də elə sizin öz əlinizdə qalacaqdır. Onlarla kifayətlənib, başqa vilayətlərə hücum etməyin".[255]

Osmanlı dövlətinin baş vəziri ("vəzire-əzəm") Cərrah Məhəmməd paşanın da həmin özbək hökmdarına göndərdiyi məktubda artıq "Şirvanın, İrəvanın və başqa bir neçə geniş məmləkətin" ələ keçirilməsi, "Azərbaycanın qədim paytaxtı Təbrizin fəthi" və həmin şəhərin "islam paytaxtına çevrilməsi" barədə qeydlər vardır. "Keçən il Gəncə vilayəti alındı və orada möhkəm qalalar tikildi. Bir neçə məmləkət və vilayət qarət edildi, xüsusilə Qarabağ və Ərdəbilin "allahsız adamları" qətlə yetirildi" yazan baş. Vəzir özbəklərin də köməyinə ümidvar olduqlarını bildirir.[256] Başqa din nümayəndələri olan gürcü Rüstəm xana (Başaçıq hakimi) və Simon xana (Kartli hakimi) da öz tərəfindən məktublar göndərən III Sultan Murad onlara qızılbaşlara qarşı birgə hərəkət etməyi təklif edir.[257]

Müxtəlif tərəflər arasında belə yazışmalar gedir, illər isə illəri əvəz edirdi. Şah Abbas nəyin bahasına olur-olsun Osmanlılarla sülh bağlamaq istəyir, bu niyyətini III Sultan Murada göndərdiyi məktublarında izhar edirdi. O, eyni zamanda sülh xahişinin Osmanlı paşaları tərəfindən də edildiyini sultana xatırlatmağı unutmur, "bu xeyirli işin həyata keçməsi üçün əzəmətli paşaların çoxlu məhəbbətli məktublar" göndərdiklərini və beləliklə "arzu çəmənində murad qönçələri"nin açıldığını xüsusilə qeyd edirdi.[258]

Nəhayət, 1590-cı il gəldi və 12 il davam edən Osmanlı-Qızılbaş döyüşlərinə son qoyuldu. III Sultan Murad tərəfindən Şah Abbasa ünvanlanan məktubda qalib tərəfin hökmdarı yazırdı: "Dörd yüz ilə yaxındır ki, mənim əcdadımın hər biri cahid yolu ilə getmiş və kafirlərin fitnə-fəsad atəşinin söndürülməsinə çalışmışdır. Mən də bu işlə məşğulam. Taxt-tac sizə çatanda [siz də] sülh barədə düşündünüz, məktub yazdınız. Mirzə Heydəri yolladınız, elçi sifətilə Ərdəbil hakimi Mehdiqulu xanı göndərdiniz.* İndi siz babanız Şah Təhmasibin qəbul etdiyi yolu tutun, açıq-aşkar bizimlə söyüşməkdən çəkinin, öz lənətlər yağdıran ağzınızı bağlayın, sünnilərə nifrət etməyi kimsəyə məsləhət bilməyin".[259]

---

* Məlum olduğu kimi Herat özbəklər tərəfindən 1587-ci ildə tutulmuş, Heydər Mirzə isə Osmanlı sarayına 1588-ci ildə göndərilmişdir. Demək, məktub 1488-89-cu illərdə yazılmışdır.

* Osmanlı sarayına girov göndərilən Heydər Mirzənin Ərdəbil hakimi Mehdiqulu xan Ustacoğlu, şahzadənin atabəyi Şahqulu Xəlifə, həmçinin əmirlər Əliqulu Sultan, Mehdiqulu Sultan, şahzadənin həkimi Təbib Abutalıb və 600 qorçi müşayiət ertmişlər. (Bax: F.Kırzıoğlu. Göstərilən əsər. səh. 377).

Bu cümlələrdən sonra, osmanlı sultanı özünün əsas fikrini nəzərə çatdırır: "Xülasə, bizim zorla ələ keçirdiyimiz, ya sakinlərinin özləri itaətə gələn bütün yerlər daha qızılbaş hücumu və təcavüzündən azaddır. Sülh müqaviləsi imzalanandan sonra, düşmənçilik və üsyan yoluna düşən adamlara, əgər onlar sizdən sığınacaq istəsələr belə, sığınacaq verilməsin".[260]

Qeyd etmək lazımdır ki, 1590-cı il İstanbul sülh müqaviləsi Səfəvilərin Osmanlılara məğlubiyyətini təsdiqləyən rəsmi bir sənəddir. Hələ müqavilə imzalanmazdan əvvəl bu barədə III Sultan Murada məktub yazan Şah Abbas "adamların rahatlığı və şəhərlərin asayişi naminə" Osmanlıların ələ keçirdikləri yerlərin onlara qalması ilə razılaşdığını bildirmiş, "bizim sərhədlərimiz qoy sizin tərəfinizdən necə münasib bilsəniz eləcə də təyin edilsin" deyərək eyni zamanda həmin işin "mürvət daxilində" müəyyənləşməsini rica etmişdi.[261]

İsgəndər bəy Münşinin göstərdiyinə görə, hər iki dövlətin sərhədlərinin yenidən təyin və təsdiq olunması Səfəvilər tərəfindən sarayın yüksək əyanlarından Həsən ağa Çavuşlu* və Bəstam ağa Türkmana, Osmanlılar tərəfindənsə, Naxçıvan hakimi Xızır paşaya tapşırılmış,[262] onlar az vaxt ərzində həmin tapşırığı yerinə yetirmişdilər. Ə. Ə. Rəhmani "Zübdətüt-təvarix" və "Rövzətüs-Səfəviyyə" mənbələrinə əsaslanaraq, həmin sərhədlərin şimal tərəfdən Kür çayı, cənubdan isə Ucan və Türkmankəndi ilə hüdudlandığını bildirir.[263] Beləliklə, Azərbaycanın böyük hissəsi – Şirvan, Qarabağ, Təbriz, Sərab, Marağa və bu yerlərdən qərbdə olan bütün torpaqlar** Osmanlıların, Xalxal, Ərdəbil, Qaracadağ və Talış isə Səfəvilərin əlində qaldı.[264] 1590-cı ilin mart ayının 21-də imzalanan sülh müqaviləsi barədə tarixçi Xoca Sədəddin Əfəndinin inşası ilə III Muradın Səfəvi hökmdarına göndərdiyi məktubda barışıq şərtləri barədə sultanın aşağıdakı hökmləri vardır: 1) 1555-ci il Amasya sülh müqaviləsində deyildiyi kimi, Səfəvilərin təbərra qaydası qadağan edilməli, sünnilərə qarşı heç bir qəbahətə yol verilməməlidir; 2) 998-ci ilin novruzuna qədər (21 mart 1590) Osmanl dövlətinin əlinə keçən və əhalisi Osmanlılara itaət edən Təbriz-Qaracadağ, Gəncə-Qarabağ, Şirvan və ona aid olan bütün yerlər, Gürcüstan və Nəhavənd Osmanlı mülkiyyəti sayılmalıdır, 3) barışıq imzalandıqdan sonra bir dövlətdən başqasına "iltica edən" şəxslərə sığınacaq və qurtuluş yeri verilməməlidir.[265]

Qeyd olunmalıdır ki, bu məktubun axırıncı hökmündə xüsusi göstərilən "sığınacaq" məsələsində çox keçmədən bir narazılıq yarandı və III Sultan Murad Şah Abbasa yeni bir məktub yazmaq qərarına gəldi: "Bu tərəfin təbəələrindən

* Qazi Əhmədin "Xülasətüt-təvarix" əsərində həmin şəxsin adı Qara Həsən Çavuşlu kimi göstərilmişdir. (Bax: Ş.Məmmədova. Göstərilən əsər. səh. 101) Fı Kırzıoğlu səhvən bu adı "Hüseyn" kimi yazmışdır (Bax: Fş Kırzıoğlu. Göstərilən əsər, səh. 381).

** O. Ə. Əfəndiyev Qazi Əhməd Quminin "Xülasətüt-təvarix" əsərinə əsasən Azərbaycanın cənub-şərq səmtində Osmanlılara verilən torpaqların sərhədinin Sərab yaxınlığında olan Ərəştənab kəndindən keçdiyini, oradan Təbrizə qədər olan yerlərin rumilərə verildiyini, Türkmankəndi və Miyanəyə qədərki yerlərinsə qızılbaşlarda qaldığını göstərir (Bax: O. Ə. Əfəndiyev. XVI əsrdə, səh. 200).

Dövlətyar adlı birisi əhdi pozmuşdur. Onun dəf olunması üçün bir neçə əsgər yolladım. O isə, sizin sərhədçilərinizə məktub yazaraq, sizə tabe olduğunu bildirmiş və artıq bu xəbər hər yana yayılmışdır. Bilmək gərəkdir ki, belə işləri gizli saxlamaq mümkün deyildir. Əgər, o tərəfdən əhd-peyman pozulmazsa, bu tərəf də öz vədinə həmişə əməl edəcəkdir".[266]

Qızılbaş-Osmanlı münasibətlərinin nisbətən dinc məcraya düşdüyü bir vaxtda, bir məsələ tərəflər arasında az qala hərb alovunun yenidən yayılması üçün bəhanə olacaqdı.osmanlı Türkiyəsi 1590-cı il sülhünün imzalanmasından sonra Səfəvilərdən vassal asılılığında olan Gilan hökmdarını öz tərəfinə çəkməyə və beləliklə də, özünə orada etibarlı arxa yaratmağa cəhd etdi. Elə Gilan hakimi Xan Əhməd* də Osmanlı sultanının şəxsində özünə yeni bir havadar tapmaq məqsədi ilə

---

* Xan Əhməd Gilani-Karkiya sülaləsinin son nümayəndəsidir. Gilan uzun illər iki hissədən ibarət olmaqla (mərkəzi Lahican olan Biyəpiş və mərkəzi Rəşt olan Biyəpis) idarə olunmuşdur. Atası Sultan Həsən Karkiya vəfat edərkən cəmi bir yaşı olan Xan Əhməd sipəhsalar Əmir Abbasın köməyi ilə səltənət taxtına çıxarılır. Lakin tezliklə Şah Təhmasib Gilana hücum edərək, oranı oğlu Bəhram Mirzəyə verdi. Bəhram Mirzəyə hücum edən giləklərin (gilanlıların – Ş.F.) təzyiqi altında Şah Təhmasib Biyəpişi yenidən Xan Əhmədin ixtiyarına verdi. Biyəpəsi də ona tapşıran Səfəvi hökmdarının tələbi ilə Biyəpəsin bütün illik gəliri Qızılbaş xəzinəsinə qohum idi. Onun 15 yaşlı qızı Xeyransa bəyim h. 923 (m. 1517)-cü ildə Müzəffər Sultan Karkiyaya verilmiş (Xeyransa bəyim 1532-ci ildə ölmüşdür), lakin Osmanlıların Azərbaycana birinci yürüşü zamanı qızılbaşlara xəyanət edərək Osmanlıların tərəfini tutan bu Gilan hakimi 1536-cı ildə qəfəsə salınaraq yandırılmışdı. Mənbələrin məlumatına görə Müzəffər Sultandan sonra bütün Gilanı Xan Əhmədə verən Şah Təhmasib tezliklə peşman olub, onu həbs edir. Qəhqəhə qalasına salır. O zaman həmin qalada məhbus olan şahzadə İsmayıl Mİrzə, özünün gələcəkdə şah olacağı təqdirdə Xan Əhmədi qaladan azad edəcəyinə söz verdi. Lakin o, taxta çıxdıqdan sonra öz vədini unutdu. Doğrudur, Biyəpişin Xan Əhmədə verilməsi barədə onun rəsmi fərmanı vardır, lakin bu Gilan hakimi yalnız Şah Məhəmməd Xudabəndənin hakimiyyəti vaxtı həbsdən azad olunmuş, yeni şah hətta öz bacısı Məryəm bəyimi ona vermişdir.
Şah Abbas taxta çıxandan sonra yerli sülalə hakimlərini aradan götürüb mərkəzləşdirilmiş bir dövlət yaratmaq fikrinə düşdüyü üçün, h. 1000 (m. 1592)-ci ildə Gilanın müstəqilliyinə son qoydu. Lakin o, Xan Əhməd düşmənçilik yaranmasın deyə, onun beş yaşlı qızını oğlu Məhəmməd Bağır Mirzəyə (1614-cü ildə atasının hökmü ilə öldürüləcəkdir) istədi. Qızının yaşının azlığına görə bu izdivacla razılaşmayan Xan Əhəmdin hərəkətindən qəzəblənən Şah Abbas Gilana hücum etdi. Xan Əhmədin Türkiyəyə fərarından sonra həmin qızı Şah Abbas oğluna deyil, özünə aldı.
Xan Əhməd həm də şair idi, musiqi və nücum elmini yaxşı bilirdi. Qəhqəhə qalasında həbsdə olarkən Şah Təhmasibə yazdığı bir rübai onun şairlik məharətini sübut edir:

"Əz gərdişe-çərx vajgun migeryəm,
Əz cövre-zəmanə bin ke, çün migeryəm.
Ba qədde-xəmide çon sorahi, şəbo-ruz
Dər Qəhqəheəm və leyk xun migeryəm"
Tərcüməsi:
"Dövranın əlindən bugün ağlar mənəm,
Tale mənə cövr eylədi, naçar mənəm.
Bir kuzə təkin əyildi qəddim qəmdən,
Bədbəxtliyə bax, Qəhqəhədə zar mənəm".

fəaliyyətə başladı. O, özünün etimadlı nümayəndəsi Xacə Hüsaməddin Ləngrudini Şirvan yolu ilə gizlicə İstanbula göndərərək, Gilanın Osmanlı itaətinə keçməsi üçün sultana öz təklifini ərz etdi. Bu təklif, şübhəsiz ki, sultanın ürəyincə oldu və dərhal Gilana "yüksək məktub" yolladı. Məktubda 19 nahiyədən ibarət Gilanın Osmanlılara verilməsi alqışlanırdısa da, orada III Muradın Səfəvilərlə öz münasibətlərini pisləşdirməmək istəyi ifadə olunurdu.[267] "Bizim vəzir və vəkillərimiz, sərdar və sipahsalarlarımız və ordumuzun bir hissəsi onların ən yaxşı vilayətlərini fəth edib, bizim tabeliyimiz altına keçirmişlər. sərhəd xəttinin təyin edilməsi üçün ona yazdığımız məktubda qızılbaşların bundan sonra başqa yerlərə, həmçinin sizin vilayətinizə də dəxalət etməmələri barədə yazmışdım. Onlar inşallah, bizim fərmanımızdan əməl edəcək, siz asudə olacaqsınız".[268]

Bunula belə, III Sultan Murad Gilan hakiminə ayıq-sayıq olmağı da məsləhət görməyi unutmur: "Mənim məktubum sizə çatan kimi, həmişə hazırlıqlı vəziyyətdə olun, özünüzü qızılbaşlardan gözləyin. Onlar əgər sizinlə pis rəftar etsələr dərhal bizə bildirin ki, onlarla hesablaşaq. Biyəpəs nahiyəsini bizə peşkəş verməyinizi qəbul edirik. Şirvanı mühafizə edən vəzir Həsən paşaya əmr etdim ki, oraya 5-6 yüz yeniçəri tüfəngçisi göndərsin".[269]

Osmanlı sultanı Səfəvi hökmdarına da məktub yollayaraq, onun bir daha Gilanın işlərinə müdaxilə etməsinə yol verməyəcəyini bildirir. Bu bəndə taxta çıxan kimi köhnə fərmanı təzələyib, həmin ulkanı onun özünə verdi. Amma son vaxtlarda Xan Əhmədin bizə itaət etmədiyini biruzə verən bəzi işlər məlum oldu. Bu bəndə onu tənbeh etmək üçün qərara gəldi ki, verdiyi ulkanı təzədən geri götürsün. O isə hiyləgərcəsinə ali dərgaha adam yollamış və siz bizə bildirmisizin ki, onun ulkası ilə işimiz olmasın".[270]

Məktubun bu yerinə qədər Gilan ulkasının rəsmən Səfəvilərin bir vilayəti olduğunu sübuta girişən Şah Abbas birdən-birə sultana 1590-cı il sülh müqaviləsini xatırladır: "O, bizdən qorxub sizin yanınıza adam yollamış və sizə sığınmışdır. Aramızda bağlanan sülh müqaviləsinə görə, tərəflərin hər hansı bir təbəəsi qarşı tərəfdən sığınacaq istərsə, buna yol verilməməli adamlarınızın bizim

---

Şah Təhmasib də ona cavab olaraq özünün aşağıdakı rübaisini qalaya göndərir:

"An ruz ke, karət həmegi qəhqəhe bud,
Ba rəye-to rəye-səltənət səd məhe bud.
Emruz bedin gerye vo ənduh besaz,
Kan qəhqəhe ra nətice in Qəhqəhe bud"
Tərcüməsi:
"Olmuşmu görən heç belə ağlar səni
Bədbəxtliyə bilmişəm səbəbkar səni.
Sən dərdə düşüb indi fəğan eylərsən,
Qəh-qəhdir edən Qəhqəhədə zar səni"

(Şeirlərin tərcüməsi bu sətirlər müəllifinindir).

məmləkətlərimizin sərhədlərini müəyyən etməsinə görə, Araz çayının kənarından tutmuş Qaracadağ, Kər, Mahidəşt, Həvizə və Ərəbistan bizim hakimiyyətimiz altında qalmışdır. Gilan ulkası isə bizim paytaxtımız olan Qəzvindən bir günlük məsafə uzaqlıqdadır. Əgər Gilan sizin himayəniz altına keçərsə bu, bizim kədərlənməyimizə və sizin şahənşahlıq lütfünüzdən əvvəl bizə çatmış olsaydı ali əmrə riayət edib dediyinizə əməl edərdik. Novruzdan sonra sizin icazənizlə özbək tayfasının dəf olunması üçün Xorasana tərəf yollanacağam. Həmin məmləkət bizə məxsusdur".[271]

Aramızda olan birinci sədaqət məktubunda qeyd olunmuşdu ki, "əsgərlərimizin ayağı dəyən hər yer bizimdir". Xan Əhmədin bizimlə birləşmək meyli sülh müqaviləmizə zidd deyildir. Sülhnamədə də deyilirdi ki, Qaracadağ hakiminin sülh bağlamazdan əvvəl də bizimlə münasibəti yaxşı olmuşdur və Təbriz, Qaracadağ, Gəncə, Qarabağ bizim torpaqlara aiddir. Bundan sonra bu sevdadan əl çəkib, Gilan vilayətinə hücum etməməli, Əhməd xana hörmət və ehtiram göstərməlisiniz".[272]

Heydər Evoğlunun "Münşəat"ında gedən bir məktub göstərir ki, Şah Abbasın Osmanlı sultanının bu təhdidamiz izahı müqabilində geri çəkilmək və Gilandan əl üzmək fikri olmamışdır. Belə ki, özünün yeni Xorasan yürüşü haqqında məlumat verdikdən sonra III Sultan Murada belə yazır:

"Xan Əhməd Gilani barədə. Birincisi, onlar qədimdən bəri bizə xərac verirlər. İkincisi, onların sikkə xə xütbələri həmişə bizim əcdadımızın adı ilə bəzənmişdi. İran hökuməti bu bəndənin ixtiyarına keçəndən sonrasa onların sikkə və xütbələri mənim adımadır. Üçüncüsü, Gilan hakimləri qızılbaş əmir və xanları zümrəsinə daxildirlər. Dördüncüsü, sizin paşaların müəyyən etdikləri sərhəd xəttində də Gilan bu bəndənin məmləkətinə daxildir".[273]

Gilanın özünə xas olduğunu bu dörd dəlillə göstərən Şah Abbas sonra isə Gilan hakiminin cəzalandırılmasını hüquqi cəhətcə əsaslandırır: "Əgər, sərhəd əmirlərindən biri itaətdən çıxarsa mən onu cəzasız qoya bilərəmmi? Siz bizim tərəfimizdən ona cəza verilməməsini yazmısınız. O, müsəlmanlardan da, kafir və başqa millərdən olanlardan da yazdığı kimi cizyə tələb edir və bunun adını "sərəzər" qoymuşdur. Xan Əhməd müsəlmanların qadın və qızlarını özünə kəniz edib, bunu isə "gilənam" adlandırmışdır. Buna görə də, onu onun tənbeh edilməsinin vacibliyi üçün onu cəzalandırdım".[274]

Lakin Şah Abbas, bildiyimizə görə, mahir diplomat olmuşdur. Məhz buna görə də o, həmin məktubunun sonuna yaxın öz yazı tərzini dəyişir. Gilanı yenidən Xan Əhmədin ixtiyarına verdiyini bildirir.[275] Göstərmək lazımdır ki, Şah Abbas - Xan Əhməd münasibətləri get-gedə daha da kəskinləşir və Osmanlı - Qızılbaş əlaqələrinin gərginləşməsinə səbəb olurdu. Həmin məsələni araşdırmaqdan ötrü dəfələrlə bir ölkədən başqa ölkəyə elçilər yollanmış, Səfəvi hökmdarı ilə Osmanlı vəziri və sultanın müəllimi arasında yazışmalar olmuşdur.[276] Bu məsələyə hətta

Osmanlı sədr-əzəminin qarışması ("Məsləhətim budur ki, sultanımızın fikrinə zidd hərəkət etməyəsiniz")[277] hadisələrin yaxın zamanda daha da kəskinləşəcəyindən xəbər verirdi. Şah Abbasın Molla Sədəddin Məhəmmədə (Sultanın müəlliminə - Ş,F.) göndərdiyi dörd məktubun hamısında Səfəvi hökmdarı dəfələrlə Xan Əhmədə qarşı gördüyü tədbirlərində özünü haqlı saymış, hərəkətlərinə bəraət qazandırmağa çalışmışdır: "Biyəpiş Gilanın Xan Əhmədi bizim xanədanın təbəəsi, mülazimi və yetişdirməsidir. O, mənə qarşı üsyan etdi çarəsiz qalıb bir dəstə əsgəri Gilana yolladım. O isə canının qorxusundan bir gəmiyə minib Şirvana getdi. Siz imkan verməyin ki, qərəzkar və fitnəkar adamların sözü ilə fitnə-fəsad yaransız və islama pənah verən padşahın lütfkarlığı sayəsində yaranan sülhə zərər dəysin".[278]

Səfəvi - Gilək münaqişəsi, nəyahət ki, IV Sultan Məhəmmədin hakimiyyətinin ilk illərində Xan Əhmədin Türkiyəyə qaçmasına səbəb oldu. Yeni Osmanlı hökmdarına Şah Abbasın yolladığı bir məktubda "Xan Əhməd Gilaniyyə və Nəcəfquluya aman vermək köhnə şərtlərimizə müxalif bir əməldir" cümləsi şahın hələ də Gilan hakimindən əl çəkmədiyini göstərir. Tezliklə şaha cavab məktubu yazan IV Sultan Məhəmmədin aşağıdakı cümlələrindən göründüyü kimi, sultanın Xan Əhmədi geri qaytarmaq fikri yoxdur: "Sizə məlum olsun ki, Əhməd xan Gilana hələ Sultan Murad xan zamanında Rum məmləkətinə qədəm basmış, ona pənah gətirmiş və inayətə nail olmuşdur. Onun İraqa göndərilməsi də həmin sultanın icazəsi ilə baş vermişdi. İndi o, qoca və zəifir. Bir küncə düşüb güclülük məqamında özünə yer tapmışdır. Ondan intiqam almaq rəva deyildir".[279]

Xan Əhmədin "Güclülük məqamında" olduğunu yazmaqla məhz öz gücünü nümayiş etdirən IV Sultan Məhəmməd Nəcəfqulu məsələsi ilə məşğul olacağını Səfəvi şahın bildirir, lakin belə məsələlərin əhəmiyyətsiz olduğunu qeyd edir: "Bizim adamlarımızdan Bayazid bəy və Davud xanın oğlu da, heç bir səbəb olmadan sizin diyara qaçmışlar. Onlardan başqa bir neçə də müxalifət edərək o tərəfə getmişdir. Amma biz belə cüzi işlərə fikir vermirik, çünki xatirimiz aram, dövlətimiz möhkəmdir".[280]

Göstərmək lazımdır ki, Xan Əhməd h. 1005 (m. 1597)-ci ildə Bağdadda vəfat etmiş və bu xəbər Şah Abbasın böyük sevincinə səbəb olmuşdu. Ə. Nəvainin fikrincə, Bağdadda Osmanlı himayəsində olan Xan Əhməd yeni Səfəvi - Osmanlı ixtilafının başlanması səbəb ola bilərdi, onu vəfatı ilə əlaqədar belə ixtilaf üçün heç bir səbəb qalmadı.[281]

Elə həmin il Şah Abbasa ikinci xoş xəbər də çatdırıldı. İstanbulda girov saxlanılan Heydər Mirzə taun xəstəliyindən ölmüşdü. Şah Abbas taxta çıxdıqdan sonra həmişə Heydər Mirzənin Osmanlılar tərəfindən siyasi bir alət kimi, "padşah" adlandırılıb. İrana göndərilə biləcəyindən qorxmuşdu.[282]

Vəziyyət, bütün bunlara baxmayraq, gərginləşməkdə idi. Osmanlı Türkiyəsi Səfəvilər dövlətinin bir çox torpaqlarını öz əlinə saxlamaqla bərabər, eyni zamanda bir sıra ölkələri ilə də siyasi nifaqda idi. Səfəvilərin yeni şahı olan gənc Abbas

mərkəzi hakimiyyətin güclənməsində marağı olan feodal qruplaşmaları və tacir-sənətkar zümrələrinə arxalanaraq, qızılbaşlaın hərbçi əyanlarının ona göstərdikləri müqaviməti zəiflətməyə, ölkənin hərbi qüdrətini gücləndirməyə başladı. Beləliklə, imperiya ərazisində Şah Təhmasibin vəfatından sonra başlanan qızılbaş feodal araçəkişmələri azaldı, siyasi sabitlik yarandı.[283] Şah Abbas, Azərbaycanın Osmanlılardan təmizlənməsi yenidən ölkədə Səfəvilərin əvvəlki hakimiyyətinin bərpası üçün Avropa ölkələri ilə qarşılıqlı əlaqələr yaratmağa girişdi.[284] Heydər Evoğlunun "Münşəat"ındakı bir məktub yuxarıdakı fikri özündə əks etdirir. Şah Abbas yeni sultana yazırdı: "İslam qoşunu kafirlərlə döyüşə getdiyi üçün aramızda olan məhəbbət və birlik elə möhkəmlənmişdir ki, heç bir ixtilafımız yoxdur. Əgər, siz əmr etsəniz, ölkələrimiz arasındakı sərhədlərdə dayanan qızılbaş əmirlərini və qoşunlarını dinsiz kafirləri dəf etmək üçün göndərə bilərəm ki, biz də kafirlə döyüşmək cavabından bəhrəmənd olaq və düşmənlər bizim ittifaqqımızı eşidib məhv olsunlar".[285]

Şah Abbasın IV Sultan Məhəmmədə göndərdiyi bu məktubunda olduqca maraqlı bir məsələ də əks olunmuşdur ki, bu da, vaxtı ilə Şah İsmayıl Səfəvinin həyata keçirməyə cəhd etdiyi, lakin müvəffəq olmadığı bir planla əlaqədardır. Şah sultana yazır: "Vaxtilə, mənim mərhum babam Şah İsmayıl Fərat çayından bir nəhr ayıraraq, onu Nəcəf şəhərinin* yaxınlığına qədər gətirmiş, lakin həmin nəhrin şəhərə çatdırılmasına fürsət tapmamış, [vəfat etmişdir]. İzin verin ki, mən o nəhri Nəcəfə çatdırım və bu işin xərci bizim, cavabı isə sizi olsun".[286]

Tezliklə, Şah Abbasın sultandan etdiyi xahiş müqabilində cavab gəldi. Sultanın məktubunda, Şah Abbasın təklifini qəbul olunmadığı bildirilirdi: "Xahiş etmisiniz ki, babanız Şah İsmayılın Kufə çayından** bir qol ayırıb Nəcəfə çatdırmaq istəyi baş tutmamış və indi həmin işi siz davam etdirmək istəyirsiniz. Bizim məqsədimiz xalqın rifahı, kənd və şəhər əhalisinin rahatlığıdır. Buna görə də, əgər həmin nəhrin Nəcəfə çatdırılmasına icazə verilsə, bu o yerlərdə qədimdən bəri yaşayan və o sudan istifadə edən adamların susuz qalmalarına bais olar, nəticədə isə çoxlu kənd və tarla xaraba qalar, əhali dağılar, qəm-qüssəyə qalar".[287]

Beləliklə, Şah Abbasın Nəcəf şəhərinə kanal çəkdirmək istəyi həyata keçə bilmədi. Buna baxmayaraq, şah və sultan arasında yazışmalar baş verir, elçi gedişgəlişi davam edirdi. Şah Abbasın III Muradın vəfatı və IV Məhəmmədin cülusu münasibətilə yazdığı namədə onun Xorasanda özbəkləri dəf etmək üçün yürüşə çıxdığı xüsusi olaraq nəzərə çatdırılır, məhz bu səbəbdən Osmanlı sarayına Səfəvi elçisinin gec göndərildiyi üçün üzr istənilirdi. "Bu bəndənin qüsurunu əfv qələmi ilə pozun" yazan Şah Abbas məktubunu "o mərhum padşahlar (Şah Təhmasib və Sultan Süleyman – Ş.F.) tərəfindən möhkəmlənən sülh heç bir nöqsan tapmasın, qoy daha da möhkəmlənməsin cümləsi ilə bitirir.[288]

* İraqda, Bağdadda 120 km. aralıda yerləşən Nəcəf şəhərində Həzrət Əlinin qəbri vardır – Ş.F.
** Fərat çayının başqa adı – Ş.F.

III Muraddan fərqli olaraq, IV Məhəmməd şəxsən özü hərbi yürüşlərə çıxır, bir sıra Avropa dövlətləri ilə döyüşlərdə iştirak edirdi. Onun 1596-cı ildə Macarıstandan qələbə ilə qayıtması münasibətilə qızılbaş elçisi Zülfüqar xanın Osmanlı sarayına apardığı məktubda "həmin qələbənin o xeyirxah və sadiq bəndəyə (Şah Abbasa Ş.F.), həmçinin o diyarın (İranın – Ş.F.) bütün xalqına sevinc bəxş etdiyi" göstərilir.[289]

Şah Abbas, eyni zamanda, Osmanlı dövlətinin müxtəlif əyan və əmirləri ilə də yazışır, hətta Osmanlı məlikəsi Səfiyyə Sultanla da məktublaşırdı. "Qədim vaxtlarda və mərhum sultanlar zamanında olduğu kimi aramızdakı sülh qüvvətlənmişdir. Mən Hacı Maqsud bəy Zülqədəri göndərdim ki, rəiyyət əmin-amanlıqla olsun, tacirlərə zərər dəyməsin. Məkkəyə gedən zəvvarlar dua mərasimlərini rahat və asudə icra etsinlər".[290] Həmin dövrdə Azərbaycanda Osmanlı hakimiyyəti öz nüfuzunu surətlə itirməyə başladı. Yerli feodallar himayə olunmaq üçün yenidən Səfəvi dövlətinə müraciət etdilər. bu işdə Şah Abbasın tez-tez Azərbaycan yolladığı adamlar da rol oynayır, onlar əhalinin Osmanlılardan narazılığından istifadə edərək, Şah Abbası "xilaskar" kimi qələmə verirdilər. Amma əslində o da, Osmanlı sultanları kimi, Azərbaycanı ələ keçirməklə, bu qədim diyarın sərvətlərindən istifadə etmək məqsədi güdürdü.[291]

Hələlik isə, Səfəvi - Osmanlı münasibətlərində ciddi dəyişiklikliyə yol verilmirdi. Qarşıda Azərbaycan uğrunda 1603-cü ildə başlayan və 1639-cu ilə qədər fasilələrlə davam edən ciddi döyüşlər dururdu.

XV-XVI ƏSRLƏRDƏ AZƏRBAYCANLA OSMANLI İMPERİYASI ARASINDAKI DİPLOMATİK MÜNASİBƏTLƏRDƏ ELÇİ-SƏFİRLƏRİN ROLU

Tariximizin orta əsrlər dövrünə aid olan qaynaqlar, bədii əsərlə və dövrümüzə qədər gəlib çatan epistoylar irs bu və ya digər ölkənin siyasi və ictimai-iqtisadi həyatını əks etdirən istilahlarla zəngindir. Belə istilahların izahı sahəsində uzun illər boyu tədqiqat işləri aparılmış, dəyərli elmi nəticələr əldə edilmişdir. Azərbaycan tarixinin XV-XVI əsrlər dövrünü əhatə edən müxtəlif hadisələrin tədqiqi ilə əlaqədar bəzi fikirlər söylənilmiş, qiymətli nəticələr əldə edilmişdir. Diplomatiya tariximizdə ən çox işlədilən sözlərdən biri də "elçi" istilahıdır. Bu istilah yalnız tarixçilərin deyil, həmçinin dilçi alimlərin də diqqətini müəyən qədər özünü cəlb etmişdir."Elçi" istilahının izahı ilə əlaqədar H. Zərinəzadə müəyyən fikirlər söyləmişdir. Onun məlumatına görə, "xəbər" və "məlumat" mənasını verən "ələk" sözü "elçi" istilahının əsasını təşkil edir. O, fikrinin sübutu kimi İran tədqiqatçısı və şairi Məliküş-şüəra Baharın "Səbkşenasi" əsərində verilən bir neçə

cümləni misal gətirir: "Əlukhaye-xeşmamiz ferestad resalət be y rəsanənd Koft in əlukha dər söhbəte-mötəmedan xahim ferestad".*[1]

Rus türkşünası V. V. Radlov da, özünün məlum lüğətində "ilçi", "elçi", "əlçi" sözlərinin qarşısında onların açması olan "pravitel naroda, poslannik, vesthik" ifadələrini yazmışdır.[2]

"Divane-lüğətüt-türk" əsərində "el" sözünün "vilayət" kimi də işləndiyi nəzərə alınarsa ("Bəy eli" – bəyin buyruğu altında olan vilayət[3]) elçinin, həmçinin yer, məkan adından götürüldüyü məlum olur.

Ə. Ə. Dehxudanın "Lüğətnamə" əsərində də, düzgün olaraq, "elçi"nin türk mənşəli söz olduğu göstərilir və onun fars dilində qarşılığı nəzərə çatdırılır[4] ki, bu haqda bir qədər aşağıda məlumat verəcəyik.

Göstərmək lazımdır ki, XV-XVI əsrlərdə Azərbaycanla Türkiyə arasındakı səfarət münasibətlərinə xüsusi olaraq həsr edilən heç bir tədqiqat işi yoxdur. Müxtəlif türkdilli xalqların təbirində desək "elçiləşmək" və "elçilik",[5] yəni səfarət məsələsi isə, məlum olduğu kimi, müstəsna əhəmiyyətli olduğu üçün buna xüsusi diqqət yetirmək diplomatiya tariximizin öyrənilməsindən ötrü olduqca zəruri məsələlərdən biridir.

"Elçixanə"[6] və elçilərin vəzifələri barədə xüsusi məlumat verən qaynaq yoxdur. Odur ki, biz ayrı-ayrı yazışmalar və tarixi mənbələrin verdikləri məlumatı əxz edib, onları izah etməyə çalışacağıq.

Osmanlı dövlətində qəbul edilən qaydaya görə, elçilər ali divana çağırılır, orada dinlənilir, onların sonrakı görəcəyi iş sultanın hökmünə rəğmən müəyyənləşirdi. Heydər Çələbinin 1515-ci ilə olan qeydlərinə görə, ali divan iki şəkildə - gizli və ya açıq çağırılır, təbii ki, gizli divan yalnız sultan və bir neçə böyük rütbəli şəxsin iştirakı ilə keçirilirdi: "8 qasım 921 (8 noyabr 1515)-ci il Qızılbaş elçisi şəhərə gətirildi. 10 qasım 921 (10 noyabr 1515). Bazar günü. Divan çağrıldı. Şah İsmayılın elçisi divana gətirildi. Divan gizli keçirildi. Yalnız paşalar və özünün bir adamı ilə elçi vardı. Ona cavab verildi. Əl öpdü".[7]

Yaxud başqa misal: "24 ocaq 921 (24 yanvar 1516). Divan çağrıldı. Şirvanşahın elçisinə [geri qayıtmaq üçün] izin verildi".[8]

Qeyd etməliyik ki, orta əsrlər boyu Azərbaycan və Türkiyə arasında daimi səfarətxana və daimi fəaliyyət göstərən səfirlər olmamışdır. Lakin bu dövlətlərə bəzi Avropa ölkələrindən, həmçinin Venesiya respublikasından uzun müddətə xüsusi səfirlər yollanır, onlar üçün müəyyən edilən səfarətxanalarda fəaliyyət göstərirdilər. Bertold Şpulerə əsaslanan türk tədqiqatçısı Faiq Rəşad Unatın məlumatına görə, Venesiya 1454-cü ildən, Polşa 1475-ci ildən, Rusiya 1497-ci ildən, Fransa 1525-ci ildən, Avstriya 1328-ci ildən, İngiltərə 1583-cü ildən

* Tərcüməsi: "Acıqlı xəbərlər göndərdi ona risalət yolladı. Dedi ki, bu məlumatı etibarlı adamlarla ona çatdıracaqdır".

başlayaraq, İrana, Türkiyəyə və Azərbaycana öz daimi səfirlərini yollamışdılar.[9] Amma Azərbaycandan və ona qonşu dövlətlərdən uzaq və yaxın ölkələrə XIX əsrə qədər "qasid", "namərəs" ("məktubaparan"), "rəsul" və başqa adlar altında,[*] əsasən az müddəti, elçilər göndərilməkdə davam etmişdir. Eyni bir məktubda bir elçi haqqında həm "rəsul", həm də "qasid" istilahlarının işlənməsi bu istilahlar arasında fərq qoyulmadığına dədalət edir. Belə ki, Sultan Əhməd Cəlairi h. 790-cı ildə (1388/89) Osmanlı sultanı İldırım Bayazidə yolladığı məktubda Rum sultanından çoxdan bəri rəsul gəlmədiyi və nəhayət ki, Çavuş Əbdülkərim adında qasidin təşrif gətirdiyi göstərilir.[10]

Qeyd olunmalıdır ki, hökmdarlar göndərdikləri məktublarda konspirasiya məqsədi ilə bütün mətləbləri yazmır, "başqa məsələləri göndərilən elçinin dilindən eşidərsiniz" kimi cümlələrlə özlərinin əsas fikrini qarşı tərəfə bildirirdilər.[11] Ağqoyunlu və Səfəvi elçilərinin Avropaya apardıqları məktublarda, Yaqub Mahmudovun da gəldiyi qənaətə görə, hökmdarların hərbi planları barədə məlumat verilmirdi, çünki həmin məktubların yolda Osmanlı kəşfiyyatı tərəfindən ələ keçirilmə qorxusu vardı. Məhz buna görə də, məktublarda adətən, ümumi sözlər yazılır, əsas məqsəd isə şifahi şəkildə nəzərə çatdırılırdı.[12] Buradan elçilərin ən etibarlı şəxslərdən təyin edildiyi bir daha məlum olur.[**]

Elçilər "elçilik" ("elçigəri") qayda-qanununa əsasən, göndərildiyi ölkəyə, məktubdan əlavə, "sabiq padşah və sultanların qoyduqları qaydaya görə" qiymətli töhfə və hədiyyələr aparır, "ələpmə" ("ütbəbusi") mərasimindən sonra onları təqdim edirdilər.[13]

Elçilərə "şəxsi toxunulmazlıq" hüququnun verilməsinə baxmayaraq, günün və dövrün siyasi vəziyyəti ilə əlaqədar, onlara münasibət də müxtəlif olurdu. Bəzi elçilər kimliyindən asılı olmayaraq olduqca yaxşı qarşılanır, bəziləri həbs edilir, bəziləri isə hökmdarın qəzəbinə gələrək hətta öldürülürdülər.

Tarixçi Hüseynin "Bədayeül-vəqaye" əsərində deyildiyi kimi, "Bağdad, İraqe-Ərəb və Təbriz hakimi Sultan Əhməd Cəlairi və Qaraqoyunlu Qara

---

[*] Məsələn, Teymurləngin bir məktubunda səfir mənasında "elçi" istilahı ilə yanaşı "kəlməçi" sözü də işlənmişdir: "Qoy aramızda elçi və kəlməçilərin gediş-gəlişi başlansın və müsəlmanlar bu səbəbdən asudə olsunlar".

[**] Elçilərin ən etibarlı şəxslərdən təyin edilməsi xüsusunda mənbələrdə çoxlu məlumat vardır. Bircə bunu göstərmək kifayətdir ki, 1473-cü il Otluqbeli döyüşündəki fəthindən sonra Sultan Məhəmməd Fateh tərəfindən Ağqoyunlu sarayına hətta Osmanlı şeyxül-islamı Əhməd Fənarizadə göndərilmiş, o, lazımi tapşırıqları yerinə yetirib geri qayıtmışdır. Sonradan Uzun Həsən ona məktub yazmış, Ağqoyunlu-Osmanlı münasibətlərindəki ixtilaflardan öz narazılığını bildirmişdi: "Ssultan elçisi və rəsulu kimi gələn o cənabdan (Əhməd Fənarizadədən - Ş. F.) xeyli faydalandım. Razılaşdıq ki, gərək bundan sonra bir-birimizin sərhədinə hücum etməyək, həbs olunanları azad edək. Mən sultanın elçilərini hörmətlə qəbul etdim, onları peşkəşlə yola saldım, amma indi həmin sözə əməl olunmur. Mən isə öz sözümü pozmuram" (Bax: L. Fekete. Einführung in dil persische palaographie 101 persische Dokumente, Budapeşt, 1977, səh. 202-204).

Məhəmmədin oğlu, Azərbaycan hakimi Qara Yusif Teymurdan fərar edib, sultane-Misirə iltica etdikləri vaxt"[15] Teymurləng tərəfindən Misirə və Osmanlı dövlətinə və əksinə, onlardan Teymurləngə göndərilən elçilərə olan münasibət yuxarıda dediyimizə aid yüzlərlə misaldan bir nümunədir. Belə ki, Teymurləngin Misir Sultanı Bərquqa h. 804 (m. 1401)-cü ildə göndərdiyi elçi dərhal qətlə yetirilmiş, Misir sultanına pənah aparmış Sultan Əhməd və Qara Yusif-Teymur sarayına göndərilməmişdi. Bu məsələ ilə əlaqədar Teymurun göndərdiyi ikinci elçi heyəti Sultan Əhməd və Qara Yusifin yenicə himayəsinə sığındıqları Sultan İldırım Bayazidə göndərilmiş, elçinin gətirdiyi məktubda, "mabeyndə olan məhəbbətin ədavətə mübəddəl" olmaması üçün onların hər ikisinin Teymurilərə təslim edilməsi tapşırılmışdı. Tarixçi Hüseynin məlumatına görə, "qətle-rəsul vəze-məqbul" olmadığı üçün Sultan Bayazid elçinin geri qaytarılmasına icazə vermiş, Teymurun təhdidinə təhdidli cavab göndərmişdi.[16]

Məsələ bununla bitmir. Teymurləngin Sultan Bayazidə ikinci dəfə yolladığı elçi Rum sultanı tərəfindən həbs edildi.[17] Mənbənin məlumatına görə, əmir Teymur öz elçisinin "ihanət" (təhqir) olunmasından qəzəblənmiş, Kəmax qalasını mühasirə etmiş və zorla ələ keçirmişdi.[18]

I Şah İsmayıl tərəfindən təhqiramiz "hədiyyələr" və məktubla Sultan Səlimin sarayına göndərilən qızılbaş elçiləri dəhşətli cəzaya məruz qalmış, onların qulaq və burunları kəsilmiş, həqarətlə geri qaytarılmışdılar.[19] Osmanlı müəllifi Heydər Çələbinin "Ruznamə" əsərində I Səlimin Çaldıran səfəri zamanı danışıqlar aparmaqdan ötrü 1514-cü ilin avqust ayının 22-də Osmanlı ordusuna gələn elçilərin dərhal qətlə yetirilməyi barədə məlumat vardır: "Ərzuruma tabe olan Alacalar adlı yerdə əvvəlcə, qızılbaşlardan gələn elçilər qətlə yetirildilər".[20] Həmin müəllifin başqa bir məlumatına görə, Osmanlıların Çaldırandakı qələbəsi günü (23 avqust 1514) "Şah İsmayılın həbsdə saxlanılan elçisi qətlə yetirildi".[21]

Bəzən isə, elçini yollayan adamdan dəhşətli qisas almaqdan ötrü elçini yandırırdılar. Həsən bəy Rumlunun məlumatına görə, h. 937 (1530/31)-ci ildə Səfəvilərə xəyanət etmiş Ölmə Təkəlinin I Şah Təhmasibə göndərdiyi elçi Ürkməz bəy Zülqədər diri-diri Təbrizdə yandırılmışdı.[22]

XV əsrdə elçi heyətinin üzvlərinin sayı əsasən yüz nəfərdən artıq olmurdu. Fəzullah ibn Ruzbehan yazır ki, "O, (elçi – Ş. F.) böyük əmirlərdən biri idi və onu yüz qulam müşayiət edirdi".[23]

XVI əsrdə isə, xüsusilə I Şah Təhmasibin hakimiyyəti dövründə onların sayı xeyli artırılmış, müxtəlif vaxtlarda hətta bir neçə yüz nəfərə çatmışdı. Belə ki, Şah Təhmasibin özünün yazdığına görə h. 969 (m. 1561/62)-cü ildə Sultan Süleyman tərəfindən I Şah Təhmasibin yanına göndərilən bir elçi heyətində "iki mötəbər elçidən başqa, xandgarın (Osmanlı sultanının – Ş. F.) 200 qulamı və həmin iki elçinin 300-ə yaxın adamı vardı".[24] Tarixçi Həsən bəy Rumlu bu rəqəmləri daha da dəqiqləşdirib, Rumdan Azərbaycana gələn elçilərin Mərəş hakimi Əli paşa və

Qapıçıbaşı Həsən ağa olduqlarını bildirərək, onların 706 nəfərlə birgə gəldiklərini xəbər verir.[25]

Getdikləri ölkədə elçilərin qalma vaxtı qoyulan məsələnin mahiyyətindən, onun həll olunma müddətindən asılı olmuşdur. Məsələn, Şah Abbas h. 1004 (m. 1596)-cü ildəözünün sərhəd bəylərbəyisi Zülfüqar xanı elçi sifətilə Osmanlı sarayına göndərmiş, lakin həmin elçi IV Sultan Məhəmməd Macarıstanla müharibəyə yollandığından, iki il Türkiyədə qalıb onu gözləməli olmuşdu. Məlumata görə, bu yeni Osmanlı sultanının taxta çıxması münasibətilə göndərilən Zülfüqar xan özü ilə birgə apardığı "300 mülazim və seçmə atlarla İstanbula getdi və orada elə xərclər etdi ki, türklər onu israfçı və səfeh kimi qəbul etdilər".[28]

Bildiyimiz kimi şahzadə Sultan Bayazid öz atası və qardaşının təqibindən qurtularaq, Səfəvi sarayına sığınmış və orada iki ildən artıq qalmışdı. Bu müddət ərzində həmin məsələ ilə əlaqədar hər iki ölkə arasında dəfələrlə elçi mübadiləsi baş vermiş, biri digərinə hədiyyələr göndərmiş, uzun-uzadı yazışmalar olmuşdur. Bir məlumata görə Sarı Abdulla Əfəndinin "Dəsturülinşa" əsərində həmin yazışmaların 20-sinin sürəti dərc edilmişdir.[27] Nəhayət, Osmanlı-Səfəvi sazişinin bir bəndinə ("Tərəflərin birinin adamı ikincisinə sığınarsa, o, geri qaytarılmalıdır") əsaslanaraq 969-cu il zilqədə ayının 21-də (12 iyul 1561) Sultan Bayazid türk elçiləri Xosrov paşa və Qapıçıbaşı Əli ağaya qaytarıldı. Elçi heyəti Sultan Bayazidi və onun mindən çox mülazimini dərhal, elə Qəzvin şəhərindəcə qətlə yetirdi. Buradan, elçilərə verilən səlahiyyətlərin bəzən olduqca böyük olduğu aşkara çıxır.

Elçilərin getdikləri ölkəyə apardıqları hədiyyələr barədə də mənbələrdə məlumat vardır. Şübhəsiz, göndərilən elçi qiymətli hədiyyələrlə yola düşür, hədiyyələri təntənəli şəkildə hökmdara təqdim edir, məhz bu vasitə ilə ona tapşırılan diplomatik missiyanı öz dövlətinin və xalqının xeyrinə həll etməyə çalışırdı. Şah Təhmasibin "Təzkirə"sində bu barədə belə qeyd vardır: "Mən Zəncana çatan kimi, Keçəl Pirəlini hədiyyə və peşkəşlərlə elçi kimi xandgarın yanına yolladım ki, bəlkə dava-dalaş aradan götürülə".[28]

Şah Təhmasib, öz şah və şair atasından fərqli olaraq, pulun qədrini bilmiş, görmüş olduğu işin müqabilində həmişə əvəzini almağa cəhd etmişdir. O, İstanbuldan Səfəvi sarayına gələn elçiləri bu sözlərlə qarşılayır: "Paşa həzrətləri və Həsən ağa. Xoş gəlib, səfa gətirmisiniz. Həzrət xandgar nə buyurubsa, onu da edərəm. Ancaq bu böyük xidmətin müqabilində həzrət xandgardan və Sultan Səlimdən onların özlərinə layiq mükafat istəyirəm".[29] Bəzi müəlliflər hədiyyələrin nədən ibarət olduğunu təfərrüatı ilə verir, bəziləri isə onları ümumi sözlərlə ("bol peşkəşlər", "çoxlu töhfələr", "yaxşı xələtlər") ifadə edirlər. Elçilərin apardıqları şeylər arasında şahin (alıcı quş), ov heyvanları, fil, dəvə, at, qatır, zinət şeyləri, kitablar və bəzi hallarda gözəl qız, qadın və qullar da olurdu. Bu haqda tarixi qaynaqlarda məlumat olduqca çoxdur. Bəzən nəğd pul da aparılır və təhvil verilirdi. Şahzadə Bayazidin qətlindən sonra Sultan Süleyman tərəfindən Qəzvinə

gələn elçi İlyas bəy, sülh sazişinin əsas bəndlərindən birini pozmadığına görə Şah Təhmasibə 400 min qızıl sikkə, Səlim tərəfindən gələn elçi isə 100 min qızıl sikkə mükafat vermiş, bunlardan başqa 15 at, at ləvazimatı, xəncər, atlas və məxmər parçalar (Şah Təhmasibin övladları üçün) gətirmişdilər.[30] Müharibə gözlənilən təqdirdə isə, hədiyyələrin əsasən hərbi sursat və ləvazimatdan ibarət olduğu məlumdur. 1471-ci ildə Venesiyadan Ağqoyunlu sarayına yola düşən səfir Cozafa Barbaronun Uzun Həsənə apardığı şeylər arasında top, qumbara, tüfəng, barıt, güllə, müxtəlif başqa silahlar da vardı.[31]

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, XV əsrin II yarısında Osmanlı-Ağqoyunlu münasibətlərinin kəskinləşməsi ilə əlaqədar elçi-səfarət münasibətləri barədə Venasiya səfirləri Katerino Zeno, Cozafa Barbaro və Ambroco Kontarininin verdikləri məlumatlar olduqca qiymətlidir. Həmin səfirlərin "səyahətnamə" lərindən məlum olur ki, Ağqoyunlu sarayına təşrif gətirən hər hansı bir səfir onun mənşəti ilə xüsusi məşğul olan ("səfirlərin işlərini qaydasına qoyan bir nəfər gəlib məni salamladı") şəxs tərəfindən qarşılanır və onun üçün müəyyən edilmiş yerdə yerləşdirilirdi.[32] Bir neçə gün sonra səfirin gəlişi münasibətilə "qəbul mərasimi" keçirilir, zərlə toxunmuş ipək və yun paltarlar geyən saray əyanları həmin mərasimdə iştirak edirdilər. Cozafa Barbaro yazır ki, yeni gələn səfirlərin qəbul edilmə mərasimində 400-500 saray əyanı və xarici ölkələrin bütün səfirləri iştirak edir, saray ətrafında isə minlərlə süvari cəmlənib, mərasimin yüksək səviyyədə keçməsi üçün "təşrifat işini" yerinə yetirirdilər.[33]

"Təşrifat mərasimi" bitdikdən bir neçə gün sonra səfir əlahəzrət tərəfindən xüsusi olaraq saraya dəvət olunur, "səfirlik etimadnaməsi" adlanan sənədi şəxsən ona təqdim edirdi.[34]

Venesiya səfirlərinin Ağqoyunlu dövlətinə göndərilməsindən əsas məqsəd Uzun Həsən Osmanlı dövləti ilə müharibəyə sövq etmək və beləliklə də, Sultan Məhəmmədi iqtidardan salmaq meyli olmuşdur. Eləcə də Uzun Həsənin də niyyəti, Venesiya dövlətinə yolladığı elçilər vasitəsilə "Venesiya respublikasını Osmanlı sultanı ilə cəngin davamı üçün təhrik etmək" olmuşdur.[35] Səfir Katerino Zenonun təhriki ilə Uzun Həsən, məlum olduğu kimi, Osmanlılarla döyüşmüş və məğlub edilmişdi. Lakin bu məğlubiyyətdən sonra da, Venesiya respublikası Uzun Həsənin əli ilə Sultan Məhəmmədi məhv etmək niyyətindən əl çəkməmiş və onun sarayına yeni səfirlər göndərmişdi. Məlum olduğu kimi, Katerino Zenonun əvəzinə Ağqoyunlu sarayına göndərilən səfirlərdən Cozafa Barbaro və Ambroco Kontarini özlərinin böyük cidd-cəhdinə baxmayaraq, Uzun Həsəni yeni Ağqoyunlu-Osmanlı müharibəsinin başlanmasına vadar edə bilmədilər.

Səfirlər getdikləri ölkədə ictimai-siyasi və iqtisadi şəraitlə dərindən maraqlanır, ordunun vəziyyəti, əsgərlərin sayı, hökmdarın hərbi qüdrəti barədə məlumat toplayır və öz padşahlarını bu məsələlərdən vaxtaşırı hali edirdilər.[36]

Uzun Həsən bəzən xarici səfirdən də öz elçisi kimi istifadə edir, onu xüsusi tapşırıqla üçüncü bir dövlətə göndərir. Otluqbeli döyüşündə məğlub olan Azərbaycan hökmdarı, Venesiya respublikasının səfiri Katerino Zenonu "Xristian şahlarının yanına", o cümlədən Polşa və Macarıstan hökmdarlarının sarayına səfir göndərmiş və onları Osmanlılara qarşı müharibəyə cəlb etmək istəmişdi.[37] II Sultan Məhəmmədin oğlu şahzadə Mustafanın sarayına yaşayan və Fərat çayı sahilində baş vermiş Ağqoyunlu-Osmanlı döyüşündə müşahidəçi sifərilə iştirak edən başqa bir Venesiya səfiri Ciovan Mariya Ancelello yazır: "Katerinoya daha artıq hörmət istəyən Uzun Həsən şah onu öz səfiri kimi Firəng (Avropa – Ş.F.) şahlarının sarayına yollamağı qərara aldı ki, onları, xüsusilə Polşa və Macarıstan padşahlarını türklərlə müharibəyə sövq etsin. Bizim dövlətimiz (Venesiya – Ş,F.) Katerinonun Firəng şahlarının sarayına getdiyini bilən kimi tez-tələsik Barbaronu və sonra Kontarinini səfir vəzifəsinə təyin etdi".[38]

I Şah İsmayıl Osmanlılara Çaldıran döyüşündə məğlub olduqdan sonra da, yenidən Sultan Səlimlə döyüşə girmək arzusundan əl çəkməmiş* və başqa dövlətlərlə öz diplomatik əlaqələrini genişləndirməyə cəhd etmişdi. İtaliya səfirlərinin məlumatına görə, bu Səfəvi hökmdarı məğlubiyyətdən az sonra Təbrizə qayıtmış, tezliklə Misir sultanı Quri, kürd hökmdarı Əlaüddövlə Zülqədər və gürcü hökmdarının sarayına öz səfirlərini yollayaraq, onlarla Osmanlılar əleyhinə saziş bağlamağa müvəffəq olmuşdu.[39]

I Şah İsmayıl, müqabil dövlətdən bağladığı müqavilənin şərtlərinə qeyd-şərtsiz əməl olunmasını tələb edirdi. Misir-Suriya müqaviləsinin bir bəndində belə yazılmışdı: "Əgər Böyük Türkün (yəni Sultan Səlimin – Ş.F.) yollayacağı səfirlər məxfi və ya açıq şəkildə Misir tərəfindən qəbul edilərsə, onun (yəni Şah İsmayılın-Ş. F.) və Misir sultanının arasında bağlanan sülh sazişi pozulacaqdır".[40]

XVI əsrin I rübündə Şah Təhmasibin və Sultan Süleymanın hakimiyyətləri dövründə Səfəvi-Osmanlı münasibətləri gərgin olmuş, həmin gərginliyin zəiflədilməsi üçün hər iki tərəfdən onlarca səfir fəaliyyət göstərmiş, yüzlərlə məktub yazılmışdır. Şahzadə Əlqas Mirzənin Osmanlı sarayına və Sultan Bayazdin Səfəvi hökmdarının yanına qaçaraq onlara sığınmaları dövlətlərarası münasibətləri daha da kəskinləşdirmişdi. Qeyd etmək lazımdır ki, bütün bu ziddiyyətlər məhz səfirlərin tədbiri nəticəsində aradan qaldırılmış, bir-birilərinə güzəştlər edilmişdir. Osmanlı və Qızılbaşlar arasında baş vermiş beş böyük döyüşün ən uğurlu nəticəsi kimi imzalanan Amasya sülh müqaviləsi Osmanlı Sultanı I Süleyman və I Şah

* Şah İsmayılla Sultan Səlimin münasibətləri həmişə ziddiyyətli olmuş, hətta bu sultan Osmanlı taxtına cülus edərkən (1512) Səfəvi hökmdarı onun sarayına elçi göndərməmiş, onu təbrik etməmişdilər. lakin o, uzaqgörən bir dövlət xadimi kimi, yaxın qonşusu Osmanlılarla ziddiyətin artmasının gec-tez onun dövləti üçün təhlükə törədəcəyini bildiyindən Sultan Səlimin vəfatından (1520) üç il sonra gec də olsa yeni sultana elçi yollamış, onun 1521-ci ildə Belqradı, 1523-cü ildə isə Rodosu fəth etməsini təbrik etmişdi (Bax: Fəxrəddin Kırzıoğlu. Göstərilən əsər. səh. 123).

Təhmasibin elçisi Fərruxzad bəy tərəfindən imzalanmışdı.[41] 962-ci ilin rəcəb ayının 8-də (29 may 1555) imzalanmış Amasya sülh müqaviləsi, Hammerə görə, Osmanlı Türkiyəsi və Səfəvi dövləti arasında bağlanan ilk rəsmi müqavilə idi.[42] burada elçinin malik olduğu böyük səlahiyyət nəzərə çarpır. Sultan Süleymanın h. 975-ci ildə (1566) vəfatından sonra taxta cülus edən II Sultan Səlimin təbriki üçün Şah Təhmasib 70 gəz* uzunluğu olan bir məktub yazdırmış və onu öz elçisi Şahqulu Sultan Səlimin təbriki vasitəsilə Ədirnəyə yollamışdı.[43] Mənbənin məlumatına görə, həmin elçi heyəti göndərilən töhfələri yeni sultana təqdim etmiş, bir neçə ay orada qalmış və sonra geri dönmüşdü.[44]

Hammer elçi Şahqulu Sultanın Osmanlı dövlətinə münasibətilə daha müfəsəl məlumat vermişdir. O, yazır ki, Ədirnə şəhərində Avstriya ilə sülh barədə danışıqlar aparılarkən, sultanın cülusunu təbrik etmək üçün İran elçisi də gəldi. 120 nəfərdən ibarət elçilərin hamısının başında zərli saplarla tikilmiş papaqlar vardı. Onları 200 süvari, 400 tacir müşayiət edir, 19 min (?) at, dəvə və qatır onların libaslarını və gətirdikləri yükləri daşıyırdı.

Elçi heyəti İstanbula çatdıqda vəzir Piyalə paşa onları çpv böyük nəzakətlə salamladı. Bu cür təmtəraqlı qəbul mərasimi hələ heç bir başqa səfirə göstərilməmişdi. Başqa ölkələrin səfirlərinə də əmr olunmuşdu ki, İran elçilərini qarşılamaq üçün küçələrə çıxıb, onları gedəcəkləri yerlədə salamlasınlar, "Vəzire-əzəm (baş vəzir Piyalə paşa – Ş.F.) iki gündən sonra Ədirnədə Şahqulu Sultanın şərəfinə böyük bir ziddiyət verdi.

Sonrakı məlumatdan aydın olur ki, aparılan hədiyyələr içərisində səfirin özünə məxsus töhfələr də olmuşdur. Üç gündən sonra Şahqulu Sultanı şəxsən qəbul edən Sultan Səlimə Şah Təhmasibin yazdığı 1500 sətrlik məktub da verildi. 44 dəvə yüklərinin 34-ü şahın, 10-u Şahqulu Sultanın hədiyyələri idi.[45]

Həmin səfarət heyətinin ən məsul vəzifəsi isə, şübhəsiz ki, 1555-ci il Osmanlı-Səfəvi sülh müqaviləsinin "təzələnməsi" (yenidən imzalanması) olmuşdur.

